RUFİK İSMAYILOV, ELMİR ŞİRİNOV

# NAXÇIVAN BİR MƏKTƏBDİR

Bakı
«Nurlan»-2007

Elmi redaktor: **Əbülfəz Quliyev,**
*AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor*

**Rufik İsmayılov,**
**Elmir Şirinov**. Naxçıvan bir məktəbdir. Bakı, «Nurlan», 2007, - 232 səh.

Kitabda müəlliflərin «Şərq qapısı» qəzetində işıq üzü görən yazılarının bir qismi toplanmışdır.

$\frac{4702000000}{N-098-2007}$ *Qrifli nəşr*

© «Nurlan», 2007

*Mən «Şərq qapısı» qəzetinin təsiri altında tərbiyələnmişəm. Hələ gənc ikən burada orta məktəbdə, pedaqoji texnikumda oxuyanda müxtəlif məsələləri öyrənmək üçün «Şərq qapısı»ndan çox istifadə etmişəm... O vaxtdan nüfuzlu qəzet kimi hafizəmdə qalıb.*

*HEYDƏR ƏLİYEV,*
*Ümummilli lider*

## Müəlliflərdən

Düzünü desəm 2001-ci ildə Naxçıvan şəhərinə ilk dəfə gələndə başqa fikir və düşüncələrdəydim. Xalq, dövlət və ya dövlətçilik ənənələrinə sadiqliyin hələ nə demək olduğunun, sözün həqiqi mənasında bu ülvi dəyərlərin nələri özündə daşıdığının fərqinə varmamışdım. Bəzən fikirləşirdim ki, bəlkə də bunun səbəbi o dövrlərdə yaşımın az olması ilə bağlı idi. Amma bu yaxınlarda Azərbaycanın digər regionlarında olan bəzi dost-tanışlarımla söhbət edərkən öz-özlüyümdə bu fikrimi təkzib etdim və bunun yaşla əlaqəli olmaması qənaətinə gəldim. 6 illik Naxçıvan həyatımda yalnız insan şüurunda təkamül yolu ilə formalaşa biləcək müəyyən dəyərləri qazandığımı başa düşdüm. Anladım ki, artıq mənim azərbaycanlı gənci kimi gələcək fəaliyyətimin əsas prioriteti Azərbaycançılıq, xalqıma və dövlətçiliyimə sədaqət, milli-mənəvi dəyərlərimizin müdafiəsidir.

Bəzən fikirləşirəm ki, o qədər də uzun olmayan 6 illik zaman ərzində necə oldu ki, belə bir düşüncəyə sahib ola bildim. Arxaya baxdıqda, 6 il müddətində Naxçıvan Dövlət Universitetinin hüquqşünaslıq ixtisası üzrə bakalavr və magistr pillələrindən əlavə, burada "Şərq qapısı" və Naxçıvan Muxtar Respublikası Hərbi Məhkəməsi kimi məktəbləri də bitirdiyimin fərqinə varıram.

Naxçıvan Dövlət Universitetinin hüquq fənləri kafedrasının tələbəsi və magistrantı olduğum dövrlərdə öyrənilməsi üçün bir insan ömrünün lazım olduğu hüquq elminə yiyələnməyə çalışdım. Hörmətli Rektorumuz Azərbaycan Respublikası Milli Məclisinin deputatı, akademik İsa Həbibbəylinin bu zaman kəsiyinin müxtəlif dövrlərində elmi tədqiqat məqsədilə Türkiyə Respublikasında olmağıma köməklik, ən əsası yaşımın o qədər də çox olmamasına baxmayaraq, mənə etimad göstərməsi bir gənc kimi xalqım qarşısındakı məsuliyyətlərimi dərk etməyimə, elmi araşdırmalara həvəslə yanaşmağıma təsir göstərməyə bilməzdi.

Tarix boyu erməni qəsbkarları tərəfindən torpaqları işğala məruz qalmış, müharibə şəraitində yaşayan Azərbaycanda, qələmin də bir silah ola biləcəyini Naxçıvan Muxtar Respublikasının Ali Məclisi və Nazirlər Kabinetinin rəsmi orqanı olan "Şərq qapısı"nda öyrəndim. Erməni həqiqətləri, hüquqi maarifləndirmə və xalqımızın milli maraqlarının təhlükəsizliyinin təmin edilməsi istiqamətində yazılarımı bu mətbuat vasitəsilə geniş oxucu kütləsinə çatdırmağa çalışdım.

Onu da qeyd edim ki, "Şərq qapısı" qəzetindəki 2 illik fəaliyyətim Məmməd Məmmədovun adı ilə bağlıdır.

2004-ci illin yanvar ayında xalqımızın hüquqi maarifləndirilməsi məqsədilə "Şərq qapısı" qəzetilə əməkdaşlıq etmək istədiyimi o dövrlərdə həmin qəzetin Baş redaktoru olmuş, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Məmməd Məmmədova bildirəndə, ilk gündən bu kütləvi informasiya vasitəsinin qapılarını üzümə açması onun gəncliyə olan inamının ən parlaq təzahürü idi.

Jurnalistlik fəaliyyəti dövründə, dövlət qulluqçusu simasında xalqımıza xidmət etməyə tələsdiyimi hiss edirdim. Bir müddət keçdikdən sonra, daha dəqiq desəm, 2007-ci ilin yanvar ayında bu məqsədilə, ərizə ilə Naxçıvan Muxtar Respublikası Hərbi Məhkəməsinin sədri Məmmədcəfər Sadıqova müraciət etdim. Dövlət qulluqçusu kimi fəaliyyətə məhz Hərbi Məhkəmədə başlamaq istəyim heç də təsadüfi deyildi. 2004-cü ildə cinayət proesi fənnini bizə tədris etmiş müəllimim Məmmədcəfər Sadıqovun sözün həqiqi mənasında vətəninə, millətinə və dövlətinə sadiq olduğunu bilirdim. Belə bir nəticəyə təcrübə dərslərində Hərbi Məhkəmədə müəllimimin sədrliyi ilə açıq məhkəmə baxışını izləyərkən gəlmişdim. Çünki, o, məhkəmə zalında ədalət mühakiməsi funksiyasını həyata keçirən bir məhkəmə sədrinin Azərbaycan gəncinə cəza verərkən necə çətinlik çəkdiyini görürdüm. Belə bir vətənpərvər insanın rəhbərlik etdiyi idarədə çox şey öyrənəcəyimi düşünürdüm və bu məqsədlə müraciət etdim. 2007-ci ilin yanvar ayında Naxçıvan Muxtar Respublikası Hərbi Məhkəməsində məsləhətçi vəzifəsinə təyin edildim. Dövlət qul-

luqçusu kimi xidmət etdiyim dövr ərzində gözətçidən tutmuş Hərbi Məhkəmənin sədrinədək hər kəsin bir mövqedən çıxış etdiyini gördüm. Bu mövqedə xalqa, millətə sevgi, dövlətə və dövlətçiliyə sədaqət vardı.

Bəli, mən bu dəyərləri öyrədən məktəbin, Naxçıvan məktəbinin məzunuyam.

Bu kitabda dərc olunan yazıları da məhz bu məktəbin təsiri altında yazmışam.

**Elmir ŞİRİNOV**

2005-ci ilin avqust ayında Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının magistraturaya qəbul imtahanlarının nəticəsini səbirsizliklə gözləyirdim. Çünki bir çox yaşıdlarım kimi, mən də ali təhsilimi davam etdirmək istəyirdim və bu məqsədlə intellekt mübarizəsinə qoşulmuşdum. Cavablar çıxan günü qəbul komissiyasının internet səhifəsində yerləşdirilmiş siyahıda öz adımı və familyamı görüb böyük sevinc hissi yaşadım. Aylarla çəkdiyim əzab-əziyyət hədər getməmişdi. Naxçıvan Dövlət Universitetinə qəbul olunmuşdum. Sentyabr ayının 15-dən etibarən "Mətbuat tarixi" istiqaməti üzrə magistr pilləsində təhsilimi davam etdirəcəkdim.

Bu şad xəbəri valideynlərimə çatdırmaq, onları da sevincimə şərik etmək üçün evə tələsdim. Evdəkilər bu şad xəbəri eşidəndə xeyli məmnun olub ən az mənim qədər sevindilər. Lakin biləndə ki, qəbul olduğum ali təhsil ocağı Naxçıvan Dövlət Universitetidir, gözlərdəki sevincin yerini qayğı dolu narahat nəzərlər əvəz etdi. Ailənin tək oğul övladı olduğumdan böyüklər mənim qohum-əqrabanın, dost-tanışın olmadığı bir regiona getmək istəyimə qarşı çıxırdılar. Mən isə fikrimdən dönməyərək qətiyyətlə Naxçıvana gedəcəyimi bldirirdim. Fikirləşirdim ki, Azərbaycanın hər qarışı mənim üçün Vətəndir. Nə fərqi var ki, Bakıda yaşadım, yaxud da Naxçıvanda. Hər iki halda ölkəmin hududlarını keçməyəcəkdim. Elmi-tədqiqatla məşğul olacaq, gələcəyimi düşünərək ailəmin adına ləkə gətirəcək hər hansı bir səhv addım atmayacaqdım. Digər tərəfdən isə muxtar respublikaya gəlməklə ailəmin himayəsindən qismən də olsa qurtulmaq istəyirdim. Məqsədim həyat deyilən bu məktəbdə heç kimin köməyi olmadan ayaq üstə durmağı bacarmaqdı. Enişli-yoxuşlu yolları öz gücümə qət etmək, müxtəlif insanlarla ünsiyyətdə olmaq, zəngin dövlətçilik ənənələri olan bu regionla yaxından tanış olmaq, ümumiyyətlə görüb-götürmək istəyirdim.

Təbii ki, Naxçıvana gələn kimi ilk baş çəkdiyim ünvan ali təhsil alacağım tədris müəssisəsi oldu. Düzünü deyim ki, Naxçıvan Dövlət Universitetinin bu cür geniş imkanlara malik olduğu-

nu heç təsəvvür belə etmirdim. Universitetin zəruri avadanlıqlarla təchiz edilmiş müasir tədris korpusları, tələbə şəhərciyi, eləcə də Avropa standartlarına cavab verən Elektron kitabxana, konservatoriya və idman kompleksi məni heyrətə saldı. Tədris müəssisəsinin çox hörmətli rektoru, millət vəkili, akademik İsa Həbibbəyli ilə keçirilən görüş isə mənim Naxçıvana və regionun ən böyük ali təhsil ocağına olan hörmətimi daha da artırdı. Bu qədim oğuz-türk yurdunda gənclərə yüksək dövlət qayğısının göstərildiyinin, elmə, biliyə və savada nə dərəcədə böyük əhəmiyyət verildiyinin fərqinə vardım.

Muxtar respublikada yaşayarkən əldə etdiyim nailiyyətlərdən biri də yerli kütləvi informasiya vasitsi ilə əməkdaşlığım oldu. Hələ Naxçıvana gəlməzdən əvvəl, müstəqil ictimai-siyasi mətbuat orqanı olan "525-ci qəzet"də müxbir vəzifəsində çalışırdım. Ona görə də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin və Nazirlər Kabinetinin rəsmi orqanı olan "Şərq qapısı" qəzetinə müraciət edib jurnalistlik fəaliyyətimi burada da davam etdirmək qərarına gəldim. O zaman qəzetə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, əməkdar jurnalist Məmməd Məmmədov rəhbərlik edirdi. Mənimlə etdiyi imtahan xarakterli qısa söhbətdən sonra "Şərq qapısı" ailəsinin bir üzvünə çevrildim. 85 illik tarixə malik olan bu mətbuat orqanında 2 il çalışmaqla əsl jurnalistika məktəbi keçdim. Böyük qəzetçilik təcrübəsinə malik olan Məmməd Məmmədovla yanaşı, Azərbaycanın əməkdar jurnalisti Cəfərqulu Paşayev, publisist şair Allahverdi Aqil və Naxçıvan mətbuatının sayılıb-seçilən digər qələm sahibləri bu məktəbdə mənə müəllimlik etdilər. Aldığım dərslər nəticəsində muxtar respublikanın mütəlif regionlarına ezam olunaraq oradakı sosial-iqtisadi vəziyyəti, kəndlərimizdə aparılan quruculuq tədbirlərini, inkişafı özündə əks etdirən müxtəlif yazılarla mətbuatda çıxış etdim. Bununla da ideoloji cəbhənin əsgəri kimi Azərbaycan xalqına və onun dövlətçiliyinə xidmət etmiş oldum.

Oxuculara təqdim olunan bu kitabdakı materiallar, o cümlədən muxtar respublikada yaşayıb-yaradan ziyalılar ilə aparılan müsahibələr də məhz "Şərq qapısı" qəzetində işıq üzü görən

yazılardır. Onları bir araya gətirməklə istədik ki, "Şərq qapısı"nda, Naxçıvan Dövlət Universitetində, ümumilikdə isə Naxçıvan adlı dövlətçilik məktəbindən aldığımız dərsləri oxucularla bölüşək.

**Rufik İSMAYILOV**

# ERMƏNİ HƏQİQƏTLƏRİ

## ERMƏNİSTAN HƏR ZAMAN TƏHLÜKƏ MƏNBƏYİDİR NEÇƏ Kİ, ATOM ELEKTRİK STANSİYASI FƏALİYYƏTİNİ DAYANDIRMAYIB, BU TƏHLÜKƏ DƏ QALACAQ

Amerika Birləşmiş Ştatları atomu icad edəndə onun yalnız zərbə dalğası barədə düşünülmüşdü, törədəcəyi radiasiya barədə heç təsəvvür də yox idi. Yaponiyanın Naqasaki və Xirosima adalarına salınan atom bombasının zərbəsindən yer-göy lərzəyə gəldi. Ekipaj təhlükədən sarsıldı və "əsas sürücü" sonra dəli oldu. Atomun radiasiya təhlükəsi isə daha faciəli oldu və göstərdi ki, onun düşdüyü yerdə heç bir canlı qala bilməz və qərinələrlə orada ot belə bitməz.

Bundan sonra Sovetlər Birliyi də həmin silahı əldə etdi. Və ondan "dinc" məqsədlərlə istifadənin yolunu tapdı. Ayrı-ayrı regionlarda atom-elektrik stansiyaları tikildi. Amma mütəxəssislər yenə də bir qədər yanıldılar. Onlar bunun qəza zamanı törədə biləcəyi fəsadları o qədər də lazımınca dəyərləndirmədilər. Bunun acı nəticəsini Çernobıl AES aydın göstərdi və buradakı adicə sızma bütün dünyanı təlatümə saldı, necə deyərlər, ağıllı adamları ayıltdı. Atom-elektrik stansiyasında ilk "partlayış" onu da göstərdi ki, fəal zəlzələ zonalarında atom-elektrik stansiyalarının qurulması daha təhlükəlidir. Beynəlxalq aləm "dərsini" aldı. Lakin bu, mənfur erməni-daşnak rejiminə əsla təsir etmədi. Fəal zəlzələ zonası olan Ağrı dağına yaxın bir yerdə Metzamor atom-elektrik stansiyasının fəaliyyətinin dayandırılması barədə Ermənistan heç bir şey düşünmədi. Bu səbəbdən də bu stansiya fəaliyyətdədir. Ölkənin öz ərazisi, eləcə də bütün Zaqafqaziya, Azərbaycan, onun ayrılmaz guşəsi Naxçıvan, Türkiyə Respublikası və İran İslam Respublikası üçün ciddi təhlükə yaratmaqdadır. Nə gizlədək orada hər hansı qəza baş verməsə belə, bu stansiyanın zərərli təsiri ekolo-

giyaya, insanların sağlamlığına ciddi ziyan vurmaqdadır.

Beləliklə, Metzamor AES-də yaradılan enerjinin meydana gətirdiyi problem istər Ermənistanda, istərsə də beynəlxaq aləmdə yarana biləcək faciənin mənbəyidir.

Tarixdən o da məlumdur ki, 1960-cı ildə Ermənistanda atom-elektrik stansiyası yaradılan zaman elm adamları bu tikilinin Ağrı dağının zəlzələ zonasında olduğuna görə qəti olaraq ona qarşı çıxdılar. Buna məhəl qoyulmadı. Metzamorda tikinti 1977-ci ildə başa çatdırıldı və stansiya istifadəyə verildi. İşə düşəndən 10 il sonra bu stansiyada ciddi qüsur və qəzaların olması qeydə alındı. Rəsmi sənədlər bu qəzaların sayının 150-yə yaxın olduğunu göstərir. Buna baxmayaraq 1980-cı ildə Ermənistanda–İrəvanda daha iri bir AES qurulması qərara alındı. Lakin 1986-cı ildə Çernobılda baş vermiş fəlakətdən sonra bir sıra Avropa ölkələrində olduğu kimi Ermənistanda da istifadədə olan Metzamor AES-in fəaliyyəti və yeni tikilməkdə olan stansiyanın inşasının dayandırılması qərara alındı. Daha dürüst desək, 1988-ci ildə Ermənistanda baş vermiş zəlzələdən sonra Metzamor stansiyasından istifadənin dayandırılması tezləşdirildi. Və bu proses 1989-cu ildə başa çatdı.

Ermənistanda AES-in bağlanmasından sonra ölkədə enerji probleminin yaranması, bundan əlavə Dağlıq Qarabağın istilasından sonra Azərbaycan və Türkiyə ilə əlaqələrin pozulması Ermənistanın vəziyyətini bir az da pisləşdirdi. Bu ölkənin səlahiyyətli adamları məhz bunu bəhanə edərək atom-elektrik stansiyasının fəaliyyətini dirçəltdilər. Onlar ölkədə lazımi tədbirləri həyata keçirmək, qonşuluq münasibətlərini düzəltmək, sülh yaratmaq, iqtisadi əlaqələri genişləndirmək əvəzinə 1995-cı ildə Metzamor AES-dən istifadə etməyə başladılar. Bu gün onlar, Ermənistan hökuməti Metzamorun fəaliyyətinə böyük, amma lazımlı risk kimi baxırlar. Buna görə də köhnə rus texnologiyası ilə qurulan və zəlzələ zonasında yerləşən stansiyanın hələ uzun müddət istifadəsi nəzərdə tutulur. Və bu risk bütün dünyaya mey-

dan oxumaq deməkdir. Ermənilər əsla düşünmür və fikirləşmirlər ki, bu gün istisinə qızındıqları Metzamorun tüstüsü sabah ilk növbədə özlərinin gözlərini kor edə bilər. Onlar aşağıda qeyd etdiyimiz əsasları əsla veclərinə almırlar:

birincisi, Metzamorun yerləşdiyi ərazi zəlzələli bölgədir;

ikincisi, bu AES-in tipi beynəlxaq təhlükəsizlik nümunələrinə uyğun gəlmir. Bu cür stansiyalarda təcili hallarda istiliyi söndürəcək, ləğv edəcək soyuducu sistem kafi deyil;

bu cür AES-lərin istifadə müddəti 25 il olur. Yəni, ən geci 6 il bundan əvvəl Metzamor bağlanmalı idi;

bölgədə yer səthindən 70 metr dərinlikdə, yəni Metzamor AES-in altında istifadə edilməyən, lakin oluna biləcək artezian su mənbələri mövcuddur. Və bunlar nə vaxtsa işlənəndə insanlar zərər görə bilərlər.

Göründüyü kimi, Metzamor AES-də baş verən hər hansı bir qüsur və ya qəza, yer səthində törənən zəlzələ bütün qonşuları da fəlakətlə qarşı-qarşıya qoya bilər.

İnsanları baş vermək ehtimalı olan bəladan qurtarmağın yeganə bir yolu varsa, o da Ermənistanda atom-elektrik stansiyasının fəaliyyətinin dayandırılmasıdır.

**E.Ş. 08.I.2005**

# FAKTIN SÜBUTA EHTİYACI YOXDUR

Statistik məlumatlara görə, 1831-ci ildə erməni vilayətində 51 min 584 nəfər, 1886-cı ildə İrəvan quberniyasında 178.620 nəfər, 1914-cü ildə isə 237.684 nəfər azərbaycanlı yaşayıb. Bundan narahat olan ermənilər azərbaycanlılara qarşı düşünülmüş deportasiya siyasəti yeritməklə 1922-ci ildə onların sayını 72997 nəfərə endiriblər. Eyni zamanda, xarici ölkələrdən köçürülüb gətirilən erməniləri Azərbaycanın Qarabağ hissəsində də yerləşdirməklə bu bölgədə öz saylarını artırmağa nail olublar. Sonra da qarşılarına qoyduqları məqsədə çatmaq üçün Azərbaycandakı ermənilərə muxtariyyət verilməsi məsələsini qaldırıblar. Və S.M. Kirovun AKP MK-nın birinci katibi işlədiyi dövrdə, 7 iyul 1923-cü ildə Qarabağın 4388 kvadratkilometr hissəsində Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılmasına nail olublar.

L.Mirzoyan AKP MK-nın birinci katibi işlədiyi dövrdə– 1929-cu ildə isə Qazax rayonundan 50 kvadratkilometr torpaq sahəsi, Cəbrayıl qəzasının Nüvədi, Elnəzir, Tüğud kəndləri Ermənistana verilib. Bundan başqa Mircəfər Bağırovun Azərbaycana rəhbərlik etdiyi vaxtlarda da ermənilər bu prosesi davam etdirmişlər. 1946-cı ildə daha 40 kvadrat kilometr meşə sahəsi Ermənistana bağışlanılıb. Və ondan üç il sonra Dağlıq Qarabağda yaşayan 549 nəfər azərbaycanlı Xanlar rayonuna köçürülüb. V.Axundov Azərbaycan KP MK-nın birinci katibi işlədiyi dövrdə isə Gədəbəy rayonunun Şınıx zonasından 76 kvadratkilometr torpaq sahəsi

olan Hacılar sovetliyinin Tağılar kəndi, Qaravəlilər və Göyəli kəndlərinin yaylaq və biçənək sahələri Ermənistana "hədiyyə" edilib. Kamran Bağırovun respublikaya rəhbərlik etdiyi vaxtda–1984-cü ildə də Qazax rayonu ərazisindən müəyyən hissə torpaq sahəsi Ermənistana bağışlanılıb. Ə.Vəzirovun və Ayaz Mütəllibovun bu vəzifədə işlədikləri dövrdə də Dağlıq Qarabağ Muxtar Vilayətinin mərkəzi Stepanakert şəhəri, Əsgəran, Mardaked, Martuni, Hadrud rayonları Azərbaycanın tabeliyindən çıxarılıb. Sonra isə Ə.Elçibəyin prezidentliyi dövründə bütün beynəlxalq ictimaiyyətin gözü qarşısında Ermənistan Azərbaycanın 5039 kvadratkilometr ərazisini əhatə edən Ağdam, Füzuli, Zəngilan, Qubadlı, Cəbrayıl rayonlarını işğal edib. Və erməni millətçi sepfratçıları işğal etdikləri Azərbaycan torpaqlarında erməniləri məskunlaşdırmaqla kifayətlənməyib, milliləşdirmə siyasətini də həyata keçiriblər. Yəni, Azərbaycan xalqına məxsus milli-mənəvi dəyərləri dağıdıb məhv etmiş, tarix və mədəniyyət abidələrimizi dünya xalqlarına özününkü kimi göstərməyə çalışıblar.

Azərbaycan xalqına qarşı münasibətdə erməni separatçıları bu gün də milli-mədəni irsimizin özününküləşdirmək siyasətini davam etdirirlər. Yeri gəlmişkən onu da qeyd edək ki, ermənilər Qarabağ müharibəsi nəticəsində Azərbaycanın işğal edilmiş ərazilərində 4400 mədəniyyət və sosial obyekti, 850 təhsil ocağını dağıtmışlar. Və Azərbaycan xalqına məxsus milli-mənəvi dəyərləri, demək olar ki, yerlə-yeksan etmişlər. Bununla bağlı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev hələ Avropa Şurası Parlament Assambleyasının sədr müavini və Büro üzvü vəzifəsində fəaliyyət göstərdiyi vaxt xalqımızın narahatlığını

beynəlxalq ictimaiyyətə çatdırmışdır. Və bu gün də Azərbaycan dövlətinin başçısı kimi bu yolda yorulmaz fəaliyyətini davam etdirir.

Təəssüf ki, Azərbaycan torpaqlarının ermənilər tərəfindən işğal edilməsi, onların 1905-1907, 1918-20-ci illərdə xalqımıza qarşı törətdikləri qırğınları təsdiqləyən faktlar, sənədlər uzun illər məxfi arxivlərdə saxlanılmışdır. Yalnız müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilmişdir. Uzun illər gizli saxlanılan, üzərinə qadağalar qoyulan həqiqətlər açılmış, təhrif edilmiş tarixi hadisələr özünün əsil qiymətini almışdır. Bu mənada Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 26 mart 1998-ci ildə imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" fərman mühüm siyasi əhəmiyyət kəsb edir.

**E.Ş. 31.III.2005**

## ERMƏNİ SEPARATİZMİ O, BEYNƏLXALQ HÜQUQ NORMALARINI DA TAPDALAYIR

Ermənilər hər zaman əsassız arqumentləri ön plana çəkərək beynəlxalq hüquq normaları çərçivəsində Dağlıq Qarabağın Azərbaycana aid olmadığını sübut etməyə çalışıblar. Erməni tərəfinin irəli sürdüyü əsas hüquqi xarakterli arqument ondan ibarətdir ki, guya İ.Stalin 1921-ci ildə RKP MK-nın Qafqaz bürosunun iclasında Dağlıq Qarabağı Azərbaycana qeyri-qanuni verib. Lakin sənəddə tam dəqiqliyi ilə göstərilir ki, Dağlıq Qarabağ ərazisi Azərbaycanın tərkib hissəsi kimi, yenə də Azərbaycanın daxilində qalır. Bu da onu göstərir ki, Dağlıq Qarabağ ərazisi Azərbaycanın əzəli və əbədi torpağıdır və sonradan ona verilməyib. Həmin sənəddə də qeyd edilir ki, "Müsəlmanlar və ermənilər arasında milli sülhün vacibliyini, yuxarı və aşağı Qarabağın iqtisadi əlaqəni, onun Azərbaycanla daimi əlaqəsini nəzərə alaraq Dağlıq Qarabağ Azərbaycanın daxilində saxlanılsın və ona yüksək muxtar vilayət statusu verilsin".

20 fevral 1988-ci ildə isə DQMV-nin Ali Soveti öz sessiyasında "Azərbaycan və Ermənistan Ali Sovetləri qarşısında DQMV-nin Azərbaycan SSR-in tərkibindən Ermənistan SSR-in tərkibinə keçirilməsi haqqında vəsatət qaldırılması" barədə qanuna zidd qərar qəbul etməklə Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ münaqişəsinin əsasını qoymuş oldular. Bu vəsatətə də cavab olaraq Ermənistan SSR Ali Soveti də 15 iyun 1988-ci ildə DQMV-nin Ermənistan SSR-in tərkibinə keçirilməsinə razılıq verən qətnamə qəbul etdi. Azərbaycan SSR Ali Soveti də təbii ki, bununla razılaşa bilməzdi və bundan iki gün sonra, yəni 17 iyun 1988-ci ildə bu məsələylə bağlı müvafiq qətnamələr

qəbul etdi. Qətnamədə göstərilirdi ki, SSRİ Konstitusiyasının 78-ci maddəsi, Azərbaycan SSR Konstitusiyasının 70-ci maddəsinə əsasən DQMV Azərbaycan SSR tərkibindən Ermənistan SSR tərkibinə keçə bilməz, belə bir addım qeyri-qanuni sayılar. Amma buna baxmayaraq, 12 iyul 1988-ci ildə DQMV-nin Vilayət Sovetində DQMV-nin Azərbaycan SSR-in tərkibindən çıxması haqqında qərar qəbul edildi.

BMT-nin Baş Assambleyası tərəfindən beynəlxalq hüquq prinsipləri haqqında deklarasiya xalqlara öz siyasi statuslarını sərbəst müəyyən etmək və öz iqtisadi, sosial və mədəni inkişaflarını təmin etmək imkanı verir. Bu prinsip həmçinin ATƏT-in 1975-ci il Helsinkidəki əsas aktında da qeyd olunub. Lakin bununla bərabər milli birliyi ilə ölkənin ərazi bütövlüyünü hissə və ya tamamilə dağıtmağa yönəlmiş istənilən cəhd BMT-nin, ATƏT-in və digər beynəlxalq təşkilatların məqsəd və prinsiplərinə uyğun deyil və bununla bağlı BMT-nin baş katibi "Dünya üçün günün çağırışı" sənədində qeyd etmişdir ki, "əgər hər bir etnik, dini və ya dil qrupu bu gün dövlət tələb etsə, bölünmənin həddi olmayacaq, imkan verməк olmaz ki, dövlətin ərazi bütövlüyü ilə xalqların öz müqəddəratını təyin etməsi prinsipi qarşılıqlı ziddiyyət təşkil etsin".

Belə bir halda 1993-cü ildə problemin BMT-nin Təhlükəsizlik Şurasında baxılmasına gətirib çıxartdı. Nəticədə 4 qətnamə qəbul edildi. Qəbul edilən 822 (30 aprel 1993), 853 (29 iyun 1993), 874 (14 oktyabr 1993), 884 (12 noyabr 1993) saylı qətnamələrdə Azərbaycan Respublikasının ərazi bütövlüyü tanındı. Bununla əlaqədar "BMT bu qətnamələrin icrasını ATƏŞ-in üzərinə qoydu, ATƏŞ-in Yüksək Vəzifəli Şəxslərin Komitəsi Dağlıq Qarabağda monitorinq keçirtdi və nəticədə qeyd etdilər ki, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir və ona Azərbaycanın tərkibində muxtariyyət statusu verilməlidir. Bundan sonra, Budapeşt sammitində Minsk Qrupu BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrini yenidən təsdiq etdi. Lissabon sammitində də

Azərbaycanın ərazi bütövlüyü təsdiq olundu və Dağlıq Qarabağ Azərbaycan daxilində tanındı.

Dağlıq Qarabağ problemi sonralar Avropa Şurasında da müzakirə olundu və nəticədə AŞPA qəbul etdiyi Zaqafqaziya münaqişəsi adlı 1119 saylı qətnaməsi ilə bəyan etdi ki, bu münaqişə Aəzbaycan Respublikası sərhədlərinin toxunulmazlığı prinsipi ilə həll olunmalıdır. Və 2004-cü ildə Siyasi İşlər üzrə Komitənin məruzəçisi Devid Atkinson öz məruzəsində bəyan etdi ki, Azərbaycan torpağının bir hissəsi ermənilərin işğalı altındadır və separatçı qüvvələr Dağlıq Qarabağ ərazisini öz nəzarətində saxlayır. Məruzədə verilən təkliflərə istinad edərək 2005-ci ildə 1960 saylı qətnamə qəbul olundu. Qətnamədə qeyd edilir ki, AŞPA BMT-nin Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamənin icra olunmasına və silahlı qüvvələrin işğal olunmuş Azərbaycan ərazilərindən çıxarılmasına AŞ Nazirlər Komitəsi nəzarət etsin.

Bütün bunlar da göstərir ki, qondarma Dağlıq Qarabağ rejimi xalqların öz müqəddəratını təyinetmə prinsipinə əməl etmədən müəyyən edilib və bu rejim qanunsuzdur. Bu separatçı rejimin elan etdiyi qondarma Dağlıq Qarabağ Respublikası isə beynəlxalq hüquq nöqteyi-nəzərindən dövlət deyil.

**E.Ş. 14.V.2005**

## ERMƏNİLƏR ÖZ TƏBLİĞATLARINDAN ƏL ÇƏKMİRLƏR AMEA-NIN MÜXBİR ÜZVÜ, TARİX ELMLƏRİ DOKTORU VƏLİ BAXŞƏLİYEV: NAXÇIVANDA ERMƏNİLƏRƏ MƏXSUSLUĞU SÜBUT EDİLƏ BİLƏCƏK HƏR HANSI BİR TARİXİ ABİDƏDƏN SÖHBƏT GEDƏ BİLMƏZ

Gözəlliyi, çox zəngin təbii sərvətləri, strateji mövqeyi Azərbaycanı əsrlər boyu yadelli işğalçılar tərəfindən təcavüzə məruz qoyub. Zaman-zaman qanlı müharibələr meydanına dönüb bu torpaq. Odlar yurdunun odürəkli insanları mərdliklə qoruyub vətəni. Burada yaşayan əhalinin qanı tökülüb, günahı olmadan kütləvi qırğınların qurbanı olub. XX əsrin əvvəllərindən isə nankor qonşumuz olan ermənilər öz sərsəm xülyalarını həyata keçirmək məqsədilə gizlin, yaxud da aşkar şəkildə dəfələrlə azərbaycanlılara qarşı soyqırımı həyata keçiriblər. Bu qətliamların kulminasiya nöqtəsi 1905-1907-ci illərin qanlı hadisələri, 1918-ci ilin mart soyqırımı, 1937-ci ilin qanlı repressiyaları olub. 1948-1953 və 1988-ci illərin deportasiyasında isə Qərbi Azərbaycan torpaqlarının əzəli sahibləri olan soydaşlarımız yurd-yuvalarından didərgin salınıb.

Bu məkrli siyasət ən nəhayət XX əsrin faciəsi adlanan 1992-ci ilin Xocalı soyqırımında öz əksini tapıb. Lakin azərbaycanlılara qarşı tətbiq etdikləri genosidlərə rəğmən, mənfur qonşularımız həyasızlıqla dünyaya sübut etməyə çalışırlar ki, guya qədim bir xalq olan ermənilər daim Azərbaycanın təcavüzünə məruz qalıblar. Öz yalanlarını sübut etmək üçünsə dondan-dona girərək uydurma dəlillər gətirir-

lər.

Bu yaxınlarda isə daha bir erməni uydurmasının səsi Amerikadan gəldi. Hələ bir neçə il bundan əvvəl, yəni, 1998-ci ildə Erməni Memarlıq Tədqiqatları Assosiasiyasının rəhbəri Armen Haqnazaryan məktubla YUNESKO-nun Baş katibinə, 3 fevral 1999-cu il tarixli məktubla isə YUNESKO Baş direktorunun mədəniyyət məsələləri üzrə müavini Herman Kresto Torala müraciət edərək bildirib ki, guya azərbaycanlılar qədim erməni abidələrini düşüncəli surətdə məhv edirlər. O, fikrini uydurduğu faktlarla əsaslandıraraq deyib ki, Naxçıvan Muxtar Respublikasının Culfa rayonu ərazisindəki qəbiristanlıqda 1648-ci ildə on minlərlə, XX əsrin əvvəlində isə 6 minədək erməni millətinə məxsus xaçkarlar olub. Müasir dövrdə isə Azərbaycan hökuməti ermənilərə məxsus Culfa qəbiristanlığını dağıdaraq həmin xaçkarları kütləvi surətdə məhv edib. Uydurduğu yalandan xoşhallanan A.Haqnazaryan göndərdiyi məktubda tarixi faktları saxtalaşdıraraq qeyd edib ki, guya Naxçıvan qədim Ermənistan vilayəti olmuş, Culfa (Cuğa) isə sırf erməni şəhəri olduğundan 1605-ci ildə I Şah Abbas şəhəri dağıtmış, əhalisini isə İrana sürgün etmişdir ki, orada ticarəti inkişaf etdirsin.

Əlbəttə, bütün bunlar erməni ideoloqlarının Naxçıvana qarşı ərazi iddialarından irəli gəlir. ABŞ-ın ali qanunvericilik orqanının–Konqresinin erməni və ermənipərəst üzvləri də bu siyasəti dəstəkləyirlər. Acınacaqlı hal həm də orasıdır ki, dünyada tam demokratik dövlət kimi tanıdığımız, ABŞ-ın erməni məsələləri üzrə işçi qrupunun həmsədrləri Co Nollenberq və Frenk Pallonen heç bir araşdırma aparmadan məktub yayaraq bildiriblər ki, Azərbaycan hökuməti Naxçı-

vanın Culfa şəhərindəki orta əsrlərə aid erməni qəbiristanlığını–xaçkarları qəsdən dağıdır.

Düzdür, baş verənlərlə əlaqədar olaraq Azərbaycanın ABŞ-dakı səfiri Hafiz Paşayev Qərb dairələri ilə görüşlər keçirərək hadisəyə öz münasibətini bildirib. Ancaq mövzunun aktuallığını nəzərə alaraq tarix elmləri doktoru Vəli Baxşəliyevlə görüşüb həmsöhbət oldum.

İstər qədim dövrlərdə, istərsə də orta əsrlərdə Naxçıvan ərazisində ermənilərlə bağlı heç bir tarixi abidə olmayıb,–deyə söhbətə başlayan müsahibim öz fikrini tarixi faktlarla əsaslandırdı:

–Vaxtilə Naxçıvanın şimal hissəsində, xüsusən də Culfa, Ordubad və Şahbuz rayonlarının bəzi yerlərində xristianlıq dini etiqadına inanan qədim türk tayfaları yaşayıblar. Orada mövcud olan tarixi abidələr isə həmin xristian türk tayfalarına aid olub. Lakin təəssüf ki, bu tarixi abidələrin böyük bir qismi təbii aşınmalar nəticəsində məhv olub.

Naxçıvanda aparılan araşdırmalar göstərib ki, bu ərazidə qədim türk tayfalarının məskunlaşması eramızdan əvvəl VI minilliyə təsadüf edir. Ancaq həmin dövrdən bizlərə tarixi abidə kimi müəyyən divar və keramika qalıqlarından başqa heç nə gəlib çatmayıb. Həmçinin Naxçıvanın şimal hissəsində mövcud olan tarixi abidələr də müəyyən dövrlərdə baş verən zəlzələ və sair kimi təbii fəlakətlər nəticəsində məhv olub.

Naxçıvan ərazisində xristian abidələrinin mövcudl-uğu isə heç də bunların ermənilərə aid olmasını deməyə əsas vermir. Çünki dünyada xristianlıq dininə inanan bir çox xalqlar mövcuddur. O cümlədən də Azərbaycanın qədim xalqları sayılan albanlar, xristian türklər, Sabir tayfaları

və qıpçaqlar xristian dinini qəbul etmiş türk tayfaları olublar. Buna ən yaxşı sübut kimi hal-hazırda Moldoviya ərazisində yaşayan və oğuz türklərinin bir qolunu təşkil edən qaqauzları da misal gətirmək olar. Qaqauzlar indi də xristianlıq dininə etiqad göstərirlər. Yuxarıda deyildiyi kimi, türkdilli xalqlar arasında böyük bir qisim xristian dininə pərəstiş etmişdir. Ona görə də ermənilərin xristianlıqla bağlı hər bir şeyi öz adlarına çıxması çox yanlış bir hərəkətdir. Tarixi mənbələr sübut edir ki, nə qədim dövrlərdə, nə də orta əsrlərdə Naxçıvan ərazisində ümumiyyətlə, erməni adlı bir xalq yaşamayıb. Buna görə də hər hansı qədim tarixə malik erməni abidəsindən və onun dağıdılmasından söhbət gedə bilməz.

Tarixi abidələrin insanlar tərəfindən şüurlu surətdə dağıdılmasının absurd fikir olduğunu qeyd edən müsahibim bildirdi ki, müasir dövrdə VII əsrdən bu yana yaşayıb-yaradaraq inkişaf etmiş müsəlman xalqlarının XVI-XVII əsrlərə aid tarixi abidəsini tapmaq olduqca çətindir. Sovetlər Birliyi dövründə Naxçıvanın Culfa rayonu ərazisində qədim türk xalqlarına məxsus qoç heykəllərinin çox olmasına baxmayaraq, 1970-ci ilə qədər onların da böyük əksəriyyətindən əsər- əlamət qalmayıb. Belə olan halda, maraqlı bir sual yaranır: Görəsən, müsəlmanlara aid qədim türk abidələrini kimlər dağıdıb? Əlbəttə ki, bütün bunlar təbii aşınmalar, antropogen dəyişikliklər nəticəsində baş verir.

Bundan başqa, orta əsrlərdən bu günə kimi əsas nəqliyyat yolları Arazboyu vadidən keçib. Naxçıvanın orta əsrlər dövründəki şəhərlərinin bir qismi də Arazboyu vadidə yerləşib. Həmin şəhərlərdə irihəcmli karvansaralar və tarixi abidələr mövcud olub. SSRİ dövründə isə buradan

Culfa-Bakı dəmiryolu xəttinin çəkilməsi zamanı həmin abidələr də dağıdılıb. Çünki sovet hökuməti hər hansı bir iqtisadi layihə həyata keçirən zaman o ərazidə müsəlman və ya xristian abidəsinin olmasına əhəmiyyət verməyərək dağıdırdı. Buna misal olaraq Arazboyu vadidə vaxtilə mövcud olmuş karvansara və müsəlman məscidlərini göstərmək olar. Ancaq Azərbaycan öz müstəqilliyinə qovuşduqdan sonra millətlər arasında ayrı-seçkilik salmadan hər bir tarixi abidəni yüksək səviyyədə qoruyub saxlayır.

O ki qaldı ermənilərə, özlərinin iddia etdikləri kimi, onlar tarixən qədim dövrlərdən Cənubi Qafqaz bölgəsində deyil, Balkan yarımadasında yaşayıblar. Onların bir qismi sonradan miqrasiya edərək indiki Türkiyə ərazisindəki Qara dənizin Cənub hissəsində–Hayas adlı bir bölgədə məskunlaşıblar. Etnik adları isə Hay olubdur. Qədim Roma imperiyasının xristianlığı yayması ilə bağlı olaraq ermənilər də bu dini qəbul etmiş və Cənubi Qafqazda müəyyən ərazilər əldə etməyə çalışmışlar. İndiki Ermənistan ərazi-sində onların möhkəmlənməsi də həmin dövrlərə təsadüf edir. Naxçıvan ərazisində də ermənilər qədim dövrlərdən yaşamayıblar. Ermənilərin ən böyük işğalları eramızdan əvvəl II əsrdə Vartaşesin vaxtında olsa da, onlar Naxçıvan ərazisinə soxula bilməyiblər. Çünki Naxçıvan ərazisində ən qədim dövrlərdən başlayaraq güclü tayfa ittifaqları yaranmışdı. Hətta Urartu və Assuriya kimi güclü dövlətlər də Naxçıvan ərazisinə daxil ola bilməmişdilər. Sonralar ermənilər Cənubi Azərbaycanın kiçik bir qismini öz işğalları altında saxlaya bilsələr də, müəyyən bir müddətdən sonra oradan qovulublar. Bədxah qonşularımızın Azərbaycan ərazisinə, o cümlədən də Naxçıvana kütləvi şəkildə köçürülməsi isə tarixi mə-

xəzlərdə tam aydınlığı ilə göstərilir ki, bu, I Pyotrun siyasətinin tərkib hissəsi olub. Onları əvvəlcə Xəzəryanı ərazilərə, xüsusən də Bakıya köçürüblər. 1828-ci il Türkmənçay sülh müqaviləsindən sonra isə ermənilər kütləvi şəkildə Naxçıvan, Dağlıq Qarabağ və Qərbi Azərbaycan torpaqlarında yerləşdiriliblər. Tarixi faktlardan da aydın olduğu kimi, Naxçıvanda ermənilərə məxsusluğu sübut edilə biləcək hər hansı bir tarixi abidədən söhbət gedə bilməz.

**P.S.** Yazımın sonunda ermənilərin maddi və mədəni abidələrimizə vurduğu ziyanı özündə əks etdirən faktları sadalamağı özümə borc bilirəm. Ermənilərin Azərbaycana məxsus tarix və mədəniyyət abidələrini dağıtmaq istiqamətində apardıqları davamlı siyasət nəticəsində İrəvan xanlığında 1587 məscid və 23 mədrəsə, Zəngəzur və Eçmiədzin bölgəsində 830 məscid və 1394 mədrəsə, Ermənistan ərazisi adlandırılan Qərbi Azərbaycan torpaqlarında 500-dən artıq qəbiristanlıq tamamilə dağıdılıb. İşğal altında olan ərazilərdə Kəlbəcərin tarix muzeyi və onun bütün eksponatları, Şuşanın, Ağdamın tarix muzeyləri, Zəngilandakı daş abidələr muzeyi dağıdılıb və məhv edilib. Erməni vəhşiliyi nəticəsində Xocalıda tunc dövrünə aid tarixi abidələr yox edilib, qiymətli kitablar və əlyazmalar məhv olunub. O cümlədən, 969 kitabxana, 85 uşaq musiqi məktəbi, 4 teatr, 4 incəsənət qalereyası, 2 konsert salonu, 1852 mədəniyyət və incəsənət mərkəzi yerlə-yeksan edilib.

**R.İ. 07.II.2006**

## XOCALI SOYQIRIMI – XX ƏSRİN FACİƏSİ

*"Xalqımızın çox qəhrəman, igid övladları torpaqlarımızın müdafiəsi uğrunda vuruşaraq şəhid olublar. Ancaq bütün bu tarixin içində Xocalı faciəsinin xüsusi yeri var. O da ondan ibarətdir ki, bir tərəfdən bu, hər bir Xocalı sakininin öz torpağına, millətinə, vətəninə sədaqətinin nümunəsidir, ikinci tərəfdən də Ermənistanın millətçi, vəhşi qüvvələri tərəfindən Azərbaycana qarşı edilən soyqırımdır–vəhşiliyin görünməmiş təzahürüdür...".*

*Heydər Əliyev,*
*Azərbaycan xalqının ümummilli lideri*

## QAN YADDAŞIMIZA YAZILAN TARİX

Dənizdən-dənizə uydurma "böyük Ermənistan" yaratmaq xülyasına qapılan ermənilər öz havadarlarının dəstəyi ilə 1992-ci ilin fevral ayının 25-dən 26-na keçən gecə növbəti cinayətə əl ataraq tarixən oğuz-türk yurdu olmuş Xocalı şəhərini tar-mar edib, əhalisinə amansız divan tutdular.

Hadisələrin gedişatına nəzər salsaq görərik ki, Xocalının işğalı xüsusi planla həyata keçirilib. 1991-ci ilin oktyabr ayından bu şəhər ermənilər tərəfindən blokadada saxlanılıb. Həmin ilin oktyabr ayının 30-dan Azərbaycanla avtomobil əlaqəsi kəsilən Xocalının yeganə nəqliyyat vasitəsi vertolyot olub. Şuşa şəhərinin səmasında mülki vertolyotun vurulması və nəticədə 40 nəfərin həlak olması hadisəsindən sonra bu əlaqə də kəsilib. Beləliklə də, 1992-ci il yanvarın 28-də sonuncu vertolyotu qəbul edən Xocalı tam mü-

hasirə şəraitində yaşayıb. Fevral ayının ikinci yarısından başlayaraq erməni silahlı dəstələri şəhəri toplardan, ağır zirehli texnikalardan atəşə tutsalar da, milis və milli ordunun döyüşçülərindən, şəhər sakinlərindən təşkil olunmuş yerli özünümüdafiə dəstəsi son ana qədər düşmənə müqavimət göstərib.

Ermənilər tərəfindən Xocalıya hücum edilməsinin başlıca səbəbi bu şəhərin strateji coğrafi mövqeyi olub. Belə ki, 7 mindən artıq əhalisi olan bu yaşayış məntəqəsi Xankəndindən 10 kilometr Cənub-Şərqdə, Qarabağ dağının silsiləsində və Ağdam-Şuşa, Əsgəran-Xankəndi yollarının üstündə yerləşməklə əhəmiyyətli mövqeyə malik idi. Əgər Qarabağdakı yeganə aeroportun da burada yerləşdiyini nəzərə alsaq, Xocalını ələ keçirmək üçün ermənilərin necə canfəşanlıq etdiyini aydın təsəvvür etmək olar. Sonralar ermənilər özləri də etiraf etmişlər ki, şəhərə hücum etməkdə başlıca məqsəd Xocalı platsdarmının məhv edilməsi, bu məntəqədən keçən Əsgəran-Xankəndi yolunun boşaldılması və azərbaycanlıların nəzarətində olan aeroportun ələ keçirilməsi olub.

Xocalıya hücum fevralın 25-də axşam saat 23.00-da 366-cı alayın hərbi texnikasının döyüş mövqelərinə çıxması ilə başlanılıb. Əvvəlcə şəhər toplardan, tanklardan, "Alazan" tipli zenit raketlərdən iki saat ərzində aramsız atəşə tutulub. Xocalıda yanğınlar baş verib və fevralın 26-sı səhər saat 5 radələrində şəhər tam alova bürünüb. Hücum üç istiqamətdə aparıldığından şəhərdəki 2500-ə yaxın əhali Əsgəran istiqamətində qaçmağa məcbur olub. Tezliklə aydın olub ki, bu da ermənilərin düşünülmüş hiyləsidir. Çünki Naxçevanik kəndi yaxınlığında çaşqın, əliyalın, dinc əhalinin qarşısı erməni silahlı dəstələri tərəfindən kəsilərək güllələbaran edilib. Qarlı aşırımlarda və meşələrdə zəifləmiş, taqətdən düşmüş insanların çox hissəsi də məhz Əsgəran-Naxçevanik düzündə erməni silahlıları tərəfindən xüsusi qəddarlıqla məhv edilib.

Həmin günlərdə Azərbaycan silahlı qüvvələri Xocalı sakinlərinin köməyinə çata bilməmişdi və hətta sonradan cəsədlərin götürülməsi də mümkün olmamışdı. Çünki ermənilərin ağ geyimli xüsusi qrupları meşələrdə gizlənmiş sağ qalan insanların axtarışını apararaq onları əsir götürür və çoxsaylı işgəncələrə məruz qoyurdular. Yalnız fevralın 28-də, tərkibində yerli jurnalistlərin də iştirak etdiyi qrup iki vertolyotla Xocalı sakinlərinin həlak olduqları yerə gedə bilmişlər. Bu zaman görünən mənzərə isə hamını dəhşətə gətirmişdi–düzənlik insan cəsədləri ilə dolu idi. İkinci vertolyotun havadan mühafizəsinə baxmayaraq, həmin gün ermənilərin güclü atəşi altında yalnız 4 meyidi götürmək mümkün olub.

Qocalara, uşaqlara, qadınlara belə rəhm edilməyən bu qanlı faciənin törədilməsində ermənilərlə bərabər ruslara məxsus 366-cı motoatıcı alayın şəxsi heyəti də yaxından iştirak edib. Həmçinin alayın komandanlığının cinayət sövdələşməsi və məsuliyyətsizliyi nəticəsində hərbi texnikanın bir hissəsi, o cümlədən zirehli texnika ermənilərə təhvil verilmişdir ki, bu da ermənilər tərəfindən azərbaycanlılara qarşı cinayətlərin törədilməsinə və separatçılıq hərəkatlarının davam etdirilməsinə rəvac verib.

Bu faciənin törədilməsində Azərbaycanın həmin dövrdəki rəhbərliyi də eyni səviyyədə məsuliyyət daşıyır desək, yanılmarıq. Çünki Azərbaycan Respublikası Prezidenti və Ali Baş Komandanı olaraq Ayaz Mütəllibov ölkənin ərazi bütövlüyünün, təhlükəsizliyinin və onun vətəndaşlarının mühafizəsinin təminatçısı kimi Qarabağda, o cümlədən də Xocalıda baş verən hadisələrin qarşısının alınması üçün zəruri tədbirləri görməmişdir. Ölkənin ali vəzifəli şəxsi Konstitusiya qaydasının, ölkənin ərazi bütövlüyünün, insanların hüquq və azadlıqlarının müdafiəsini təmin edə bilməmişdir. Hətta qırğın baş verəndən sonra xalqın qəzəbindən qorxaraq bu acı həqiqəti, erməni vandallarının törətdikləri qəddarlığı, vəhşiliyi gizlətməyə çalışmışlar.

Həqiqət isə belə idi: erməni separatçılarının Xocalıya hücumu zamanı ümumilikdə 613 nəfər həlak olmuşdur ki, onlardan da 63 nəfəri uşaq, 106 nəfəri qadın, 70 nəfəri isə qocalar olmuşdur. 487 nəfər yaralananlardan isə 76 nəfərini uşaqlar təşkil etmişdir. Həmçinin, faciə zamanı 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirmişdir. Şəhərdə yaşayan əhalinin 1275 nəfəri ermənilər tərəfindən əsir götürülmüşdür. 150 nəfər Xocalı sakinindən isə bu günə kimi xəbər yoxdur.

Milli faciəmizə qiymət vermək yalnız ümummilli liderimiz Heydər Əliyevin xalqın tələbi ilə yenidən hakimiyyətə qayıdışından sonra mümkün olmuşdur. 1995-ci ildə soyqırımın ildönümü ərəfəsində xocalıları qəbul edən, onları diqqətlə dinləyən Heydər Əliyev bir çox qaranlıq, müəmmalı məsələlərə aydınlıq gətirərək demişdir: "Xocalı faciəsi bizim qəlbimizdə yaradır, təkcə ona görə yox ki, həmin 26 fevral günü erməni faşistləri, vəhşilər, vəhşilərdən də vəhşilər gəlib bizim körpələri, qocaları, cavanları, qadınları, kişiləri vəhşicəsinə qırıblar, əziblər, yandırıblar. Bu hadisənin bizim üçün faciə kimi qəbul olunmasının o biri tərəfi ondan ibarətdir ki, o, təsadüfi baş verən iş deyil. Sizin indi danışdıqlarınızdan mən belə nəticə çıxarıram ki, bu, bir tərəfdən Azərbaycanın Dağlıq Qarabağ bölgəsində Ermənistanın təcavüzünün tədricən, dalbadal artması, onların vəhşicəsinə hərəkətlər etməsi, ikinci tərəfdən isə bunun qarşısının alınmaması və tədbirlər görülməməsi deməkdir".

**R.İ. 25.II.2006**

# XALQIMIZA QARŞI TÖRƏDİLƏN CİNAYƏTLƏR BƏŞƏRİYYƏTİN TƏHLÜKƏSİZLİYİ ƏLEYHİNƏ YÖNƏLMİŞDİR

Tariximizə qısa nəzər salsaq görərik ki, ermənilər xalqımıza qarşı dəfələrlə, gələcəkdə beynəlxalq ictimaiyyətin tənqid hədəfi ola biləcək cinayətlər törətmişlər. Bu qırğınların da kulminasiya nöqtəsi 1905-1907-ci illərin qanlı hadisələri, 1918-ci ilin mart soyqırımı, 1937-ci ilin qanlı repressiyaları olmuşdur. 1948-1953-cü və 1988-ci illərin deportasiyasında isə Qərbi Azərbaycan torpaqlarının əzəli sahibləri olan soydaşlarımız yurd-yuvalarından didərgin salınmışdır. Bu sadalanan hər bir əməldə də beynəlxalq cinayətin tərkib ünsürləri var.

İstərdim ki, heç də qədim tarixi olmayan, dünya ictimaiyyətinin gözü qarşısında törədilən Qarabağ müharibəsində, xüsusilə də erməni separatçılarının Azərbaycan xalqının məhv edilməsinə yönəldilmiş soyqırım və işğalçılıq siyasətinin davamı olan Xocalı soyqırımından danışım. Şübhəsiz ki, erməni təcavüzünün və Xocalı soyqırımının tarixi faktları təkcə xalqımızın yox, milliyyətindən, dinindən asılı olmayaraq insanlığa həqiqi mənada dəyər verən hər kəsin yaddaşındadır.

İlkin olaraq qeyd edim ki, ermənilər tarixi saxtalaşdıraraq bu gün də Azərbaycana qarşı öz ərazi iddialarını həyata keçirməkdədirlər. Və belə bir mövqe də hər bir halda beynəlxalq hüququn sərhədlərin toxunulmazlığı və ərazi bütövlüyü prinsiplərinə tamamilə ziddir. Çünki sərhədlərin toxunulmazlığı prinsipinə görə hər hansı bir dövlət başqa dövlətə qarşı istənilən ərazi iddiasından, onun sərhədlərinə qarşı qəsdlərdən imtina etməlidir. Ərazi bütövlüyü prinsipinə görə isə dövlətin ərazisi qanunsuz güc tətbiqi nəticəsində hərbi işğal obyekti ola bilməz. Hər bir dövlət başqa bir

dövlətin ərazi bütövlüyünün pozulmasına yönəlmiş hüquqazidd hərəkətlərdən çəkinməlidir. Dövlətimizin də SSRİ dövründə malik olduğu ərazisinin bütövlüyünə qarşı yönəlmiş istənilən iddia və ya qəsd sözügedən prinsipi kobud şəkildə pozmuş olar. Çünki Qarabağ müharibəsindən əvvəl mövcud sərhədlərimiz beynəlxalq hüquqa müvafiq olaraq müəyyən edilmişdir. Yeri gəlmişkən qeyd edim ki, beynəlxalq hüququn bir sıra prinsipləri BMT Nizamnaməsinin II maddəsində bu təşkilatın bütün üzvləri üçün məcburi normaları kimi göstərilmişdir.

Ermənilərin Azərbaycana qarşı törətdiyi hər bir qeyri-qanuni əməl sülh və bəşəriyyətin təhlükəsizliyi əleyhinə yönəlmişdir. Bunlar təcavüz, genosid və insanlıq əleyhinə törədilən cinayətlərdir. Çünki bu cinayətlərin hər biri dövlətimizin qanuni mənafelərini, vətəndaşlarımızın beynəlxalq səviyyədə tanınmış insan hüquqlarını kütləvi şəkildə pozmuş, hüquqi tərkibi beynəlxalq hüquq normalarında müəyyən olunmuş əməllərdir. 1988-ci ildən Azərbaycana qarşı yönəldilmiş erməni təcavüzü ictimai təhlükəli əməl kimi, beynəlxalq hüquqi nöqteyi-nəzərindən ağır cinayət hesab olunur. Ermənilərin həmin illərdə təcavüzkar müharibəni planlaşdırması, hazırlaması, başlaması və aparması törədilən əməlin təcavüz cinayəti kimi xarakterizə olunmasına əsas verir. Çünki bu adıçəkilən mərhələlər həmin cinayətin özündə ehtiva olunur.

Təcavüzkar dövlət müharibəni başladıqdan sonra əhalinin deportasiyası siyasətini həyata keçirərək Qərbi Azərbaycan torpaqlarının əzəli sahibləri olan soydaşlarımızı yurd-yuvalarından didərgin saldılar. Və sonradan Dağlıq Qarabağı və onun ətraf ərazilərini işğal edərək yerli əhalinin öz torpaqlarından məcburi köçürülməsinə şərait yaratdılar. Bununla da onlar sülh və bəşəriyyətin təhlükəsizliyi əleyhinə olan cinayətlərdən biri hesab olunan insanlıq əleyhinə cinayəti törətmiş oldular. Adıçəkilən ictimai təhlükəli əməlin anlayışı mövcud beynəlxalq hüquq normalarına gö-

rə müəyyən etmək üçün mötəbər hüquqi sənəd olan Beynəlxalq Cinayət Məhkəməsinin Nizamnaməsində norma mövcuddur. Bu Nizamnamənin 6-cı maddəsində qeyd edilir ki, insanlıq əleyhinə cinayət hər hansı mülki əhaliyə qarşı sistematik və genişmiqyaslı hücumların tərkib hissəsi olaraq qəsdən törədilmiş əməllərdən hər hansı biri deməkdir. Beynəlxalq hüquqda deportasiya və əhalinin məcburi köçürülməsi də belə cinayətlərdən hesab olunur. İstər deportasiya zamanı, istərsə də təcavüzkar müharibənin gedişində ermənilər işğal olunmuş torpaqlarımızda mülki əhalini öldürməklə, onlara əzab vermək kimi vəhşiliklər törətməklə "Müharibə qurbanlarının müdafiəsinə dair" 1949-cu il Cenevrə Konvensiyalarında təsbit olunmuş müddəaları da pozmuş oldu. XX əsrin sonlarında isə dünya ictimaiyyətinin tənqid hədəfi olabiləcək əməlləri özündə birləşdirən ağır cinayət törədildi. Bu, 1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə erməni quldur dəstələrinin 366-cı alayın köməyi ilə Xocalı şəhərində törətdikləri soyqırımı idi. Törədilən cinayətin soyqırım adlandırılması da heç də təsadüfi və əsassız deyil. Həmin faciəvi hadisədən sonra əldə edilmiş ekspert rəyləri, çəkilmiş videoyazılar kimi və sair sübutlar beynəlxalq hüquqi nöqteyi-nəzərindən belə nəticəyə gəlməyə əsas verir. Çünki soyqırım cinayətinin hüquqi əsasını təşkil edən 1951-ci ildə qüvvəyə minmiş, "Genosid cinayətinin qarşısının alınması və cəzalandırılması" haqqında Konvensiyada qeyd edilir ki, genosid cinayəti hər hansı bir milli, etnik, irqi və ya dini qrupu bir qrup kimi tamamilə və ya qismən məhv etmək niyyətilə törədilir. Xocalı soyqırımında da ermənilərin azəri türkü olduqlarına görə silahsız insanları vəhşicəsinə məhv etməsi, onların məqsədlərinin bu niyyətə xidmət etdiyini açıq-aşkar göstərirdi.

**E.Ş. 25.II.2006**

# XX ƏSRDƏ AZƏRBAYCANLILARIN KÜTLƏVİ DEPORTASİYASI

Hələ 300 il əvvəl gələcək imperiyanın konturları barədə düşünən rus imperatoru I Pyotr Cənuba göndərdiyi qasidlərə belə bir tapşırıq vermişdi: "Onları (erməniləri) tovlayıb bizim torpaqlara gətirməyə çalışmaq lazımdır ki, Rusiyanın istinadgahı olsun".

Bu məqsədlə İran və Türkiyə ərazisində yaşayan 300 minə qədər erməni XIX əsrin birinci yarısında Azərbaycana köçürülərək İrəvan, Dağlıq Qarabağ, Naxçıvan, Zəngəzur, Mehri, Dərələyəz, Qafan, Ordubad, Vedibasar və digər ərazilərdə yerləşdirildi. Lakin ermənilərin Azərbaycan ərazilərinə köçürülməsinə baxmayaraq, yenə də azərbaycanlılar bu ərazilərdə sayca ermənilərdən üstünlük təşkil edirdilər. Bu ərazilərdə ermənilərin çoxluq təşkil etməsi məqsədilə azərbaycanlılara qarşı soyqırım siyasətinə əl atıldı. Ermənilər çar Rusiyası tərəfindən gizli silahlanaraq hərbi dəstələr yaratdılar. İndiki Ermənistan və Dağlıq Qarabağ ərazisindən azərbaycanlıların kütləvi çıxarılması, dinc əhaliyə qarşı zorakılıq, vəhşiliklər isə Rusiya hökumətinin təhriki və köməyi ilə 1905-1907-ci illərdə xüsusi xarakter aldı. Azərbaycanın Zəngəzur, İrəvan, Naxçıvan, Ordubad, Qazax, Qarabağ əyalətlərində yüzlərlə kənd yandırıldı, əhali uşaqdan böyüyə qədər amansızcasına qətlə yetirildi.

1918-ci ilin martında Rusiya bolşeviklərinin rəhbəri Vladimir Lenin daşnakçı Stepan Şaumyanı Qafqaz fövqəladə komissarı təyin edərək Bakıya göndərmişdi. Bolşeviklərin məqsədi erməni daşnaklarının silahlı qüvvələrinin köməyi ilə Bakıda hakimiyyəti ələ keçirmək idi. Elə bu niyyətlə də martın 31-də Bakı şəhərində azərbaycanlıların kütləvi qırğını başlandı. Stepan Şaumyanın etirafına görə həmin illərdə dinc azərbaycanlıların qırğınında Bakı Sovetinin 6 min

silahlı əsgəri, eyni zamanda "Daşnaksütyun" partiyasının 3-4 minlik silahlı dəstəsi iştirak etmişdi. Üç gün davam edən qırğın zamanı erməni silahlıları bolşeviklərin köməyi ilə azərbaycanlıların yaşadıqları məhəllələrə qəflətən basqınlar edərək əhalini uşaqdan böyüyə kimi qətlə yetirmişlər.

Ümumiyyətlə, XX əsrin birinci yarısında baş vermiş iki qırğın zamanı (1905-1907 və 1918-1920-ci illər) 2 milyona yaxın azərbaycanlı ermənilər tərəfindən qətlə yetirilmiş, öz ev-eşiyindən zorla qovulmuşlar.

Öz çirkin niyyətlərini həyata keçirmək istəyən daşnak tör-töküntülərinin cinayətlərinin qarşısı yalnız qardaş Türkiyənin böyük köməyi nəticəsində alındı. Dənizdən-dənizə "Böyük Ermənistan" yaratmaq xülyasını gerçəkləşdirmək istəyən erməni vandalları sonrakı illərdə də azərbaycanlıları öz dədə-baba yurdlarından çıxarmağı davam etdirdilər. 1943-cü il Tehran konfransı zamanı Sovet-İran münasibətləri müzakirə edilərkən, erməni diasporu SSRİ xarici işlər naziri V.Molotovdan İranda yaşayan ermənilərin SSRİ-yə köçürülməsini xahiş etdi. Molotov isə Tehranda əlaltılarının istəyini İosif Stalinə çatdıraraq ermənilərin köçürülməsinə razılıq aldı. Ermənistan Kommunist Partiyası Mərkəzi Komitəsinin I katibi Q.Arutyunov bundan istifadə edərək xaricdəki ermənilərin Ermənistana köçürülməsi ilə əlaqədar azərbaycanlıların Ermənistandan zorla köçürülməsi barədə qərar verilməsinə nail oldu.

1947-ci il dekabr ayının 23-də SSRİ Nazirlər Soveti «Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında» qərar çıxarır. Stalin tərəfindən 1948-1953-cü illərdə həyata keçirilən azərbaycanlıların növbəti deportasiyası baş verdi. İlk mərhələdə İrəvan şəhəri yaxınlığındakı yaşayış məntəqələri azərbaycanlılardan təmizləndi. Sonra isə rayon mərkəzləri, ətraf kənd və qəsəbələrin əhalisi köçürüldü. Deportasiyaya məruz qalan əhalinin bir hissəsi Ermənistanın dağ rayonlarında yaşadığı üçün Kür-Araz

ovalığındakı iqlim şəraitinə alışmaqda çətinlik çəkirdi. Bu səbəbdən köçürülmüş on minlərlə azərbaycanlı arasında ölüm halları kütləvi şəkil almışdı. Digər tərəfdən, Ermənistandan köçürülən bir nəfər də azərbaycanlı Dağlıq Qarabağ ərazisinə buraxılmadı. Əksinə, «Böyük Ermənistan» ideyasının həyata keçirilməsi istiqamətində bu ərazinin azərbaycanlılardan boşaldılması işi planlı surətdə davam etdirildi və daxili köçürmə adı ilə 1949-cu ildə Dağlıq Qarabağdan 132 ailə olmaqla ümumilikdə 549 nəfər Azərbaycanın Xanlar rayonuna köçürüldü. Eyni zamanda, Azərbaycan yaşayış məntəqələrinin adlarının dəyişdirilməsi, təhsil və mədəniyyət ocaqlarının bağlanması, rayonların birləşdirilməsi əməliyyatına başlanıldı. Təkcə 1947-1953-cü illərdə azərbaycanlılar yaşayan 60 məntəqənin adı dəyişdirildi. Ümumiyyətlə isə, 1921-1988-ci illərdə Ermənistanda yüzlərlə türk mənşəli yaşayış məskəninin adı dəyişdirilmişdir.

1988-ci ilin yanvarından etibarən "türksüz Ermənistan" siyasəti planlı şəkildə həyata keçirilməyə başlanıb. Bu zaman Ermənistan hökuməti, "Qarabağ" və "Krunk" komitələri, Eçmiədzin kilsəsinin nümayəndələri SSRİ rəhbərliyinin himayəsi ilə azərbaycanlıların qovulması prosesində minlərlə qanlı aksiyalar törətdilər. Etnik təmizləmə nəticəsində Ermənistanın 185 yaşayış məntəqəsi boşaldılmış, 250 mindən artıq azərbaycanlı ev-eşiyindən zorla qovulmuş, 217 nəfəri isə qətlə yetirilmişdir. 1988 ci ildən başlayaraq Ermənistan Respublikası hərbi təcavüz nəticəsində Azərbaycan ərazilərinin 20 faizi işğal edilmiş, 20 mindən çox insan qətlə yetirilmişdir. Bir milyondan artıq insan 10 ildən çoxdur ki, qaçqın və məcburi köçkün şəraitində yaşayaraq Ermənistanın azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırım siyasətinin qurbanı olmuşlar.

Təəssüf doğuracaq hal ondan ibarətdir ki, AXC-Müsavat cütlüyünün hakimiyyəti illərində xalqımızın başına gətirilən facıələrə biganə yanaşılmışdır. Erməni vandalları tərəfindən törədilən mart və Xocalı soyqırımlarına, eləcə də

azərbaycanlıların deportasiyasına hər hansı bir hüquqi-siyasi qiymət vermək heç kimin ağlına belə gəlməmişdir. Yalnız ümummilli liderimiz Heydər Əliyev ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra bu hadisələrə siyasi qiymət verilmişdir. Belə ki, ulu öndər 1997-ci il dekabr ayının 18-də "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" və 1998-ci il mart ayının 26-da "Azərbaycanlıların soyqırımı haqqında" fərmanlar imzalayaraq doğma xalqı qarşısında, həmin hadisələrdə günahsız yerə öldürülənlərin ruhu önündə ən böyük xidmətlərdən birini göstərmişdir.

Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 822, 853, 874, 884 saylı qətnamələrində Azərbaycan Respublikasının ərazi bütövlüyünün tanınmasına və işğal olunmuş Azərbaycan ərazilərinin qeyd-şərtsiz azad edilməsi tələblərinə baxmayaraq Ermənistan Respublikası işğalçılıq siyasətini yenə də davam etdirir. Dövlət büdcəsi Azərbaycanın hərbi büdcəsindən aşağı olan bu işğalçı ölkə anlamır ki, hər ötən saniyə Azərbaycanın xeyrinə işləyir. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və Bakı-Tbilisi-Qars kimi beynəlxalq iqtisadi layihələri həyata keçirən Azərbaycanın iqtisadi gücü ilə yanaşı, hərbi gücü də durmadan artıb. Bu isə ölkəmizi öz ərazi bütövlüyünü hərbi yolla tam bərpa etmək imkanına yiyələndirib. Ancaq Azərbaycan hökuməti bu problemin beynəlxalq hüquq çərçivəsində, yalnız sülh yolu ilə həllinə tərəfdar olduğundan insanlığa, ümumilikdə isə bəşəriyyətə qarşı olan müharibə ocağının yaranmasını istəmir. Lakin o da məlumdur ki, bütün imkanlar tükənsə, Azərbaycan hərb yolunu seçərək ərazi bütövlüyünü tam təmin edəcək.

**R.İ. 23.II.2007**

# Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi inkişaf

*Şərur rayonunun imkanları böyükdü. Burada yaxşı torpaqlar var, çox fədakar insanlar var. Arzu edirəm ki, Şəruru daha da abadlaşdırasınız, gözəlləşdirəsiniz və iqtisadiyyatınızı daha da inkişaf etdirəsiniz.*

*Heydər Əliyev,*
*ümummilli lider*

## Şərur iqtisadi inkişaf, mədəni yüksəliş yolunda

Şərura ezam olunarkən ilk növbədə bu bölgənin tarixini öyrənməyə çalışdım. Xalqımızın ilk yazılı nümunəsi olan "Kitabi-Dədə Qorqud" dastanında Şərur barədə belə deyilir: "...Ondan Şərukun ucundan Göyçə dənizinə təkin el çapdı. Qələmə doyum oldu. Yolu Əlincə qələsinə oğranmışdı".

Şərur torpağında insan yaşayışının mövcudluğu və tarixi də yüz illərlə deyil, neçə min illərlə ölçülür. Və bu torpaqda ilkin insan cəmiyyətinə–ibtidai icma dövrünə aid onlarla yaşayış məskəninin izləri hələ də qalmaqdadır. Tənənəm kəndi yaxınlığındakı Qazma mağarasında daş dövrünün insanları yaşayıblar.

Əlbəttə, daşlaşan və daş yaddaşına çevrilən bu abidələrimizin hər birisi haqqında ətraflı söz aça bilərəm. "Hər daşın altında bir tarix yatır" deyiminin hərfi mənasını da indi yaxşı anlayıram. Lakin bu yazıda Şərur torpağının tarixindən söhbət açmaq niyyətində deyiləm. Hər halda bu, tarixçi

alimlərimizin, arxeoloqlarımızın işidir.

Şərurun bərəkətli, münbit torpağı, axarlı çayları var. Coğrafi mövqeyinə görə həm aran, həm də yaylağı xatırladan bu bölgənin insanları tarixən qoçaq, zəhmətkeş, əməksevər olublar.

Şərur rayonu öz inkişaf yoluna ötən əsrin 70-ci illərində–ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə qədəm qoyub. Ulu öndərin xeyir-duası ilə tikilən "Arpaçay" dəryaçası isə Şərur torpağının həyat çeşməsinə çevrilib. Kənd təsərrüfatında mühüm nailiyyətlər əldə olunub. O zaman respublikamızda bərqərar olan sosial-iqtisadi inkişaf rayona da sirayət edib. Geniş aqrar sənaye komplekslərinin yaradıldığı Şərur rayonu həmin illərdə muxtar respublikamızın sosial-iqtisadi inkişafında həmişə ön sıralarda olub. Ancaq ötən əsrin 90-cı illərində muxtar respublikamızın ağır blokada şəraitində yaşaması, hakimiyyətdə olan bəzi qüvvələrin regionumuza ögey münasibət göstərməsi bütün rayonlar kimi Şərur bölgəsinə də öz mənfi təsirini göstərib. Uzun illər boyu min bir əziyyətlə yaradılan müəssisələr iflic vəziyyətinə düşərək fəaliyyətini dayandırıb. Kənd təsərrüfatı sahəsində də ciddi problemlər özünü göstərib. Bunun da nəticəsində regionda əhalinin rifah halı olduqca aşağı düşmüş, işsizlik baş alıb getmişdir. Lakin ümummilli liderimiz Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işləyərkən, eləcə də xalqın təkidli tələbi ilə ikinci dəfə Azərbaycana rəhbərliyə gəldikdən sonra muxtar respublikamızın hər bir rayonu kimi, Şərura da böyük diqqət və qayğı göstərilmişdir. Bu ənənə bu gün də davam etdirilir. Ölkə başçısı cənab İlham Əliyevin 11 fevral 2004-cü ildə imzaladığı "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)" isə Şərur rayonunda bütün sahələrin, o cümlədən iqtisadiyyatın yüksəlməsinə, sahibkarlığın inkişafına, yeni iş yerlərinin açılmasına təkan verərək yeni bir mərhələnin başlanğıcını qo-

yub.

Şərur ilk növbədə aqrar rayon olduğundan iqtisadiyyatının da əsasını kənd təsərrüfatı təşkil edir. Bu sahənin səmərəliliyini artırmaq üçün son üç ildə də bir sıra tədbirlər həyata keçirilib. Torpaqlardan səmərəli istifadəni təmin etmək məqsədilə Aralıq kəndində yerləşən dairəvi su kəmərində, Aşağı və Yuxarı Sovxoz kanallarında, Danyeri, Şərur su nasos stansiyalarında təmir işləri aparılıb. Muğanlı kəndində 150 hektar sahəni suvarma gücünə malik "Muğanlı", həmçinin "Şahtaxtı" su nasos stansiyaları tikilmiş, ümumilikdə 5 ədəd subartezian quyusu qazılaraq əhalinin istifadəsinə verilmişdir. Bundan başqa, Dizə su nasos stansiyasının tikintisinə, "Şərur" su nasos stansiyasının isə təmirinə başlanmışdır. Ümumilikdə 3 il ərzində Şərur rayonunda 60 artezian quyusunda cari, 260 artezian quyusunda əsaslı təmir işləri aparılmışdır ki, bu da regionda əkinçiliyin inkişaf etməsinə səbəb olmuşdur. Deyilənləri konkret faktlarla da ifadə etmək mümkündür. Belə ki, əkin sahələrinin suvarma suyu ilə təmin olunması hesabına Şərur rayonunda 2004-cü ildə 7529, 2005-ci ildə 7584,2, 2006-cı ildə isə 12487 hektar sahədə əkin işi aparılmışdır. Təkcə ötən il əkilən sahələrdən 16993 ton meyvə, o cümlədən 1198,8 ton üzüm, 17544 ton tərəvəz, 5014 ton bostan məhsulları, 2295 ton dən qarğıdalı, 75 ton günəbaxan istehsal edilmişdir. Taxıl biçini zamanı isə 6010 hektar sahənin hər hektarından orta hesabla 41,9 sentner məhsul götürülmüşdür. Ümumilikdə 25238 ton taxıl istehsal edilmişdir ki, bu da əvvəlki illə müqayisədə 476 ton çoxdur. Ayrıca olaraq ötən il 1116 hektar sahədə şəkər çuğunduru əkilmiş və hər hektardan orta məhsuldarlıq 205 sentner olmaqla, 22867,4 ton məhsul götürülmüşdür. Əldə olunan məhsul qonşu Türkiyə Respublikasına göndərilmiş, şəkər tozuna çevrilərək muxtar respublikamıza gətirilmişdir. Rəqəmlərdən də göründüyü kimi, Dövlət Proqramından irəli gələn vəzifələrin yerinə yetirilməsi nəticəsində Şərur rayonunda da kənd təsərrüfatı

sahəsində böyük nailiyyətlər əldə olunmuşdur. Ən əsası öz əkin sahəsindən bol məhsul götürən torpaq mülkiyyətçiləri öz tələbatını ödəməklə yanaşı, hər həftənin şənbə və bazar günləri muxtar respublikamızda təşkil olunan kənd təsərrüfatı məhsullarının satış-yarmarkasına da məhsul çıxartmışlar. Bununla da torpaq mülkiyyətçiləri həm maddi qazanc əldə edib güzəranlarını yaxşılaşdırmış, həm də regionda kənd təsərrüfatı məhsullarına olan tələbatın daxili imkanlar hesabına ödənilməsinə yardımçı olmuşlar.

Dövlət Proqramının qəbul olunduğu gündən etibarən muxtar respublikamızın bütün regionları kimi, Şərur rayonu da böyük tikinti-quruculuq meydanına çevrilmişdir. Ötən illər ərzində Kapital Bankın Şərur rayon filialı və Qaz İstismar İdarəsi üçün, Dövlət Sosial Müdafiə Fondunun, Maliyyə, Milli Təhlükəsizlik, Vergilər nazirliklərinin rayon şöbələri, 1 saylı Şərur-Sədərək və 2 saylı Şərur seçki dairələri üçün yeni inzibati binalar, həmçinin gənclərin zehni inkişafını daha da artırmaq üçün müasir avadanlıqlarla təchiz edilmiş şahmat məktəbi tikilərək istifadəyə verilmiş, Şərur Rayon Mədəniyyət Sarayı, dəmiryol vağzalının, arxivin, məhkəmənin, "Şərurun səsi" qəzeti redaksiyasının, Yeni Azərbaycan Partiyası Şərur rayon təşkilatının binaları, eyni zamanda gənclərin asudə vaxtlarının səmərəli keçirilməsi üçün nəzərdə tutulmuş "Bahar" kinoteatrı əsaslı surətdə təmir olunmuşdur. Rayonda aparılan abadlıq və quruculuq tədbirlərindən yaşayış binalarına da xeyli pay düşmüşdür. Belə ki, Şərur şəhəri Heydər Əliyev prospekti 34, 48, 50 nömrəli yaşayış binaları, M.Seyidov küçəsi 3, Nizami küçəsi 7 və N.Nərimanov küçəsi 18 ünvanlarındakı yaşayış binaları əsaslı surətdə təmir olunmuşdur. Bu hal Şərur şəhərinin simasını xeyli dəyişdirmiş, vətəndaşların yaşayış tərzini yaxşılaşdırmışdır.

Uzun sürən fasilədən sonra muxtar respublikamıza təbii qazın verilməsi isə bu rayonun sakinlərini də bir çox qayğılardan azad etmişdir. Qaz çəkilişlərinin ilkin mərhələ-

sində rayon mərkəzindəki mənzillər bu qiymətli yanacaq növü ilə təmin edilmiş, pulsuz olaraq hər bir mənzildə qaz sobası və qaz sayğacı quraşdırılmışdır. Bu işlər Yuxarı və Aşağı Aralıq kəndlərində də uğurla başa çatdırılmışdır. Hali-yədə isə Sərxanlı, Məmmədsabir və Qarxun kəndlərində qaz çəkilişi davam etdirilir. Ümumiyyətlə, bu günə kimi Şərur rayonunda 1584 mənzil təbii qazla təmin edilmişdir.

Rayon əhalisinə göstərilən səhiyyə xidmətinin yaxşılaşdırılması üçün Aşağı Aralıq, Tumaslı, Yengicə, Püsyan, Mahmudkənd, Maxta, Dəmirçi, Şəhriyar və Yuxarı Daşarx kəndlərində tibb məntəqələri təmir olunmuşdur. Həmin məntəqələr kənd sakinlərinə ilkin tibbi yardım göstərmək üçün zəruri tibb avadanlıqları və dərman preparatları ilə də təmin edilmişdir. Rayon mərkəzi xəstəxanasına 5 ədəd UAZ, 2 ədəd QAZ-32, 3 ədəd QAZ-31 və 1 ədəd "Niva" markalı avtomobillər verilmişdir. Hazırda isə Şərur Rayon Mərkəzi Xəstəxanası üçün müasir tələblərə cavab verə biləcək yeni bina tikilir. Bu xəstəxananın istifadəyə verilməsindən sonra artıq rayon əhalisinin ağır cərrahiyyə əməliyyatı üçün Naxçıvan şəhərinə, eləcə də qonşu İran İslam və Türkiyə respublikalarına getmələrinə ehtiyac qalmayacaq. Müasir tibb avadanlıqlarının quraşdırılacağı və tanınmış həkimlərin cəlb olunacağı bu səhiyyə obyektində rayon sakinlərinə hər cür səhiyyə xidməti göstəriləcək.

Şərurda aparılan çoxsaylı quruculuq işləri sırasında təhsilə göstərilən dövlət qayğısı xüsusilə diqqəti çəkir. Dövlət Proqramının təsdiq olunmasından bu günə kimi Təzəkənddə 110, Alışarda 414, Vərməziyarda 296, Həmzəlidə 192, Yuxarı Yaycıda 144, Qarahəsənlidə 216, Gümüşlüdə 156, Cəlilkənddə 342, Tənənəmdə 192 şagird yerlik yeni məktəb binaları tikilərək istifadəyə verilib. Bundan başqa, Mahmudkənddə 522, Düdəngədə 624, Şərur şəhərində (2 nömrəli məktəb) 1350 şagird yerlik məktəb binaları əsaslı surətdə təmir olunmuş, müasir avadanlıqlarla, pulsuz dərsliklərlə, bədii ədəbiyyat və lüğətlərlə təmin edilmişdir.

Rayon ərazisində yaşayan qaçqın və məcburi köçkünlərin, həmçinin əlillərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması da diqqətdən kənarda qalmayıb. Nankor qonşumuz Ermənistanın yürütdüyü işğalçılıq siyasəti zamanı öz ev-eşiyindən didərgin düşmüş, yaxud torpaqlarımızın müdafiəsi zamanı sağlamlığını itirmiş soydaşlarımıza Şərur rayonu ərazisində fərdi evlər tikilmişdir. Son illər ərzində Mahmudkənddə 9 ədəd ikiotaqlı və 1 ədəd dördotaqlı, Danyeri kəndində 1 ədəd ikiotaqlı, Dizə kəndində 1 ədəd üçotaqlı, Xətai kəndində 1 ədəd dördotaqlı, Ərəbyengicə və Maxta kəndlərində 1 ədəd dördotaqlı, Kərimbəyli kəndində 1 ədəd üçotaqlı, Yengicə kəndində 4 ədəd üçotaqlı, İbadulla kəndində 1 ədəd ikiotaqlı, Arpaçay və Dizə kəndlərində 1 ədəd üçotaqlı mənzillər bu məqsədlə tikilərək istifadəyə verilib. Ötən il təbii fəlakətin vurduğu ziyanı aradan qaldırmaq məqsədilə Təzəkənddə də 17 yeni fərdi yaşayış binası tikilmiş, 20 fərdi ev əsaslı surətdə təmir olunmuşdur. Sadalananlar dövlətin öz vətəndaşlarına olan qayğısının ən bariz nümunəsi sayıla bilər.

Muxtar respublikamızın digər regionlarında olduğu kimi, Şərur rayonunda da əlamətdar hadisələrdən biri kənd yaşayış məntəqələrində kənd mərkəzlərinin tikilməsidir. Bələdiyyə, icra nümayəndəliyi, polis və poçt xidməti üçün ayrıca otaqları olan belə mərkəzlərin istifadəyə verilməsində başlıca məqsəd kənd əhalisinin yaşayış tərzini yaxşılaşdırmaqdan ibarətdir. Bununla həm də kənd əhalisinin şəhərə axınının qarşısı alınır. Hazırda belə obyektlərin tikintisi Şərur rayonunun Axura və Kərimbəyli kəndində uğurla davam etdirilir.

Ötən illər ərzində rayonun yol təsərrüfatı sahəsində də mühüm işlər görülmüşdür. Yol çəkməyin, körpü salmağın xeyirxahlıq nümunəsi olduğunu yaxşı dərk edən şərurlular təkcə 2004-cü ildə Yengicə-Alışar avtomobil yolunda 3,3, Vərməziyar kəndində 1,1, Düdəngə kəndində 0,7 kilometr asfalt örtüyü bərpa etmiş, Şərur-Danyeri avto-

mobil yolunda 5, Sərxanlı-Aralıq yolunda 5, Şərur-Qarxun avtomobil yolunda isə 3 kilometr məsafədə təmir işləri görmüşlər. Yola saldığımız ildə Arpaçay üzərində Oğlanqala və Dizə kəndlərini birləşdirən körpü əsaslı təmir olunmuş, Dizə kəndinin avtomobil yoluna 1,2 kilometr, Şərur-Kürkəndi avtomobil yoluna 3 kilometr, Cəlilkənddə kəndarası yollara 590 metr, Tənənəm kəndində isə 490 metr məsafəyə asfalt örtük döşənmişdir.

Kəndlərlə rayon mərkəzinin, eləcə də muxtar respublikamızın digər regionları ilə Şərurdakı yaşayış məntəqələrinin əlaqələrini daha da gücləndirmək üçün bölgədə rabitənin inkişafına da daim diqqət yetirilmişdir. Bunun nəticəsidir ki, Şərur Rayon Rabitə İdarəsi tərəfindən 2004-cü ildə 393, 2005-ci ildə 811, ötən il isə 557 yeni telefon xətti çəkilib istifadəyə verilib. Yola saldığımız il ərzində rayon rabitəçiləri tərəfindən Ələkli kəndində 192 abonentlik elektron ATS quraşdırılmış, Çomaxtur kəndinə yeni 100 nömrə tutumlu kabel xətti çəkilmişdir. Bundan başqa, Şərur mərkəzi ATS-dən Məmmədsabir, Muğancıq Müslüm, Muğancıq Mehrab, Sərxanlı kəndlərinə yeni 100 nömrə tutumlu kabel xətti çəkilərək istifadəyə verilmişdir.

Ölkə başçısı tərəfindən qəbul edilmiş Dövlət Proqramının əsas məqsədlərindən biri də regionların sosial-iqtisadi inkişafına nail olmaqla yerli əhalinin məşğulluğunu təmin etməkdən ibarətdir. Bu baxımdan da Şərur rayonunda mühüm tədbirlər həyata keçirilib. Xatırladaq ki, 2004-cü ildə rayonda 1150, 2005-ci ildə 1149, 2006-cı ildə isə 1157 yeni iş yeri açılmışdır. Ümumilikdə isə son üç il ərzində Şərur rayonunda 3456 yeni iş yeri açılıb. Bölgədə yaşayan əhalinin işlə təmin olunaraq rifah halının yaxşılaşmasında Şərur Rayon Məşğulluq Mərkəzi kollektivinin də əməyi böyükdür. Belə ki, Dövlət Proqramının qəbulundan ötən müddət ərzində mərkəz tərəfindən 3638 nəfər iş axtaran qeydiyyata alınmışdır. Görülən işlər nəticəsində mərkəz tərəfindən 2004-cü ildə 415 nəfər, 2005-ci ildə 359 nəfər, 2006-cı ildə

isə 382 nəfər işlə təmin edilmişdir.

Bəli, bu gün Azərbaycanımızın hər bir regionu kimi, muxtar respublikamızın da bütün rayonlarında, o cümlədən də qədim oğuz-türk yurdu olan Şərur bölgəsində aparılan genişhəcmli tikinti-quruculuq və abadlıq tədbirləri bu qədim diyarın da simasını tanınmaz dərəcədə dəyişib. Bu isə yerli əhalinin gün-güzəranını, yaşayış səviyyəsini daha da yaxşılaşdıraraq, onlarda Vətənə, torpağa olan sevgini, eləcə də el-obaya olan bağlılığı artırıb.

**R.İ. 13.III.2007**

## Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının qəbulundan 3 il ötür

*"Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının təsiri çoxşaxəlidir. Bunun həm siyasi, həm iqtisadi, həm də sosial mənası çox böyükdür. Mən çox şadam ki, bu üç il ərzində görülən işlər doğrudan da Azərbaycanın regionlarının inkişafına yenilik gətirdi. Regionda fəaliyyət göstərən insanlar çox fəaldırlar. Azərbaycan əhalisinin əksəriyyəti regionlarda yaşayır. Belə olan halda, biz diqqətimizi daha da artırmalıyıq, onlara hərtərəfli dəstək verməliyik".*

*İlham ƏLİYEV,*

*Azərbaycan Respublikasının Prezidenti*

## Naxçıvanın Şərqə açılan qapısı: Culfa Son illər bu sərhəd rayonunun sosial-iqtisadi həyatında böyük dəyişikliklər yaranıb

Heç kəsə sirr deyil ki, əvvəlki illərdə regionlar ölkənin paytaxtından iqtisadi inkişafına görə xeyli geridə qalırdı. Yoxsulluğun və işsizliyin səviyyəsi bölgələrdə daha yüksək idi. Digər tərəfdən bu və digər amillərə görə bölgələrdən paytaxta güclü əhali axını yaranmışdı. Nəticədə ölkədə kənd təsərrüfatı məhsullarının istehsalı aşağı düşmüşdü və regionlarda sosial-iqtisadi inkişaf tələb olunan səviyyədən xeyli geri qalırdı. Bütün bunları nəzərə alan ölkə başçısı İlham Əliyev 11 fevral 2004-cü ildə "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)" adlı mühüm bir sənədə imza atdı. Bu-

nunla da bölgələrimizin hərtərəfli inkişafına start verildi. Əvvəllər heç bir istehsal sahəsi olmayan əksər şəhər və rayonlarda yeni müəssisələr, fabriklər yaradıldı, ən yüksək səviyyədə tikinti-quruculuq və abadlıq işləri aparıldı, infrastruktur layihələri həyata keçirildi. Nəticədə isə hər bir regionumuz inkişaf edərək özünün intibah dövrünə qədəm qoydu.

Deyilənləri blokada şəraitində yaşayan muxtar respublikamıza, eləcə də regionumuzun Şərqə açılan qapısı, mühüm nəqliyyat qovşağı sayılan Culfa rayonuna da şamil etmək olar...

Culfa muxtar respublikamızın Şərqə açılan giriş-çıxış qapısı, mühüm nəqliyyat qovşağıdır. Ərazisi min kvadrat kilometrdir. Rayonda 24 kənd yaşayış məntəqəsi və bir şəhər mövcuddur. Naxçıvan şəhərindən 40 kilometr Cənub-Şərqdə yerləşən bu yurd yerində insanlar hələ eramızdan əvvəl XIII-XII əsrlərdən başlayaraq yaşayıblar. Rayonun mərkəzi sayılan Culfa şəhəri isə orta əsrlərdə daha da inkişaf edərək nəinki Naxçıvan bölgəsinin, eləcə də Azərbaycanın iqtisadi həyatında əhəmiyyətli rol oynayan bir ticarət mərkəzinə çevrilmişdir. Sonralar uzun sürən Səfəvi-Osmanlı müharibələri bu böyük şəhərin inkişafına öz mənfi təsirini göstərsə də, əhali öz dədə-baba yurdlarını yenidən dirçəldərək şəhərin əvvəlki qüdrətini özünə qaytara bilib. Əcdadlarının torpağa olan sonsuz məhəbbətini yetərincə mənimsəmiş müasir culfalılar da alın təri, əllərinin qabarı ilə yaşamağı üstün tutaraq bu gün də Culfanın inkişafına öz töhfələrini verməkdədirlər. Söylədiklərimin həqiqət olub-olmadığını bilmək istəyən hər bir kəs yolunu Culfa rayonuna salsa bütün bunların şahidi ola bilər.

Hər bir məmləkətin inkişaf səviyyəsini müəyyən edən başlıca şərtlərdən biri yol olduğundan elə söhbətimə də Culfanın yollarından danışmaqla başlamaq istəyirəm. Ölkə başçısının qəbul etdiyi Dövlət Proqramına uyğun olaraq 2004-cü ildə 7,3 kilometrlik Dərəlik-Ərəzin avtomobil

yolunun qara örtüyü bərpa olunaraq istismara hazır vəziyyətə gətirilib. Nəqliyyatın hərəkətini daha da yaxşılaşdırmaq məqsədilə 30 kilometr uzunluğundakı Culfa-Ordubad magistral yolu da yenidən qurulub. 2005-ci ildə isə Milax kəndində tikilən yeni məktəbə gedən yola yeni asfalt örtük salınmış, Xoşkeşin və Əlincə kəndlərinin avtomobil yollarında qara örtüyün bərpası işləri başa çatdırılmışdır. Bundan başqa, Culfa şəhərinin daxili avtomobil yollarında, şəhərin çıxışında, "Əshabi-Kəhf" ziyarətgahına giriş avtomobil yolunda, Bənəniyar-Ərəfsə-Boyəhməd yolunda asfalt-beton örtüklərin təmiri başa çatdırılmışdır. İran İslam Respublikası ilə Culfa rayonunu birləşdirən gömrük sərhəd keçidində isə körpü yenidən təmir olunmuşdur. Yol təsərrüfatı sahəsində görülən işlər ötən il də uğurla davam etdirilmişdir. Belə ki, rayonun Yaycı kəndinə giriş avtomobil yolunun 3,4 kilometrlik asfalt-beton örtüyü əsaslı təmir edilmiş, Culfa şəhərinin 1,2 kilometrlik daxili avtomobil yoluna yeni asfalt örtük salınmışdır. Həmçinin, Ləkətağ-Boyəhməd avtomobil yolunun 2 kilometr, Milax-Teyvaz avtomobil yolunun 3 kilometr hissəsinə çınqıl örtük verilmiş, Dizə kəndi ərazisində 5 kilometrlik yolun asfalt-beton örtüyündə, Çeşməbasar-Ərəfsə yolunda, Culfa şəhərinin daxili avtomobil yollarında çalaların təmiri, Qazançı kəndində körpünün təmiri, Culfa-Gülüstan avtomobil yolunun 2 kilometrlik çınqıl örtüyünün təmiri başa çatdırılmışdır. Hazırda isə uzunluğu 1,25 kilometr olan Culfa Gömrük Məntəqəsi yolunda abadlıq işləri davam etdirilir. Bütün bu işlərin görülməsində başlıca məqsəd kəndlər arasındakı əlaqələri daha da yaxşılaşdırmaqdan ibarətdir.

Ölkəmizin bütün regionları kimi, Culfada da iqtisadi inkişaf geniş tikinti-quruculuq tədbirləri ilə müşayiət olunur. Belə ki, son illər ərzində rayonda gömrük və qaz istismarı idarələri, rayon prokurorluğu üçün inzibati binalar tikilərək istifadəyə verilmişdir. Bununla da bölgədə yeni iş yerləri açılmış və rayon sakinlərinin rifah halı yaxşılaşdırılmışdır. Yenicə istifadəyə verilən şahmat məktəbi isə rayondakı ye-

niyetmə və gənclərin asudə vaxtlarının səmərəli təşkilinə, həmçinin də onların zehni inkişafına müsbət təsirini göstərmişdir. Culfa şəhərində aparılan quruculuq işlərindən isə ən çox pay ümummilli liderimizin adını daşıyan prospektə düşmüşdür. Burada bir-birindən yaraşıqlı binalar ucaldılıb, böyük abadlıq işləri aparılıb. Prospektdə yerləşən 3A, 41, 41A və 35 nömrəli binaların fasadlarının və dam örtüklərinin əsaslı təmiri, əlavə olaraq 2200 kvadratmetr ərazidə abadlıq işlərinin görülməsi bu ünvanın gözəllik hüsnünə yeni çalarlar gətirib. Təbriz küçəsindəki 9 və 10 nömrəli yaşayış binaları da diqqətdən kənarda qalmayıb. Buradakı binaların da fasad və dam örtüyü əsaslı təmir olunub. Bu da şəhər sakinlərinin yaşayış şəraitini xeyli yaxşılaşdırıb. Hazırda Cəlil Məmmədquluzadə küçəsində abadlıq işləri davam etdirilir. Culfada sosialyönümlü, birbaşa rayon əhalisinin yaşayışı ilə bağlı quruculuq işlərinin davamı olaraq Bənəniyar və Göydərə kəndlərində kənd mərkəzləri salınmış, tibb və poçt məntəqələri yaradılmış, icra nümayəndəliyi və bələdiyyə üçün yeni inzibati binalar tikilmişdir. Bu isə kənd sakinlərini bir sıra qayğılardan azad edib. Artıq sənədləşmə işi olan, yaxud da ölkəmizin digər regionlarına bağlama və ya pul göndərmək istəyən kənd sakinləri izafi xərc çəkib şəhərə gəlmədən bu problemləri yaşadığı kənddəcə həll edə bilərlər.

Rayonda məskunlaşan məcburi köçkün ailələrinin, eləcə də əlillərin mənzil-məişət problemlərinin həll edilməsinə də böyük diqqət yetirilmişdir. Qazançı kəndində 1 ədəd birotaqlı, Milax kəndində isə 1 ədəd ikiotaqlı mənzil tikilərək məcburi köçkün ailələrinə verilmişdir. Torpaqlarımızın müdafiəsi uğrunda vuruşaraq əlil olmuş vətəndaşlara isə Əbrəqunus, Camaldın və Ərəzin kəndlərində fərdi yaşayış evləri tikilmişdir.

Yola saldığımız illər ərzində rayondakı təhsil müəssisələrinin maddi-texniki bazası da xeyli möhkəmləndirilib. Dövlət Proqramına uyğun olaraq 2004-cü ildə Xanəgah

kəndində 270 şagird yerlik, 2005-ci ildə Milax kəndində 234 şagird yerlik məktəb binaları tikilərək müəllim və şagirdlərin istifadəsinə verilib. Bu sahədə görülən işlər ötən il də uğurla davam etdirilib. Ümumiyyətlə, gələcəyimiz olan uşaqların hərtərəfli təhsil almaları üçün Culfa rayonunun Göydərə kəndində 306, Xoşkeşin kəndində 144 şagird yerlik yeni məktəb binaları tikilmişdir. 320 şagird yerlik Saltaq kənd orta məktəbi isə əsaslı surətdə təmir olunaraq müəllim və şagirdlərin istifadəsinə verilmişdir.

Rayon ictimaiyyətinin həyatında ən önəmli hadisələrdən biri də 14 illik fasilədən sonra Culfaya mavi qazın verilməsidir. Bu məqsədlə 2005-ci ildə Culfa şəhər mərkəzində daxili qaz xətlərinin, həmçinin çoxmərtəbəli binalarda binadaxili qaz kəmərlərinin çəkilişinə başlanılmış, ötən ilin sonuna kimi bu iş uğurla başa çatdırılmışdır. Bu müddət ərzində 1406 mənzil tam qazlaşdırılmış, mənzillər pulsuz olaraq qaz sayğacı və qaz sobaları ilə təmin olunmuşdur. Qaz çəkilişinin ikinci mərhələsinə uyğun olaraq isə yola saldığımız ildə Culfa rayonunda 419 fərdi mənzil, 32 müəssisə və təşkilat tam qazlaşdırılmışdır. Bununla yanaşı, Gülüstan kəndindəki 97 fərdi evin təbii qazla, eləcə də qaz sayğacı və sobası ilə təminatı da başa çatdırılmışdır.

Culfalıların elektrik enerjisinə olan tələbatını yaxşılaşdırmaq üçün isə 2004-cü ildə rayonda gücü 50 meqavat-amper olan 132/110 kilovolt gərginlikli transformator yarımstansiyası quraşdırılmışdır. Bu yarımstansiya İran İslam Respublikasından muxtar respublikamıza daxil olan elektrik enerjisinin miqdarını da xeyli artırmışdır. Həmin il rayon ərazisində 13 ədəd müxtəlif güclü transformator quraşdırılmış, 11 ədəd mövcud yarımstansiyada transformatorlar daha güclüsü ilə əvəz edilmişdir. 2005-ci ildə Culfa şəhərində 320 KVA və 100 KVA, Ərəzin kəndində 100 KVA, Əlincə kəndində 63 KVA, Əbrəqunus kəndində 40 KVA, Ərəfsə kəndində 160 KVA, Bənəniyar kəndində 2 ədəd 160 KVA, Xoşkeşin kəndində 160 KVA, Milax kən-

dində 160 KVA, Yaycı kəndində 63 KVA, Boyəhməd kəndində 100 KVA güclü yeni transformator yarımstansiyaları quraşdırılmışdır. Culfa şəhərində isə 11 mövcud yarımstansiyada transformatorlar daha güclüləri ilə əvəz edilmişdir. Yola saldığımız ildə isə Yaycı kəndində 400, Əlincə kəndində 100, Kırna kəndində 100, Göydərə kəndində 100, Ərəzin kəndində 160, Culfa şəhərində 100 KVA gücündə yeni transformator yarımstansiyaları quraşdırılmışdır. Culfa şəhər mərkəzinin işıqlandırma sistemlərini yeniləşdirmək üçün müvafiq tədbirlər görülmüşdür. Ötən il əhaliyə lazımi səviyyədə elektrik enerjisinin verilməsi ilə yanaşı, mənzillərin sayğaclaşdırılması, istifadə edilən enerji pulunun yığılması işinə də böyük əhəmiyyət verilmişdir. Belə ki, 2007-ci il yanvar ayının 1-nə kimi Culfa rayonunda 1397 mənzildə elektron, 20 müəssisə və təşkilatda isə üçfazalı sayğaclar quraşdırılmışdır.

Culfa aqrar rayon olduğundan iqtisadiyyatının da əsasını kənd təsərrüfatı təşkil edir. Təsadüfi deyil ki, ümummilli liderimiz Heydər Əliyev hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işləyərkən eksperiment olaraq aqrar islahatları ilk dəfə bu rayonda həyata keçirmişdir. Həmin vaxt Şurud və Gal kəndlərində zərərlə işləyən təsərrüfatların bazasındakı texnika və avadanlıqlar, həmçinin də torpaqlar əvəzsiz olaraq əhaliyə paylanmışdır. Beləliklə də Culfa rayonu aqrar islahatların həyata keçirilməsi sahəsində Azərbaycanın "qaranquşu" olmuşdur. Sevindirici haldır ki, kənd təsərrüfatı sahəsində əhaliyə göstərilən böyük diqqət və qayğı Culfa rayonunda bu gün də davam etdirilir. Hazırda rayonda yüksək məhsul verən taxıl sortlarının yetişdirilməsi, suvarma sistemlərinin təkmilləşdirilməsi, güzəştli şərtlərlə kənd təsərrüfatı texnikalarının lizinqə verilməsi, baytarlıq tədbirlərinin genişləndirilməsi kimi işlər görülür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 11 aprel 2005-ci il tarixli sərəncamı ilə təsdiq olunmuş "Naxçıvan Muxtar Respublikasında kartofçuluğun in-

kişafı üzrə Dövlət Proqramı (2005-2010-cu illər)"na uyğun olaraq Culfa rayonunda kartofçuluğun inkişafı üçün sahibkarlara güzəştli kreditlər də ayrılmışdır. Meyvəçiliyin, xüsusən də üzümçülüyün inkişafı üçün mülkiyyətçilərə köməkliklər göstərilmişdir. Bu işlər bu gün də davam etdirilir. Rayonda heyvandarlığı inkişaf etdirmək üçün süni mayalandırma məntəqəsi yaradılmış, lazımi avadanlıqlarla təmin edilmişdir. Bütün yaşayış məntəqələrində mövcud iri və xırdabuynuzlu mal-qaranın müxtəlif xəstəliklərə qarşı müayinəsi və peyvənd işləri aparılmışdır. 2005-ci ildə rayon baytarlıq idarəsinə mikroskop və quruducu aparatın gətirilməsi, 2006-cı ildə isə 1 ədəd "DUK" markalı dərmansəpən avtomaşının alınıb gətirilməsi, eləcə də 2005-ci ildə 2 kombaynın, 1 ədəd toxumsəpənin lizinq yolu ilə Culfa sakinlərinin istifadəsinə verilməsi də kənd təsərrüfatının inkişafına xidmət edən amillərdən olmuşdur.

Kənd təsərrüfatı məhsullarının istehsalını artırmaq üçün əkinəyararlı torpaqların sahəsini artırmaq vacib məqamlardan biridir. Təbii ki, bu zaman suvarma suyunun bol olması başlıca şərtdir. Buna görə də muxtar respublika rəhbərliyinin diqqət və qayğısı ilə regionumuzda, xüsusən də Culfada suvarma suyuna olan tələbatın tam ödənilməsi istiqamətində mühüm işlər görülmüşdür. Təkcə 2006-cı ildə Bənəniyar su anbarının sağ sahil sugətirici kanalı, "Yaycı-1" su nasos stansiyası əsaslı təmir olunmuş, Yaycı gölündə nəzarət-buraxılış qurğusunun tikintisi başa çatdırılmışdır. Əbrəqunus, Bənəniyar və Qızılca kəndlərinin ərazilərində kollektorlar təmizlənmiş, Yaycı kəndində təzyiqli boru xətti dəyişdirilmişdir. Bununla yanaşı, rayon suvarma sistemləri idarəsi tərəfindən Yaycı kəndində 6 kilometr uzunluğunda "Bam" arxı, Kırna kəndində 7,5 kilometr uzunluğunda "Merateş" arxı, Ərəzin kəndində "Nov" və "Şomqar" arxları, Qızılca kəndində isə 3 kilometr uzunluğunda "Balıqlı" su arxı lildən təmizlənmişdir.

Hamıya bəllidir ki, regionların sosial-iqtisadi inkişafı

kənd təsərrüfatı məhsullarının yetişdirilməsi, tədarükü ilə yanaşı, onların emalından da çox asılıdır. Ona görə də dövlət rayonlarda yeni-yeni istehsal müəssisələrinin yaradılmasında maraqlıdır və bu ideyanı həyata keçirmək istəyən hər bir sahibkara böyük köməklik göstərir. Bu qayğının nəticəsidir ki, artıq Culfa rayonunda da yeni istehsal məssisələri yaradılır. Belə ki, ötən illər ərzində Culfa şəhərində, "Dərəlik" adlanan ərazidə, Ərəzin kəndində hər birinin gündəlik istehsal gücü 1 ton olan 3 lavaş sexi işə salınmışdır. Culfa şəhərində makaron sexi istifadəyə verilmişdir. Rayondakı "Yaycı-Şərab" Açıq Səhmdar Cəmiyyətində isə istehsal gücü 20 ton olan un dəyirmanı quraşdırılaraq istifadəyə verilmişdir. Bənəniyar kəndində isə saatda 20 kiloqram torba və 70 kiloqram örtük istehsal edən "Polietilen örtükləri sexi" yaradılmışdır. Hazırda isə burada istehsal həcminin genişləndirilməsi istiqamətində mühüm işlər görülür.

Bəli, regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının icrası ilə əlaqədar muxtar respublikamızın bütün rayonları kimi, qədim oğuz-türk yurdu olan Culfa rayonu da günü-gündən tərəqqi edərək özünün xoşbəxt günlərini yaşayır. Lakin culfalılar bununla arxayınlaşmaq, görülən işlərlə kifayətlənmək fikrində deyillər, daim axtarışdadırlar, təşəbbüskarlıq nümunəsi göstərirlər. Bu xüsusiyyətlər isə yeni-yeni uğurlar üçün təminat yaradır.

**R.İ. 02.III.2007**

## Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının qəbulundan 3 il ötür
## Sədərək iqtisadi inkişaf, mədəni yüksəliş yolunda

Sədərək camaatı qoçaq, qayğıkeş və qədirbiləndir. Ata-baba torpaqlarını qayğı ilə əkib-becərən, təknələrini bol və halal çörəklə təmin edən bu yaşayış məntəqəsinin sakinləri Sədərək uğrunda gedən döyüşlərdə uşaqdan böyüyə kimi silaha sarılıb ermənilərin işğalçılıq siyasətinə qarşı mərdliklə döyüşüblər. Qeyrət qalamız Sədərəyin bir qarış torpağını düşmənə verməyiblər. Onlar doğma torpağı candan əziz tutmaq, göz bəbəyi kimi qorumaqla yanaşı, bu bölgəni abadlaşdırmağı, cənnətə döndərməyi də özlərinin vətəndaşlıq borcu kimi qəbul edib bu müqəddəs vəzifəni şərəflə yerinə yetirirlər. Ölkə başçısı İlham Əliyevin 11 fevral 2004-cü ildə imzaladığı "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)"nda bu rayonun tərəqqisi ilə bağlı nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi istiqamətində görülən işlər isə sədərəklilərdə əzmkarlıq və işgüzarlıq ruhunu daha da yüksəldib. Bunu Dövlət Proqramının qəbul olunmasından ötən üç il ərzində muxtar respublikamızın ucqar sərhəd rayonu olan Sədərəkdə əldə olunan nailiyyətlər də sübut edir.

Rayon iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil etdiyindən bu sahənin səmərəliliyini artırmaq üçün hər il su nasos stansiyalarında və kanallarda işlər vaxtında başa çatdırılıb. Görülən məqsədyönlü tədbirlər nəticəsində 2004-cü ildə rayon ərazisində 2029, 2005-ci ildə 2250, 2006-cı ildə isə 2715 hektar sahədə əkin işləri həyata keçirilib. Təkcə ötən il əkin sahələrindən 3417 ton taxıl, 1210 ton üzüm, 443 ton meyvə, 3871 ton tərəvəz, 1763 ton bostan məhsulları, 116,6 ton dən qarğıdalı, 70,3 ton günəbaxan istehsal

edilib. Rəqəmlərdən də göründüyü kimi, dövlətin kənd təsərrüfatı sahəsinə göstərdiyi qayğı heç də hədər getməyib. Suvarma suyuna olan tələbatın ödənilməsi hesabına əkin sahələrinin ərazisi hər il genişləndirilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında kartofçuluğun inkişafı üzrə Dövlət Proqramının (2005-2007-ci illər) təsdiq edilməsi haqqında" 11 aprel 2005-ci il tarixli sərəncamına uyğun olaraq 2005-ci ildə 16, 2006-cı ildə isə 25 hektar sahədə kartof əkini keçirilib. Kartof əkininin artırılması hesabına ötən il 455 ton kartof istehsal edilib ki, bu da 2005-ci ildəkindən 167 ton artıq olub. Bu isə ərzaq zənbilimizin əsasını təşkil edən kartofa olan tələbatın yerli imkanlar hesabına ödənməsinə şərait yaradıb.

Kənd təsərrüfatının mühüm sahələrindən biri olan heyvandarlığın inkişafına da rayonda geniş imkan yaradılıb. Rayon baytarlıq idarəsi əməkdaşlarının ardıcıl olaraq profilaktik tədbirlər həyata keçirməsi hesabına mal-qara arasında təhlükə yarada biləcək xəstəliklərin qarşısı əvvəlcədən alınıb. Qeyd edək ki, hazırda rayonda 2203 baş iribuynuzlu, 15 min 500 baş xırdabuynuzlu heyvan, 16 min 260 baş ev quşu vardır. Ötən il rayonda 317,5 ton ət, 1436 ton süd, 1 milyon 125 min 200 ədəd yumurta və 16,5 ton yun istehsal edilmişdir ki, bu da regionda heyvandarlığın inkişaf etdirilməsi nəticəsində mümkün olmuşdur. Ən əsası rayon sakinləri bu sahədən kifayət qədər gəlir götürərək yaşam tərzlərini də yaxşılaşdırıblar. Sədərəkdə ümumilikdə kənd təsərrüfatı məhsulları istehsalından 2004-cü ildə 3 milyon 265 min 374 manat, 2005-ci ildə 3 milyon 830 min 421 manat, ötən il isə 4 milyon 141 min manat gəlir götürülüb.

Son 3 il ərzində regionda aparılan genişmiqyaslı quruculuq və abadlıq tədbirləri nəticəsində bu sərhəd rayonunun da siması tanınmaz dərəcədə dəyişib. Dövlət qayğısı hesabına Dövlət Sosial Müdafiə Fondunun, vergilər və maliyyə nazirliklərinin rayon şöbələri, Kapital Bankın rayon fili-

alı, rayon hərbi komissarlığı, əhalinin sosial müdafiəsi və məşğulluq mərkəzləri, rabitə, qaz istismar idarələri üçün yeni inzibati binalar tikilmiş, rayon polis şöbəsinin binasında əsaslı təmir və yenidənqurma işləri aparılmışdır. Mübariz, qədirbilən Sədərək camaatının ulu öndərə olan sonsuz hörmət və ehtiramının məntiqi nəticəsi olaraq Heydərabad qəsəbəsində Heydər Əliyevin əzəmətli abidəsi ucaldılmışdır. Xatırladaq ki, rayonda aparılan quruculuq işləri yalnız yeni inzibati binaların tikintisi ilə məhdudlaşmayıb. Regionda yaşayan hər bir vətəndaşın yaşayış şəraitinin yaxşılaşdırılması ümdə vəzifə kimi qarşıya qoyulduğundan erməni daşnaklarının günahı ucbatından ev-eşiyindən didərgin düşmüş 15 köçkünün ailəsi və Sədərək uğrunda gedən döyüşlərdə iştirak edərək sağlamlıqlarını itirmiş 3 əlilin ailəsi yeni yaşayış binaları ilə təmin edilmişlər. Bundan başqa, Heydərabad qəsəbəsində abadlıq işləri aparılmış, Sədərək kəndinin girişindəki 3 min kvadratmetr əraziyə sal daşlar döşənmişdir. Əhalinin içməli suya olan tələbatını yaxşılaşdırmaq məqsədilə isə 2 artezian quyusu qazılmış, ayrı-ayrı məhəllələrə su xətti çəkilmişdir.

Rayonda aparılan tikinti-quruculuq tədbirləri sabahın kamil vətəndaşlarını yetirən təhsil müəssisələrindən də yan keçməyib. Rayon mərkəzi sayılan Heydərabad qəsəbəsində 420, Qaraağac kəndində 160 yerlik məktəb binaları əsaslı təmirdən sonra müəllim və şagirdlərin istifadəsinə verilib. Qaraağac kənd orta məktəbi üçün əlavə olaraq 3 sinif otağı da inşa edilib. Lakin rayonda təhsilə göstərilən dövlət qayğısı bununla kifayətlənməyib. Bütün tədris müəssisələri pulsuz olaraq dərsliklərlə, bədii ədəbiyyat və lüğətlərlə, o cümlədən digər lazımi avadanlıqlarla təmin olunublar. Ölkə başçısının 21 avqust 2004-cü il tarixli "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı (2005-2007-ci illər) Proqramı haqqında" fərmanına uyğun olaraq isə regiondakı təhsil ocaqlarına 8 ədəd kompyuter dəsti verilib.

Əlbəttə ki, bütün bunlar ümumtəhsil məktəblərinin maddi-texniki bazasını daha da gücləndirmiş, tədrisin səmərə və keyfiyyətinin yaxşılaşmasına şərait yaratmışdır.

Dövlət Proqramında qarşıya qoyulan məqsədlərdən biri də regionlarda yeni iş yerlərinin açılması və vətəndaşların müvafiq işlə təmin edilməsidir. Bu məqsədə çatmaq üçün Sədərək rayonunda da bir sıra tədbirlər həyata keçirilib. Dövlətimizin diqqət və qayğısı nəticəsində müasir tələblər səviyyəsində bu yaxınlarda inşa edilən qaz istismar idarəsində 18 nəfər, rabitə idarəsində 25 nəfər, xalça sexində 63 nəfər, yeni yaradılmış makaron məmulatları sexi və un dəyirmanının hərəsində isə 6 nəfər işlə təmin olunub. Tikiş fabrikinin bu rayonda filialının olması da region əhalisinin məşğulluq probleminin həll olunmasına öz müsbət təsirini göstərib. Ümumiyyətlə, əhalinin məşğulluğu istiqamətində ardıcıl işlərin aparılması nəticəsində 3 il ərzində 113 nəfər daimi, 50 nəfər müvəqqəti xarakterli işlə təmin edilib. Müəyyən fasilələrlə keçirilən əmək yarmarkalarında 114 nəfər rayon sakininə iş verilib. Rayon əhalisinin sosial vəziyyətinin yaxşılaşdırılması məqsədilə Əhalinin Sosial Müdafiəsi Mərkəzi tərəfindən 2004-cü ildə 1415 nəfərə, 2005-ci ildə 1405 nəfərə, ötən il isə 857 nəfərə müavinət təyin olunub. Bu illər ərzində birdəfəlik müavinət verilənlərin sayı isə 674 nəfər olub.

Abad diyar yolundan tanınar. Bu, yüzilliklərin sınağından çıxmış bir məsəldir. Elə Sədərəyə yolu düşənlər bu məsəlin nə qədər yerində söyləndiyinin bir daha şahidi olarlar. Belə ki, nəqliyyatın gediş-gəlişini tənzimləmək məqsədilə Yol Təmir-İstismar İdarəsi tərəfindən mərkəzi və ara yollarda mütəmadi olaraq təmir-bərpa işləri aparılıb. 2004-cü ildə 11 min, 2005-ci ildə isə 440 kvadratmetr sahəyə asfalt beton örtüyü döşənib. Yola saldığımız il ərzində isə avtomobil yollarında cari təmir işləri aparılıb. Rayonda əhalinin yaşayış şəraitini yüksəldən amillərdən biri də təbii qaz və elektrik enerjisindən istifadə edilməsidir. Bu məqsədlə

Sədərəkdə 110/35 kilovoltluq yeni elektrik yarımstansiyası tikilib. Mövcud transformatorlarda isə təmir işləri aparılıb ki, bu da inzibati və yaşayış binalarının, eləcə də istehsal müəssisələrinin elektrik enerjisinə olan tələbatını xeyli yaxşılaşdırıb. Bir vaxtlar möcüzə kimi görünən qaz xətlərinin regiondakı evlərə çəkilişi burada yaşayanların böyük sevincinə səbəb olub. Hamı ucuz və keyfiyyətli olan bu yanacaq növündən istifadə edərək gündəlik məişət qayğılarının böyük bir qismindən azad olub. Hazırda rayonun Heydərabad qəsəbəsindəki, Sədərək və Qaraağac kəndlərindəki mənzillərdə mavi qaz şölələnir.

Yalnız muxtar respublikamıza xarakterik olan xüsusiyyətlərdən biri də rayonlararası telefon danışıqlarının pulsuz olmasıdır. Bunu blokada şəraitində yaşayan regionumuz üçün böyük dövlət qayğısı hesab etmək olar. Bu qayğının nəticəsində ucqar sərhəd rayonunda yaşayan bir vətəndaş digər bir sərhəd rayonunda yaşayan qohum-əqrəbasından, dost-tanışından hal-əhval tuta bilir. Özü də heç bir vəsait ödəmədən. Sədərək rayonunda da bu, belədir. Qəsəbə ilə kəndlərlə, o cümlədən paytaxt şəhərimizlə, digər rayonlarla rabitə əlaqəsini daha da yaxşılaşdırmaq məqsədilə bu gün də məqsədyönlü işlər görülür. Qeyd edək ki, təkcə ötən il Sədərək rayonundakı 173 yaşayış evinə yeni telefon xətti çəkilib. Rabitəçilər tərəfindən əhaliyə 2004-cü ildə 60 min 620, 2005-ci ildə 63 min 531, 2006-cı ildə isə 58 min 852 manatlıq xidmət göstərilib.

Rayonda səhiyyə xidmətinin yüksəldilməsi istiqamətində də işlər görülüb. Quruculuq tədbirləri çərçivəsində rayon mərkəzi xəstəxanasında yeni istilik sistemi qurulmuş, cari təmir işləri aparılmışdır. Heydərabad qəsəbəsində isə müasir tələblərə cavab verən həkim-ambulatoriyası istifadəyə verilmişdir. Bu tibb müəssisələrinin sırasına yeni istifadəyə verilən məktəblərdəki feldşer-mama məntəqələrini də əlavə etmək olar. Ümumiyyətlə, rayondakı səhiyyə obyektləri zəruri dərman preparatları və avadanlıqlarla da tə-

min olunub.

Sadalananlardan da aydın olur ki, doğma Azərbaycanımızın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası, eləcə də Sədərək rayonu əsl vətəndaşlıq yanğısı ilə bu gün yenidən qurulur. Məqsədin aydınlığı, niyyətin saflığı isə sədərəklilərin ürəklərinə sonsuz təpər, qollarına yenilməz güc, qüvvət verir. Bir vaxtlar nankor qonşumuz Ermənistanın işğal etmək istədiyi bu rayon günü-gündən inkişaf edərək düşmən üçün göz dağına çevrilir.

**R.İ. 28.III.2007**

## Kəngərlidə quruculuq işləri təkcə rayon mərkəzində aparılmır
## Qarabağlar, Böyükdüz, Xıncab kəndlərində görülən işlər onlara şəhər mədəniyyəti gətirib

Son illər ölkəmizdə aparılan tikinti-quraşdırma və abadlıq işləri, sosial-iqtisadi tərəqqi, demək olar ki, bütün regionlarda özünü büruzə verir. Muxtar respublikamızda isə bu inkişaf, yeniləşmə daha bariz şəkildə diqqəti cəlb edir. Bu yöndə Kəngərli rayonu da istisna deyil. Belə ki, təkcə son iki il ərzində burada rayon icra hakimiyyətinin, kapital bankın rayon filialının, qaz istismarı idarəsinin, Dövlət Sosial Müdafiə Fondunun rayon şöbəsinin, məşğulluq mərkəzinin, vergilər idarəsinin inzibati binaları tikilərək istifadəyə verilmişdir. Dövlətimiz tərəfindən təhsilin inkişafına da böyük önəm verildiyindən ötən illər ərzində rayonun Şahtaxtı kəndində 594 şagird yerlik orta məktəb binası yenidən qurularaq, Xıncab kəndində isə Heydər Əliyev Fondunun "Yeniləşən Azərbaycana yeni məktəblər" Proqramına uyğun olaraq 144 şagird yerlik yeni məktəb binası inşa edilərək müəllim və şagirdlərin ixtiyarına verilmişdir.

Günü-gündən gözəlləşərək öz simasını dəyişən Kəngərli rayonunda cari ildə də quruculuq tədbirləri sürətlə davam etdirilir. Bu quruculuq nişanələri ilə daha yaxından tanış olmaq və onlar barədə ətraflı məlumat toplamaq üçün ilk baş çəkdiyimiz ünvan rayonun Böyükdüz kəndi oldu. Şose yolundan sola burulub kəndin mərkəzinə doğru irəlilədikcə yol boyu səliqə ilə əkilən ağaclar bu kəndin gözəlliyi barədə bizdə ilkin təsəvvür yaradırdı. Əbəs yerə deməyiblər ki, mədəniyyət yoldan başlanır. Geniş, şəffaf asfalt örtük salınan yolla hərəkət edərkən ata-babalarımızın uzaqgörənliklə söylədiyi bu sözlərin nə dərəcədə həqiqətə uyğun

olduğunu bir daha yəqin edirdim.

Bu yaşayış məntəqəsinin mərkəzində inşa olunan ikimərtəbəli, 288 şagird yerlik orta məktəb binası uzaqdan diqqəti çəkməklə kəndin gözəlliyinə yeni çalarlar gətirir. Avropa standartlarına cavab verən bu təhsil ocağında 14 sinif otağı, laboratoriya və fənn kabinələri yaradılmış, həmçinin müasir istilik sistemi quraşdırılmışdır. Bunlardan başqa, məktəb binasının ətrafı abadlaşdırılmış, ərazisi dəmir məhəccərə alınmış, su xətti çəkilmiş, həyətyanı sahəsində müxtəlif növ dekorativ ağaclar əkilmiş və gülzarlıqlar salınmışdı. Söhbət əsnasında öyrəndim ki, 191 şagird yerlik köhnə məktəb binası tamamilə yararsız vəziyyətə düşübmüş. Bir parta arxasında 3 və ya 4 şagirdin oturduğu sinif otaqlarının vəziyyəti sərt qış aylarında isə daha acınacaqlı olurdu. Amma pis günün ömrü də az olub. Muxtar respublikamızda təhsilə göstərilən diqqət və qayğı nəticəsində bu ilin iyun ayında köhnə məktəb binası sökülərək yerində yenisi inşa edilmişdir. Budur, tikintisi Vayxır Su Tikinti-Quraşdırma İdarəsi tərəfindən həyata keçirilən təhsil ocağı istifadəyə demək olar ki, tam hazır vəziyyətdədir.

Kənddə əhaliyə səhiyyə xidmətinin yaxşılaşdırılması məqsədilə feldşer-mama məntəqəsi də tikilir. Kənd icra nümayəndəliyinin və yerli bələdiyyənin yerləşdiyi inzibati bina isə əsaslı təmir olunur. Hazırda adıçəkilən obyektlərdə yeni avadanlıqların yerləşdirilməsinə başlanılıb.

Kəngərlidə baş çəkdiyimiz ikinci ünvan rayon mərkəzində inşası başa çatdırılan 40 çarpayılıq yeni xəstəxana binası oldu. Tikintisi Əcəmi Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən həyata keçirilən bu obyekt öz gözəlliyi ilə seçilir. 2 mərtəbə və zirzəmi qatından ibarət olan binanın birinci mərtəbəsində qadın məsləhətxanası, təcili-tibbi yardım şöbəsi, laboratoriya otağı və kabinələr, ikinci mərtəbədə cərrahiyyə və doğum şöbələri, həmçinin palatalar yerləşdirilib. Binanın zirzəmi qatı isə rentgen və fizioterapiya şöbələri üçün nəzərdə tutulub. Səhiyyə xidmətinin səviyyəsini mü-

asir tələblər səviyyəsinə çatdırmaq üçün xəstəxanaya yeni protativ rentgen və ultra səs müayinə aparatları, həmçinin mebel dəstləri gətirilərək müvafiq otaqlarda quraşdırılıb. Bundan başqa, binada istilik sistemləri quraşdırılmış, rabitə və digər kommunikasiya xətlərinin çəkilişi başa çatdırılmışdır. Xəstəxananın ətrafında abadlıq işləri aparılaraq həyətyanı sahədə yaşıllıq zolaqları, gülzarlıqlar salınmış, müxtəlif növ bəzək ağacları əkilmiş, istirahət üçün oturacaqlar quraşdırılmışdır. Avtomobillərin və piyadaların hərəkəti üçün nəzərdə tutulmuş yollara isə sal daşlar düzülmüşdür.

Rayon mərkəzində olarkən baş çəkdiyimiz digər ünvan inşası davam etdirilən rayon polis şöbəsi üçün inzibati bina oldu. Rayon tikinti-quraşdırma idarəsi tərəfindən 2005-ci ilin axırlarından tikintisinə başlanılmış bu bina da öz görünüşü ilə əraziyə xüsusi gözəllik bəxş edir. O, iki mərtəbədən və zirzəmi qatından ibarətdir. Hazırda binada son tamamlama işləri görülür. Belə ki binanın fasadı rənglənir, həyətyanı sahədə yaşıllıq zolaqları üçün yerlər hazırlanır, piyada yollarına, gəzinti sahələrinə sal daşlar düzülür.

Bəli, Kəngərli rayonunda da tikinti-quruculuq, abadlıq işləri bu il də böyük vüsətlə aparılır. Təkcə rayon mərkəzində deyil, ayrı-ayrı yaşayış məskənlərini də əhatə edir. Qarabağlar, Şahtaxtı, Xok, Xıncab, Çalxanqala kəndlərində də belə obyektlərə rast gəlmək olar. Bunlar isə bir daha göstərir ki, dövlətimizin iqtisadi qüdrəti artdıqca yerlərdə aparılan tikinti-quruculuq işləri də çoxalacaq.

**R.İ. 15.09.2006**

## Necə yaşayırsan, sərhəd kəndi?
## Sədərəkdə quruculuq əhval-ruhiyyəsi sakinləri torpağa daha sıx bağlayıb

Ümumi ərazisi 2721 hektardan ibarət olan Sədərək kəndində 7013 nəfər yaşayır. 2633 təsərrüfatı olan bu kənddə 1496 ev var. Əhalinin əsas məşğuliyyəti üzümçülük, taxılçılıq, meyvəçilik, bostançılıq və heyvandarlıqdır. İlk dəfə muxtar respublikamızda həyata keçirilən aqrar islahatlar nəticəsində burada hər bir sakinə 2100 kvadratmetr torpaq payı düşüb.

Dövlətimizin torpaq mülkiyyətçilərinə göstərdiyi diqqət və qayğını layiqincə qiymətləndirən kənd sakinləri isə bunun müqabilində həmin əraziləri boş qoymayaraq müxtəlif növ əkin keçiriblər. Belə ki, təkcə ötən il bu torpaqlarda 340 hektar buğda, 44 hektar arpa, 45 hektar şəkər çuğunduru, 40 hektar qarğıdalı, 6 hektar kartof, 5 hektar noxud, həmçinin, ümumilikdə 144 hektar olmaqla başqa növ tərəvəz məhsulları və 78 hektardan bostan məhsulları götürüblər. Alnının təri ilə yaşayan sədərəklilərin bu məhsulları becərmək üçün çəkdikləri əziyyət də hədər getməyib. Yığım zamanı buğdanın hər hektarından 33,2 sentner, arpadan 26 sentner, kartofdan 180 sentner, noxuddan 33,5 sentner, günəbaxandan 18,5 sentner, tərəvəzdən 114 sentner, bostan bitkilərinin hər hektarından isə 117 sentner məhsul götürülüb.

Nahaq yerə deməyiblər ki, texnika əkinçinin sağ əlidir. Bu mənada sədərəklilərin köməyinə öz həmkəndliləri İskəndər Quliyev, Süleyman Bayramov, Ramazan Şahverdiyev, Səttar Əliyev və Elşən Abbasov gəliblər. Belə ki, torpağın şumlanması, pərşumlanması, çizellənməsi, tapanlanması, toxumun səpilməsi və gübrələnməsi vaxtında həyata keçirilib. Kənd sakinləri Elman Əliyev və İskəndər Əliyev

isə aqrolizinq yolu ilə əldə etdikləri müasir kombaynlarla göz işlədikcə uzanan "sarı kəhrəba" zəmilərinin məhsulunu zamanında və itkisiz yığmağa nail olublar.

Bütün sahələrdə məhsuldarlığın yüksək olmasına bir səbəb də kənd əhalisinin suvarma suyu ilə təmin olunmasıdır. Araz çayının kənarında quraşdırılan 4 pilləli nasos stansiyası vasitəsilə 33 kilometr uzunluğunda olan 3 kanala su vurulur ki, bu da kəndin müxtəlif yerlərində əkinəyararlı torpaqların vaxtında suvarılmasını təmin edir. Bundan başqa 8 kilometr uzunluğundakı boru kəməri vasitəsi ilə kəndə gətirilən suvarma suyundan da təsərrüfatlarda istifadə olunur. Əhalinin içməli suya olan tələbatını ödəmək üçün əsas mənbə isə kəndin üst hissəsindəki bulaqdır. Belə ki, burada 2 ədəd subartezian quyusu vurulmuş və 5 kilometr uzunluğunda borular vasitəsilə kəndin 26 nöqtəsinə su xətti çəkilmişdir. Ümumi götürəndə bu yaşayış məntəqəsindəki 60-a yaxın subartezian quyusu kənd əhalisinə xidmət edir.

Kənddə əhalinin əsas məşğuliyyətindən biri də heyvandarlıqdır. İndi Sədərəkdə elə adam tapmazsan ki, təsərrüfatında 2 və ya 3 baş iribuynuzlu, yaxud da 5-6 baş xırdabuynuzlu heyvanı olmasın. Torpaq mülkiyyətçisi üçün gəlirli sahələrdən birinə çevrilən heyvandarlığı inkişaf etdirən sədərəklilərin toyuq-cücəsinin sayı-hesabı isə bilinmir. Qeyd edək ki, ümumilikdə, Sədərək kəndində 1691 baş mal-qara, 9035 baş davar var.

Kənd təsərrüfatı və heyvandarlıqla yanaşı, Sədərəkdə əhalinin bir qismi də dövlət idarələrində və istehsal müəssisələrində çalışır. Belə ki, dövlətimizin diqqət və qayğısı nəticəsində müasir tələblər səviyyəsində bu yaxınlarda inşa edilən qaz istismar idarəsində 18 nəfər, rabitə idarəsində 25 nəfər, makaron sexində 6 nəfər, xalça sexində 63 nəfər, un dəyirmanında isə 6 nəfər işlə təmin olunub. Tikiş fabrikinin Sədərək rayon filialının bu yurdun ərazisində fəaliyyət göstərməsi də kənd sakinlərinin məşğulluq proble-

minin həll olunmasına təsir göstərib.

Onu da əlavə edim ki, kənddə rabitənin inkişaf səviyyəsi də qaneedicidir. Belə ki, buradakı elektron tipli ATS-in 1270 nəfər abunəçisi var ki, onlardan da 9-u yeni abonentlərdir. Bundan başqa, muxtar respublikamızın hər yerində olduğu kimi, Sədərək rayonunun bütün yaşayış məntəqələrində, o cümlədən Sədərək kəndində də qaz çəkilişi uğurla davam etdirilir. İşlərin bu cür sürətlə getməsi onu deməyə əsas verir ki, yaxın gələcəkdə ən ucqar sərhəd kəndimizdəki mənzillərdə də mavi qaz şölələnəcək.

Qarşıdan gələn qış aylarında əhalinin elektrik enerjisi ilə təmin edilməsi istiqamətində də kənddə bir sıra tədbirlər həyata keçirilib. Kənd ərazisindəki transformatorların hamısında cari təmir işləri aparılmış, istismar müddətini başa vurmuş elektrik xətləri isə yeniləri ilə əvəz olunmuşdur. Bu yaxınlarda isə kənddə gücü 35 kilovolt olan daha bir transformator quraşdırılıb.

Sədərək kəndindəki ən mühüm obyektlərdən biri də 1176 şagird yerlik orta məktəbidir. Kənddə olarkən bu təhsil müəssisəsinə də baş çəkməyi özümə borc bildim. Elə tədris müəssisəsinin direktoru Yalçın Bayramovla da məktəbin dəhlizində qarşılaşdım. Səmimi, mehriban bir insan olan Yalçın müəllim məni məktəblə daha yaxından tanış etdi. Bildirdi ki, ikinövbəli bu təhsil müəssisəsindəki 68 sinifdə, ümumilikdə 1490 nəfər şagird təhsil alır. Muxtar respublikamızın ən böyük tədris müəssisəsi olan bu məktəbdə şagirdlərin təlim-tərbiyəsi ilə 79 müəllim məşğul olur. Keçən il bu məktəbi bitirən 84 şagirddən 18 nəfəri ali məktəbə sənəd vermiş, 5 nəfəri tələbə adını qazanmışdır. Əlbəttə, bu heç də müsbət hal deyil. Bunu məktəbin pedaqoji kollektivi də yaxşı duyur. Bu səbəbdən də onlar öz işlərində ciddi dönüş yaratmağa çalışırlar. Cari ildə isə 128 fidan bu məktəbin birinci sinfinə qədəm qoyub. Məktəb direktoru dövlətimizin təhsilə, o cümlədən də təhsil işçilərinə göstərilən yüksək qayğıdan da danışdı:–Bilik günü ərəfəsində

muxtar respublikamızın digər təhsil ocaqları ilə yanaşı, bizim məktəbə də kifayət qədər dərslik verilib. Bunun müqabilində də şagirdlərin hamısı pulsuz dərs vəsaiti ilə təmin ediliblər. Məktəb kitabxanasının zənginləşdirilməsi də yaddan çıxmayıb.

Müasir avadanlıqlarla təchiz edilmiş 40 çarpayılıq mərkəzi xəstəxananın bu yaşayış məntəqəsində yerləşməsi isə təkcə bu kəndin deyil, ümumilikdə bütün rayon əhalisinin sağlamlığının qayğısına qalır. Xəstəxananın baş həkimi Nəriman Seyidovla söhbət zamanı öyrəndim ki, 60-a yaxın tibb işçisinin çalışdığı bu səhiyyə müəssisəsində terapiya, cərrahiyyə, poliklinika, doğum şöbələri, rentgen və fizioterapiya kabinələri fəaliyyət göstərir. Son illərdə isə xəstəxanada yeni stomatoloji kabinə yaradılmış və lazımi avadanlıqlarla, o cümlədən stomatoloji rentgen aparatı ilə təmin edilmişdir. Xəstəxanada hər cür şəraitin yaradılması rayon sakinlərinin də işini xeyli asanlaşdırıb. Artıq yerli sakinlər müalicə və müayinə üçün uzun yol qət edib qonşu rayona, eləcə də Naxçıvan şəhərinə getmirlər. Onu da qeyd edim ki, son illərin quruculuq ab-havasını bu səhiyyə müəssisəsinin timsalında da aydın görmək olar. Belə ki, xəstəxana binası təmir olunaraq yeni görkəmə salınıb.

Torpaqlarımıza edilən erməni təcavüzünün qarşısını alarkən şəhid olmuş sədərəklilərin xatirəsini əbədiləşdirmək məqsədilə kənddə Şəhidlər xiyabanı da salınıb. Sədərəyin müdafiəsi zamanı öz sağlamlıqlarını itirərək əlil olan kənd sakinləri isə dövlətimizin hərtərəfli qayğısı ilə əhatə olunublar. Belə ki, qanlı döyüşlərdə iştirak edərək qəhrəmancasına həlak olan Mustafa Şirəliyevin ailəsi Naxçıvan şəhərinin Əliabad qəsəbəsində yeni inşa edilən binada 3 otaqlı mənzillə təmin edilib. Eldar Abbasova, Hüseyn Rzayevə və Rəhim Salmanova isə "Oka" markalı avtomobil hədiyyə edilib. Qarabağ döyüşlərində və II Dünya müharibəsində iştirak edən kənd sakinləri də bu qayğıdan kənarda qalmayıblar. II Dünya müharibəsində iştirak edən Rza

Axundov "Oka" markalı avtomobil, Qarabağ savaşında sağlamlığını itirən İlyas İmaməliyev "Oka" markalı avtomobil və Naxçıvan şəhərinin Əliabad qəsəbəsində yeni mənzillə təmin edilmişlər. Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə yaralanan Səyyad Qaybalıyevə isə Heydərabad qəsəbəsində 2 otaqlı mənzil verilmişdir. Onların sosial problemlərinin həll olunması istiqamətindəki ardıcıl tədbirlər bu gün də davam etdirilməkdədir.

**R.I. 27.X.2006**

## Şahbulaq ucqar bir dağ kəndidir

Bir dəfə redaksiyamızda keçirilən "letuçka" yığıncağında Baş redaktorumuzun "gileylərindən" birisi bu oldu:–Ucqar sərhəd kəndlərimizdə yaşayan insanlarımızın həyat və şəraitlərindən, əməklərindən az yazılar yazılır.
Mən də elə o an:–Hansı kəndi məsləhət bilirsiniz, ora getməyə hazıram,--dedim.

Baş redaktorumuzun da məsləhəti o oldu ki, bəlkə Şərurun ən ucqar yaşayış məskənlərindən biri olan Şahbulağa gedəsən. Orada yaşayan insanlar haqqında neçə illərdir ki, bir yazı da dərc etmirik. Bu səbəbdən Şahbulaq kəndinin sakinlərinin bizdən inciməyə, küsməyə haqları da var.

Baş redaktorumuzun bununla bağlı mənə deyəcəyi son sözlər isə belə oldu:–Şahbulaq Şərurun ən gözəl kəndlərindən biridir. Dəniz səviyyəsindən xeyli yüksəklikdə yerləşən bu dağ kəndinə Ulu Tanrının bəxş etdiyi nemətlər, gözəlliklər də az deyil. Bu kəndin ən böyük, ən ali sərvəti isə onun orada yaşayan qorxmaz, qoçaq və vüqarlı insanlarıdır. Onlarla tanış olmağa, süfrə arxasında oturub bir tikə çörək kəsməyə dəyər...

...Qabaq pəncərəsinə yapışdırılmış balaca lövhədə "Şərur-Şahbulaq" sözləri yazılmış "PAZ" markalı avtobus rayon mərkəzinə saat 9 radələrində çatdı. Sərnişinlər bir-birinin ardınca avtobusdan yerə düşüb müxtəlif istiqamətə yön aldılar. Təxminən 50-60 yaşlarında olan sürücü isə onlar gedəndən sonra, adətinə uyğun olaraq avtobusun ətrafını gəzərək arxa və qabaq təkərləri bir qədər ayağı ilə döyəclədi, elə bil onların növbəti səfər üçün hazır olub-olmadığını yoxladı. Sonra isə o, bir qədər avtobusun mühərrikinin ora-burasına nəzər yetirdi. İşini başa vurduqdan sonra mazuta bulaşmış əlini əski parçası ilə silə-silə avtobusun salonuna keçdi. Elə bu an ona yaxınlaşaraq:–Şahbulağa bu avtobus gedəcək?–deyə soruşdum. –Bəli,–dedi və–

yəqin bizim yerlərə qonaq gedirsiniz,–deyə dilləndi. Özümü təqdim edib Şahbulağa getməyimin məqsədini söyləyəndən sonra onunla xeyli söhbət etdik. Həmsöhbətim Məzahir dayı uzun müddətdir ki, sürücülüklə məşğul olur. Hər gün səhər kənd adamlarını rayon mərkəzinə gətirir. Günortaya yaxın, saat 12-də isə onları yenidən öz evlərinə çatdırır. Həm rayon mərkəzində olarkən, həm də Şahbulağa gedəndə öz doğma kəndindən fərəhlə danışan Məzahir dayı son illər bu yaşayış məntəqəsində aparılan quruculuq tədbirlərindən, xüsusən də kənd yollarının təmirindən maraqla söz saldı. Onun dediklərini yolboyu özüm də müşahidə etdim. Əvvəlki çala-çuxurlu, toz-torpaqlı yoldan əsər-əlamət qalmamışdı. Bunun əvəzində yolun xeyli hissəsinə geniş asfalt çəkilmişdi. Ən əsası isə hər tərəfdən sıldırım qayalarla əhatə olunan dağ keçidlərinə "əl gəzdirilmiş", genişləndirilmişdi.

Kənd sakinləri ilə maraqlı söhbət etdiyimdən Şahbulağa necə gəlib çatdığımın fərqinə varmadım. Avtobusdan düşüb kəndin icra nümayəndəsi Xalid Bağırovla əvvəlcədən şərtləşdiyimiz yerdə görüşdüm. Bu qədim yurd yerinin təbiəti, insanları, onların yaşayış tərzləri barədə geniş söhbət etdik. Öyrəndim ki, Şahbulaq Şərur rayonunun ən ucqar dağ kəndlərindən biridir. Rayon mərkəzindən 22 kilometr aralıda yerləşən bu yaşayış məntəqəsi Ermənistanla həmsərhəddir. Dörd bir tərəfdən uca dağlarla əhatə olunmuş kənddə 510 nəfər yaşayır. Onlar əsasən maldarlıq, arıçılıq və bağçılıqla məşğul olurlar.

İcra nümayəndəsinin bələdçiliyi ilə baş çəkdiyimiz ilk ünvan sabahın kamil vətəndaşlarını yetirən kənd orta məktəbi oldu. 14 ildən artıq bu təhsil ocağına direktorluq edən Mirabbas Eminov kəndin acınacaqlı günlərindən, bu ucqar dağ kəndində elmə, təhsilə göstərilən dövlət qayğısından geniş söhbət açdı. Qeyd etdi ki, sovet imperiyası dövründə burada nə kənd adamlarına, nə də gələcəyimiz olan uşaqların təhsil almalarına normal şərait yaradılmayıb. Bir qədər

gözdən uzaq, könüldən iraq düşüblər. Nankor qonşumuz Ermənistanın torpaqlarımıza etdiyi təcavüz nəticəsində isə bu yaşayış məntəqəsində vəziyyət daha da gərginləşib. Dörd bir tərəfdən dağlarla əhatə olunmuş Şahbulağı ələ keçirmək istəyən düşmən min bir hiyləyə əl atsa da, bu kəndin mərd oğulları doğma yurdu tərk etməmiş, Ağsal deyilən yüksəklikdə post quraraq onun müdafiəsinə qalxmışlar.

Ağrılı-acılı günlərin artıq arxada qaldığını bildirən müsahibim dedi ki, ucqar sərhəd kəndi olmasına baxmayaraq Şahbulaq kəndi, o cümlədən bu təhsil ocağı indi hərtərəfli dövlət qayğısı ilə əhatə olunub. Bütün təhsil müəssisələrində olduğu kimi, burada təhsil alan 35 nəfər şagird də pulsuz dərsliklərlə təmin olunub. Məktəbin kitabxanası isə ölkə başçısının imzaladığı sərəncama əsasən latın qrafikası ilə yenidən çap edilmiş bədii ədəbiyyat və lüğətlərlə daha da zənginləşdirilib. Ölkə Prezidentinin imzaladığı sərəncama əsasən bu dağ kəndində də çalışan müəllimlərin əməkhaqları artırılıb. Belə bir halın mövcud olması isə savadlı gənc kadrların Şahbulaq kənd məktəbinə gələrək müəllim işləmələrinə şərait yaradıb. Mirabbas müəllim söylədiklərini isbat etmək üçün bizi özüylə bərabər müəllimlər otağına apardı. Burada əyləşmiş bir neçə müəllimin arasındakı iki gənci mənə göstərərək,–Bu gənclər bizim məktəbimizin fəxridirlər,–söylədi. Həmin gənclərlə tanış olub onların ixtisasları ilə maraqlandım.

Öyrəndim ki, Həşim Bağırov Şərur rayonunun Axura kənd sakinidir. Bu il Naxçıvan Dövlət Universitetinin riyaziyyat və informatika fakültəsini bitirərək təyinatla Şahbulaq kənd orta məktəbinə riyaziyyat fənnini tədris etmək üçün göndərilib. Onun yanında əyləşən Günel Heydərova isə Babək rayonu, Nəzərabad kəndinin sakinidir. O da bu il NDU-nun fizika ixtisası üzrə təhsilini başa vurmuş və təyinatla bu məktəbə müəllim göndərilib. Bu təhsil müəssisəsində tanış olan gənclər bir-birini sevərək bu ya-

xınlarda el adətincə nişanlanmışlar. Onlardan,–Niyə məhz Şahbulaqda müəllim işləməyə üstünlük verdiniz?–deyə soruşdum. H.Bağırov dedi:–Ali məktəbi bitirən zaman mənim qrup yoldaşlarımın əksəriyyəti Naxçıvan və Şərur şəhərlərindəki məktəblərdə işləməyə üstünlük verirdilər. Şəhər məktəblərində isə bizim ixtisası tədris edəcək müəllimlər çox olduğundan buna ehtiyac duyulmurdu. Belə olan halda fikirləşdim ki, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi təyinatımı hara yazsa, oraya gedib işləyəcəyəm. Tale elə gətirdi ki, mənim qismətimə bu kənddə müəllim işləmək düşdü. Etiraf edim ki, buna təəssüflənmirəm. Gələn kimi də burada yaşayış yeri ilə təmin edildim. Düzdür, əvvəllər mühitə uyğunlaşmaqda bir az çətinlik çəkirdim. Ancaq sonralar hər şey öz qaydasına düşdü. İndi məktəbdə 38 saat dərs deyirəm. Bunun müqabilində aldığım maaş da məni qane edir. Təhsil Nazirliyinin rayon mərkəzindən 20 kilometrdən artıq məsafədə çalışan müəllimlərə verdiyi vəsait də daxil olmaqla aylıq qazancım 200 manatı ötür. İnanmıram ki, şəhər məktəblərində müəllim işləyən hər hansı bir gənc bu qədər məvacib alsın. Gənc olduğumuza görə kənd əhalisi də bizə çox böyük hörmət göstərir.

Səhərdən nişanlısının danışığına qulaq asan G.Heydərova da söhbətə müdaxilə edərək öz hisslərini dilə gətirdi:–Mən universiteti qurtaranda atam dedi ki, Təhsil Nazirliyinə gedib xahiş edəcəyəm ki, sənin təyinatını öz kənd məktəbimizə, yaxud da qonşu kənddəki məktəblərin birinə yazsınlar. Ancaq mən qəti etiraz etdim. Dedim ki, hara göndərsələr, orada da işləyəcəyəm. Təyinatımın Şahbulaq kəndinə olduğunu öyrənəndə sevinə-sevinə evimizə gəldim. Lakin valideynlərim cavan qız uşağı olduğumu əsas gətirərək, məni fikrimdən daşındırmağa çalışırdılar. İnadkarlıq nümayiş etdirərək atamla bərabər buraya gəldim və indi düşünürəm ki, o zaman belə bir qərar qəbul etməyim çox yaxşı olub.

Kənd məktəbindən xoş təəssüratlarla ayrılıb Şahbulağın ağsaqqal sakinlərindən bir neçəsi ilə görüşmək arzumu icra nümayəndəsinə bildirəndə o, mənə Hüseyn Cəfərovla həmsöhbət olmağı məsləhət gördü və onun yaşadığı evə tərəf yol aldıq. 77 yaşlı Hüseyn dayı kənddə hər kəsin hörmət etdiyi bir adamdır. Kənd camaatının vəziyyətindən danışan ağsaqqal dedi:–Şükür Allaha, ay oğul, güzəranımızdan gileyli deyilik. Kəndimizdə elə ailə tapmazsan ki, qapısında mal-qarası, toyuq-cücəsi, bağ-bağçası olmasın. Elə götürək bizim məktəb direktorunu. Doğma yurduna çox bağlıdır. Qardaşları, qohum-əqrəbası Bakıda yaşasa da, o, buranı tərk etmir. Müəllimliklə yanaşı, təsərrüfatla da məşğul olur. Maşallah, təkcə onun 22 arı ailəsi var. Hər arı ailəsindən orta hesabla 10 kiloqram bal götürür. Kolxoz dövründə bunu etməkmi olardı? Digər kəndlilər də onun kimi. Qonşularımız Cavanşir Qafarov və Həsən Ələkbərov da çox zəhmətkeş insanlardır. Onların hər ikisi qonşu Türkiyədə çalışıb yaxşı qazanc əldə etmələrinə baxmayaraq, Şahbulağı tərk etmirlər. Əldə etdikləri qazancı bu kəndə gətirib ev-eşik qurur, ailələrini saxlayırlar. Allah hamısının canlarını sağ eləsin. Dövlətimizin bizlərə göstərdiyi qayğıdan isə danışmamaq olmaz. Sakinlərin içməli su problemini həll etmək məqsədilə keçən il 114 diametrlik boru ilə 3 kilometr məsafədən kəndə su xətti çəkilib. Daha qız-gəlinlərimiz uzaq məsafə qət edib içməli su gətirmirlər. Bu yaxınlarda isə kəndin telefonlaşdırılması istiqamətində bir sıra işlər görülüb. Əvvəllər ayda-ildə bir dəfə, o da maşın olanda Şərura, o cümlədən də Naxçıvana gedə bilirdik. İndi hər gün rayon mərkəzinə avtobus gedib-gəlir. Dağlar qoynunda yaşamağımıza baxmayaraq, şəhərlə mütəmadi əlaqə saxlaya bilirik. Ən yaxşı hal isə odur ki, bizim kəndimizin müəllimləri çox savadlıdırlar. Buna əyani misal olaraq deyim ki, Azərbaycan dili və ədəbiyyat müəllimi Mahru Bağırova və tarix müəllimi Aminə Yunisovanın yanına hər gün qonşu Gümüşlü kəndindən uşaqlar

hazırlığa gəlirlər.

Axşamüstü Şahbulağı tərk edəndə hava xeyli tutulmuşdu. Yaxınlıqdakı dağların üstünə xeyli duman çökmüşdü. Kənd sakinlərinin söylədiyinə görə, bir azdan yağış yağacaqdı. Mən isə belə bir vaxtda ilk dəfə görüb-görüşdüyüm adamlardan ayrılası idim. Yolum yenə də qonşu Gümüşlü kəndinədək dağların arasından ötəcək idi... Bu adamlardan ayrılmaq istəmirdim. Nədənsə, mənə elə gəlirdi ki, Şahbulağın bütün adamları vüqarlıdırlar. Dağlar arasında yaşayan bu adamlara bundan özgə ad vermək istəmirdim. Mən də belə vüqarlı, qorxmaz, igid adamlardan birisi olmaq istəyirdim. Lap ucqar sərhəd kəndində yaşayıb-yaradan insanlar kimi.

**R.İ. 17.XI.2006**

## Düşmənə göz dağıdır Heydərabad O, sərhəd xəttində yerləşsə də, günü-gündən böyüyür

Hələ orta məktəbdə oxuduğum illərdə coğrafiya fənninə marağım çox olub. Dünya dövlətlərinin xəritəsi qarşısında uzun-uzadı dayanar, hər bir ölkənin yerləşdiyi ərazini yadımda saxlamağa çalışardım. Bu zaman ən çox diqqətimi çəkən təbii ki, Azərbaycanın yerləşdiyi ərazi olardı. Ölkəmizin şimaldan, cənubdan, şərqdən və qərbdən hansı dövlətlərlə həmsərhəd olduğunu əzbərləyər, eyni zamanda görmədiyim rayonların, bölgələrin sərhədlərini öyrənərdim. Nədənsə Azərbaycanın ayrılmaz parçası olan Naxçıvanın dövlətimizin ərazisindən kənarda qalması məni çox narahat edər, düşündürərdi. Yaşa dolduqca Naxçıvana marağım da güclənirdi. Düşünərdim ki, görəsən Naxçıvan necə yerdir və əgər bura həqiqətən də Azərbaycanın bir parçasıdırsa, nəyə görə ora getmək üçün "icazə almalıyıq"? Ancaq ağlıma da gəlməzdi ki, gələcəkdə mənə nəinki Naxçıvanı görmək, gəzmək, burada ali təhsilimi davam etdirmək qismət olacaq. Naxçıvana gəldiyim ilk gündən bu qədim diyarın tarixi ilə daha yaxından tanış olmağa çalışdım. Vaxtı ilə yalnız tarix kitablarında şəkillərini gördüyüm Möminə Xatun, Yusif ibn Küseyir, Qarabağlar türbələrini, Naxçıvanın əyilməzlik simvoluna çevrilən Əlincə qalasını, müqəddəs ibadətgah yeri sayılan Əshabİ-Kəhfi ziyarət edərək onları canlı olaraq gördüm. Topladığım məlumatlar bu qədim Türk torpağı haqqında məndə xoş hisslər oyatdı. Nə gizlədim, artıq buradakı ab-hava, dövlətçilik ənənələrinin güclü olması, insanlarının sədaqətlə xalqına və dövlətinə xidmət etməsi məni bu torpağa qırılmaz tellərlə bağlayıb. Və indi ona sevinirəm ki, nə yaxşı başqa yaşıdlarım kimi buradan qaçmağa can atmadım.

Həyatımdakı maraqlı hadisələrdən biri də Naxçıvanda nəşr olunan "Şərq qapısı" qəzetində işə düzəlməyim oldu. Qəzetə yazı hazırlamaq üçün bu qədim oğuz-türk yurdunun, demək olar ki, əksər bölgələrinə–Şərura, Naxçıvanın Şərqə açılan qapısı sayılan Culfaya və sair rayonlara tez-tez ezam olunmuşam. Bu yaxınlarda isə Naxçıvanın üç xarici dövlətlə–qonşu İran, Türkiyə respublikaları və Ermənistanla sərhədində yerləşən, alınmaz qala olan Sədərək rayonuna getdim. Düzünü deyim ki, Sədərək haqqında az-çox təsəvvürüm var idi. Bakıda ali təhsil aldığım illərdə Azərbaycan Dövlət Televiziyasında Heydərabad qəsəbəsinə həsr olunmuş sənədli filmə də baxmışdım. O zaman yan-yana sıralanan ikimərtəbəli, səliqəli yaşayış binaları diqqətimi daha çox cəlb etmişdi. Ona görə ki, Azərbaycanın İsmayıllı rayonunun İvanovka, Gədəbəy rayonunun Saratovka kəndlərində də bu cür səliqə-sahman görmüşdüm. Amma fərqli cəhətlər də var. Əvvəla, digər rayonlardan fərqli olaraq burada heç vaxt başqa millətlər kompakt halda yaşamayıblar. Həmçinin inşa edilmiş binalar da həmin yerlərdən fərqli olaraq ikimərtəbəlidir.

Nə isə, asfalt örtüyün üzəri ilə şütüyən maşın təxminən bir saatdan sonra böyük maraqla görmək istədiyim Sədərək rayonunun Heydərabad qəsəbəsinə çatdı. Vaxtı ilə yalnız televiziya ekranında gördüyüm, ən müasir üslubda tikilmiş ikimərtəbəli yaşayış binaları məni lap valeh etdi. Buradakı səliqə-sahman, geniş və abad yollar qəsəbəyə ayaq basan hər kəsin diqqətini cəlb edir. Birbaş rayon icra hakimiyyətinə yollanıb oradakı məsul şəxslərə gəlişimin səbəbini söyləyəndən sonra özüm üçün lazım olan bəzi məlumatları toplamağa başladım.

Öyrəndim ki, Heydərabad qəsəbəsinin əsası hələ 1980-ci illərin əvvəllərindən qoyulub. Həmin vaxt ölkəmizə rəhbərlik edən, xalqımızın dahi oğlu, ümummilli liderimiz Heydər Əliyev qonşu Ermənistan Respublikasının rəhbəri ilə rəsmi görüşdən qayıdarkən sərhədə yaxın olan bu

ərazidə belə bir yaşayış məskənini salmağı vacib bilib. Əslində sərhəd bölgəmizdə möhkəmliyin nə dərəcədə vacib olduğunu hələ o dövrdə duyub. Dediyi kimi: "Bu ərazidə yaraşıqlı, gözəl bir qəsəbə salmaq lazımdır. Layihə isə Baltikyanı ölkələrdən gətirilməlidir...".

Əlbəttə, ulu öndərin o zamankı bu uzaqgörən və gələcəyə hesablanan siyasi qərarının başlıca məqsədi Ermənistanla sərhəd olan ərazini daha da möhkəmləndirməkdən ibarət idi. Beləliklə də, bir zamanlar böyük düzənliyi xatırladan bu ərazi qısa zamanda geniş tikinti meydançasına çevrilir. Hazırlanmış layihə əsasən burada hər cür şəraiti olan 450 ikimərtəbəli bina inşa edilməli idi. 1988-ci ildə artıq 52 mənzil tam inşa edilmiş, 22 mənzilin isə özülü qoyulmuşdu. Lakin "sən saydığını say, gör fələk nə sayır",–deyiblər. Həmin illərdə sovetlər imperiyasının parçalanması və nəticədə Azərbaycanın idarəçiliyinə naşı adamların gətirilməsi bir sıra faciələrə yol açmaqla yanaşı, burada aparılan tikintini də yarımçıq saxladı. Üstəlik də nankor qonşumuz Ermənistanın Azərbaycan torpaqlarına, o cümlədən də Naxçıvana hərbi təcavüzü nəticəsində yenicə istifadəyə verilmiş binalar da sıradan çıxarıldı.

Belə ki, 1990-cı il yanvar ayının 19-da sovet rəhbərləri azərbaycanlıların azadlıq istəyini qan gölündə boğmaq üçün Bakıya qoşun yeridəndə, xain xislətli ermənilər bu vəziyyətdən istifadə edərək Sədərək rayonunu, həmçinin də Heydərabad qəsəbəsini top atəşinə tutmuşlar. Həmin gündən başlayaraq qəsəbədə çox ağır günlər yaşanıb. 1992-ci il may ayının 18-də isə ermənilər qəsəbəyə irimiqyaslı hücuma başlayıblar. Amma "torpaqdan pay olmaz" deyən bütün Naxçıvan əhli silaha sarılaraq Vətənin müdafiəsinə qalxıb və oğulların qanı bahasına qəsəbənin müdafiəsi təşkil olunub.

Sədərəkdə həmsöhbət olduğum ağsaqqal, nurani bir qoca o dəhşətli, eyni zamanda qəhrəmanlıq dolu günləri xatırlayaraq söylədi ki, həmin vaxtlar qızğın döyüşlər

getdiyindən qəsəbənin 100 metrliyində yerləşən Miltəpədə şəhidlik zirvəsinə ucalmış 17 nəfərin cəsədini götürmək mümkün olmayıb. Yalnız Naxçıvan Muxtar Respublikası Ali Məclisinin o vaxtkı Sədri, ümummilli liderimiz Heydər Əliyevin beynəlxalq aləmdəki nüfuzu sayəsində bir günlük atəşkəs elan olunmuş və mayın 28-də şəhidlər döyüş zonasından götürülərək dəfn edilmişlər. 1992-ci ilin 18 may faciəsindən sonra qəsəbənin bütün evləri və inzibati binaları erməni qəsbkarları tərəfindən dağıdılıb xarabazarlığa çevrildiyindən burada yaşamaq mümkün olmayıb. Təhlükəsizliyi təmin etmək məqsədi ilə yerli əhali müvəqqəti olaraq Vəlidağ adlanan əraziyə köçürülmüşdür.

Həmin illərdə Azərbaycanda anarxiya və özbaşınalıq hökm sürdüyündən Naxçıvanın sabahı yalnız taleyin ümidinə qalmışdı. Əllərindən heç bir əməli iş gəlməyən iqtidar nümayəndələri isə səbatsızlıq və təcrübəsizlik ucbatından daha böyük nöqsanlara yol verirdilər. Belə ki, 1992-ci il dekabr ayının 13-də Azərbaycanın müdafiə naziri Rəhim Qazıyev Sədərəyə gələrək buradan Ermənistana tərəf "ikinci cəbhənin" açılması fikrini irəli sürəndə dünya şöhrətli siyasətçi, ümummilli liderimiz Heydər Əliyev bu sərsəm ideyanın qarşısını alaraq qəsəbəni daha böyük faciədən xilas etmişdir.

"Pis günün ömrü az olar",–deyib ata-babalarımız. 1994-cü ildə ümummilli liderimizin səyi nəticəsində Azərbaycan ilə Ermənistan arasında atəşkəs haqqında saziş imzalandıqdan sonra sərhəd bölgəsi olan Sədərəkdə də həyat öz axarı ilə davam etməyə başlayıb. Göstərilən dövlət qayğısı nəticəsində qəsəbədə təmir-bərpa və yenidənqurma işlərinə başlanılıb. 1997-ci il dekabr ayının 3-də isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri nazirlik və baş idarələrin rəhbərləri ilə birlikdə qəsəbəyə baş çəkərək düşmən tərəfindən xarabazarlığa çevrilmiş bu yaşayış məntəqəsinin qısa vaxtda təmir olunması və abadlaşdırılması üçün onlara konkret tapşırıqlar verib. 1998-ci il

may ayının əvvəllərində ümummilli liderimiz Heydər Əliyevin 75 illiyi münasibətilə qəsəbədə 75 yaşayış binası təmir olunaraq istifadəyə verilib. Yerli əhalinin arzu və istəyi nəzərə alınaraq Sədərək rayonunun inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilərək yeni qəsəbəyə ümummilli liderimizin adı verilib. Heydərabad qəsəbəsi və qəsəbə icra nümayəndəliyi yaradılıb. Bundan sonra rayonun bir çox inzibati idarələri rayon mərkəzi olan Heydərabad qəsəbəsinə köçürülüb. Göstərilən dövlət qayğısı nəticəsində 2001-ci ildə qəsəbədə icra hakimiyyəti, rayon məhkəməsi, prokurorluq üçün inzibati binalar tikilib, tarix-diyarşünaslıq muzeyi yaradılıb. 504 şagird yerlik Heydərabad qəsəbə məktəbində əsaslı surətdə təmir və yenidənqurma işləri aparılıb. Sonrakı illərdə burada hərbi komissarlığın, vergilər idarəsinin, maliyyə şöbəsinin, sosial müdafiə fondunun rayon şöbəsinin və Kapital Bankın yerli filialı müasirtipli inzibati binalarla təmin olunublar. Heydərabad qəsəbəsində tikilən yaşayış binalarının da sayı artıb.

Böyük öndərimizin adını daşıyan qəsəbədə olarkən jurnalist marağımı özünə cəlb edən amillərdən biri də düşmən mövqelərinin bizim mövqelərimizə nisbətən yüksəklikdə olması idi. Həmçinin qəsəbədəki binaların hər birindən düşmən mövqeləri açıq-aydın görünür. Lakin yerli əhali buna heç bir əhəmiyyət vermədən öz qaynar həyatlarını yaşayır. Orta məktəbdən çıxan uşaqlardan isə kimisi evlərinə tələsir, kimisi isə onlar üçün ayrılmış meydançada oynayırdılar. Cavan tinglərin qol-budaq atdığı parkda, abad və geniş küçələrdə isə onlarla adamla görüşmək mümkün idi. Müxtəlif markalı şəxsi avtomobillərin hərəkəti də qaynar həyatdan soraq verirdi. Özünün inkişaf dövrünü yaşayan qəsəbə sanki bugünkü həyatı ilə düşmənə lənət oxuyurdu.

**R.İ. 10.III.2006**

## Naxçıvanda turizmin inkişaf etdirilməsi üçün əlverişli imkanlar var
## Ən başlıca maneə isə iqtisadi blokadanın törətdiyi çətinliklərdir

Dünya Turizm Təşkilatının məlumatına görə hər il səyahət edənlərin sayı orta hesabla 3,7 faiz artır. 1950-ci ilə nisbətən 1995-ci ildə turistlərin sayı 22,4 faiz artaraq 567 milyon nəfərə çatıb. Bu illərdə turizmdən əldə olunan gəlir isə 52 faiz artaraq 3717 milyard ABŞ dolları olub. Bununla yanaşı İnkişaf Etmiş Ölkələr arasında eləələri var ki, onların dövlət büdcəsinin 25 faizdən 50 faizə qədərini turizm sahəsindən əldə olunan gəlirlər formalaşdırır. Belə statistik göstəricilərin siyahısını uzatmaq da mümkündür.

Lakin mənim marağımı özünə cəlb edən əsas məsələ Azərbaycanımızın dilbər guşələrindən biri sayılan Naxçıvan Muxtar Respublikasıdır və açığı burada turizm sektoru zəif inkişaf edir. Amma o da mənə aydın olub ki, muxtar respublikanın ərazisində dünya ictimaiyyətinin diqqətini özünə cəlb etmiş kifayət qədər tarixi abidələr mövcuddur. Belə ki, bir vaxtlar Avropadan Uzaq Şərqə gedən dəvə karvanlarının Araz çayı boyunca qədim Naxçıvan ərazisindən keçməsi, Nuh Peyğəmbərin adı ilə bağlı tarixi yerlər, həmçinin Əshabi-Kəhf kimi müqəddəs ziyarətgahın bu bölgədə yerləşməsi və sair amillər yetərlidir ki, Naxçıvan Muxtar Respublikası da öz turizm sektorunu inkişaf etdirsin, büdcəsinin bir hissəsini bu sahədən əldə etdiyi gəlirlər hesabına formalaşdırsın. Əlbəttə, bunlar yaxşı istəklərdir. Mane olan əsas cəhət isə ondan ibarətdir ki, bu gün də muxtar respublika bədxah qonşularımızın təqsirləri ucbatından iqtisadi blokada şəraitində yaşayır. Blokadanın da öz ağrıları və çətinlikləri var. Bəs, bundan əlavə nə kimi çətinliklər var? Muxtar respublikanın Gənclər, İdman və Turizm

Nazirliyi bu sahədə hansı işləri görüb? Bir fərd kimi özümün və oxucularımızın marağını nəzərə alaraq bu kimi suallarla Gənclər, İdman və Turizm Nazirliyinin Ərazi Orqanları ilə İş və Turizm Şöbəsinin müdiri Gülbuta Babayevaya müraciət etdim.

Naxçıvan Muxtar Respublikasında turizmin zəif inkişaf etməsini bir sıra obyektiv və subyektiv amillərlə əsaslandıran Gülbuta xanım bildirib ki, hələ Sovetlər Birliyi dönəmində Naxçıvan qapalı zona elan edilib. Türkiyə və İran İslam Respublikaları ilə həmsərhəd olduğundan Naxçıvan Muxtar Respublikasına gediş-gəliş daim viza rejimi ilə mümkün olub ki, bu da turistlərin axınının qarşısını əngəlləyib. Həmçinin o zamankı hakimiyyət də muxtar respublikaya turistlərin gəlməsində maraqlı olmayıb. Digər tərəfdən Naxçıvan Muxtar Respublikası 1992-ci ildən etibarən blokada şəraitində yaşayır və gediş-gəliş yalnız hava nəqliyyatı ilə mümkündür. Azərbaycan Respublikası ilə quru nəqliyyatının olmaması muxtar respublikada xarici turizmin inkişafına öz təsirini göstərməkdədir.

O, turizmin inkişafına təsir edən subyektiv amillərdən söhbət açaraq bu sahədə savadlı kadrların çatışmamasından da danışıb: "Naxçıvanda bu çatışmazlığın aradan qaldırılması üçün bir sıra tədbirlər görülüb. Keçən il Naxçıvan Dövlət Universitetində turizm ixtisası açılıb. Bundan əlavə turizm ixtisasartırma kursları da təşkil edilib. Həmin üçaylıq kurslar bu sahədə tenderin qalibi olmuş Böyük Britaniyanın "Currie and Brown" şirkəti tərəfindən keçirilib. Bu kurslarda iştirak etmiş 30 nəfər tələbə təhsil alaraq sosial-mədəni servis xidməti ixtisasına yiyələnib. Türkiyənin "Türk Siab" şirkəti ilə imzalanmış müqavilənin şərtlərinə uyğun olaraq artıq bir neçə ildir ki, ali məktəblərin tələbələri və turist xidməti obyektlərinin işçiləri Türkiyədə təcrübə kurslarına gedirlər. Bizim də tələbələrdən iki nəfər həmin kurslarda iştirak edərək sertifikat alıblar".

Turizm xidməti obyektlərinin olmamasını diqqətə çatdıran şöbə müdiri bu faktın da öz növbəsində turizmin inkişafına mənfi təsir göstərdiyini dilə gətirib: "Turizm firması kimi dövlət qeydiyyatından keçmiş hüquqi və fiziki şəxslər çox olsa da, turizm fəaliyyəti ilə məşğul olan çox azdır. Bu sahədə iş təcrübəsinin az olması, kadr çatışmazlığı problemi və quru nəqliyyatının olmaması onların turizm sahəsində fəal məşğul olmasını əngəlləyib. Yaranmış vəziyyətdən çıxmaq üçün turizm sahəsində təbliğat işini gücləndirmişik ki, iş adamlarının diqqətini bu sahəyə yönəldək. Həmin məqsədlə Naxçıvan şəhərində biznes forum da keçirilmişdir. Turizm obyektləri olacaq ərazilərin abadlaşdırılmasına da başlanılıb. Xidməti obyektlərdə köhnə kadrlar bir neçə əcnəbi dil bilən yeni kadrlarla əvəz olunub. Muxtar respublikada ekoloji və kənd turizminin inkişafına, regional turizm mərkəzlərinin yaradılmasına böyük əhəmiyyət verilir. Turizm reklam informasiya mərkəzinin yaradılması nəzərdə tutulub. Hazırda reklam informasiya mərkəzinin binası üçün layihə sənədləri hazırlanıb və bu yaxınlarda mərkəzin açılması üçün işlərə başlanılacaq ki, bu da turizmin inkişafına böyük təkan verəcək. Regionun turizm potensialı haqqında internet saytının və bukletlərin hazırlanması sahəsində də müəyyən işlər görülməkdədir. Artıq Əshabi-Kəhf, Mömünə Xatun, Hüseyn Cavid və Yusif İbn Küseyr türbələri haqqında, Gəmiqaya tarixi abidəsi və ümumilikdə Naxçıvan Muxtar Respublikasının tarixi və memarlıq abidələri, görməli yerləri haqqında bukletlər hazirlanaraq çap olunmuşdur. Ümummilli lider Heydər Əliyevin sərəncamı ilə yaradılmış Şahbuz Dövlət Təbiət Qoruğu və akademik Həsən Əliyev adına Ordubad Milli Parkı da Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına böyük tясИr göstяrИb. Həsən Əliyev adına Ordubad Milli Parkında eko turizmin inkişaf etdirilməsi məqsədi ilə artıq 8 istiqamətdə marşrut xəritələri hazırlanıb".

Turizmin inkişafı sahəsində turist xidməti obyektləri-

nin səviyyəsindən danışan müsahibimiz hələlikdə muxtar respublikada yüksək xidmətə görə fərqlənən ulduz kateqoriyalı mehmanxana və otellərin olmasını xüsusi olaraq vurğulayıb. Lakin bütün mövcud olan çatışmazlıqlara baxmayaraq son illərdə muxtar respublikaya gələn turistlərin sayının artmasını yaxşı hal kimi qiymətləndirib:

–Bu ilin əvvəlində Türkiyə-Azərbaycan iqtisadi komissiyasının birgə iclasında "Babaların tarixi zəfər və şəhadət yolu" turizm marşrutunun açılması dəstəklənib. Protokol Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən də təsdiq olunduqdan sonra may ayından etibarən bu istiqamətdə bir sıra işlər görülür. Azərbaycanın və Türkiyənin tarixinin öyrənilməsi baxımından bu marşrutun çox böyük əhəmiyyəti var. Belə ki, marşrutun əsas məqsədi 1918-ci ildə Nuru Paşanın rəhbərliyi ilə Qafqaz İslam Ordusunun Türkiyədən Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərinə qədər keçdiyi yolu və həmin yollar üzərindəki tarixi abidələrin öyrənilməsi xarakterini daşıyır. Bu turist marşrutundan yay aylarında azərbaycanlı və türkiyəli tələbələr, qalan vaxtlarda isə turistlər istifadə edəcəklər. Həmçinin bu layihə işə düşəndən sonra Naxçıvan Muxtar Respublikasında yeni turizm obyektlərinin tikilməsinə gətirib çıxaracaqdır. Bu da öz növbəsində yeni daimi iş yerlərinin yaranmasına səbəb olacaqdır,–deyə müsahibimiz fikrini tamamlayıb.

**P.S.** Əlbəttə, bu söhbətimizdən sonra Naxçıvan Muxtar Respublikasında turizmin inkişaf səviyyəsi barədə az-çox təəssürat yarandı. Ancaq mənə elə gəlir ki, bununla kifayətlənmək olmaz. Nə qədər ki, öz mədəniyyətini Şərqdən mənimsəmiş Qərbə "Şərqin qapısı"nı tanıtmamışıq, demək, görüləsi işlərimiz hələ çoxdur...

**R.İ. 11.X.2005**

## "Kənd Yaşıl Turizm"in geniş imkanları var

"Ümummilli liderimiz Heydər Əliyevin məqsədyönümlü fəaliyyəti nəticəsində respublikamızda bərqərar olmuş iqtisadi və siyasi sabitlik, müasir dövrdə xüsusi əhəmiyyət kəsb edən ekoloji problemlərin həll edilməsi üçün də əlverişli şərait yaradıb",–bu sözləri müxbirimizlə söhbətində Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Layihələrin İcrası Qrupunun Naxçıvan Muxtar Respublikası üzrə koordinatoru Ceyhun Abbasov bildirib.

Müasir dövrdə bəşəriyyəti daha çox düşündürən və narahat edən ekoloji problemləri həll etmək üçün respublikamızda da mühüm tədbirlərin həyata keçirildiyini diqqətə çatdıran layihə koordinatoru görülən işlərdən geniş danışıb;–bu sahədə ən mühüm işlər 1969-1982 və 1993-cü illərdən sonra, yəni, ulu öndərimizin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə həyata keçirilib. Onun bilavasitə təşəbbüsü və qayğısı nəticəsində 1969-cu ildə ümumi sahəsi otuz min hektar olan "Şirvan Dövlət Qoruğu" və "Hirkan Dövlət Qoruğu" yaradılmışdır. Sonrakı illərdə flora və faunanın zəngin fondunu mühafizə etmək məqsədilə 1977- ci ildə "Qırmızı kitabın təsis edilməsi haqqında" , daha sonra isə 1982- ci ildə "Təbiət Abidələrinin Mühafizəsi haqqında " çox mühüm qərarlar qəbul edilmişdir. Ümummilli liderimiz Azərbaycandakı hakimiyyətinin ikinci dövründə də ətraf mühitin mühafizəsi, təbii sərvətlərimizin qorunub saxlanılması, artırılması və onlardan səmərəli istifadə edilməsi istiqamətində mühüm əhəmiyyət kəsb edən bir sıra fərman və sərəncamlar imzalamışdır. Bu sıraya "Azərbaycan Respublikasında eko-

loji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa dair" və "Azərbaycan Respublikasında meşələrin bərpa edilməsi və artırılmasına dair" Milli Proqramların təsdiqini, həmçinin də "Şahbuz Dövlət Qoruğu"nun və Akademik Həsən Əliyev adına "Ordubad Milli Parkı"nın yaradılmasına dair imzalanmış sərəncamları aid etmək olar. Adıçəkilən fərman və sərəncamlardan irəli gələn vəzifələrin yerinə yetirilməsi hesabına ölkəmizdə mühafizə olunan ərazilərin artırılması, bioloji resurslarla zəngin olan bu ərazilərdə yaşayan, həmçinin də təbii sərvətlərdən istifadə edən icmaların həyat səviyyəsinin yaxşılaşdırılması da göz qabağındadır. Yaxın gələcəkdə isə həmin ərazilərdə "Kənd Yaşıl Turizm"lərinin təşkil edilməsi, təkmilləşdirilmiş kənd təsərrüfatının tətbiq olunması, bununla da kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi nəzərdə tutulub.

Bioloji müxtəlifliyin qorunması, ətraf mühitə dəyən ziyanın minimuma endirilməsi prosesində bu amillər vacib və mühüm məsələlərdəndir. Bu sayaq turizm növü "Kənd turizmi", "Aqroturizm" və "Yaşıl turizm"lə məzmun və məqsəd baxımından eyni funksiyanı daşıyır. Respublikamızda turizm fəaliyyətinin bu növünün "Kənd Yaşıl Turizm" adlandırılmasının başlıca səbəbi turizmin inkişafı üçün əlverişli ərazilərdə, xüsusən də Böyük və Kiçik Qafqaz dağlarının ətəklərində qorunan təbiət ərazilərinin yaxınlığında meşə massivlərinin və tarixi-mədəniyyət abidələrinin zəngin olmasıdır. Həmin ərazilərdə yaşayan yerli əhali üçün də bu fəaliyyət növü, ənənəvi kənd təsərrüfatından əldə olunan gəlirdən başqa əlavə gəlir mənbəyidir. Bu növ turizm kənd təsərrüfatı istiqamətində aparılan fəaliyyətə təsir göstərmədən, yeni iqtisadi alternativ fəaliyyətdir,–

deyən koordinator onu da qeyd etdi ki, inkişaf etmiş dünya dövlətlərində kənd turizminin inkişafını dəstəkləyən dövlət proqramları həyata keçirilir. Bu cür proqramların əsas məqsədi isə turizmin inkişaf istiqamətlərini əhalinin tələbatlarına uyğun olaraq düzgün müəyyən etməkdir; Proqramlar təbliğat, məşğələlər və texniki dəstək olmaqla əsasən üç istiqamətdə aparılır. Kənd turizminin regionda inkişafının təbliğ edilməsi mövcud şəraitə uyğun həyata keçirilir. Bu cür fəaliyyətə birbaşa, yaxud da dolayısı ilə cəlb olunan insanların yaşayış səviyyəsi, həmçinin də regionun iqtisadi inkişafının dəstəklənməsi daxildir. "Kənd Yaşıl Turizm" biznesinin regionda inkişaf etməsi nəticəsində muxtar respublikamızda bir sıra real imkanlar yaranacaq. Kənd təsərrüfatı məhsullarının dəyərinin digər məhsullarla bərabərləşdirilməsi və ənənəvi fermerçilikdən gələn gəlirin artması ilə müşayiət olunacaq. Əgər əvvəllər kənd təsərrüfatı sahəsinin əkinçilik və heyvandarlıq kimi iki növü var idisə, kənd turizminin inkişaf etdirilməsi nəticəsində torpaqdan və mövcud şəraitdən istifadənin başqa müxtəliflikləri yaranacaqdır. Ənənəvi fermerçilik fəaliyyətindən fərqli olaraq, turizm xidməti və ya ərzaq məhsullarına olan tələbat ölkədəki xidmət şəraitinin yüksəlişinə, əməyə olan tələbatın artmasına səbəb olacaq ki, bu da öz növbəsində yeni iş yerlərinin açılması ilə nəticələnəcəkdir. Muxtar respublikamızda turizm sahəsinin bu növü inkişaf edərsə, müxtəlif növ turist müəssisələrinin yaradılmasına da tələbat artacaq. Burada tələb olunan xidmətlər şübhəsiz ki, vətəndaşlar üçün yeni iş yerlərinin yaranmasına səbəb olacaqdır. Turistlərə bələdçilik etmək fəaliyyəti isə gənclərimizin məşğulluğunun təmin edilməsinə öz təsirini

göstərəcək.

Kənd turizminin inkişafı mədəni irsimizin təbliğinə də geniş imkan yaradacaq;–kənd turizmi həmin regionun adət-ənənəsinin, mətbəx və digər mədəni məişət sahələrinin təbliğində də ən mühüm vasitə kimi özünü göstərəcəkdir. Belə olan təqdirdə, yerli sakinlər əcnəbi turistlərin regionun mədəniyyətinə olan böyük marağını artırmaq üçün bu sahəyə xüsusi diqqət yetirməlidirlər. Yəni adət-ənənələrimizə turistlər tərəfindən marağın artması, yerli adamları bu sahədə daha çox məlumat toplamağa və turistlərin tələblərinə uyğun şəkildə biliklərini artırmağa sövq edəcəkdir. Bundan başqa kənd turizmi biznesində müştərilərin təbiət mənzərələrinə xüsusi yer və vaxt ayırmaları ətraf mühitin qayğısına daha çox qalmaq zərurəti yaradacaq ki, bu da yerli əhalinin təbiətə olan münasibətini də dəyişdirəcək. Sakinlər ənənəvi fəaliyyətlərindən fərqli olaraq, yeni məqsədlərə nail olmaq üçün istifadəyə yararlı, əlverişli ərazilər və mənzərəli yerlər tapmağa çalışacaqlar. Hazırda aparılan araşdırmalar da göstərir ki, əhali kənd təsərrüfatı məhsullarının yetişdirilməsindən və iribuynuzlu mal-qaranın saxlanılmasından əlavə olaraq turizm fəaliyyəti haqqında da düşünməyə başlayırlar. Kənd turizm biznesi regionda sənətkarlığın inkişafına, ərzaq və spesifik regional məhsulların istehsalı və satışı üçün də geniş imkanlar açacaq. Halbuki, əvvəllər istehsal olunan kənd təsərrüfatı məhsulları və fəaliyyət növləri turizm üçün nəzərdə tutulmurdu.

C.Abbasov regionumuza yeni investisiyaların cəlb olunmasından və yerli inkişafın dəstəklənməsindən də danışıb;–kənd turizminin inkişafı nəticəsində turizm

fəaliyyəti üçün yaradılmış müəssisənin sahibi ilə turist arasında əlaqələr yaranacaq ki, bu da yeni bir biznes növünün əmələ gəlməsinə səbəb olacaqdır. Beləliklə də yerli əhalinin bilmədiyi və əvvəllər mövcud olmayan fəaliyyət növü üçün investisiyalar cəlb olunacaq. Kənd mühitində bu sayaq yeni biznes sahəsi həm də başqa sahələr arasında, yəni nəqliyyat, səhiyyə, kommunikasiya xidmətlərini inkişaf etdirəcək, habelə, kənd mərkəzlərinin abadlaşdırılması, yolların bərpası və yenidən qurulması işlərinə təkan verəcəkdir. Səmərəli "Kənd Yaşıl Turizm"in dövriyyəsinə ekoturizm sahəsi, təbiətlə tanışlığın əlverişli imkanları, təbii və sosial-mədəni davamlılıq, cəmiyyətin və ekoturistlərin tələblərinin təmin edilməsini və turoperatorların davamlılığını da aid etmək olar. Ümumiyyətlə, "Kənd Yaşıl Turizm"i, eləcə də turizmin müxtəlif sahələri dünya iqtisadiyyatının ən gəlirli sahəsinə çevrilməklə gündən-günə inkişaf edən xidmət sahəsidir. Bu sahənin inkişafı üçün muxtar respublikamız zəngin turizm və rekreasiya ehtiyatlarına malikdir. Qədim yaşayış məskənləri, unikal təbiəti, özünəməxsus tarixi, memarlıq və təbiət abidələrinin zənginliyi bu qədim diyarda ekoturizmin inkişafına geniş imkanlar yaradır.

**R.İ. 12.XI.2005**

## Təbii qaz ən mühüm enerji daşıyıcılarından biridir

Prezident İlham Əliyevin 2006-cı il iyunun 12-də imzaladığı müvafiq sərəncama əsasən hər il iyun ayının 20-si Azərbaycanda Qaz Təsərrüfatı İşçilərinin Peşə Bayramı Günü kimi qeyd olunacaq. Məhz bu günün seçilməsi də təsadüfi deyil. Çünki, SSRİ Xalq Komissarları Sovetinin 17 iyun 1936-cı il tarixli sərəncamına əsasən Azərbaycanda qaz təsərrüfatının nizama salınması məqsədilə "Azqaz" tresti yaradılmışdır. Bu qurum 20 iyun 1936-cı il tarixdən 1992-ci ilə qədər fəaliyyət göstərmişdir.

Müstəqillik dövründə isə "Azqaznəql" İstehsalat Birliyi Azərbaycan Respublikası Dövlət Yanacaq Komitəsinin tabeliyinə daxil olub. Sonralar bu qurum "Azəriqaz" Qapalı Səhmdar Cəmiyyətinə çevrilib. Ölkəmizdə qaz təsərrüfatının yaradılmasının 70 illiyi ərəfəsində dövlət başçısının belə bir xeyirxah addım atması, bu sahədə çalışanlara sözsüz ki, ikiqat bayram sevinci yaşadacaq. Belə bir əlamətdar gün ərəfəsində muxtar respublikamızın qaz təsərrüfatı sahəsində görülən işlərlə yaxından tanış olmaq üçün "Naxçıvanqaz" Məhdud Məsuliyyətli Cəmiyyətinə yollandıq. Burada cəmiyyətin baş mühəndisi Süheyla Quliyevlə görüşərək həmsöhbət olduq.

Söhbətimizə Azərbaycanın qaz təsərrüfatının inkişaf tarixindən başlayan müsahibim bildirdi ki, təbii qazdan əvvəllər Abşeron ərazisində əhəng daşlarını yandırmaq üçün istifadə edilib. 1859-cu ildən etibarən isə Bakının Suraxanı rayonu ərazisində bu yanacaq növü buxar qazanlarının qızdırılmasında tətbiq olunub. Təxminən 50 ilə yaxın müddətdən sonra, konkret olaraq 1902-ci ildə Suraxanıda çox da dərin olmayan bir quyudan gündəlik hasilatı 57 milyon kubmetr olan qaz fontanının vurması isə bu sahədə yeni-yeni

irəliləyişlərin əldə olunması ilə nəticələnib. Keçmiş Sovetlər İttifaqı ərazisində də ilk dəfə olaraq Azərbaycanda qaz kəmərlərinin çəkilməsinə başlanılıb. İlk belə qaz kəməri başlanğıcını Bakının Suraxanı rayonundan götürməklə, o dövrün əsas neft hasil edilən bölgəsi sayılan Sabunçu rayonuna çəkilib. Sonralar da təbii qazın hasil edilməsi istiqamətində böyük nailiyyətlər əldə edilib. Belə ki, 1907-ci ildə 130 milyon kubmetr, 1919-cu ildə 48 milyon kubmetr, 1945-1950-ci illərdə 1,3 milyard kubmetr,1963-cü ildə 6,6 milyard kubmetr mavi yanacaq hasil olunub.

Ölkəmizdə "Drujba" qaz kəmərinin tikintisi də bu sahədə böyük nailiyyət kimi qeyd olunmalıdır. O zaman bu kəmər boyunca yerləşən yaşayış məntəqələrinin tam qazlaşdırılması reallaşıb. Bunun ardınca 1971-ci ildə diametri 1000-1200 millimetr, illik nəqletmə qabiliyyəti 10 milyard kubmetr olan İran-Astara-Qazıməmməd-Qazax magistral qaz kəməri çəkilərək istifadəyə verilib. Bu da ölkəmizin demək olar ki, əksər şəhər və rayonlarının mavi yanacaqla təmin olunmasına imkan yaradıb.

Bu illər ərzində respublikamızda qaz hasilatı dənizdəki yeni kəşf edilmiş yataqların hesabına xeyli artaraq 1982-ci ildə 14,9 milyard kubmetrə çatdırılıb. 1990-cı ildə isə Azərbaycanda qazla təmin edilmə səviyyəsi 85 faiz olub. O dövrdə 65 şəhər və rayon mərkəzi, 43 şəhərtipli qəsəbə, 2 minə yaxın kənd yaşayış məntəqəsi, 800 sənaye müəssisəsi, eləcə də 13 mindən çox kommunal-məişət və sosial obyekt mavi yanacaqdan istifadə edib. 1990-1991-ci illərdə isə təbii qazın Azərbaycandakı istehlakçılara verilməsi maksimum həddə çatdırılaraq 17 milyard kubmetr olub.

Muxtar respublikamızda qaz təsərrüfatının yaradılması tarixi isə ümummilli liderimiz Heydər Əliyevin siyasi hakimiyyətə gəldiyi dövrə təsadüf edib. 1978-1980-ci illərdə Yevlax-Xankəndi-Naxçıvan yüksək təzyiqli magistral qaz kəməri çəkilərək istifadəyə verilib. Muxtar res-

publikamıza qaz xəttinin çəkilişi ilə əlaqədar olaraq Naxçıvan şəhərində, Şərur, Şahbuz, Culfa, Ordubad rayonlarında, həmçinin indiki Kəngərli rayonunun Qabıllı və Babək rayonunun Cəhri kəndlərində qazpaylayıcı stansiyalar quraşdırılıb. Regionumuzda 1804,3 kilometr uzunluğunda yüksək, orta və aşağıtəzyiqli qaz kəmərlərinin çəkilməsi isə 1980-ci ildə Naxçıvan şəhərinin mavi yanacaqla təmin olunmasına imkan yaradıb. Sonra isə Babək və Şahbuz qəsəbələrinə, həmçinin Culfa, Şərur və Ordubad şəhərlərinə qaz verilib. Statistik rəqəmlərə görə, həmin dövrdə muxtar respublikamızın 4 şəhəri, 2 şəhərtipli qəsəbəsi və 91 kənd yaşayış məntəqəsi mavi yanacaqla tam təmin olunub. Ümumilikdə isə muxtar respublika üzrə 33084 mənzil qazlaşdırılıb ki, bunlardan 14827 mənzil şəhər və şəhərtipli qəsəbələrin, 18257 mənzil isə kənd yaşayış məntəqələrinin payına düşüb. Bundan başqa, 1991-ci ilə qədər Naxçıvan şəhərində 10, Babək rayonunda 3, Şərur və Şahbuz rayonlarının hər birində 2, Culfa, Ordubad və Sədərək rayonları üzrə isə hərəsində 1 sənaye müəssisəsi olmaqla, ümumilikdə 20 sənaye müəssisəsi təbii qazla təmin edilib.

Lakin mənfur qonşumuz Ermənistanın Naxçıvanı blokadaya alması ekoloji və iqtisadi baxımdan çox sərfəli olan qaz təchizatının da dayandırılmasına səbəb oldu.

O zaman Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində çalışan ulu öndərimiz əhalinin mavi yanacaqla təmin olunması üçün məqsədyönlü addımlar ataraq 1992-ci ilin avqust ayında Naxçıvanın təbii qazla təmin olunması barədə İran İslam Respublikası ilə protokol imzaladı. 1993-cü ildə Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıdan ümummilli liderimiz bu vacib məsələni daim diqqət mərkəzində saxlayıb, İran rəsmiləri ilə mütəmadi danışıqlar apardı, müxtəlif razılaşmalar əldə olundu. Bu problemin həlli Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin səyi nəticəsində nəhayət 2004-cü ildə reallaşdı. Həmin ilin avqust ayının 5-

də Naxçıvan Muxtar Respublikasını təbii qazla təmin etmək məqsədi ilə "Azəriqaz" Qapalı Səhmdar Cəmiyyəti (QSC) və İran Milli Qaz İxracı Şirkəti (İMQİŞ) arasında təbii qaz mübadiləsi haqqında müqavilə imzalandı. 20 il müddətinə təbii qazın mübadilə edilməsi məsələsində razılığa gəlindi.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikasının qazla təminatında görülən işlərin artıq yarıdan çoxu müvəffəqiyyətlə həyata keçirilib. Belə ki, birinci mərhələdə uzunluğu 40047 metr olan yüksəktəzyiqli Culfa-Naxçıvan, uzunluğu 8948 metr olan ortatəzyiqli Naxçıvan-Cəhri, uzunluğu 140700 metr olan yüksəktəzyiqli Qaz Turbin Elektrik Stansiyası qaz kəmərləri və uzunluğu 17600 metr olan Naxçıvan şəhəri dairəvi qaz kəməri çəkilərək istifadəyə verilib. Eyni zamanda ölçü qovşağından Araz çayına qədər uzunluğu 1565 olan yüksəktəzyiqli və Araz çayının keçidində uzunluğu 360 metr olan yüksəktəzyiqli qaz kəmərləri də inşa olunub. Bundan başqa, uzunluğu 102 min metr olan Naxçıvan şəhərinin daxili qaz kəmərləri də dəyişdirilərək polietilen borularla əvəzlənib. Həmçinin, Naxçıvan, Güznüt, Culfa Avtomat Qaz Paylayıcı stansiyaları və rayonlarda qaz istismar idarələri üçün inzibati binalar tikilərək istifadəyə verilib.

Qaz çəkilişinin birinci mərhələsində həyata keçirilmiş tədbirlər nəticəsində artıq Naxçıvan şəhəri və rayon mərkəzləri demək olar ki, təbii qazla təmin olunub. Daha doğrusu, çoxmərtəbəli binalarda yaşayan 12500 mənzilin qazlaşdırılması uğurla başa çatdırılıb. Həmin mənzillərdə pulsuz olaraq qaz sobaları və sayğac quraşdırılıb. Sayğaclar Bakıdan və Rusiyadan gətirilib.

**R.İ. 20.VI.2006**

## Naxçıvan yaxın vaxtlarda enerji sarıdan heç bir problemlə üzləşməyəcək Prezident İlham Əliyev: Əgər iqtisadi potensialı artırmaq istəyiriksə, enerji məsələləri mütləq həll olunmalıdır.

Enerji təhlükəsizliyi məsələsi dövlətlərin maraq müstəvisindən çıxaraq hər bir ölkə üçün həyati əhəmiyyət kəsb edən bir problemə çevrilib. Çünki enerji asılılığı olan hər hansı bir dövlət müstəqil siyasət yürütmək imkanına qadir deyil. Buna əyani misal olaraq təcavüzkar Ermənistan dövlətini nümunə göstərmək olar. Belə ki, yaranan xarici borcların müqabilində enerji istehsal edən obyektlərini Moskvaya "hədiyyə edən" İrəvan hökuməti artıq Rusiyanın forfostuna çevrilib. İndi Rusiyanın icazəsi olmadan bu ölkə müstəqil olaraq heç bir addım ata bilmir. Mühüm geosiyasi mövqeyə, zəngin təbii sərvətlərə malik olan Azərbaycan dövləti isə öz enerji təhlükəsizliyini təmin etməklə iqtisadi güc və qüdrətini nümayiş etdirir, müstəqilliyini qoruyur, başlıcası isə ölkənin bütün bölgələrini fasiləsiz elektrik enerjisi ilə təmin edir, yeni-yeni infrastrukturların açılmasına stimul yaradır.

Dövlət başçısı İlham Əliyev tərəfindən işlənib hazırlanan və operativ şəkildə icra edilən proqramların başlıcasını respublikada modul tipli elektrik stansiyalarının tikilib istifadəyə verilməsi, ölkədə kifayət qədər elektrik enerjisinin istehsal edilməsi təşkil edir. Bu məqsədlə artıq bir çox bölgələrdə 87 meqavat gücündə modul elektrik stansiyası istismara verilmiş, Bakıda, Sumqayıtda və Əli Bayramlıda isə yeni elektrik stansiyalarının tikintisinə başlanılmışdır. Belə quruculuq tədbirlərindən muxtar respublikamıza da çoxlu pay düşüb. Prezident İlham Əliyevin doğma

diyarımıza budəfəki səfəri bu baxımdan yaddaqalan oldu. Naxçıvan üçün həyati əhəmiyyətli obyektlər tikilib istifadəyə verildi.

Dekabrın 21-i bu obyektlərin açılış mərasimi oldu. Bunlardan biri və ən böyüyü Naxçıvan-Ordubad magistral yolunun 8-ci kilometrliyində "Azərenerjitikinti" MMC tərəfindən inşa edilən, ümumi gücü 87 meqavat olan modul tipli elektrik stansiyası oldu. Əlbəttə, bu, regionumuz üçün böyük əhəmiyyətli bir hadisə idi. Söhbət də ilk növbədə regionun enerji ehtiyaclarının ödənilməsində bu stansiyanın oynayacağı roldan gedir. Nəzərə alsaq ki, yeni tikilən modul stansiyası muxtar respublikanın elektrik enerjisinə olan ehtiyacının təxminən üçdə bir hissəsini ödəyəcək, onda onun oynadığı rol da aydın görünər. Belə bir müqayisə də aparaq ki, bu stansiyanın verdiyi enerji indiyədək qardaş Türkiyə dövlətindən aldığımız enerjidən də artıq məhsul istehsal edəcək. Açılış mərasimində iştirak edən dövlət başçımız 6 ay ərzində ərsəyə gələn stansiyanın fəaliyyəti ilə ətraflı tanış olarkən görülən işləri də yüksək qiymətləndirdi: Bu modul tipli elektrik stansiyası Naxçıvan Muxtar Respublikasının enerji problemini həll edəcəkdir, burada həyat işıqlı olacaqdır. Sizə təşəkkür edirəm ki, belə gözəl iş görmüsünüz, qısa müddət ərzində stansiyanı tikmisiniz.

Həmin gün Naxçıvan şəhərində daha bir elektrik stansiyasının açılışı oldu. Bu, qaz-turbin elektrik stansiyası idi. Onun gücü isə 50 meqavatdır. Təbii ki, bu da kiçik rəqəm deyil. Unutmayaq ki, bu ilədək bir daxili enerji mənbəyimiz olan Araz SES-dən cəmi 20-22 meqavat gücündə enerji almışıq. Deməli, qaz-turbin elektrik stansiyasının gücü ondan iki dəfədən də artıq olacaq. Həmin obyektin açılış mərasimində iştirak edən dövlət başçımız bu obyektin hasilə gəlməsində də ümummilli liderimizin əməyinin böyük olduğunu qeyd edib: "İndi Naxçıvanın elektrik enerjisinə olan tələbatı daha yaxşı ödəniləcəkdir. Buradakı

fotoşəkillərdən göründüyü kimi, ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə bu stansiya tikilib istifadəyə verilmiş, amma müəyyən səbəblərə görə dayanmışdı. İndi biz bərpa etdik və siz də gərək bunu yaxşı işlədəsiniz".

Həqiqətən də regionumuzda enerji sisteminin inkişafı daha çox ümummilli liderimizin adı ilə bağlıdır. Belə ki, 1990-cı ildən etibarən nankor qonşumuz Ermənistan tərəfindən muxtar respublikamız iqtisadi blokadaya alındığından regionumuza gələn elektrik verilişi xətlərinin hamısı kəsilib. Bu zaman muxtar respublikamızı enerji ilə yalnız 1971-ci ildə Araz çayı üzərində inşa edilmiş Araz SES təmin edib. O da tələbatı lap az səviyyədə ödəyib. Təbii ki, həmin dövr gücü 10-12 meqavat olan bu stansiya enerjiyə olan tələbatın 10 faizi həcmində də olmayıb. 1991-ci ilin sentyabrında ulu öndərimiz Muxtar Respublika Ali Məclisinə sədr seçildikdən sonra regiondakı enerji böhranını aradan qaldırmaq üçün qonşu dövlətlərdən elektrik enerjisi alınması ilə bağlı qarşılıqlı müqavilələr imzalanıb, əsaslı tədbirlər həyata keçirilib. 1992-ci ilin mart və avqust aylarında ümummilli liderimizin Türkiyə və İran dövlətlərinə rəsmi səfərləri nəticəsində bu razılaşmaların bir çoxu həyata keçirilib. İlk əvvəl Türkiyə Respublikasının Aralıq-Dilucu məntəqəsindən Sədərəyə 45 kilometrlik yüksək gərginlikli elektrik xətləri çəkilib. Bununla da tələbat azacıq yaxşılaşıb. Sonra İran İslam Respublikasından alınan enerjinin həcmi artırılıb. Qardaş Türkiyə dövləti 60 meqavatlıq istilik elektrik stansiyasının avadanlıqlarına yardım edib. Böyük öndərin uzaqgörən siyasəti ilə belə bir stansiya tez bir zamanda qurulub. Lakin dəmiryol nəqliyyatında hərəkətin dayanması bu stansiyanın da dayanmasına səbəb olub. Çünki onu dizel yanacağı ilə fasiləsiz təmin etmək müşkül məsələyə çevrilib. Bu stansiya indi təbii qazla iş rejiminə keçirilib. Bu da böyük maliyyə xərcləri tələb edib. Bu məqsədlə İtaliya, Avstriya, İsveçrə və Almaniyadan yeni avadanlıqlar alınıb. Gücü 50 meqavat olan bu

stansiya da dövlət başçımızın Naxçıvana səfəri çərçivəsində istifadəyə verildi.

Dövlət başçımızın Naxçıvana səfəri çərçivəsində digər bir obyekt isə Heydər Əliyev Su Anbarı üzərində tikilən su elektrik stansiyası oldu. Burada quraşdırılmış avadanlıqlar Almaniyanın məşhur "Siemens" şirkətindən alınmış, turbinlər isə Fransadan gətirilmişdir. Yeni stansiyanın gücü cəmi 4,5 meqavat olsa da, yerləşdiyi bölgənin–Şahbuz rayonunun enerji ilə təminatında mühüm rol oynayacaq.

Yeri gəlmişkən onu da xatırladaq ki, yeni elektrik stansiyalarının işə düşməsi əhalinin məşğulluq probleminin həllinə də müsbət təsir göstərib. Təkcə son vaxtlar bu üç enerji müəssisəsində 200 nəfərdən artıq adam işlə təmin olunub. Bir qədər də regionumuzun enerjiyə olan ehtiyacı barədə: qış aylarında bu ehtiyac təxminən 250 meqavat olur. İndiyədək bu tələbat əsasən qonşu ölkələrdən–Türkiyədən, İrandan alınan enerji hesabına ödənilib. O da tələbatın tən yarısı qədər olub. Bu məqsədlə itirilən valyuta da az olmayıb. Hazırda isə regionun xarici ölkələrdən asılılığını azaltmaq üçün Araz su elektrik stansiyasında 20-22 meqavat, Naxçıvan qaz-turbin elektrik stansiyasında 50 meqavat, Heydər Əliyev Su Anbarında 4,5 meqavat, yenicə tikilib istifadəyə verilmiş modul tipli elektrik stansiyasında isə 87 meqavat elektrik enerjisi istehsal olunur. Bu da ehtiyacın tam ödənilməsinə şərait yaradır. Daha açığı desək, enerjidən israfçılıqla istifadə olunmasa, muxtar respublikamızın bütün yaşayış məskənlərini fasiləsiz enerji ilə təmin etmək olar. Bir faktı da deyək ki, ötən əsrin 90-cı illərinin əvvəllərində muxtar respublikaya daxil olan elektrik enerjisinin miqdarı cəmi 105 meqavat olub.

Enerji sahəsində görülən tədbirlərin davamı olaraq yaxın gələcəkdə Araz çayının Ordubad rayonu ərazisindən keçən hissəsində 36 və ya 42 meqavat olacaq yeni su elektrik stansiyasının tikintisi də nəzərdə tutulub. Bu

stansiyanın inşası başa çatdırılandan sonra isə regionda daxili resurslar hesabına enerji istehsalı təxminən 210 meqavata çatdırılacaq. Bu da 16 illik bir müddətdə blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikası enerjiyə olan tələbatını nəinki özü ödəyəcək, həm də onun ixracatçısına çevriləcək. Təbii ki, bunlar ilk növbədə iqtisadiyyatımızın inkişafına da təkan verəcək.

**R.İ. 22.XII.2006**

**Dəmiryol nəqliyyatının ölkənin iqtisadiyyatında və sosial həyatında rolu böyükdür**
**Amma neyləyək ki, polad relslərimizdə qatarların hərəkəti səngiyib**
**İqtisadi blokadanın əsas ağrı və çətinlikləri də bununla bağlıdır**

Hər ilin oktyabr ayının 13-ü Azərbaycan dəmiryolu işçilərinin peşə bayramı günü kimi qeyd olunacaq. Bununla bağlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xüsusi sərəncam imzalayıb. Təbii ki, bu da ölkə iqtisadiyyatının inkişafında və sosial həyatında onun oynadığı rolla bağlıdır.

Azərbaycan dəmiryolunun mühüm tərkib hissələrindən biri də Naxçıvan dəmiryol hissəsidir. Bir vaxtlar dayanmadan, fasiləsiz Qərbdən-Şərqə, Şərqdən-Qərbə uzanan relslərdə şütüyən qatarlarda təkcə sərnişin xidməti təşkil olunmayıb, həm də yük daşımaları aparılıb. İndi isə...

Dəmiryolçuların peşə bayramı ərəfəsində Azərbaycan Dövlət Dəmir Yolu Naxçıvan Hissəsində oldum. Məqsədim bu qurumun hazırkı vəziyyəti ilə yaxından tanış olmaqdı. Hissənin texniki İstehsalat şöbəsinin rəisi Xalid Məmmədovla həmsöhbət oldum.

–Naxçıvan Muxtar Respublikasında dəmiryolunun inkişafı bütün dövrlərdə xüsusi əhəmiyyət kəsb etmişdir,– söyləyən müsahibim bildirdi ki, muxtar respublikamızın əra-

zisində ilk dəmiryolu çəkilişinə 1902-ci ildə başlanılıb və 1908-ci il yanvarın 20-də istifadəyə verilib. Zaqafqaziya dəmiryolunun tərkibində fəaliyyət göstərən həmin yolun uzunluğu 113 kilometr olmuşdur.

O, Naxçıvan Muxtar Respublikasının ərazisindən keçən dəmiryolunun yerli əhalinin həyatında oynadığı mühüm rolun əhəmiyyətindən danışarkən onu da qeyd etdi ki, 1918-ci il sentyabrın 15-də Nuru Paşanın komandanlıq etdiyi Qafqaz Türk ordusu Culfa stansiyası vasitəsilə Azərbaycanda yerləşdirilmiş və bununla da Bakıda nahaq qan tökülməsinin qarşısının alınmasında fədakarlıq göstərmişdir. Bununla yanaşı xalq təsərrüfatı yüklərinin və sərnişin daşınması işində dəmiryolu xəttinin danılmaz fəaliyyəti onun daha da inkişaf etdirilməsini tələb etdiyindən sonralar Culfa–Bakı dəmiryolunun çəkilişinə başlanılmışdı. 1924-cü ilin may ayının 30-da tam istifadəyə verilən bu dəmiryolu xətti Naxçıvan diyarı ilə Azərbaycan Respublikasının paytaxtını birləşdirib. Azərbaycan Dövlət Dəmir Yolunun Naxçıvan Hissəsi isə xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə 1976-cı ildən başlayaraq fəaliyyət göstərib. Sarıcallar-Astara-Şərur sahələrini əhatə etmiş həmin dəmiryolu xəttinin uzunluğu isə 870 kilometr olmuşdur. Bu dəmiryolu vasitəsilə əsasən xalq təsərrüfatı yükləri, sərnişin daşımaları və hərbi yüklərin daşınması həyata keçirilmişdir. Eyni zamanda bu dəmiryolu vasitəsilə İran İslam Respublikası ərazisindən beynəlxalq səviyyəli yüklərin daşınması da təşkil olunmuşdur. Son zamanlara

qədər hissənin nəzdində müxtəlif dərəcəli stansiyalar, həmçinin 2 lokomotiv deposu, 5 yol distansiyası, 2 mülki qurğular distansiyası, 1 maddi-texniki təchizat şöbəsi, 1 yükvurma, boşaltma distansiyası və digər yardımçı təsərrüfat obyektləri fəaliyyət göstərmişdir. Sovet dönəmində ölkəmizin "qan damarları" sayılan dəmiryolunda xalq təsərrüfatı yüklərinin daşınması və sərnişinlərin mənzil başına vaxtında çatdırılması üçün əvvəllər paravoz, sonralar isə teplovoz dartısından istifadə edilmişdir.

1988-ci ildə Culfa-Şərur sahəsinin elektrikləşdirilməsi ilə yanaşı, qatarların hərəkəti müasir tipli VL-8 tipli elektrovozlar vasitəsi ilə həyata keçirilmişdir. Eyni zamanda, dəmiryolu sahəsində intensivliyi artırmaq məqsədilə avtobloklama işi başa çatdırılmış və mərkəzləşdirilmiş dispetçer məntəqəsi istismara verilmişdir.

Muxtar Respublikamızın dəmiryolçuları 1989-cu ildə xalq təsərrüfatı yüklərinin göndərilməsi üzrə illik tapşırığı vaxtından əvvəl yerinə yetirmişlər. Plandan əlavə 15,5 min ton neft məhsulları, 60 min tona qədər tranzit yüklər, 9 min ton gübrə, 46 min ton müxtəlif növ xalq təsərrüfatı yükləri daşınmışdır. Elə həmin il ağır yüklü qatarlarda 37,6 milyon ton müxtəlif yüklər daşınaraq məhsuldarlıq plana qarşı 5,3 faiz yüksəldilmişdir. Bu illərdə dəmiryolu üzrə yük və sərnişin daşınması əvvəlki illərə nisbətən təqribən 200 dəfədən çox olmuşdur. Naxçıvan Muxtar Respublikası dəmiryolu kadrlarının hazırlanması məsələsində də həmişə ön sıralarda olmuşdur. Naxçıvan sahəsi üzrə onlarla sadə

peşə adamları, dəmiryolçular SSRİ dövründə orden və medallarla təltif olunmuşlar. Yüzlərlə dəmiryolçu "Fəxri dəmiryolçu" adına layiq görülmüşdür.

Lakin erməni ekstremistlərinin başladıqları ədalətsiz müharibə Azərbaycan xalqının, xüsusən Naxçıvan dəmiryolçularının dinc fəaliyyətini yarımçıq qoymuşdur. Belə ki, terrorçuların günahı ucbatından təkcə Dağlıq Qarabağ ərazisi deyil, həmçinin respublikamızın 11 rayonu, o cümlədən Naxçıvan Muxtar Respublikası döyüş əməliyyatları ərazisinə çevrilmişdir. Bunun nəticəsində nankor qonşularımız dövlətimizin iqtisadiyyatına, xüsusən də Naxçıvan Muxtar Respublikasının dəmiryol nəqliyyatına böyük zərbə vurmuş oldular. Hazırda Azərbaycan Dövlət Dəmir Yolu Naxçıvan Hissəsinin Bartaz, Nüvədi, Astazur, Mehri, Kərçivan, Zərəni stansiyalarının uzunluğu 47 km olan hissəsi ermənilərin işğalı altındadır. Həmin ərazilərdəki külli miqdarda dəmiryol texnikası avadanlığı və əmlakı ermənilər tərəfindən dağıdılaraq məhv edilmişdir. Naxçıvan Muxtar Respublikası ərazisindəki dəmiryol magistralının hərəkətsiz qalması regionunun sosial-iqtisadi həyatına bu gün də öz təsirini göstərməkdədir.

Naxçıvanın ermənilər tərəfindən işğal olunmuş ərazisində 18 dəmiryol stansiyası, 143 km uzunluğunda dəmir yolu, 54 müəssisə və təşkilat qalmışdır. Erməni yaraqlıları Naxçıvan hissəsinə 100 milyard manatdan çox ziyan vurmuşlar. Bir faktı da qeyd edək ki, erməni terrorçularının günahı ucbatından ümumilikdə 20 mindən çox dəmiryolçu

ailəsi qaçqına çevrilmişdir.

Qeyd edildiyi kimi, erməni təcavüzü nəticəsində Naxçıvan dəmiryolunda çox dözülməz şərait yaranmışdır. Dəmiryolunun Naxçıvan hissəsi əsas fəaliyyət sahəsinin çox hissəsindən–Salamməlik-Əlibayramlı-Astara sahələrindən təcrid olunmuşdur ki, bu da hissənin fəaliyyətini iflic vəziyyətinə salmışdır. Naxçıvan hissəsi tərəfindən həmin sahələrə nəzarət olduqca çətinləşmiş və iqtisadi effektivlik aşağı səviyyəyə düşmüşdür. Bunu nəzərə alan Azərbaycan Dövlət Dəmir Yolu rəhbərliyi stansiyaların həmin hissənin tabeliyindən çıxararaq aidiyyяti xidmət və birliklərin sərəncamına vermişdir. Bununla da dəmiryolçuların işçi kontingenti istər istismarda, istərsə də idarəetmədə kəskin surətdə azaldılmışdır. Bununla yanaşı bu gün də polad relslərdə hərəkət qismən bərpa olunub. Hazırda hissə əsasən Ordubad-Şərur istiqamətində də yük və sərnişin daşımasını, İran İslam Respublikası arasında isə beynəlxalq sərnişin daşımasını həyata keçirir.

Blokada nəticəsində yol qurğularının, lokomotiv və vaqonların əsaslı və cari təmirlərində olduqca çətinliklər yaranıb. Vəziyyətdən çıxış yolları axtarılıb tapılsa da, bunlar lazımi səmərəni verməyib. Uzaq ünvanlardan ehtiyat hissələrinin və digər avadanlıqların, mal-materialların alınaraq Naxçıvana gətirilməsi, ümumiyyətlə, çətin olduğundan həyata keçirilən bir çox təmir işləri də yalnız daxili ehtiyatlar hesabına olur.

Azərbaycan Dövlət Dəmir Yolunun Naxçıvan Hissə-

sinin kollektivləri də muxtar respublikada aparılan abadlıq işlərindən heç də geri qalmayıblar. Onlar maliyyə çətinlikləri ilə üzləşsələr belə, Naxçıvan və Şərur dəmiryolu stansiyalarında və vağzallarında əsaslı surətdə təmir və yenidənqurma işləri aparılıb.

**R.İ. 12.X.2005**

## Sanatoriya tipli səhiyyə ocağımız Yeraltı müalicəxanada imkanlar daha da genişlənib

Yeraltı və yerüstü sərvətləri, zəngin faydalı qazıntıları, xəstələrə sağlamlıq bəxş edən mineral bulaqları ilə tanınan muxtar respublikamız müalicəvi əhəmiyyətli şəfa ocaqları ilə də dünyada məşhurdur. Haqqında söhbət açacağım belə tibb müəssisələrindən biri Naxçıvan şəhərindəki Fizioterapiya xəstəxanasıdır. El arasında daha çox "Duzdağ" xəstəxanası kimi tanınan bu sağlamlıq ocağı dəniz səviyyəsindən 1173 metr hündürlükdəki Duzdağ adlanan yerdə yerləşir.

Qeyd edim ki, Naxçıvan şəhərindən 14 km aralı olan Duzdağda 1926-cı ildən sənaye üsulu ilə daş duz çıxarılmasına başlanılıb. Ötən əsrin ikinci yarısında təbabət elminə bronxial astmalı xəstələrin karst mağaralarında, duz şaxtalarında təbii mikroiqlim şəraitində yüksək effektlə müalicə edilməsi məlum olandan sonra isə bu duz şaxtalarından tibbi məqsədlə istifadə olunmağa başlanılıb. 1979-cu ilin dekabr ayında burada şəfa ocağı yaradılıb. İlk əvvəl Naxçıvan duz mədəninin bazasında fəaliyyətə başlayan xəstəxana 50 çarpayıdan ibarət olub. 1980-ci ildə isə burada çarpayıların sayı 100-ə çatdırılıb.

Hələ sovetlər dönəmində müalicəvi əhəmiyyətinə görə ittifaq miqyasında şöhrət qazanan bu şəfa ocağı haqda daha ətraflı məlumat almaq üçün tibb müəssisəsinin yeraltı şöbəsinə yollandım. Məni xəstəxananın qapısı önündə qarşılayan baş həkim Nadir Babayev təbiətin yaratdığı bu möcüzəli sağlamlıq mərkəzi barədə məlumat verərək bildirdi ki, burada bronxial astma, onun infeksion, allergik və qarışıq formalarından, predastmadan, pollinorlardan, xroniki bronxitdən, allergik rinitlərdən, allergik ri-

nosinusopatiyalardan, atopik dermatitlərdən, neyrodermitlərdən əziyyət çəkən xəstələr müalicə olunurlar. Ölkəmizin müxtəlif rayonlarında yaşayan və şəfa tapmaq arzusu ilə muxtar respublikamıza gələn vətəndaşlar əvvəlcə xəstəxananın yerüstü şöbəsində qəbul edilir, adaptasiya dövrünü keçdikdən sonra xəstənin vəziyyətinə və yaşına uyğun olaraq yeraltı şöbəyə–duz şaxtasına göndərilir. Burada onlar təbii müalicə üsulu sayılan speleoterapiya kursu alırlar ki, bu da xəstələrin səhhətini natrium və xlor ionlarının müsbət təsiri nəticəsində yaxşılaşdırır. Belə müalicə kursu uşaqlarda 10-16 gün, böyüklərdə isə 16-20 gün çəkir. Müalicə kursu isə ildə bir dəfə olmaqla, üç il ardıcıl davam edildikdə lazımi səmərə verir. Xəstələr speleoterapiya kursu almaqla bərabər, lazım olduqda dərman preparatları ilə təmin edilir, müalicə gimnastikası ilə məşğul olur, hava, su, günəş, qum vannaları qəbul edir və döş qəfəsinin masajı kimi tibbi xidmətdən istifadə edirlər.

Qeyd edim ki, son illər Naxçıvanda aparılan genişmiqyaslı quruculuq tədbirləri sayəsində yeraltı şöbə yenidən qurulmuş, tunelin içərisi ilə palatalara gedən 296 metrlik yol genişlənərək ora sal daşlar döşənmiş və işıqlandırma sistemi yenidən quraşdırılmışdır. Buradakı palatalar, növbətçi tibb bacılarının otağı, istirahət foyeləri, sanitariya qovşaqları və ventelyasiya sistemi də günümüzün tələbləri səviyyəsində qurulmuşdur. Bu ilin iyul ayında isə xəstələrin rahatlığını təmin etmək məqsədilə əlavə 100 çarpayılıq yeni palata yaradılmış, beləliklə də çarpayıların sayı 250-yə çatdırılmışdır. Burada vətəndaşlara göstərilən yüksək səhiyyə xidməti, həmçinin də müalicənin effektliyinin nəticəsi xəstəxanaya müraciət edənlərin sayının artmasına da səbəb olub. Təkcə 2006-cı ildə Türkiyədən, İrandan, Rusiyadan, Qazaxıstandan, Dağıstandan, Ukraynadan, Gürcüstandan və Azərbaycanın müxtəlif regionlarından ümumilikdə, 1300-dən artıq vətəndaş şəfa tapmaq ümidi ilə bu xəstəxanaya pənah gətirib. Xəs-

təxanaya müraciət edən vətəndaşların sayının çoxluğu nəzərə alınaraq xidmətin səviyyəsini artırmaq məqsədilə bu tibb müəssisəsi sanatoriya tipli müalicə mərkəzinə çevrilib. Mərkəzin imkanlarını daha da genişləndirmək üçün isə yaxın gələcəkdə müasir standartlara cavab verən ikimərtəbəli sağlamlıq obyektinin tikilməsi də qərarlaşdırılıb.

Bu cür anoloji xəstəxanaların İtaliya, Avstriya, Ukrayna, Polşa, Almaniya və Macarıstan kimi inkişaf etmiş ölkələrdə də olduğunu diqqətə çatdıran müsahibim bildirdi ki, muxtar respublikamızda olan Fizioterapiya xəstəxanası öz müalicəvi əhəmiyyətinə görə digərlərindən bir neçə cəhətdən üstündür. Belə ki, ən yaxşı müalicə ocağı kimi tanınan Ukraynadakı xəstəxana 206 metr yerin dərinliyində yerləşdiyindən xəstələr buraya liftlə enməli olurlar. Bu isə təzyiqin birdən-birə dəyişməsinə və xəstələrin səhhətinin pisləşməsinə gətirib çıxarır. Həmçinin, bu şaxtada rütubətin normadan artıq olması və partlayıcı gücə malik metan kimi zəhərləyici qazların normadan çox olması öz təsirini göstərir. Naxçıvandakı şaxtalar isə dağın altında yerləşdiyindən bu kimi hallara rast gəlmək mümkün deyil. Xəstəxana horizontal şəkildə olduğundan buraya gələn xəstələr təxminən 300 metr məsafəlik yolu özləri qət edirlər. Bu isə yeraltı şöbədəki havaya tədricən öyrəşmək imkanı yaradır. Digər tərəfdən, Naxçıvanda havanın təmiz, iqlimin quru, günəşli günlərin sayının çox olması isə xəstəxanada rütubətin səviyyəsini normal saxlayır. Belə olan halda burada müalicə alan xəstələr qısa müddətdə öz səhhətlərinin yaxşı mənada dəyişdiyinin şahidi olurlar.

Baş həkimlə yeraltı şöbəni gəzə-gəzə gəlib xəstəxananın istirahət üçün ayrılmış hissəsinə çatdıq. Buradakı masalardan birində oturub çay içən bir neçə nəfərə yaxınlaşıb haradan gəldiklərini soruşdum. Öyrəndim ki, Gədəbəy rayonundan olan Eyyub Süleymanov aramsız öskürəkdən ciddi əziyyət çəkirmiş. Keçən il dost-tanışın məsləhəti ilə Naxçıvana Fizioterapiya xəstəxanasına gəlib. Müalicə kur-

su keçəndən sonra onun səhhətində açıq-aydın dəyişiklik yaranıb. Boğulma tutmaları yox olub, ona əzab verən öskürək isə tamamilə azalıb. Ona görə bu il də Fizioterapiya xəstəxanasına müraciət edib və hazırda müalicə kursu alır.

Cavidan Həşimova isə Bakı şəhərindən buraya gəlib. Onun dediklərindən: Oğlum Fuadın 5 yaşı var. Özünü çox narahat hiss edirdi. Həkimə aparıb yoxlatdıq. Dedilər ki, Naxçıvandakı Fizioterapiya xəstəxanasına aparın. Artıq 7 gündür ki, buradayam. Düzü, oğlumun səhhətinin bu qədər yaxşılaşacağına ümid etmirdim. Lakin indi Fuadın öskürəyi tamam kəsilib. Nəfəs alanda isə ağciyərlərində əvvəlki tək xışıltılar eşidilmir.

Qardaş Türkiyənin İğdır vilayətinin sakini Ruqiyyə Qarabağ isə uzun müddətdir ki, astmadan əziyyət çəkirmiş. Naxçıvan Dövlət Universitetinin incəsənət fakültəsinə qəbul olandan sonra tələbə dostları ona Fizioterapiya xəstəxanasına getməyi məsləhət görüblər. Əvvəlcə tərəddüd etsə də, sonradan xəstəliyin verdiyi əziyyət onu da məcbur edib ki, bu şəfa ocağına gəlsin. Özünün söylədiyinə görə, bura gələndən sonra öskürəyin qarşısını almaq üçün istifadə etdiyi dərman preparatlarını yadından çıxarıb.

Ümumiyyətlə, həmin gün xəstəxanada müalicə alan xəstələrin hansını dindirdimsə onlardan razılıq eşitdim. Aydın duydum ki, bu şəfa ocağı bundan sonra da insanlara çox gərək olacaq.

**R.İ. 15.XI.2006**

## «Naxçıvanda yüksək səviyyəli həkim kadrların hazırlanması üçün hər cür imkan yaradılıb» Müsahibimiz NDU-nun tibb fakültəsinin dekanı, pedaqoji elmlər namizədi Bəhruz Məmmədovdur

**–Bəhruz müəllim, istərdim söhbətimizə belə bir sualla başlayım: Naxçıvan Dövlət Universitetində tibb fakültəsinin açılması hansı zərurətdən yaranıb?**

–Son illərə qədər Azərbaycan Tibb Universiteti ölkəmizdə tibbi kadrların hazırlandığı yeganə ali təhsil ocağı idi. Azərbaycanın hər yerindən olduğu kimi, Naxçıvandan da hər il onlarla gənc burada tibb elminin sirlərinə yiyələnirdi. Ancaq təəssüf doğuran hal bu idi ki, ali təhsil alan gənclərin böyük əksəriyyəti universiteti bitirdikdən sonra muxtar respublikamıza qayıtmayaraq Bakı şəhərində qalır və orada işləməyə üstünlük verirdilər. Bu isə muxtar respublikada ixtisaslı həkim kadrlarına olan tələbatı bir qədər də kəskinləşdirirdi. Bu kimi problemləri aradan qaldırmaq məqsədi ilə ümummilli liderimiz Heydər Əliyevin xeyir-duası və muxtar respublika rəhbərliyinin böyük qayğısı hesabına 1999-cu ildə ilk dəfə olaraq Naxçıvan Dövlət Universitetində Təbiətşünaslıq fakültəsinin nəzdində fəaliyyət göstərən pediatriya ixtisasına qəbul elan olundu. Həmin il bu ixtisasa yiyələnmək istəyən 25 nəfər gənc test yolu ilə imtahan verərək tələbə adına layiq görüldü. 2000-ci ildə fakültənin maddi-texniki bazasını daha da gücləndirmək məqsədilə yeni dördmərtəbəli tədris binası tikilərək müəllim və tələbələrin ixtiyarına verildi. Hazırda bu fakültədə 181 nəfər gənc tibb elminin sirlərinə yiyələnir.

Naxçıvanda məhz pediatriya fakültəsinin açılması da çox əhəmiyyətli bir məsələ idi. Çünki pediatr kadrlarının

çatışmazlığı muxtar respublikamızda fəaliyyət göstərən səhiyyə müəssisələrinin əksəriyyətində açıq-aydın hiss olunmaqda idi. Digər tərəfdən gələcəyimiz olan körpələrin dünyaya gəlməsi və sağlam böyüməsi üçün də ixtisaslı pediatr həkimlər gərəkdir. Biz ümidvarıq ki, Naxçıvan Dövlət Universitetində belə bir ixtisasın açılması, ümumiyyətlə isə tibb fakültəsinin yaradılması yaxın gələcəkdə muxtar respublikamızın səhiyyəsindəki ixtisaslı kadr çatışmazlığının tamamilə aradan qaldırılmasına şərait yaradacaq.

**–Bəziləri belə güman edirdilər ki, Naxçıvan kimi kiçik bir əyalətdə ali tibbi təhsil alaraq peşəkar həkimlərin yetişməsi qeyri-mümkündür. Çünki burada heç tibb ixtisaslarını tədris edə biləcək müəllim kadrları çatışmır. Bu fikrə Sizin münasibətinizi də bilmək maraqlı olar.**

–Naxçıvan Dövlət Universiteti 1967-ci ildən Azərbaycan Pedaqoji Universitetinin bir filialı kimi fəaliyyət göstərib. Uzun bir inkişaf yolu keçən bu filial sonralar müstəqil instituta, bir qədər sonra universitetə çevrilib. İndi burada müxtəlif sahələr üzrə ixtisaslı kadrlar hazırlanır. Son dövrlərdən başlayaraq isə ali təhsilli tibb kadrlarının hazırlanmasına başlanılıb. Təbii ki, belə bir prosesə başlamazdan əvvəl kadr potensialı barədə ciddi şəkildə düşünülüb. Fakültə yaradılarkən ilk növbədə Azərbaycan Tibb Universitetinin bazasından istifadə edilib. Belə ki, orada işləyən həkim-müəllimlər Naxçıvana dəvət olunaraq tələbələrə mühazirələr oxuyublar. Həmçinin qonşu Türkiyə Respublikasından, hətta Amerika Birləşmiş Ştatlarından və Avropadan muxtar respublikamıza gələn həkimləri də fakültə ilə tanış etmişik. Onlar da tələbələrlə görüşərək gələcəyin həkimlərinə müxtəlif mövzularda məruzələr oxumuş, onları maraqlandıran sualları cavablandırmışlar. İndi də bu cür hərtərəfli əlaqələrdən maksimum yararlanmağa çalışırıq. Əgər əvvəllər fakültədə 1 nəfər elmlər namizədi var idisə, indi burada 7 elmlər namizədi tələbələrə tibb elminin sir-

lərini öyrədir. İxtisas dərəcəsindən asılı olaraq elmi dərəcəli başqa həkimləri də tədrisə cəlb edərək onların da potensialından lazı-mınca istifadə etməyə çalışırıq. Tələbələrin tibbi ədəbiyyatla təminatlarını da yaxşılaşdırmaq daim diqqət mərkəzində saxlanılır. Belə ki, universitetin Elektron kitabxanası ilə yanaşı, fakültənin özündə də ayrıca kitabxana yaradılaraq zəngin tibbi ədəbiyyatla təmin olunub. Bundan başqa, fakültədə daim internetə qoşulu olan 25 kompyuter tələbələrin istifadəsinə verilib. Bunların köməyi ilə tələbələr dünya səhiyyəsində baş verən yenilikləri öyrənə bilir, eyni zamanda bir çox cərrahiyyə əməliyyatlarının qiyabi olaraq iştirakçısına çevrilirlər.

Tələbələrlə yanaşı, elmi dərəcəli müəllimlərin hazırlığına da ciddi diqqət yetiririk. Həkimlərimiz tez-tez Bakıda və qonşu Türkiyə Respublikasında fəaliyyət göstərən ixtisasartırma kurslarına cəlb olunurlar. Bütün bunları nəzərə alaraq tam əminliklə deyə bilərəm ki, bu gün Naxçıvanda yüksək səviyyəli həkim kadrların hazırlanması üçün hər cür imkan yaradılıb.

**–Bəhruz müəllim, tələbələrin savadlı həkim kimi yetişmələri üçün onlara nəzəriyyə ilə yanaşı, yaxşı təcrübə də keçilməlidir. Deyə bilərsinizmi, fakültənizdə təhsil alan gənclər üçün bu proses necə təşkil olunur?**

–Bizim fakültədə təhsil alan III, IV və V kurs tələbələri tədris ilinin sonunda təcrübəyə cəlb olunurlar. Bu zaman III və IV kurslar 1 ay, V kurslar isə 2 ay təcrübə keçirlər. Bununla yanaşı, tələbələrimiz dərs aldıqları müddətdə də səhiyyə ocaqlarında olur və burada aparılan cərrahi əməliyyatlarda iştirak edirlər. Eyni zamanda Türkiyə universitetləri ilə əldə olunmuş razılıq əsasında bizim tələbələrimiz oradakı klinikalarda da təcrübə keçirlər. Misal üçün deyə bilərəm ki, Türkiyənin Van şəhərindəki Yüzüncü Yıl Universitetində, Elazıq şəhərindəki Fırat Universitetində təcrübələrdə olmuşuq. Bu il isə tələbələrimiz İzmit şə-

hərindəki Kocaeli Universitetində və Ərzurum şəhərindəki Atatürk Universitetində təcrübə keçiblər. Fərəhdoğurucu hal kimi onu da deyim ki, Atatürk Universitetindəki həkimlər bizim tələbələrimizin nəzəri biliklərinə heyran qalmışdılar. Buna görə də oradakı həkimlər tələbələrimizin cərrahi əməliyyatlarda assistent kimi iştirakını təmin etməklə yanaşı, onlara xəstələrə tikiş qoymağa da icazə verirdilər. Halbuki, türkiyəli tələbələrin cərrahi əməliyyatlarda iştirakına icazə verilmir. Bir sözlə, bu universitetin nəzdində fəaliyyət göstərən klinikanın təcili tibbi yardım, cərrahi, doğum, daxili xəstəliklər və uşaq bölmələrində tələbələrimiz yüksək səviyyəli təcrübələr keçdilər. Bir faktı da diqqətinizə çatdırım ki, Kocaeli Universiteti ilə Naxçıvan Dövlət Universiteti arasında imzalanmış protokola əsasən bundan sonra bizim tələbələrimiz həmin ali təhsil ocağında tibbi təhsil almaq imkanına da malik olacaqlar.

**–Bəhruz müəllim, belə bir sual da çoxminli oxucularımızı düşündürür: Gələcəkdə tibb fakültəsində yeni ixtisasların açılması gözlənilirmi?**

–Əgər bu gün muxtar respublikamızda səhiyyə xidmətinin səviyyəsi getdikcə güclənirsə, səhiyyə ocaqlarının sayı sürətlə artırsa, təbii ki, bu, bizim fakültəyə də öz müsbət təsirini göstərir. Belə ki, yaradılan yeni səhiyyə müəssisələrində müasr tibb avadanlıqları ilə işləməyi bacaran peşəkar həkimlər tələb olunur. Ona görə də yeni ixtisasların açılmasına ciddi ehtiyac duyulur. Biz bütün bunları müşahidə edirik və artıq nəzərdə tutmuşuq ki, yaxın bir-iki il ərzində fakültəmizdə yeni ixtisaslar açılmasını təmin edək.

**–Bəs, hazırladığınız tibbi kadrların işlə təminatı necədir?**

–Bizim 29 nəfər məzunumuz bu il internatura kursunu da uğurla başa vuraraq müstəqil həyata həkim kimi vəsiqə alıblar. Onlar artıq muxtar respublikanın Səhiyyə Nazirliyinə də müraciət ediblər və belə qənaətə gəlinib ki, bu gənclərin hamısı öz istəyindən asılı olaraq muxtar res-

publikamızın ərazisindəki ayrı-ayrı səhiyyə müəssisələrində işlə təmin olunacaqlar. Ümid edirəm ki, məzunlarımız Hipokrat andına sadiq qalacaq, ali məktəbdə dərs aldıqları müəllimlərinin etimadını doğruldacaq, muxtar respublikada əhaliyə göstərilən səhiyyə xidmətinin səviyyəsinin yüksəldilməsi üçün qüvvə və bacarıqlarını əsirgəməyəcəklər.

**R.İ. 29.VII.2006**

## Naxçıvanın flora biomüxtəlifliyində dərman bitkiləri üstünlük təşkil edir
## Müsahibimiz AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun elmi işçisi Ramiz Ələkbərovdur

Alimlərin qənaətinə görə, təbiətin yaşıl örtüyü, xüsusən də bitkilər əsas qida zəncirinin başlanğıcı, həmçinin günəş enerjisini akkumulyasiya edərək digər canlılara çatdıran varlıqlardır. Onların fotosintez zamanı atmosferə buraxdıqları oksigen isə canlıların öz orqanizmlərində üzvi maddələri oksidləşdirərək enerji əldə etməsinə şərait yaradır. Deməк, bütün heterotrof canlılar üçün həm qida, həm də oksigen istehsal edir. Bu nöqteyi-nəzərdən yanaşsaq, bitkilərsiz biosferi təsəvvür etmək qeyri-mümkündür. Floranın tərkibinə daxil olan bitkilər sırasında isə dərman bitkiləri xüsusi yer tutur. Bu mənada, muxtar respublikamızın florası tibbi əhəmiyyətə malik olan bitkilərlə daha zəngindir. Bu barədə AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun elmi işçisi Ramiz Ələkbərov söhbətimizdə ətraflı danışdı. Həmin müsahibəni oxucularımıza da təqdim edirik.

**–Ramiz müəllim, əvvəlcə muxtar respublikamızın bitki aləmi barədə məlumat verməyinizi istərdik...**

–Qafqazın cənub-qərbində yerləşən muxtar respublikamızın ərazisi floristik baxımdan Azərbaycanın ən zəngin regionlarından biridir. Çünki Azərbaycan florasının tərkibinə daxil olan 4500 növ bitkinin 3013-ü, yəni 66,96 faizi Naxçıvan florasında bitir. Bu isə ümumilikdə Qafqaz florasının 43,04 faizi deməkdir. Aparılan tədqiqatlar nəticəsində aşkar edilmişdir ki, muxtar respublikamızın florasında 106 fəsilədə 436 cins və 722 növ dərman bitkisi vardır. Onlardan 704 növü yabanı, 18 növü isə mədəni şəkildə yetişdirilən bitki-

lərdir. Dərman bitkilərinin 19 növü Qafqaz, 2 növü Azərbaycan üçün endemik, 1 növü isə becərilən relikt bitkidir. Nadir dərman bitkilərinə 51 növ daxildir. Bu bitkilərin çox hissəsi (496 növ) 16 fəsilənin payına düşür. Bunlar sırasında mürəkkəbçiçəklilər (78 növ), dalamazkimilər (59 növ), gülçiçəklilər (49 növ), kələmçiçəklilər (47 növ), kəpənəkçiçəklilər (46 növ), çətirçiçəklilər (35 növ), taxıllar (29 növ), tərəçiçəklilər (22 növ), sümürgənkimilər (21 növ) fəsilələrinə daxil olan növlər vardır. Bu bitkilərin 49,58 faizini çoxillik, 23,13 faizini birillik ot bitkiləri, qalan hissəsini, yəni 8,17 faizini ikiillik ot bitkiləri, 1,94 faizini yarımkollar və 0,83 faizini kolcuqlar təşkil edir.

**–Söhbətinizdən belə çıxır ki, regionumuzun bitki örtüyü çox zəngindir və onlar arasında dərman bitkiləri üstünlük təşkil edir. Elədirsə, bu müalicəvi əhəmiyyətli bitkilərdən bir qədər ətraflı danışmanızı xahiş edərdik...**

–Muxtar respublikamızda flora biomüxtəlifliyində faydalı bitkilər, xüsusən dərman bitkiləri çoxdur. Bu da ilk növbədə ərazinin torpaq-iqlim xüsusiyyətləri ilə əlaqədardır. Yəni ərazidəki yüksək radiasion faktoru bitkilərin təkamül prosesində tərkiblərində bioaktiv maddələrin daha çox toplanılmasına imkan verir. Aparılan tədqiqatlar nəticəsində aydın olub ki, muxtar respublikamızda 700-ə yaxın təbii ehtiyatı bol olan dərman bitkiləri mövcuddur. Üskükotu, dağturpu, pişikotu, dəlibəng, bat-bat, zirinc, acılıq otu, sığırquyruğu, murdarça, qaragilə, qatırquyruğu, qaraqınıq, palıd, cökə, sumaq, sarağan, rəvənd, iyli yovşan, ayıdöşəyi və digər faydalı dərman bitkiləri regionumuzun florasında daha çox yayılıb. Bu bitkilərin tərkibi qlikozidlər, saponinlər, flavonoidlər, kumarinlər, aşı maddəsi, piyli və efirli yağlar, vitaminlər, fitonsidlər, qətranlar selik və digər maddələrlə zəngindir. Dərman bitkiləri muxtar respublikamızın əsasən Batabat, Keçili, Dərəboğaz, Şahbulaq, Nəhəcir, Göynük, Xəznədərə, Nürgüt, Biləv, Göy-göl və digər ərazilərində geniş yayılmışdır. Bu haqda kifayət qədər ədəbiyyat ma-

terialları vardır. Həmin kitablarda müxtəlif xəstəliklərin müalicəsi üçün, xüsusi təcrübələrlə yoxlanılmış reseptlər əsasında dərman bitkilərinin qarışığının hazırlanılaraq istifadə edilmə qaydaları da göstərilmişdir. Bu bitkilər arasında nadir bitkilər statusuna daxil edilənləri də az deyil. İnstitutumuz tərəfindən onların əkilib-becərilmə üsulları da öyrənilir. Artıq 8 növdə dərman bitkisinin çoxaldılmasına başlamışıq. Həmçinin, dərman bitkilərindən efir yağlarının, ekstraktların alınmasına da nail olmuşuq. Hazırda qarşımızda duran başlıca məqsədlərdən biri muxtar respublikamızın ərazisində bitən qiymətli dərman bitkilərindən alınan, ekoloji cəhətdən təmiz məhsulları ölkəmizdə və ondan kənarda, daha geniş anlamda isə dünyada tanıtmaqdır.

**–Ramiz müəllim, sizcə, elə dərman bitkiləri vardırmı ki, yalnız muxtar respublikamızın ərazisində bitsin?**

–Azərbaycan florasında 240 növ endem vardır ki, bunların da 70-80 növü muxtar respublikamızın florasında yayılmışdır. Bunlardan 19 növ Komarov şaqqıldağı, Ordubad gəvəni, Şoveç soğanı, kövrək soğan, Yevgeni öldürgəni, oraqvari qalxanək, Atropan dazısı, yumurtavari ilankölgəsi, çılpaq dorema, Naxçıvan sürvəsi, Aleksandr sürvəsi, Naxçıvan qaraşəngisi, sarımsaqyarpaqlı pişikotu, ballı sarımsaq yalnız muxtar respublika üçün tipik endem sayılırlar.

**–Bəs, bu qiymətli bitkilərdən dərman preparatları, məhlullar necə, hazırlanırmı? Onlar istehsalata "cəlb" olunurmu?**

–Ümumiyyətlə, təbabətdə istifadə olunan dərmanların 40 faizdən çoxu bitkilərdən alınır. Bitkilərdən alınan dərman preparatları təbii ki, ekoloji cəhətdən təmiz hesab olunmaqla insan orqanizmi üçün də heç bir fəsad törətmirlər. Bitkilərdən dərman istehsalı texnologiyasında adətən sulu, spirtli çıxarışlardan, eləcə də orqanizm üçün heç bir zərəri olmayan digər həlledicilər-dən istifadə edilir. Onu da

deyim ki, belə bitkilərdən birbaşa quru kütlə kimi də istifadə olunur. Dərman bitkilərinin qəbulu zamanı onların tərkibindəki antioksidant maddələr, lazımsız oksidləşmə proseslərinin qarşısını almaqla yanaşı, tərkiblərindəki təsiredici maddələrin xəstə orqan və toxumalarda qalma müddətini də artırır. Ancaq təəssüflər olsun ki, bəzən əhali tərəfindən dərman bitkiləri kortəbii surətdə istifadə edilir. Bu isə çox halda insan orqanizminə öz mənfi təsirini göstərir. Məsələn, el arasında daha çox romaşka kimi tanınan və müalicəvi əhəmiyyətli ağkirpiyi çox az miqdarda, yalnız Ordubad rayonunun Nəsirvaz kəndi ətrafında yayılıb. Lakin bu cinsə daxil olan və xarici görünüşünə görə ağkirpiyə bənzəyən onlarla bitki vardır və adətən adamlar səhv olaraq onları toplayıb, bazarlarda açıq şəkildə, heç bir gigiyenik qaydaya əməl etmədən satırlar. Həmin növlərin bir çoxunda kamfora tərkibli maddələr vardır ki, o da istifadə olunan zaman xəstəyə öz mənfi təsirini göstərir. Ümumiyyətlə, qızılgüliyli kəklikotu adlanan koçi kəklikotu, solmazçiçək, qızılgül ləçəyi, dağ nanəsi, qrammosiadium, az miqdarda baldırğan çiçəyi və qantəpər kimi dərman bitkiləri istisna olmaqla, həkim məsləhəti olmadan digər dərman bitkilərindən istifadə edilməməlidir.

Bu bitkilərdən dərman preparatları hazırlamaq işinə gəlincə isə qeyd edim ki, bu bir qədər ağırdır. Onun üçün ilk növbədə sənaye əhəmiyyətli və yüksək gigiyenik tələblərə cavab verən texnologiya və laboratoriyalar olmalıdır. Buna görə də institutumuzun laboratoriyasında sadəcə olaraq bitkilərin tərkibindən efir yağları, ekstrat və tinkturların alınması işini yerinə yetirir və hələlik bu maddələri ala bilirik. Çaytikanı yağı almaq imkanımız isə daha çoxdur. Ümumiyyətlə, muxtar respublikamızda kifayət qədər dərman bitkiləri olduğundan kənardan gətirilən dərman bitkilərinə ehtiyac olduqca azdır.

**R.İ. 05.XII.2006**

# İnsan və vətəndaş hüquq və azadlıqlarına dövlət təminatı

## Dövlətin ali məqsədlərindən biri də cəmiyyətdə milli, siyasi və hüquqi şüuru formalaşdırmaqdır

Naxçıvan MR Ali Məhkəməsinin hakimi Vəli Abdullayev: İnsanlara sadəcə hüquq və azadlıqlarını öyrətmək kifayət deyil, onların şüurunda həm də hüquq mədəniyyəti tərbiyə etmək lazımdır.

**–Azərbaycan dövləti öz cəmiyyətinin inkişaf etdirilməsində maraqlıdır. Fikrimizcə, dövlətin bu yolda ali məqsədlərindən biri də cəmiyyətdə milli, siyasi və hüquqi şüuru formalaşdırmaqdır. Sizcə, cəmiyyətin inkişaf etdirilməsində insan hüquq və azadlıqlarının mənimsənilməsi nə dərəcədə vacibdir?**

–Əvvəlcə sualınızda ilk baxışdan sezilməyən, lakin çox mühüm əhəmiyyət kəsb edən bir incəliyə toxunmaq istərdim.

Siz insan hüquq və azadlıqlarından bəhs etdiniz, vətəndaş hüquq və azadlıqlarından danışmadınız. Əsas Qanunumuzun şəxsiyyətə verdiyi status isə ikili xarakter daşıyır. Konstitusiyamız bir halda şəxsiyyəti bioloji varlıq kimi qəbul edir, onu doğulmasından başlayaraq yaşaması və inkişafı üçün lazım olan hüquqlarla və azadlıqlarla təmin edir. Bunlar şəxsiyyətin insan kimi mövcudluğunu təmin etdiyindən insan hüquq və azadlıqları adlanır. İkinci halda isə şəxsiyyət dövlət və vətəndaşlarla daim qarşılıqlı əlaqədə olan ictimai varlıq kimi qəbul edilir, ona siyasi proseslərdə, dövlətin idarə edilməsində iştirak etməsi, seçməsi, seçilməsi və s. üçün hüquqlar və azadlıqlar verilir. Belə hüquqlar və azadlıqlar isə vətəndaş hüquq və azadlıqları adlanır.

Bu hüquq və azadlıqlar insanlarımıza imkan və rifah verən, onların ləyaqətini əks etdirən, insan azadlığı ilə dövlət hakimiyyətinin sərhəddini müəyyən edən mühüm təmi-

natlardır.

İnsan və vətəndaş hüquqları və azadlıqları ilə dövlət hakimiyyəti biri-birini qarşılıqlı surətdə məhdudlaşdıran məfhumlardır. Birinci məfhum şəxsiyyətin bir fərd kimi yaşamasını və inkişafını təmin etdiyi halda, ikinci məfhum həmin fərdlərin birləşərək əmələ gətirdiyi cəmiyyətin bir toplum halında mövcudluğunu və inkişafını təmin edir. Hüquq və azadlıqların tam həcminin son həddindən dövlət hakimiyyəti başlayır. Bu həddin hər hansı tərəfdən keçilməsi ilə qarşı tərəfin statusu tapdanır, qarşılıqlı məhdudiyyətlər və güzəştlər əsasında idarə olunan cəmiyyətin balansı pozulur. Balansın belə pozulmaması üçün isə hər bir kəs dövlət hakimiyyəti ilə özü arasında mövcud olan keçilməz həddi bilməli və onu keçməməlidir. Bax, insan və vətəndaş hüquq və azadlıqlarının mənimsənilməsini zəruri edən şərtlərdən biri budur.

**–Bir hüquqşünas kimi sizdən soruşmaq istərdik: İnsan və vətəndaş hüquq və azadlıqlarının mənimsənilməsi prosesi necə aparılmalıdır?**

–İnsanların hüquq və azadlıqlarının mənimsənilməsi prosesi hüquqi tərbiyələndirmə adlanır və insanların öz hüquqları və azadlıqları haqqında, onların təminatları haqqında təsəvvürlərinin, biliklərinin formalaşdırılmasından ibarətdir. Bu proses insanların hüquqi cəhətdən maarifləndirilməsi, hüququn təbliğ edilməsi, hüquqi təcrübə vermə və özünü tərbiyəetmə kimi vasitələrlə həyata keçirilir.

Bilirsiniz ki, hələ orta məktəbdə şagirdlərə hüquq və azadlıqlarla və ümumiyyətlə, hüquqla bağlı xüsusi fənn tədris olunur. Orta məktəbi bitirdikdən sonra bəzi şəxslər ali məktəblərdə sırf hüquq təhsili alır, digər ixtisaslar üzrə təhsil alanlara isə yenə də hüquqla bağlı xüsusi fənn tədris edilir və bunun nəticəsində həmin şəxslərdə öz hüquq və azadlıqları barədə müəyyən təsəvvür yaranır. Hüququn bu vasitə ilə mənimsənilməsi hüquqi maarifləndirmə adlanır.

Bəzən insanlar hüquqi maarifləndirmə vasitəsilə öz

hüquq və azadlıqlarını tam mənimsəyə bilmir, yaxud zaman-zaman onları unudurlar. Belə olan halda müəyyən kütləvi tədbirlərin, yaxud kütləvi informasiya vasitələrinin köməyilə geniş insan kütlələrinə onların hüquq və azadlıqları təbliğ edilir, öyrədilir. Məsələn: "Şərq qapısı" qəzetinin "Sual-cavab guşəsi" rubrikası belə bir lazımlı üsulla əhalinin hüquq düşüncəsinin formalaşdırılmasında iştirak edir.

Atalarımızın çox müdrik bir kəlamı var: "Başına gələn başmaqçı olar". Əhalinin müəyyən təbəqəsi başına gələn müxtəlif hadisələrin hüquq-mühafizə və məhkəmə orqanlarında araşdırılmasında iştirak edən zaman əldə etdikləri əvəzsiz təcrübə ilə öz hüquq və azadlıqlarını mənimsəyir.

**–Təbii ki, vətəndaşların öz hüquq və azadlıqlarını kifayət qədər bilməməsi, onları öyrənmək istəməməsi gələcəkdə onları bir çox çətinliklərlə üzləşdirə bilər. Bəs, bu cür çətinliklərdən necə yaxa qurtarmaq olar?**

–Belə düşünürəm ki, hüquq və azadlıqlarını mənimsəməyən şəxsə "babalı öz boynuna" demək olmaz. Mən arzu edərdim ki, hər bir vətəndaşımız Azərbaycan Respublikasının Konstitusiyasının ona verdiyi insan və vətəndaş hüquqları və azadlıqları barədə, onların həyata keçirilməsi yolları və təminat vasitələri barədə tam məlumatlı olsunlar. Belə olanda hər bir fərd hissəciyi olduğu cəmiyyətdə kor-koranə, hadisələrin axarı hesabına yaşamır, cəmiyyətin idarə olunmasında şüurlu surətdə iştirak edir, öz azadlığının, şərəf və ləyaqətinin imkan verdiyi həddə yetkinləşir, dəyişir, inkişaf edir. Cəmiyyətin və şəxsiyyətin belə təkamül yolu keçərək qurduğu dövlətin, hakimiyyətin dayaqları da möhkəm olur. Şəxs öz hüquqlarını, azadlıqlarını və vəzifələrini nə qədər az bilirsə, o, bir o qədər də nadan olur, çox asanlıqla yoldan çıxır, hüquq və azadlıqları ilə dövlət arasındakı sərhəddi düşünmədən keçir. Ona görə də yuxarıda göstərdiyim vasitələrin hamısından istifadə edib əhalini hüquqi maariflənmə yoluna çıxarmaq lazımdır. Bu prosesləri həyata keçirərkən insanlara sadəcə hüquq və

azadlıqlarını öyrətmək kifayət deyil, onların şüurunda həm də hüquq mədəniyyəti tərbiyə etmək lazımdır. Yəni insanlara başa salınmalıdır ki, hüququ təkcə bilmək azdır, onu həm də icra etmək, həyata keçirmək lazımdır, onun pozulmasına yol vermək olmaz.

**–Sizcə, muxtar respublikamızda fəaliyyət göstərən hüquq məsləhətxanalarının vətəndaşlara hüquqi yardım göstərməsilə bağlı fəaliyyətləri qənaətbəxşdirmi?**

–Yox. Təəssüf ki, bunu birmənalı surətdə təsdiq etmək mümkün deyil.

Acınacaqlı haldır ki, Naxçıvan şəhər Hüquq Məsləhətxanasında çalışan vəkillərin əksəriyyətini erməni blokadasının gətirdiyi müxtəlif çətinliklər və rahat həyat ehtirası diyarımızdan çox tez qaçırmışdır. Vaxtilə ümummilli liderimiz Heydər Əliyev minbir çətinliklərə dözərək bu torpaqda yaşayanda və xalqla bir yerdə olacağını deyəndə yəqin ki, həmin o vəkillərə də fədakarlıq nümunəsi göstərmək istəyib.

Ağır çətinlikləri bizimlə yaşayan hüquq müdafiəçiləri ilə bağlı isə birmənalı olaraq onu deyə bilərəm ki, bu gün öz məsuliyyətlərini dərk edən və vəzifələrinə vicdanla yanaşan, faktiki olaraq dörd yüz mindən artıq əhaliyə xidmət göstərən həmin iki vəkildən toxunduğumuz nəticələri gözləmək sadəlövlük olardı. Bu, ilk növbədə onların fiziki imkanları xaricindədir.

**–Verəcəyimiz bu sual isə məhkəmələrin fəaliyyəti ilə bağlı olacaq: Sizcə, məhkəmə hakimiyyətinin müstəqilliyinin qanunvericilikdə öz əksini tapması vətəndaşların hüquq və azadlıqlarının müdafiə edilməsində nə kimi rol oynayır?**

–Bir qədər əvvəl biz insan və vətəndaş hüquq və azadlıqlarından danışanda qeyd etdik ki, onlara Konstitusiyamızla təminat verilir. Həmin hüquqların təminatının digər

vasitəsi isə məhkəmə təminatıdır. Azərbaycan Respublikası Konstitusiyasının 7-ci maddəsinin III bəndinə əsasən məhkəmə hakimiyyəti Azərbaycan Respublikasında dövlət hakimiyyətinin üç qanadından birini təşkil edir. Konstitusiyamız insan haqlarının hərtərəfli müdafiəsi probleminin həllini məhkəmələrə həvalə edib. Bu, təsadüfi deyil, hələ keçən əsrdə mütəfəkkirlərdən biri deyirdi ki, əgər hüquq məhkəmə müdafiəsinə əsaslanmırsa, deməli, o, hüquq deyil, gəlişi xoş görünən sözlərdir. Konstitusiyamız vətəndaşlara hüquq verir ki, onların azadlıqları hər dəfə pozulduqca müdafiə üçün Konstitusiya Məhkəməsinə, ümumi yurisdiksiyalı məhkəmələrə müraciət etsinlər, məhkəmələrə isə səlahiyyət verir ki, vətəndaşların pozulmuş hüquq və azadlıqlarının bərpası üçün səlahiyyətləri daxilində lazımi qərar qəbul etsinlər. Məhkəmə hakimiyyətinin müstəqilliyi pozulmuş hüquqların bərpası ilə əlaqədar qərar qəbul edən zaman onun digər orqanlardan və ya şəxslərdən asılılığını istisna edir, tərəfsizlik mühiti formalaşdırır.

**–Bu isə sizə sonuncu sualımızdır: Dövlət müstəqilliyi əldə etdikdən sonra Azərbaycanda insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı hansı islahatlar həyata keçirilib və belə islahatlar davam etdiriləcəkmi?**

–Azərbaycan Respublikası dövlət müstəqilliyi əldə etdikdən sonra bizim bir xalq və millət kimi başqa millətin dövlətinə mənsubiyyətimiz aradan qalxdı. Biz sözün bütün mənalarında öz milli dövlətimizə yiyələndik, tarixi o qədər də qədim olmayan dövlətçiliyimizi bərpa etdik. Bu bizə imkan verdi ki, yüz illər boyu bizə ikinci dərəcəli xalq kimi baxan imperiyanın caynağından qurtulub öz milli və siyasi hüquqlarımızı əldə edib onları milli mentalitetimiz hüdudlarında, sivil dünyanın standartları çərçivəsində təkmilləşdirək və təminatını həyata keçirək. Bunun üçün mövcud qanunvericiliyimiz çox mühüm və vacib islahat yolu keçməli idi. Bu yolun keçilməsinə ümummilli liderimiz Heydər Əliyevin

rəhbərliyi altında hazırlanmış Azərbaycan Respublikasının yeni Konstitusiyasının 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsi ilə qəbul edilməsi nəticəsində başlanıldı. Həmin Konstitusiyada insan hüquq və azadlıqları və onların müdafiəsi ilə bağlı çox dəyərli hüquq normaları müəyyən edilmişdir. Konstitusiyanın III fəsli bütövlükdə əsas insan və vətəndaş hüquqlarına və azadlıqlarına həsr edilmişdir.

Bundan sonra Əsas Qanunun göstərişlərinə uyğun olaraq respublika qanunvericiliyinin bütün sahələrində önəmli islahatlar aparılmağa başlanılmış, qəbul edilən bütün yeni qanunvericilik aktları demokratik və humanist prinsiplərə uyğunlaşdırılmışdır.

İnsan haqlarının qorunmasının ciddi təmin edilməsi məqsədilə respublika Prezidenti 22 fevral 1998-ci il tarixdə imzaladığı "İnsan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında"kı Fərmanında bu sahədə bir sıra əsaslı islahatlar aparılması ilə yanaşı, qüvvədə olan qanunların və qanunqüvvəli aktların Konstitusiyaya və beynəlxalq standartlara uyğunlaşdırılması, insan hüquq və azadlıqlarının daha dolğun təmin edilməsi məqsədilə Dövlət Proqramının hazırlanması barədə Nazirlər Kabinetinə göstərişlər vermişdir.

Prezidentin bu fərmanı ilə İnsan Hüquqları Elmi-Tədqiqat İnstitutunun yaradılması, bu sahədə qanunların tətbiqi təcrübəsinin öyrənilməsi, azadlıqdan məhrumetmə yerlərində dustaqların saxlanılma şəraitinin yaxşılaşdırılması və sair təmin edilmişdir.

Respublikamızda insan haqlarının birbaşa müdafiəsini təmin etmək məqsədilə İnsan Hüquqları Üzrə Müvəkkil (Ombudsman) təsisatı yaradılmışdır və fəaliyyət göstərir. Yeri gəlmişkən qeyd edim ki, faktiki olaraq coğrafi cəhətdən Azərbaycan Respublikasından ayrı düşmüş muxtar respublikamızda da bu təsisatın daha səmərəli fəaliyyətini təmin etmək üçün mühüm tədbirlər hazırlanır və həyata keçirilir.

Sadaladıqlarım insan haqları ilə bağlı respublikamızda aparılan islahatların bir hissəsi olsa da, bu sahədə fəaliyyət bitməmişdir. Müstəqil respublikamız yaşadıqca belə islahatlar aparılacaq, insan haqları ilə bağlı qanunvericilik aktları daim təkmilləşəcək və inkişaf edəcək.

**E.Ş. 27.V.2005**

## Dövlət öz xalqının milli maraqlarını hər şeydən üstün tutur

Vətəndaşların əsas hüquqlarından biri olan fikir və söz azadlığı dövlətin hüquqi dövlət kimi inkişafında maraqlı olan demokratik rejimin ən mühüm elementlərindəndir və bu insan hüquq və azadlığı zəruri müddəalardan biri kimi müəyyən edilmişdir. Təbii ki, belə bir mühüm demokratik dəyərə beynəlxalq ictimaiyyət arasında hüquqi, dünyəvi və demokratik dövlət kimi nüfuzu gündən-günə artan Azərbaycan dövləti də xüsusi diqqət yetirir. Və təkcə Azərbaycan vətəndaşlarının yox, Azərbaycan ərazisində məskunlaşmış hər bir etnik qrupun, digər xalqların nümayəndələrinin fikir və söz azadlığını ilk növbədə Əsas Qanunumuzda, sonra isə dövlətimizin qoşulduğu bu hüquqları nəzərdə tutan beynəlxalq aktlarda təsbit etmişdir. Dövlətimiz tərəfindən ratifikasiya edilən adıçəkilən vətəndaş azadlığını nəzərdə tutan beynəlxalq aktlarda, məsələn, "Ümumdünya İnsan Hüquqları" Bəyannaməsində, "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktda, "İnsan hüquqları və azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasında həm də bütün insan hüquq və azadlıqlarına təminat da öz əksini tapmışdır. Göründüyü kimi demokratik prinsipləri əsas tutan dövlətimiz öz ərazisində yaşayan bütün insanlara öz fikir və əqidəsini açıqlamağa kifayət qədər şərait və imkan yaradıb.

Lakin fikir və söz azadlığının dövlətin hüquqi dövlət kimi formalaşmasında mühüm bir faktor olmasına baxmayaraq, dünyanın ən demokratik dövlətlərində belə bu azadlıqda bəzi məhdudiyyətlər müəyyənləşdirilib. Və bu sivil dövlətlərin mövcud qanunvericiliklərində hər kəsdən fikir və söz azadlığından istifadə edərkən məsuliyyətli olmaq tələb edilir, qarşılarına müəyyən vəzifələr qoyulur. Və bəyan edilir ki, heç bir şəxsin, sosial qrupun fikri, əqidəsi dövlətin,

xalqın milli maraqlarına zidd olmamalıdır və ola da bilməz. Digər bir tərəfdən demokratik dəyərlərə sahib çıxan dövlətin mövcud hakimiyyətinə qarşı kütləvi informasiya vasitələri və digər yollarla açıqlanan absurd fikir və ümumxalq iradəsinə əsaslanan hakimiyyəti ləkələməyə çalışan əqidə düşünüldüyü kimi mövcud hakimiyyətə qarşı yox, dolayı yolla xalqa qarşı yönəlmiş hesab edirlər. Çünki həmin hakimiyyətin mənbəyi məhz xalqdır, onun vətəndaşıdır.

Göründüyü kimi, dünyanın ən demokratik dövlətlərində belə, hər bir halda xalqının milli maraqlarını hər şeydən üstün tutur və heç kəsin Əsas Qanunda nəzərdə tutulmuş istənilən konstitusion hüquq və azadlıqdan istifadə edib milli maraqlarla ziddiyyət təşkil edən bir fikir bildirməsinə imkan verilmir. Çünki dövlətin beynəlxalq arenada nüfuzuna zərbə vuracaq belə bir hərəkət xalqın gələcək rifahını kölgə altına salır, dövlətin digər dövlətlərlə sıx əlaqəsini ləngidir. Təbii ki, belə bir vəziyyət də dünya dövlətləri arasında arzuedilməz və yolverilməz hal kimi qəbul edilib.

Amma çox təəssüf ki, bəzən belə arzuedilməz vəziyyət xalqımızın da başına gəlir. Və bəzi siyasi qüvvələr heç bir məsuliyyət hiss etmədən milli mənafelərimizə və mentalitetimizə zidd əqidələrini təbliğ edirlər. Düzdür, az əvvəl də qeyd etdiyim kimi, Azərbaycan dövləti hüquqi dövlət kimi hər kəsə öz fikrini, əqidəsini açıqlamağa kifayət qədər meydan verib. Amma bu, o demək deyil ki, vətəndaşların dövlət tərəfindən müəyyən edilmiş konstitusion hüquqlarından istifadə edib heç bir fakt olmadan yanlış informasiya yayasan və ya milli maraqlarla müqayisədə qeyri-konstruktiv mövqedən çıxış edəsən. Və bu da heç bir şübhə doğurmadan belə deməyə əsas verir ki, heç bir hüquqi dəyərlərə əsaslanmayan mövqedən çıxış etmək bir xalqın gələcəyini, milli maraqlarını, şəxsi ambisiyaya, mənafeyə qurban verməkdir.

**E.Ş. 01.X.2005**

## Azadlıqdan istifadə heç bir halda dövlətin və xalqın təhlükəsizliyinin pozulmasına əsas ola bilməz

İlkin olaraq qeyd edim ki, sərbəst toplaşmaq azadlığı demokratik dövlətlərdə vətəndaşın hüquqi statusunun ən vacib ünsürlərindən biri hesab edilir. Vətəndaşlar da bu hüquqlarından istifadə edərək siyasi, hüquqi, sosial-iqtisadi və mədəni məsələlərinin həlli ilə bağlı dövlət hakimiyyət orqanlarına öz təkliflərini edə bilirlər. Bu hüquq hələ 1948-ci ildə "Ümumdünya insan hüquqları bəyannaməsi" qəbul edilərkən müəyyən edilmişdir. Sonralar 1966-cı ildə "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktda və Avropa Şurasının digər aktlarında da təsbit edilmişdir. Sərbəst toplaşmaq azadlığını zəruri məsələlərdən biri kimi özündə əks etdirən bütün bu beynəlxalq hüquqi aktlar çox sevindirici haldır ki, bu gün insan hüquqları və azadlıqlarının qorunmasına xüsusi diqqət yetirən dövlətimiz tərəfindən də ratifikasiya edilmişdir. Digər tərəfdən, sözügedən bu vətəndaş azadlığı Əsas Qanunumuzda təsbit edilərək göstərilmişdir ki, bu gün Azərbaycanda təkcə vətəndaşlarımızın yox, bu ölkədə yaşayan bütün əcnəbilərin, vətəndaşlığı olmayan şəxslərin, bir sözlə, vətəndaşlığından asılı olmayaraq hər kəsin başqaları ilə birlikdə sərbəst toplaşmaq azadlığı vardır.

Təbii ki, burada da hər bir halda müvafiq dövlət orqanını qabaqcadan xəbərdar etməklə qanuni olaraq həyata keçirilən sərbəst toplaşmaq azadlığının reallaşmasına təminat nəzərdə tutulur. Çünki bir qrup şəxsin, yaxud da siyasi partiyanın qanunsuz olaraq, yəni müvafiq dövlət orqanını qabaqcadan xəbərdar etmədən və icazə almadan həyata keçirdiyi mitinqlər, yürüşlər Əsas Qanunumuzun pozulmasına səbəb olur. Necə ki, paytaxt Bakı şəhərimizdə

qaragüruhçu və dağıdıcı müxalifətə mənsub olan Müsavat, AXCP və ADP kimi siyasi partiyalar bu addımı atmağa cəhdlər göstərirlər. Nəzərə alsaq ki, hüquqlarımızın və azadlıqlarımızın təminatçısı olan Əsas Qanunumuz ümumxalq səsverməsi ilə qəbul edilir. Onda belə bir qanunsuz yığıncağın dolayı yolla xalqımızın iradəsinə açıq-aşkar zidd olduğu görünər.

Lakin vətəndaşın hüquqi statusunun vacib elementi olmasına baxmayaraq bu azadlığın, demək olar ki, dünyanın bütün hüquqi dövlətləri tərəfindən müəyyən məhdudiyyətlərin qoyulmasının zəruriliyi qəbul edilmişdir. Avropa Şurasının bəzi hüquqi aktlarında, məsələn "İnsan hüquqları və azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasının 11-ci maddəsində bəyan edilmişdir ki, silahlı qüvvələr, polis və digər dövlət idarəçiliyi nümayəndələri tərəfindən hüquqlarının həyata keçirilməsi üzərində qanuni məhdudiyyətlər qoyula bilər. Həmin müddəada göstərilir ki, bu azadlıqdan istifadə heç bir halda dövlətin və xalqın təhlükəsizliyinin pozulmasına əsas ola bilməz. Hər kəsin başqaları ilə birlikdə toplaşmaq, öz fikrini və əqidəsini açıqlamaq azadlığının təmin edilməsini Əsas Qanunumuzda təsbit edən dövlətimiz də bu azadlığın həyata keçirilməsi və qanuni olaraq məhdudlaşdırılmasını müəyyənləşdirir. Bu münasibətlər də əsasən "Sərbəst toplaşmaq azadlığı haqqında" qanunla nizama salınır. Adıçəkilən qanunda bu azadlığın qanuni olaraq məhdudlaşdırılmasını nəzərdə tutan belə bir müddəanın zəruriliyini şərtləndirən əsas amil bəzən vətəndaşların çoxluq təşkil etdiyi ərazilərdə bir yerə birləşmiş müəyyən sosial qrupun öz davranışını idarə edə bilməməsidir. Belə bir vəziyyət də başqa şəxslərin hüquq və azadlıqlarının pozulması kimi bir sıra arzuedilməz halların baş verməsinə səbəb olur. Hər bir hüquqi, demokratik dövlət kimi, Azərbaycan dövləti də belə bir halda ictimai və dövlət təhlükəsizliyi mənafelərini, ictimai asayişin pozulmasının qarşısının alınmasını, iğtişaş və

cinayətlərin baş verməməsi, əhalinin sağlamlığının mühafizəsi üçün sərbəst toplaşmaq azadlığını qanuni olaraq məhdudlaşdırır. Və haqlı olaraq heç bir siyasi partiyaya və digər sosial qrupa imkan vermir ki, qanunla müəyyən edilmiş azadlıqlardan istifadə edərkən müəyyən çərçivəni aşıb xalqın həyat və sağlamlığı üçün təhlükə yaratsınlar.

E.Ş. 04.X.2005

## Vətəndaşların siyasi fəallığı üçün hüquqi zəmin var
## Amma bu, qanunun aliliyinə xələl gətirməməlidir

Naxçıvan Dövlət Universitetinin hüquq fənləri kafedrasının baş müəllimi Məmməd Məmmədov müxbirimizlə müsahibəsi zamanı Azərbaycanda həyata keçirilən hüquqi islahatlardan danışıb.

Bu gün dövlətimiz insan və vətəndaş hüquq və azadlıqlarını ali dəyər kimi tanıyır və onların müdafiəsini qarşısına məqsəd qoyur,–deyən hüquq fənləri kafedrasının müəllimi müstəqillik əldə etdiyimiz gündən bu günə kimi mövcud qanunvericiliyimizdə baş verən dəyişikliklərdən danışıb və qeyd edib ki, dünya birliyinin bərabər üzvü olan dövlətimiz insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi sahəsində bir çox qanunlar və qanun qüvvəli aktlar qəbul etmişdir. Hüquqi aktlar sırasında ümummilli lider Heydər Əliyevin 1998-ci il 22 fevral tarixində imzaladığı "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" fərmanı bu sahədə mühüm əhəmiyyət kəsb edən addımlardan biri hesab olunur. Elə həmin il Prezidentin 832 saylı sərəncamı ilə təsdiq edilmiş "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"nda da bir çox lazımi məsələlərə toxunulmuşdur. Dövlətimizin ratifikasiya etdiyi Avropa Şurasının hüquqi aktları içərisində "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Konvensiyası xüsusi yer tutur. Yeri gəlmişkən qeyd edim ki, adıçəkilən hüquqi sənəd Avropa Şurasının ən mühüm nailiyyətlərindən biri hesab edilir.

Demokratik dəyərlərin həyata keçirildiyi vətəndaş cəmiyyətinin təşəkkül tapıb inkişaf etdirilməsi ölkədə qanunların aliliyi, insanların hüquq və azadlıqlarının qorun-

ması vəziyyətindən çox asılıdır,–deyən təcrübəli hüquqşünas Azərbaycanda insan hüquq və azadlıqlarının qorunması mexanizminə də toxunaraq bildirdi ki, "İnsan hüquq və azadlıqlarının qorunması məqsədilə ölkədə müxtəlif hüquq müdafiə mexanizmləri" mövcuddur. Bunlar içərisində yeni yaradılmış məhkəmədənkənar hüquq müdafiə mexanizmi olan Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) təsisatı mühüm əhəmiyyət kəsb edir.

Cəmiyyətin və dövlətin siyasi həyatında vətəndaşların iştirakının fəallığı demokratiyanın inkişaf dərəcəsinin mühüm göstəricisidir,–deyən müsahibimiz bu gün Azərbaycan qanunvericiliyində vətəndaşların dövlətin siyasi həyatında iştirakı üçün mövcud hüquqi zəmindən danışaraq qeyd edib ki, ölkəmizdə demokratik rejimin inkişafı üçün Əsas Qanunda bir sıra hüquqlar təsbit edilmişdir. Bunlar fikir və söz azadlığı, seçki hüququ, birləşmək hüququ, müraciət etmək hüququ, cəmiyyətin və dövlətin siyasi həyatında iştirak etmək hüququ və digər siyasi hüquqlardır. Dövlət də mövcud qanunvericiliyə uyğun olduğu hallarda bu hüquqların həyata keçirilməsinin təmin edilməsində maraqlıdır. Belə bir vəziyyətdə, yəni bu hüquqların təmin edilməsi də vətəndaşların dövlətin siyasi həyatında maneəsiz iştirakı üçün hüquqi zəmin yaradır. Lakin belə bir hüquqi şəraitdən istifadə vətəndaşlardan yüksək hüquq mədəniyyəti tələb edir. Yəni hər kəs öz siyasi fəaliyyətini yalnız ümumxalq səsverməsi ilə qəbul edilmiş Əsas Qanunla və digər mövcud qanunvericiliklə müəyyən edilmiş üsul və vasitələr rəhbər tutulmaqla həyata keçirilməlidir. Bugünkü qanunvericiliyə zidd mövqedən çıxış edən və radikal müxalifətə mənsub olan ADP, Müsavat, AXCP kimi siyasi partiyaların "fəal" üzvləri tək yalnız şəxsi istəklərinə uyğun siyasi fəaliyyətlə məşğul olmamalıdırlar.

**E.Ş. 11.X.2005**

## "Cəzaçəkmə müəssisələrində cəza insan şəxsiyyətinə hörməti təmin edən şəraitdə aparılır"

Bu gün demokratiyanın səviyyəsindən, vətəndaş cəmiyyətinin nə dərəcədə mövcudluğundan asılı olmayaraq dünyanın hər yerində, bəzən insanlar arasında yaranmış ictimai münasibət bir anda ictimai təhlükəli əmələ çevrilir. O əməl ki, mövcud qanunvericiliklə cinayət, həmin əməli törədənlər isə cinayətkar hesab edilib məhkəmənin çıxardığı hökmlə cəzaya məhkum olurlar. Təbii ki, qanunvericiliyə uyğun olaraq tətbiq edilən cəza da onların cəmiyyətdən tam və ya qismən təcrid olunmasına səbəb olur. Bəs, belə insanların sonrakı taleyi necə olur? Məni maraqlandıran məqam da məhz bundan sonrakı proseslərdir, yəni məhkumların saxlanma şəraiti, hüquqi vəziyyəti və onların gələcəkdə təcrid olunduqları cəmiyyətə fiziki və mənəvi cəhətdən sağlam qaytarılması üçün həyata keçirilən tərbiyə işləridir. Elə bu məqsədlə Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Qərarları və Cəzaların İcrası şöbəsinin müdiri, I dərəcəli hüquqşünas Səyahət Əsgərovla görüşdüm.

--Hər hansı bir insanı mövcud qanunvericiliyə uyğun olaraq cəzalandırmaq, ona iztirab vermək yox, onu islah etmək məqsədi güdür,–deyən müsahibim bildirdi ki, bu gün Azərbaycanın hər yerində cəza çəkən məhkumlarla münasibətdə humanizm və ədalətlilik prinsipi hər şeydən üstün tutulur. Və qanunvericiliklə məhdudiyyətlər qoyulmadığı halda onların bütün hüquqları təmin edilir. Çünki məhkumluq meyarı heç də insanların şərəf və ləyaqətinin alçaldılmasına, onların cəmiyyətdə tam yararsız hesab edilməsinə əsas vermir. Sadəcə olaraq insanlar törətdiyi ictimai təhlükəli əmələ görə qanun qarşısında cavab verməli olurlar. Bu

zaman da dövlət cəmiyyətdə sosial ədaləti bərpa etmək, onları islah edib, yenidən cəmiyyətə qaytarmaq məqsədi güdür.

Bu gün Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən cəzaçəkmə müəssisələrində cəza insan şəxsiyyətinə hörməti təmin edən şəraitdə aparılır,–deyən həmsöhbətim muxtar respublikamızda mövcud olan 8 saylı məntəqətipli cəzaçəkmə müəssisəsindən və 21 saylı xüsusi müəssisədən danışaraq qeyd etdi ki, bu gün mövcud qanunvericiliyə və daxili intizam qaydalarına uyğun olaraq məhkumların bütün hüquqları tam həyata keçirilir. Belə ki, cəza çəkənlərin qohumları, hüquqi yardım almaq üçün vəkilləri ilə görüşməsinə, onların bağlama, sovqat, banderol, pul baratları almasına bir sıra məhdudiyyətlər müəyyən edilməklə ədəbiyyat və yazı ləvazimatları əldə etməsinə və saxlamasına, eləcə də telefon danışıqları aparmasına, bir sözlə, normal həyatın mövcudluğu üçün bütün tədbirlərin görülməsinə şərait yaradılıb. Bundan əlavə muxtar respublikamızın bir sıra müəssisə və təşkilatları ilə bağlanmış müqavilə əsasında məhkəmənin çıxardığı hökmə uyğun olaraq məhkumların müəyyən edilmiş iş müddəti nəzərə alınmaqla, demək olar ki, 90 faizi işlə təmin edilmişdir. Yeri gəlmişkən qeyd edim ki, bu il iki dəfə Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin xətti ilə Beynəlxalq Qırmızı Xaç Komitəsinin nümayəndələri adıçəkilən cəzaçəkmə müəssisələrində olmuşlar. Və heç də təsadüfi deyil ki, onlar məhkumların həyat şəraiti, hüquqi vəziyyəti, onlara olan münasibətlə tanış olduqdan sonra görülən bu işləri təqdirəlayiq hesab etmişdilər.

Ümummilli liderimiz Heydər Əliyevin 2002-ci il avqustun 24-də Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyinə əlavə səlahiyyətlərin verilməsi ilə bağlı imzaladığı fərmanı məhkumların şəraitinə, onlara olan münasibətə xüsusi diqqətin ayrılmasında böyük təsir göstərmişdir,–deyən Məhkəmə Qərarları və Cəzaların İcrası şöbəsinin

müdiri qeyd etdi ki, bu göstərilən qayğının nəticəsidir ki, bu gün muxtar respublikamızda– Azərbaycanda analoqu olmayan qarışıqtipli cəzaçəkmə müəssisəsi üçün yeni obyekt tikilir. Belə bir müəssisənin tikilməsində əsas məqsədlərdən biri məhkumların islah şəraitinin beynəlxalq standartlara uyğunlaşdırılması, onların qohumları, yaxınları ilə görüşməsində daha əlverişli mühitin yaradılmasıdır.

Dövlətimiz mövcud qanunvericiliyə uyğun olaraq məhkum olunmuş hər bir şəxsin hüquq və azadlıqlarına, qanuni mənafelərinə hörmət edib və onları qoruyur,–deyən təcrübəli hüquqşünas məhkumların bugünkü hüquqi vəziyyətindən danışaraq bildirdi ki, cəzaların icrası zamanı onların hüquqi müdafiəsi və şəxsi təhlükəsizliyi dövlət tərəfindən təmin edilir. İstər cəzaların icraçı qanunvericiliyində, istərsə də Əsas Qanunumuzda müəyyən edilmiş bütün hüquqların həyata keçirilməsi üçün tam şərait var. Belə ki, bu gün cəzaçəkən məhkumlar əgər qanunvericilikdə nəzərdə tutulubsa, pensiya və sosial müavinətlə təmin edilirlər. Və onlar həqiqətən ehtiyac vardırsa, ilkin tibbi yardım daxil olmaqla, verilən rəydən asılı olaraq ambulator və stasionar şəraitdə müalicə alırlar. Hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı qanunvericiliklə müəyyən edilmiş qaydada təklif, ərizə və ya şikayətlərlə müvafiq orqanlara müraciət edə bilərlər. Və onların hüquqi yardım almasına köməklik göstərilir.

Muxtar respublikamızda yerləşən mövcud cəzaçəkmə müəssisələrində məhkumların islah edilməsi, gələcəkdə onların yenidən cinayət törətməsinin qarşısının alınması üçün mövcud təlimata uyğun olaraq onlarla müəyyən tərbiyə işləri aparılır. Həyata keçirilən bu tədbirlər məhkumların ictimai-faydalı əməklə məşğul olmasına, əməyə vicdanlı münasibət və cəmiyyətdə qəbul olunmuş davranış normalarına riayət etmələrinə, onların təhsil və mədəni səviyyələrinin artırılmasına və möhkəmləndirilməsinə yönəldilir. Onlarla aparılan tərbiyə işi məhkumların şəxsiy-

yətlərinin fərdi xüsusiyyətləri, xarakteri və törətdikləri cinayətlərin səbəbləri nəzərə alınaraq pedaqoji və psixoloji üsullarla həyata keçirilir. Məhkumlarla aparılan əxlaqi, hüquqi, əmək və fiziki tərbiyə tədbirlərinin hər biri öz-özlüyündə onların hərtərəfli islah olunmasına köməklik göstərir. Məsələn, əxlaqi tərbiyə onlarda mənəvi-etik normaların formalaşmasına və ümumi insani dəyərlərə yiyələnməsinə, hüquqi tərbiyə tədbirləri məhkumların vətəndaş və dövlət arasında yaranan münasibətlərinin tənzimlənmə qaydalarına, hüquq normalarının yerinə yetirilməsinin vacibliyinə, cinayətin xarakterinin və ictimai təhlükəlilik dərəcəsinin düzgün qiymələndirilməsi barədə hüquqi biliklərə yiyələnməsinə və onların ictimai-faydalı əməklə məşğul olması, eləcə də təhsil alması, mənzil-məişət, ailə-nikah və başqa sahələrdə malik olduqları hüquqlarının öyrənilməsinə xidmət edir. Məhkumlarla aparılan əmək-tərbiyə tədbirləri onların müəyyən ixtisaslara yiyələnməsinə və azadlığa buraxıldıqdan sonra faydalı əməklə məşğul olmalarına köməklik göstərmək məqsədi daşıyır. Həyata keçirilən fiziki tərbiyə tədbirləri isə onların fiziki və mənəvi sağlamlığının qorunmasını təmin edir. Göründüyü kimi, hər bir halda dövlətimiz çalışır ki, məhkumlar təcrid olunduqları cəmiyyətə fiziki, mənəvi və psixi cəhətdən sağlam qayıtsınlar. Və hər zaman Azərbaycan xalqına və onun dövlətçiliyinə sadiq olsunlar. Hər kəsin hüquq və azadlıqlarına hörmət etsinlər.

**E.Ş. 21.X.2005**

## Azərbaycan dövləti insan və vətəndaş hüquqlarını, azadlıqlarını sözün həqiqi mənasında ülvi dəyər kimi tanıyır

Bu gün vətəndaş cəmiyyətini dəstəkləyən bütün dövlətlərdə demokratikləşdirmə prosesi günü-gündən inkişaf edir və ümumbəşəri dəyər kimi tanınan insan hüquq və azadlığının müdafiəsi ilə bağlı yeni layihələr hazırlanır, fikirlər söylənilir. Sevindirici haldır ki, beynəlxalq hüququn subyekti kimi tanınan dünya ictimaiyyəti arasında hüquqi, demokratik dəyərlərə üstünlük verən dövlət kimi nüfuzu günü-gündən artan ölkəmiz də belə bir inkişaf prosesində geri qalmamış, burada da həyata keçirilən hüquqi islahatlar yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Hüquqi müstəvidə aparılan bütün fəaliyyətin əsasında ölkədə yaşayan hər kəsin hüquq və azadlıqlarının, cəmiyyətin maddi və mənəvi dəyərlərinin təhlükəsizliyini təmin etmək, xalqımızın fundamental məqsədlərini qorumaq durur. Bundan əlavə siyasi, iqtisadi, sosial sahədə aparılan hər bir islahatın da əsasında ilk olaraq xalqın milli maraqlarının mühafizə edilməsi nəzərdə tutulur. Bütün bu aparılan tədbirlər də, hər biri öz növbəsində Azərbaycan xalqının rifahının yüksəldilməsinə, insan və vətəndaş hüquq və azadlıqlarına təminat verilməsinə xidmət edir. Bəs, görəsən günü-gündən inkişaf edən vətəndaş cəmiyyəti yolunda sürətlə irəliləyən dövlətimizdə ədalət mühakiməsini həyata keçirən yeganə orqan olan məhkəmələrdə, ali dəyər kimi tanınan insan hüquq və azadlıqları, xüsusilə də hüquqi yardım almaq hüququ necə təmin edilir? Şübhəli və təqsirləndirilən şəxs öz prosessual hüquq və vəzifələrini qanunla nəzərdə tutulmuş hansı qaydada həyata keçirir? Bu suallara cavab tapmaq məqsədi ilə Naxçıvan Muxtar Respublikası Hərbi Məhkəməsinin hakimi Əsgər Nov-

ruzovla görüşdüm.

İnsanların Əsas Qanunda təsbit edilmiş toxunulmaz, pozulmaz, ayrılmaz hüquqlarının və azadlıqlarının mövcud qanunvericiliyə zidd olaraq, heç bir əsas olmadan pozulması yolverilməzdir,–deyən müsahibim ilk olaraq dövlətimiz tərəfindən insan və vətəndaş hüquq və azadlıqlarına təminat verilməsinə göstərilən diqqətdən danışaraq bildirdi ki, Azərbaycan dövləti öz müstəqilliyini bərpa etdikdən sonra ümumbəşəri dəyərlərə yüksək qiymət verməklə demokratik, hüquqi, dünyəvi quruculuq yolunu seçmişdir. Bu yolun əsası da 1995-ci ildə qəbul edilmiş Əsas Qanunla qoyulmuşdur. O qanunvericilik bazası ki, orada yer üzünün əşrəfi sayılan insan amili və ona məxsus hüquq və azadlıqlar ön plana çəkilmiş, dövlət hakimiyyətinin yeganə mənbəyi kimi xalq göstərilmişdir.

Çox təəssüf ki, bəzən hüquq və azadlıq kimi böyük nemətə sahib olan insanlar cəmiyyət və dövlət qarşısında onlara verilən hüquqlardan törəyən vəzifələri layiqincə yerinə yetirmirlər. Bu da öz növbəsində hüquqların müdafiəsinə dövlət tərəfindən təminat verilən digər insanların azadlıqlarının qəsdən və ya ehtiyatsızlıqdan pozulması, başqa sözlə cinayət qanunvericiliyi ilə müəyyən edilmiş ictimai təhlükəli əməlin törədilməsinə gətirib çıxarır. Belə bir vəziyyətdə isə məhkəmələr mövcud qanunlara əsaslanaraq cinayət törətmiş şəxslərə dövlətimizin adından çıxarılmış hökmlə cəza təyin edir. Təbii ki, bu şəxslərə də tətbiq edilən cəza və digər cinayət hüquqi xarakterli tədbirlər cismani əzab vermək və insan ləyaqətini alçaltmaq məqsədi güdməməlidir. Sadəcə olaraq bu tədbir cəmiyyətdə sosial ədalətin bərpası, məhkumların islah edilməsi, həm onlar, həm də başqa şəxslər tərəfindən yeni cinayətlərin törədilməsinin qarşısını almaq və onların başqalarının hüquq və azadlıqlarına hörmət etməsini təmin etmək məqsədi ilə tətbiq edilir.

İnsan və vətəndaş hüquq və azadlıqlarının təmin

edilməsində hakimiyyətin başqa qollarına münasibətdə məhkəmə hakimiyyətinin üzərinə qanunvericiliyə uyğun olaraq daha böyük və məsuliyyətli vəzifələr qoyulduğunu bildirən Ə.Novruzov qeyd etdi ki, Azərbaycanda məhkəmələr ədalət mühakiməsini həyata keçirərkən mövcud qanunvericilikdə təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını, mülkiyyətin formasından asılı olmayaraq bütün müəssisə, idarə və təşkilatların, digər hüquqi şəxslərin hüquqlarını və qanuni mənafelərini hər cür qəsdlərdən və qanun pozuntularından müdafiə edir. İnsan hüquqlarının müdafiəsi zamanı, hər bir halda, irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq hər bir şəxsin qanun və məhkəmə qarşısında bərabərliyi prinsipini əsas götürür və fəaliyyəti də hakimlər tam müstəqil şəkildə, heç bir məhdudiyyət qoyulmadan, mülahizələrə yox, yalnız faktlara əsasən qərəzsiz, obyektiv və qanunvericiliyə əsaslanaraq tam ədalətli qərarlar qəbul edirlər.

Ümumiyyətlə, yeni qanunvericilik prosesin istənilən mərhələsində, şübhəli və təqsirləndirilən şəxsin tutulduğu, həbsə alındığı andan etibarən onların hüquq və azadlıqlarının təmin edilməsinə ciddi şəkildə diqqət göstərir. Və ilk olaraq səlahiyyətli dövlət orqanı həmin şəxslərə dərhal onların hüquqlarını elan edir və tutulmasının, həbsə alınmasının, cinayət məsuliyyətinə cəlb edilməsinin səbəblərini ona izah edir.

Qanunvericilikdə təsbit edilmiş bir sıra hüquqlar var ki, onların qanuna zidd olaraq pozulması yolverilməzdir. Çünki həmin dəyərlər insanların cəmiyyətdəki mövqeyinin müəyyən edilməsinə, ayrı-ayrı ictimai münasibətlərə girməsinə çox böyük təsir göstərən amillərdir. Məsələn, azadlıq hüququ hər kəsə cəmiyyətin azadlığını pozmamaq şərti ilə sosial normalar çərçivəsində, öz arzusuna və iradəsinə

görə davranış imkanı verir. Şəxsi azadlığın bu formada mövcudluğu onu göstərir ki, bu gün ölkəmizdə azad cəmiyyət artıq formalaşmışdır. Çünki azad cəmiyyət olmadan şəxsin azadlığı haqqında danışmaq belə mümkün deyil, bu hüquqdan qanunvericiliyə zidd olaraq sui-istifadə edilərsə, həmin şəxslər istər dövlət, istərsə də cəmiyyət qarşısındakı mövcud məsuliyyətdən azad edilmirlər. Qeyd olunan bu hüquqların və azadlıqların səlahiyyətli dövlət orqanı tərəfindən təmin edilməməsi qanunvericiliyə uyğun olaraq kobud qanun pozuntusu kimi qiymətləndirilir. Gələcəkdə həmin pozuntuların aradan qaldırılması üçün müvafiq tədbirlər görülür.

Hər kəsin yüksək keyfiyyətli hüquqi yardım almaq hüququnun olduğunu qeyd edən hərbi məhkəmənin hakimi Azərbaycan Respublikasında hər bir şəxsin təhqiqat, ibtidai istintaq və məhkəmə icraatı mərhələsində öz hüquqlarının və qanunla qorunan mənafelərinin müdafiəsini həyata keçirmək üçün özünün seçdiyi vəkilə müraciət etmək, tutulduğu, həbsə alındığı, cinayət törədilməsində ittiham olunduğu andan müdafiəçinin köməyindən istifadə etmək hüququnun mövcudluğundan danışdı. Təbii ki, belə bir hüquqi yardımın göstərilməsində vəkilin rolu əvəzsizdir. Əgər şübhəli və təqsirləndirilən şəxsin maddi vəziyyəti onun hüquqi yardım almasına imkan vermirsə, onda qanunvericilik həmin şəxsin müdafiə hüququnun təmin edilməsinin həyata keçirilməsini nizamlayır. Düzdür, müdafiəçinin köməyindən istifadə etmək şübhəli və təqsirləndirilən şəxsin hüquqlarından biridir. Lakin qanunvericiliyin mənasına görə şübhəli və təqsirləndirən şəxsin lal, kar, kor, danışmaq, eşitmək, görmək funksiyalarında ciddi qüsurlar olduqda, ruhi xəstəliyin kəskinləşməsi və ya müvəqqəti ruhi pozuntu aşkar edildikdə, icraatın aparıldığı dili bilmədikdə, həmin şəxslər cinayəti törədərkən yetkinlik yaşına çatmadıqda, məcburi qaydada xüsusi tibb müəssisələrinə yerləşdirildikdə, anlaqsız vəziyyətində törətdikdə, fəaliyyət

qabiliyyəti olmadıqda vəkilin cinayət prosesində iştirakı məcburi həyata keçirilir. Belə bir hal da dövlətimizin öz ərazisində yaşayan insanlara yüksək keyfiyyətli hüquqi yardım alınması sahəsində maraqlı olduğunu göstərir.

Təsadüfi deyil ki, ümummilli liderimiz Heydər Əliyevin hakimiyyəti illərində məhkəmə hakimiyyəti sahəsində həyata keçirilməsinə başlanan hüquqi islahatlar bu gün də davam etməkdədir. İnkişaf yolunu tutmuş bu hüquqi islahatların yeganə məqsədi dövlətimiz tərəfindən təminat verilən insan və vətəndaş hüquq və azadlıqlarının həyata keçirilməsinə çətinlik yaradan maneələrin aradan qaldırılmasına istiqamətləndirilmişdir. Bu da onu bir daha göstərir ki, bu gün Azərbaycan dövləti insan və vətəndaş hüquq və azadlıqlarını sözün həqiqi mənasında ülvi dəyər kimi tanıyır və bütün dövlət orqanları fəaliyyətində onun təminatına üstünlük verilir.

**E.Ş. 18.I.2006**

## Ombudsman İnstitutu insan hüquq və azadlıqlarının qorunmasına dövlət təminatının gücləndirilməsi məqsədilə təsis edilir

Baxmayaraq ki, Azərbaycan cəmiyyətində Ombudsman İnstitutu xeyli vaxtdır ki, mövcuddur, amma hələ cəmiyyətin əksər üzvləri onun barəsində dəqiq məlumata malik deyil. Bəzi şəxslər ombudsmanın səlahiyyətləri ilə Milli Məclisin səlahiyyətlərini qarışdırır, bəziləri icra aparatı, bəziləri isə onu hətta məhkəmə kimi qiymətləndirir. Bunun da əsas səbəbi cəmiyyətdə ombudsman barəsində kifayət qədər maarifləndirmə işinin aparılmamasıdır. Bu yaxınlarda Azərbaycan Respublikasının "İnsan hüquqlarının və azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasına qoşulmasından irəli gələn yeni müddəaların Naxçıvan Muxtar Respublikasında həyata keçirilməsi, burada insan hüquqlarının qorunmasına dövlət təminatını gücləndirmək, şəxslərin hüquq və azadlıqlarının Naxçıvan Muxtar Respublikası Dövlət və Yerli Özünüidarəetmə Orqanlarının vəzifəli şəxsləri tərəfindən pozulması hallarını da bərpa etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi tərəfindən "Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikası Qanunu qəbul edildi. Muxtar respublikamızın sakinlərinin ombudsman barəsində maarifləndirmə işini nəzərə alaraq bu yazıda ombudsmanın yaranması, inkişaf tarixi, səlahiyyətləri barədə qısa məlumat vermək qərarına gəldim.

Ombudsmanın tarixi: İsveç kralı XII Karl Poltava döyüşündə (1709-cu il) məğlub olduqdan sonra ölkəni tərk edib Türkiyəyə getdi. Bu zaman İsveçdə vəziyyət dəyişdi. Hər yerdə özbaşınalıq baş aldı. Vəziyyəti tarazlaşdırmaq məqsədilə o, 1713-cü ildə Türkiyədən İsveç dövlətində ombudsman haqqında qanun qəbul edilməsini bəyan etdi. Hə-

min qanuna görə ombudsmanın səlahiyyətinə aşağıdakılar daxil idi: Ölkədə qanunların düzgün həyata keçirilməsinə və məmurların vəzifələrinin yerinə yetirilməsinə nəzarət etmək (sonralar bu vəzifə ədliyyə kansleri adını aldı). 1766-72-ci illərdə İsveç parlamenti kralın səlahiyyətlərini öz əlinə aldı. Hətta ədliyyə kanslerini də parlament təyin edirdi. 1772-ci ildə kral III Qustav krallıq səlahiyyətlərini bərpa etdi. 1809-cu ildə despotluğu ilə məşhurlaşan IV Qustav krallıqdan devrildi. Və Rinqstarq (İsveç parlamenti) geri çağrıldı. Parlament bundan sonra kral və parlament arasında tarazlaşdırıcı Konstitusiya qəbul etməyi qərara aldı.

XIX əsrin əvvəllərində ictimai vəziyyətin dəyişməsi İsveç Konstitusiyasında yeni normaların yaranmasına şərait yaratdı. İsveç parlamenti 1809-cu ildə idarəetmə haqqında sənəd qəbul etdi. Sözügedən sənəd Ş.Monteskyönün hakimiyyət bölgüsü nəzəriyyəsinin bünövrəsi oldu. Xüsusi parlament komissarı hesab edilən ombudsman kralın və parlamentin səlahiyyətlərini tarazlaşdırmaq məqsədilə yaradılmışdı. Ombudsman məhkəmələrə və hakimiyyətin başqa orqanlarına, habelə parlament tərəfindən qəbul edilmiş qanunların düzgün həyata keçirilməsinə nəzarət edirdi. Ombudsmanın yaranma tarixi haqqında müxtəlif fikirlər mövcuddur. N.Xamuravanın fikrincə ombudsman "umbud" sözündən yaranmışdır (orta əsrlərdə güc və nüfuz mənasında işlənilirdi). Bu söz ispan mənşəli olsa da, İsveç dilində "umbud" sözü tərcüməçi və ya şəxsi müdafiəçi kimi tərcümə olunurdu. Qədim İsveçlər ombudsman sözünü müvəkkil, iş idarəedən, etimadı doğruldan şəxs mənasında işlədirdilər. V.Boisov belə mülahizə də irəli sürürdü ki, Ombudsman İnstitutunun yaranma mənbəyi Roma tribunalı və əyalət prokurorluğundan irəli gəlir.

Ombudsmanın inkişaf tarixi: İlk anlarında ombudsmana, məhkəmələrə, icraedici hakimiyyətə və başqa orqanların işinə Konstitusion nəzarət və inzibati özbaşınalıqdan vətəndaşların hüququnun qorunması həvalə olunurdu.

Vətəndaşların hüquqlarının qorunmasının əsas səbəbi isə İsveçdə məhkəmələrin inzibati şöbələrin fəaliyyətinə nəzarət etməsi idi. Dövlət və hüquq nəzəriyyəsi baxımından ombudsman parlament tərəfindən səlahiyyət verilən etibar edilmiş müstəqil şəxsdir. Onların fəaliyyətinin əsas məqsədi inzibati orqanların qəbul etdiyi qərarları dəyişmək şərtilə vətəndaşların hüquqlarına riayət olunmasına və dövlət məmurlarının fəaliyyətinə parlament nəzarətini həyata keçirməkdir. 1919-cu ildən başlayaraq oxşar orqanlar dünyanın başqa ölkələrində də yaranmağa başladı. Və hüquqi nəzarət sisteminə əlavə olundu. Xarici ölkələrdə ombudsman hüquq institutu kimi məhkəməyə və inzibati orqanlara nəzarət orqanı hesab edilirdi. Həmin dövrdə mövcud institutlar dövlət idarəetmə orqanlarına nəzarət funksiyalarını həyata keçirə bilmirdi və vətəndaşların inzibati özbaşınalıqlardan qorunmasına ehtiyac duyulurdu. Cəmiyyətin inkişafı bununla əlaqədar dövlət və inzibati orqanların fəaliyyətinin genişlənməsi, hüquq normalarının artması və hüquqpozmalarla əlaqədar vətəndaşların müraciətlərinin çoxalması icraedici hakimiyyətin fəaliyyəti barədə parlamentdə informasiya qıtlığı, habelə gündəlik həyatda vətəndaşların dövlət və inzibati orqanlarda qarşılaşdıqları bürokratik özbaşınalıqlar dövlətə qarşı narazılığın artmasına və eləcə də etinadsızlığın yaranmasına səbəb olur.

Ombudsmanın səlahiyyətləri və əhəmiyyəti: Ombudsmanın yaranması və onun fəaliyyətinin genişlənməsi dövlət və vətəndaş arasında yaranmış ziddiyyətin aradan qaldırılmasına təkan verdi. O, qanunverici hakimiyyətin rolunu və inzibati aparatın mövqelərini möhkəmləndirdi. Bu institut başqa dövlət orqanları ilə müqayisədə parlamentin ənənəvi nəzarət funksiyasını həyata keçirir. Məhz buna görə də dünyanın bir çox ölkələrində Ombudsman İnstitutunun yaranması nəzarət fəaliyyəti formalarını tamamladı. Bu institutun səlahiyyətləri haqqında onu da deyə bilərəm ki, vətəndaşlar arasında olan mübahisələr bu səlahiyyətlərə

daxil deyil. Onun fəaliyyət dairəsinə vətəndaşlar, dövlət orqanları, ictimai birliklər və müəssisələr arasında olan münasibətlər aiddir. Əksər ölkələrdə ombudsmanın funksiyası yalnız dövlət orqanları institutlarının fəaliyyətinə nəzarətdən ibarətdir. Ombudsman dövlətin göstərişi ilə fəaliyyət göstərir. Yəni nəzarət vətəndaşla idarəedici hakimiyyət münasibətləri çərçivəsində həyata keçirilir. Bu, daxili və fövqəladə nəzarətdir. Nəzarət vətəndaşların müraciəti və şikayətlərə əsasən də ombudsmanın təşəbbüsü ilə reallaşır. Əksər hallarda ombudsman vəziyyəti araşdırır, orqanların fəaliyyəti ilə konkret şəkildə tanış olur və məqsədyönlü qərar qəbul edir. Başqa inzibati orqanlardan ombudsmanın fərqi ondan ibarətdir ki, o ancaq vətəndaşların hüquqlarının müdafiəsi ilə məşğuldur. Müvafiq səlahiyyətli müraciəti ilə o, mübahisələrə qanunamüvafiq olaraq baxılmasına nəzarət edir. Bu qurum öz fəaliyyətini həyata keçirməkdə müstəqildir. Və tədqiqat aparılması üçün bütün lazımi səlahiyyətlərə malikdir. Ombudsman illik fəaliyyəti haqqında parlament qarşısında məruzə şəklində hesabat verir. Sözügedən məruzədə idarəedici hakimiyyət tərəfindən vətəndaşların hüquqlarının pozulması faktı göstərilir. Parlament qarşısında illik hesabat şəklində vətəndaşların və ümumilikdə cəmiyyətdə insan hüquqlarının vəziyyəti haqqında məlumat formalaşır. Bu institut media ilə sıx əməkdaşlıqda olur. Ondan bir təsiredici vasitə kimi istifadə edir. Müvafiq orqanlar tərəfindən vətəndaşların pozulmuş hüquqlarının bərpasında və icraedici hakimiyyətin işində olan qüsurları üzə çıxarır. Buna baxmayaraq bütün dünya ombudsmanları çalışırlar ki, vətəndaşlarla inzibati orqanlar arasında etibarı möhkəmləndirsinlər. Baxmayaraq ki, bu institutun ümumi xüsusiyyətləri vardır. Lakin bu fəaliyyətdə hər bir dövlətin özünəməxsus xüsusiyyətləri və milli adət-ənənələri nəzərə alınır.

**E.Ş.08.III.2006**

## Narkomanın şəxsiyyəti öz fiziki zəifliyi və ruhu sönüklüyü ilə seçilir

Artıq hamıya məlumdur ki, narkomaniya XX əsrin sonundan etibarən yoluxucu xəstəlik kimi əhali, xüsusən də gənclər arasında yayılmış, öz coğrafiyasını genişləndirərək cəmiyyətin sosial-iqtisadi, mənəvi-əxlaqi dayaqlarını sarsıtmaq səviyyəsinə gəlib çatmışdır. Çox təəssüf ki, dövlətimizin göstərdiyi müsbət yönümlü səylərə baxmayaraq yaşadığımız cəmiyyətdə bəzən narkotik maddələrdən istifadə edən insanların var olduğunun şahidi oluruq. İstəmədiyimiz halda mütəmadi olaraq istifadə edilən narkotik maddələr cəmiyyətimizin həmin üzvlərinin bioloji varlığına günü-gündən öldürücü təsir göstərir.

Özlərini ölümə məhkum etmiş belə insanların gələcəkdə cəmiyyətdən təcrid olunmasının qarşısını almaq, dövlət hesabına tibbi tədbirlərin tətbiq edilməsinə köməklik göstərərək onları yaşadığımız sosial mühitə mənəvi cəhətdən sağlam insan kimi qaytarmaq üçün həmin insanların narkomaniyaya düçar olduğunu ilk görüşdən hiss etməyimiz hesab edirəm ki, zəruridir. Bunun üçün narkotik maddələrin istifadəsinin insan xarakterində və fizioloji quruluşunda hansı dəyişikliklərə səbəb olması barədə əhalinin maarifləndirilməsi əsas şərtdir. Narkomaniya ilə cinayətkarlıq arasındakı əlaqənin hansı müstəvidə olması isə bizi maraqlandıran başqa bir məqamdır. Məni və geniş oxucu kütləsini düşündürən bu kimi məsələlərə aydınlıq gətirilməsi üçün Azərbaycan Respublikası Məhkəmə Ekspertizası, Kriminalistika və Kriminologiya Problemləri İnstitutunun Naxçıvan Muxtar Respublikasına ezam olunmuş əməkdaşı, Məhkəmə Bioloji Ekspertizası Elmi-Tədqiqat Laboratoriyasının elmi işçisi Bayram İsmayılovla həmsöhbət olduq.

Narkotik vasitələrin insan orqanizminə öldürücü təsir göstərdiyini bir daha təsdiqləyən Bayram müəllim müsahibə zamanı narkotik vasitələrin ayrı-ayrı növlərindən danışaraq bildirdi ki, narkotik maddələrin ən təsirli növləri marixuana, həşiş, tiryək, heroin və kokain hesab olunur.

Morfinin asetilləşdirilməsi ilə alınan və inyeksiya yolu ilə istehlak edilən narkotik vasitə olan heroin (diasetilmorfin) kiçik ölçülü hissəciklərdən ibarət ovuntu və yaxud toz şəklində olur. Onun tərkibində diasetilmorfinin miqdarı 30-98 faiz arasındadır. Ümumiyyətlə, istər tiryək olsun, istər heroin, istərsə də morfin insanda yüngüllük hissini, ehtiraslı fəaliyyət duyğusunu yaradır. Lakin bu vəziyyət tezliklə süstlük, ruh düşkünlüyü ilə əvəz olunur. Absitinensiya vəziyyəti, ağrılı hisslə və ya həyəcanla, başağrıları ilə müşayiət olunur. Belə vəziyyətdə güclü tərləmə, ağız sulanması müşahidə edilir. Keylik və azhərəkətlilik, üzün qızarması və göz bəbəklərinin daralması isə daha çox morfin qəbul edən şəxslərə aiddir. Bir qayda olaraq bu adamlarda son dərəcədə zəiflik müşahidə olunur. Üzdə şişkinlik, dəridə quruluq yaranır. Morfinin son qəbulundan 6-18 saat sonra bu şəxslərdə absitinensiya baş verir. Digər tərəfdən həmin insanlarda fiziki və psixi asılılıq inkişaf edir. Heroin baha olduğundan narkomanlar bir çox hallarda onu əldə etmək üçün tamah-zorakı cinayətlərə əl atırlar. Kokain isə koka bitkisinin yarpaqlarından olan alkoloiddir. İynəvari rəngsiz kristallar şəklində acı, dilin ucunda keyləşmə hissi verən maddədir. Kokain qəbul edənlərdə psixi pozğunluqlar, təhlükəli təcavüzkar halları da tez-tez müşahidə edilir. Onun sui-istifadəsində narkomanın orqanizmində ümumi süstlük baş verir. Dərisi ağarır, əzələləri boşalır, gəzişi isə rabitəsiz olur. Bu maddənin aludəçiliyinin ilkin dövründə onu qəbul edənlər daim hərəkətdə olmağa meyilli olurlar. Eyni zamanda, bu cür hərəkətlərdən 2-3 saat sonra onların iştahı kəsilir, əhvalları qəflətən pisləşir və onlarda ruh düşkünlüyü yaranır. Bu vəziyyətdə olan narkomanlar bəzən

özlərinə qəsd etməyə çalışırlar.

Respublikada mədəni və ya yabanı halda iki növ çətənənin varlığı haqda məlumat olduğunu bildirən ekspert qeyd etdi ki, bu cür çətənələrə çox vaxt dağətəyi rayonlarda rast gəlinir. Onların kollarının hündürlüyü 100-150 sm olur. Keçmiş SSRİ-də onlar xalq təsərrüfatı üçün əhəmiyyətli lif və toxum almaq sahəsində xüsusi yer tuturdu. SSRİ-nin Şimal bölgələrində bu sahədə zavodlar mövcud olmuş və alınan liflərdən kəndir, iplik, balıq torları və sair onlarca adda məhsul istehsal olunmuşdu. Lakin bu gün kannabisdən alınan narkotik vasitələri (marixuana, həşiş və sair) istehlak edənlərdə psixi gərginlik, görmə və eşitmə qabiliyyətinin aşağı düşdüyü müşahidə edilir. Onların təxəyyülündə əşyaların ölçüsü və ardıcıllığı təhrif olunur. Kiçik bir daş sal qaya kimi, balaca taxta isə tir kimi görünür. Buna görə də həşiş qəbul edənlər bir qayda olaraq kiçik bir gölməçənin, balaca budağın üstündən keçmək üçün ayaqlarını hündürlüyə qaldırır, iri addımlar atır və tullanırlar.

Narkotik maddələrdən uzun müddət sui-istifadə nəticəsində narkomanda narahatlıq, əsəbilik, qərarsızlıq əmələ gəlir. Göz bəbəkləri genişlənir, hətta güclü işığın təsirindən də yumulmur. Amfetamin qrupuna daxil olan bir çox sintetik narkotiklərin, o cümlədən ekstazin qəbulu böyrəklərdə, qaraciyərdə və beyində patoloji dəyişikliklər, eləcə də depressiya yaradır. Bunun nəticəsində də onlar intihar edirlər və ya başqa cinayətlər törədirlər. Narkotik maddələrin də bu cür sui-istifadəsi insanların bioloji varlığına öldürücü təsir göstərir. Daxili üzvləri, əsasən də qaraciyər dağılır, mərkəzi sinir sistemi ciddi şəkildə deformasiyaya uğrayır. Narkomanın şəxsiyyəti öz fiziki zəifliyi və ruhu sönüklüyü ilə seçilir. Narkotik maddələr plasentar maneəni keçərək insan genefonunu dəyişdirir. Döl anomaliyalarının yaranmasına və artmasına, yeni doğulmuş uşaqların eybəcərliyinə səbəb olur.

Narkomaniya və hüquq pozuntusu arasında asılılığın

mövcud olduğunu bildirən müsahibim onu da qeyd etdi ki, insanların sağlamlığına birbaşa təsirdən başqa, narkomaniyanın ictimai təhlükəliliyi onun müxtəlif tamah-zorakı cinayətlərin törədilməsinə şərait yaradan kriminogen amil kimi çıxış edir. Narkomaniya ilə cinayətkarlıq arasında əlaqənin əsasən iki forması mövcuddur. Birincisi, narkomanlar cinayətin törədilməsinə meyillidirlər. Bu da obyektiv və subyektiv amillərlə şərtlənir. Qanuni dövriyyədən çıxarılmış narkotiklərin cinayətkar yolla əldə edilməsi, digər tərəfdən də narkomaniyaya düçar olan şəxslərin öz davranışlarına fərdi iradə nəzarəti xeyli dərəcədə zəifləməyi öz növbəsində müxtəlif ictimai təhlükəli əməllərin törədilməsini asanlaşdırır. İkincisi, narkotik vasitələrə mövcud tələbat buna uyğun surətdə təklif yaradır. Və nəticədə narkotik tərkibli bitkilərin əkilib-becərilməsi, istehsalı, satışı, oğurlanması və sair ilə bağlı cinayətkar fəaliyyət daha da genişlənir. Narkomaniyanın ictimai təhlükəliliyi insanların fiziki və psixi sağlamlığının ciddi şəkildə pozulmasında, onların ruh düşkünlüyünün, ictimai fəallığının aşağı düşməsində, sosial əlaqənin daralmasında və parçalanmasındadır. Kriminoloji tədqiqatlar göstərir ki, hətta ən zəif narkotikin qəbulu belə hərəkətlərin koordinasiyasını pozur və diqqəti aşağı salır ki, bu da çox halda özünəgüvənmə və diqqətsizlik hallarının baş verməsinə, ehtiyatsızlıqdan cinayətin törədilməsinə gətirib çıxara bilər.

**E.Ş.19.V.2006**

## Yerli idarəetmə orqanlarının fəaliyyətində irəliləyişlər çoxdur

Müsahibimiz Ədliyyə Nazirliyinin nəzdində fəaliyyət göstərən Bələdiyyələrlə Иş Mərkəzinin baş mütəxəssisi Səttar Zamanovdur

**–Səttar müəllim, ilk növbədə soruşmaq istərdik ki, Bələdiyyələrlə Иş Mərkəzinin mahiyyəti nədir və onun fəaliyyət dairəsi necədir?**

–Əvvəla qeyd etmək istərdim ki, 2002-ci ilin avqustün 24-də ümummilli liderimiz Heydər Əliyevin imzaladığı fərmanla Ədliyyə Nazirliyinin nəzdində Bələdiyyələrlə İş və Bələdiyyələrə Metodoloji Yardım Mərkəzi açıldı. Daha sonra isə mərkəzin strukturunda bəzi dəyişikliklər aparılmış və bu qurum Bələdiyyələrlə Иş Mərkəzi adlandırılmışdır. Ədliyyə Nazirliyinin nəzdində belə bir mərkəzin yaradılmasında əsas məqsəd isə yerli özünüidarəetmə orqanlarını formalaşdırmaq və bu orqanların fəaliyyətinə inzibati nəzarəti həyata keçirməkdir. Bundan əlavə, bu mərkəzin funksiyalarından biri də bələdiyyələrin qəbul etdiyi aktların qanunvericiliyə uyğun olub-olmadığını yoxlamaqdır.

**–Bələdiyyələr yerli özünüidarəetmə orqanıdır. Çalışdığınız mərkəz isə hakimiyyət strukturudur, daha doğrusu Ədliyyə Nazirliyinin nəzdində bir qurumdur. Bilmək istərdik, içtimai təşkilatlarla dövlət orqanlarının birgə işi alınırmı?**

–Doğrudur, bələdiyyələr qeyri-dövlət orqanıdır. Lakin bələdiyyələrin də əsas məqsədi yerli məsələlərin həllində əhalinin iradəsini ifadə etməkdir. Təbii ki, yeni struktur olduğuna görə yerli özünüidarəetmə orqanları bu yolda öz fə-

aliyyətlərində bəzi çətinliklərlə üzləşirlər. Yaranmış çətinliklərin aradan qaldırılması məqsədi də dövlət hakimiyyət orqanlarının ilə yerli özünüidarəetmə orqanlarını birgə işini zərurətə çevirir. Və bələdiyyələr də öz işlərinin təşkilində yerli icra hakimiyyət orqanlarının təcrübəsinə ehtiyac duyurlar. Bələdiyyələrlə Иş Mərkəzi isə bələdiyyələri formalaşdırmaq məqsədilə bir sıra metodiki vasitələri onlara çatdırır, gələcəkdə qanunların pozulmaması və qanunlara düzgün riayət edilməsi ilə bağlı bir sıra seminar-müşavirələr keçirir. Və belə müşavirələrdə çalışırıq ki, muxtar respublikanın bütün bələdiyyə sədrlərinin, sədr müavinlərinin və digər bələdiyyə üzvlərinin iştirakını təmin edək. Göstərilən metodoloji yardımlardan əlavə bu mərkəz yerli özünüidarəetmə orqanlarının qəbul etdiyi aktların qanunveriсiliyə uyğun olub-olmadığını aydınlaşdırır. Əgər belə bir hal mövcuddursa, həmin aktın işlənməsi üçün aktı qəbul edən bələdiyyələrə göndəririk.

**–Yeri gəlmişkən, belə bir sualla da müraciət etmək istərdik: Muxtar respublikada fəaliyyət göstərən bələdiyyələr öz varlıqlarını içtimai həyatda göstərə bilirlərmi? Nə kimi müsbət təcrübə toplanılıb?**

–Bəli, istər mərkəzə daxil olmuş məktublardan, istərsə də apardığımız təhlillərdən belə nəticəyə gəlmək olar ki, həqiqətən də muxtar respublikamızda fəaliyyət göstərən bələdiyyələr ictimai həyatda öz sözlərini az-çox deyə bilirlər. Yəni, yerli özünüidarəetmə orqanları artıq formalaşma dövründən çıxmış, inkişaf yoluna qədəm qoyur. Kifayət qədər təcrübə sahibi olan yerli idarəetmə orqanlarımız da az deyil.

Onların bəzilərinin qısa müddət ərzində topladıqları

müsbət təcrübələrlə bağlı deyə bilərəm ki, bu gün yerli özünüidarəetmə orqanlarının əksəriyyəti istər rayon və şəhər ərazisində, istərsə də kəndlərimizdə əhalinin iradəsini ifadə edə bilirlər. Sosial-iqtisadi məsələlərin həllində əhalinin maraqlarını təmin edə bilirlər. Hesab edirəm ki, bələdiyyələrin bu gün öz məsuliyyətlərini dərk etməsi, əhalinin mənafeyini qəbul etdiyi aktlarda göstərməsi indiki inkişaf yolunda atılmış mühüm addımlardandır.

**–Bəs, bu təşkilatların fəaliyyətində çatışmazlıqlar, nöqsanlar necə, çoxdurmu, onları aradan qaldırmaq üçün nə təklif edərdiniz?**

–Az əvvəl də qeyd etdiyim kimi yerli özünüidarəetmə orqanları yeni strukturdur. Qanunvericilikdə bu anlayışın meydana çıxdığı ilk gündən bu günə kimi 24 normativ hüquqi akt qəbul edilib.Təbii ki, bunlar da bələdiyyələrin formalaşması yolunda atılan mühüm addımlardır. Lakin bütün bunlara baxmayaraq yerli özünüidarəetmə orqanlarının fəaliyyətlərində bəzi çatışmazlıqlar, nöqsanlar gözə çarpır. Məsələn, mərkəzə daxil olmuş müraciətlərin təhlili göstərir ki, bəzi bələdiyyələr öz işlərini qanunvericiliyin tələblərinə uyğun qurmaqda çətinlik çəkirlər. Bəzən isə yerli əhəmiyyətli məsələlərin həllində, yeni sosial müdafiə və inkişaf proqramlarının tərtib və icra edilməsində diqqətsizliyə yol verirlər. Biz də belə nöqsanların aradan qaldırılması yolunda bəzi tədbirlər təşkil edir və həyata keçiririk . Məsələn, bu yaxınlarda Ədliyyə Nazirliyi Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi ilə birlikdə Naxçıvan Muxtar Respublikasının şəhər və rayonlarında bələdiyyələrin hüquqi maariflənməsi ilə bağlı seminar-müşavirə keçirdik.

Bələdiyyə üzvləri ilə keçirilən görüşlərdə onların diq-

qətinə çatdırırıq ki, bələdiyyələrdə yerli büdcələri formalaşdırmaq, vergilərin vaxtında yığılması, xüsusilə də bankda hesaba köçürülməsi işinə diqqət yetirsinlər. Onlar da bu sahədə öz sözlərini demək istəyirlər.

Son olaraq isə onu demək istərdim ki, yerli özünüidarəetmə orqanları olan bələdiyyələrin yaşı az olsa da, qısa müddətdə çox iş görüblər. Xüsusən də kənd yerlərində bir çox məsələlərin həllində bu qurumlara böyük ehtiyac duyulur. Onlar da yerli əhali ilə birlikdə fəaliyyət göstərirlər.

**E.Ş. 26.V.2006**

## Dövlət və vətəndaş münasibətləri

İlkin olaraq qeyd edim ki, qanunvericilik svilizasiyalı cəmiyyətin, onun siyasi sisteminin normal həyat fəaliyyətinin əsasını təşkil edir və demokratik dövlətlərdə insanların maraqlarına ədalətli təminat verir. İctimai həyatın sabit amili olan qanunvericilik əsasən bütün vətəndaşların qanun qarşısında real bərabərliyini təmin edə bilən sivilizasiyalı cəmiyyət şəraitində yaranır və formalaşır. Ümumiyyətlə, qanunvericilik anlayışına hüquq ədəbiyyatlarında müəlliflər müxtəlif təriflər vermişlər. Bunlar içərisində hesab edirəm ki, ən məqsədəuyğun anlayış qanunvericiliyə verilən klassik anlayışdır. Bu anlayışda göstərilir ki, qanunvericilik hüququn bütün subyektləri tərəfindən hüquqi qanunların əsasında qəbul edilmiş hüquqi aktların tələblərinin ciddi və tam yerinə yetirilməsidir və qəbul edilən hər bir müvafiq münasibətləri tənzimləməlidir, bundan əlavə qanunlar yalnız xalqın iradəsini ifadə etməlidir.

Qanunvericilik fikrimcə, aşağıdakı əlamətlərlə xarakterizə olunmalıdır. Əvvəla qanunvericiliyin ən mühüm cəhəti onun ümumiliyidir. Yəni hüquq normalarına riayət etmək tələbi eyni səviyyədə hüquqi fəaliyyət həddində olan hər kəsə aiddir. Belə ki, dövlət və həmin dövlətin vətəndaşları arasında qarşılıqlı vəzifə vardır. Yəni dövlətin göstərişlərinin icrasından heç kəs boyun qaçırmamalı, eləcə də dövlət şəxsiyyətin qanuni hüquqlarının təminatından yayınmamalıdır. Ümumilik qanunvericiliyin zəruri əlaməti kimi eyni dərəcədə həm dövlətə həm də onun vətəndaşlarına şamil edilir. Dövlət vətəndaş qarşısında məsuliyyət daşıyır. Əgər dövlətin qanun-

larında onun vətəndaşlarının həqiqi maraqları ifadə olunarsa, onda hüquqi tələblərin məcburedici dövlət təsir vasitələrinin tətbiqi ilə yerinə yetirilməsindən söhbət gedə bilməz. Düzdür, dövlətin bütün əhalinin fərdi maraqlar şaxəsini nəzərə alması faktiki cəhətdən mümkün deyil, amma ümumilikdə dövlət qanunvericilik vasitəsi ilə bütün əhaliyə öz xüsusi əmlak və ən önəmlisi fəaliyyət azadlığı ilə sərbəst davranmaq imkanı verməlidir.

Qanunvericiliyi xarakterizə edən ikinci amil də onun hüquqla, hüquq normaları ilə sıx bağlı olmasıdır. Yəni onun normativ əsasını hüquq normaları təşkil edir. Bu hüquqi qanunlar da ictimai münasibətlərin bütün iştirakçılarının maraqlarını eyni dərəcədə əks etdirməlidir. Beləliklə qanunvericilik dedikdə əsasən ictimai tərəqqinin tələblərinə cavab verən mükəmməl dəqiq qanunların işlənib hazırlanması, Qanun və qanunqüvvəli hüquqi aktların, tələblərin dövlət orqanları, vəzifəli şəxslər, vətəndaşlar və müxtəlif birliklər tərəfindən tam qeyd-şərtsiz həyata keçirilməsi nəzərdə tutulur.

Hər bir demokratik dövlətin əsas məqsədi qanunların və digər qanun qüvvəli normativ hüquqi aktlarını formalaşdırmaq və ən yüksək səviyyədə insan hüquqlarını müdafiə etməkdən ibarətdir. Siyasi kateqoriya kimi, demokratiya da məhz dövlətlərdə insan hüquqlarının hansı dərəcədə müdafiə edilməsi ilə ölçülür. Bunun üçün, yəni qanunları formalaşdırmaq və insan hüquqlarını yüksək dərəcədə müdafiə etmək üçün iki şərt–dövlətin demokratik prinsipləri əks etdirən qanunlar qəbul etməsi və həmin qanunların cəmiyyət tərəfindən düzgün mənimsənilməsi zəruridir.

İstərdim ki, bu nəzəriyyəni öz dövlətimizə tətbiq edim. 1991-ci ildə yeni müstəqillik əldə edən Azərbaycan xalqı və

onun dövlətçiliyi 1993-cü ilə qədər Azərbaycan ictimaiyyətinə də məlum olduğu kimi gərgin dövr keçirmişdir. Təbii ki, dövlət müstəqilliyinin şəxsi ambisiyalara qurban verildiyi bir dövrdə qanunvericiliyimizin inkişaf prosesindən danışmaq əbəs olardı. 1993-cü ildə ümummilli lider Heydər Əliyevin xalqın tələbi ilə hakimiyyətə qayıtması və xalqın taleyüklü problemlərini həll etməsi Azərbaycanın demokratik inkişaf prosesinə dönməzlik xarakteri verdi, qanunvericiliyin, dövlətçiliyin inkişafına təminat yaratdı və bundan sonra Azərbaycan beynəlxalq hüququn subyekti kimi bir sıra beynəlxalq təşkilatlara üzv oldu və bir çox beynəlxalq faktlara qoşuldu. Və demək olar ki, müstəqil, demokratik və hüquqi dövlət kimi Azərbaycan qanunvericiliyin inkişafı yolunda zəruri bütün addımları atdı. Qeyd etdiyim kimi bu qanunların inkişafında və insan hüquq və azadlıqlarının yüksək səviyyədə müdafiə edilməsində mühüm rola malik olan amillərdən biri həyata keçirilib. Yəni, demokratik prinsipləri əks etdirən qanunlar və digər normativ hüquqi aktlar qəbul edilib, imzalanıb. Fikrimcə, digər mühüm əhəmiyyət kəsb edən ikinci amil isə bu normativ hüquqi aktların cəmiyyət tərəfindən, xüsusilə cəmiyyətin aparıcı qüvvəsini təşkil edən gənclik tərəfindən mənimsənilməsidir. Bəs, görəsən bu gün dövlət tərəfindən müəyyən edilən qanunvericilik gəncliyimiz tərəfindən kifayət qədər mənimsənilibmi?

Bu gün Azərbaycanda yaş strukturuna görə əhalinin 30 faizini gənclər təşkil edir. Azərbaycan Respublikasının konstitusiyasında göstərilən fikir və söz azadlığı, eləcə də məlumat azadlığı, bundan əlavə dövlətimizin qoşulduğu beynəlxalq konvensiyalardan irəli gələn hüquqlara əsaslanaraq deyə bilərəm ki, bu gün gəncliyimizin müvafiq sosial-siyasi fi-

kir sahibi olmaq, eləcə də dövlətin, cəmiyyətin idarə olunmasında iştirak etmək hüququ vardır. Dövlət tərəfindən Azərbaycan gənclərinə kifayət qədər hüquqlar verilib. Lakin təəssüf ki, qanunlar gənclər tərəfindən kifayət qədər mənimsənilməyib. Hesab edirəm ki, demokratiya, hüquqi dövlət və ən önəmlisi vətəndaş cəmiyyəti yolunda inkişaf edən hər bir dövlət üçün zəruri məsələlərdən biri də məhz budur.

Ümumiyyətlə sonda belə bir nəticəyə gəlmək istərdim ki, hər bir hüquqi dövlətdə "qanunvericilik və gənclik" bir vəhdət təşkil etməlidir. Fikrimcə bunların hər ikisi hüquqi dövlətin yalnız bir ünsürüdür. Yəni qanunların qəbul edilməsi və gənclik tərəfindən mənimsənilməsi bir prosedurun tərkib hissəsi kimi götürülməlidir. Belə bir prosedurun sona çatması həmin cəmiyyətin gəncliyində hüquq şüurunun yaranmasına gətirib çıxarır. Bunun da davamı olaraq gənclikdə siyasi hüquqi görüşlər formalaşır. Hər hansı bir dövlətdə belə bir mühitin yəni gənclərdə hüquq şüurunun, siyasi-hüquqi görüşlərin formalaşması həmin dövləti beynəlxalq arenada da nüfuzlu, qüdrətli dövlətə çevirər, ölkə qanunvericiliyinin inkişafındakı dönməzliyi təmin edər.

**E.Ş.06.V.2005**

## Yeni Azərbaycan Partiyası böyük amalların daşıyıcısıdır

1992-ci ildə ümummilli liderimizin xeyir-duası ilə yaradılan Yeni Azərbaycan Partiyası öz elektoratına görə Azərbaycanda böyük və nüfuzlu partiyadır. 1993-cü ildən etibarən iqtidarı təmsil edərək dövlətin həm daxili, həm də xarici siyasətini formalaşdıran bu siyasi qurum ölkə əhalisinin böyük rəğbətini qazanıb. Təbii ki, əldə olunan uğurlarda hər bir partiya üzvünün, o cümlədən də YAP Naxçıvan Muxtar Respublikası Təşkilatının da böyük əməyi vardır. Yaranmasının 13-cü ildönümünü ölkə miqyasında təntənəli surətdə qeyd etmiş Yeni Azərbaycan Partiyası Muxtar Respublika Təşkilatının icra katibi, Ali Məclisin deputatı Anar İbrahimovla söhbət də bu barədə oldu:

**–Anar müəllim, istərdim söhbətimizə belə bir sualla başlayaq: YAP muxtar respublika təşkilatı regionun sosial-iqtisadi və mədəni həyatında necə iştirak edir?**

–Yeni Azərbaycan Partiyası Azərbaycanda, o cümlədən də Naxçıvanda iqtidarda olan siyasi partiyadır. Ona görə də sosial-iqtisadi, mədəni sahələrdə əldə edilən uğurlar bilavasitə Yeni Azərbaycan Partiyasının adı ilə bağlıdır. Bir sözlə, Azərbaycan dövlətinin həyata keçirdiyi bütün işlər bizim partiyanın proqramında öz əksini tapıb. YAP Azərbaycan reallığında yeganə partiyadır ki, seçkiqabağı verdiyi vədlərə sadiq çıxaraq xalqın inam və etibarını qazanıb. Elə YAP-ın sədri cənab İlham Əliyevin 2003-cü ildə keçirilən prezident seçkilərindən bir qədər sonra ölkədə sosial-iqtisadi islahatları davam etdirmək məqsədilə təsdiq etdiyi "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)" yuxarıda söylədiyim fikri bir daha təsdiq etmiş olur. Bu proqramın uğurları bütün Azərbaycan cəmiyyətində, o cümlədən də muxtar

respublikada hiss edilir. Əldə edilən uğurlar və həyata keçirilən tədbirlər gələcəyə yönəlmiş strateji əhəmiyyət daşıyan məqsədyönlü işlərdir. Ən əsası isə qısa vaxt kəsiyində ölkə üzrə 300 mindən, muxtar respublika üzrə isə 15 mindən çox yeni iş yeri açılıb ki, bu da sosial-iqtisadi cəhətdən əhalinin maddi-rifahının, həyat şəraitinin yaxşılaşdırılması baxımından inkişafı xarakterizə etməklə böyük nailiyyətdir. Sevindirici haldır ki, muxtar respublikamız da 1995-ci ildən başlayaraq özünün sosial-iqtisadi cəhətdən yüksəliş dövrünü yaşayır. İqtisadi nailiyyətlərimizin nəticəsində ümumi daxili məhsulun da həcmi artıb. İndi muxtar respublikamızda ümumi daxili məhsulun həcmi 26,6 faizlə ifadə olunur. Hər bir dövlət iqtisadiyyatındakı belə göstərici ilə fəxr edə bilər. Bu nailiyyətlər YAP-ın seçkiqabağı verdiyi vədlərin reallaşmasıdır. Cənab Prezident Azərbaycan Respublikası Milli Məclisinin I sessiyasında millət vəkilləri qarşısındakı çıxışı zamanı demişdir ki, YAP-ın, o cümlədən də Azərbaycan iqtidarının siyasəti qazanılan uğurların daha da artmasına yönəldilib. Və hər bir Azərbaycan vətəndaşı bu uğurları öz gündəlik həyatında hiss etməlidir.

Çox sevindirici haldır ki, əldə etdiyimiz nailiyyətləri bizdən başqa xarici təşkilatlar – Beynəlxalq Valyuta Fondu, Avropa İnkişaf Bankı kimi beynəlxalq iqtisadi qurumlar da təsdiqləyirlər. Bir daha qeyd edirəm ki, bu uğurların qazanılması YAP-ın proqramından irəli gəlir. Ümummilli liderimiz Heydər Əliyev YAP-ı yaradarkən onun proqramının bir bəndini də Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafına həsr edib. Göstərilib ki, YAP sosialyönümlü iqtisadiyyat qurmağa çalışacaq.

**–Söhbətinizdən məlum olur ki, ötən il də ümumi daxili məhsul istehsalında böyük irəliləyişlər olub. Bu, əsasən hansı amillərlə bağlıdır?**

–Əgər biz dünyanın ən qabaqcıl ölkəsi olan Amerika Birləşmiş Ştatlarının iqtisadiyyatına nəzər salsaq görərik ki, onun artım tempi 1,8 faizdir. Avropa zonasında da iqtisadi

artım keçən il 0,8 faizlə qeydə alınıb. Bu prizmadan baxsaq, ötən il Azərbaycan ümumi daxili məhsulun artım tempinə görə dünyada lider ölkə sayıla bilər. Ümumi daxili məhsulun böyük bir hissəsi qeyri-neft sektorlarının payına düşür. İndi Azərbaycanın kifayət qədər böyük sahibkarlar qrupu var. Özəl sektor çox böyük sürətlə inkişaf edir. Özəl sektordan danışarkən muxtar respublikada aqrar sektorun inkişaf tempini xüsusi vurğulamaq istəyirəm. Regionumuzda kənd təsərrüfatına göstərilən qayğının nəticəsi olaraq keçən il 93 min ton taxıl məhsulu istehsal olunub. Bu, rekord göstəricidir. Həmçinin, ikinci çörək sayılan kartofçuluğun inkişafı da yenidən bərpa olunub. Keçən il istifadəyə verilən Heydər Əliyev Su Anbarı sayəsində muxtar respublikamızda 16 min hektardan çox sahədə meliorativ tədbirlər həyata keçirmək mümkün olacaq ki, bu da nəticə etibarı ilə kənd təsərrüfatının inkişafına və ümumi daxili məhsulun daha da artmasına səbəb olacaqdır.

**–Aqrar sektorda qazanılan uğurlar muxtar respublika əhalisinin yaşam tərzində özünə necə yer tapır?**

–Bu bir həqiqətdir ki, naxçıvanlıların həyat səviyyəsi günü-gündən yaxşılaşır. Ali Məclis Sədrinin diqqət və qayğısı nəticəsində kənd əhalisinin problemləri ardıcıl olaraq həllini tapır. Şəhər və rayon mərkəzlərindən başlanmış ən ucqar dağ kəndlərində belə infrastrukturun yaxşılaşdırılması istiqamətində mühüm işlər görülür. Yollar və yeni körpülər salınmaqla yanaşı, kəndlərdə təhsil probleminin həll edilməsinə böyük önəm verilir. 1995-ci ildən bu günə kimi regionda 170-dən çox məktəb tikilib ki, onların da böyük əksəriyyəti ucqar dağ kəndlərinin payına düşüb. Təkcə ötən il isə 16 müasir məktəb tikilib, bir ümumtəhsil məktəbi isə əsaslı təmir olunaraq istifadəyə verilib. Sadalanan faktların çox böyük siyasi və iqtisadi əhəmiyyəti var. Çünki təhsilə qoyulan sərmayə millətin gələcəyinə yönəldilən sərmayədir. Kənd təsərrüfatına sərmayələrin cəlb olunması isə

gələcəkdə vətəndaşlarımızın gündəlik həyatına öz müsbət təsirini göstərəcək. Torpaq mülkiyyətçisinə çevrilən müasir kəndli zaman keçdikcə özü də sahibkara çevriləcək. Həyat tərzi yaxşılaşdıqca isə daha böyük uğurlara can atacaq.

**–Yola saldığımız 2005-ci il Yeni Azərbaycan Partiyası üçün daha çox nə ilə yaddaqalan oldu?**

–Keçən ilin ən mühüm siyasi hadisəsi Azərbaycan Respublikasının Milli Məclisinə və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilərin keçirilməsi oldu. Həm YAP, həm də cəmiyyət bunu əlamətdar hadisə kimi qiymətləndirir. Eyni zamanda, ötən il ölkədə bir çox sosial-iqtisadi islahatlar da həyata keçirilib. Ən əlamətdar hadisələrdən biri də YAP-ın III qurultayının keçirilməsi və Prezident İlham Əliyevin partiyaya sədr seçilməsi oldu. Siyasi və iqtisadi baxımdan 2005-ci ilin sonu isə Naxçıvan üçün daha çox yaddaqalan oldu. Dekabr ayında ölkə başçısının muxtar respublikamıza səfəri, burada mühüm əhəmiyyətli obyektlərin açılışında iştirak etməsi, eləcə də İran İslam Respublikasının Prezidenti ilə rəsmi görüşlər keçirməsi hər bir naxçıvanlının yaddaşında daim qalacaqdır. Çünki həmin görüşlərin nəticəsi olaraq blokada şəraitində yaşayan muxtar respublikamızın əhalisi 15 illik uzun fasilədən sonra təbii qazdan istifadə etməyə başladı.

**–Qazanılan iqtisadi göstəricilər istər-istəməz adamların siyasi baxışlarında və düşüncələrində müsbət dəyişikliklər yaradır, yeni psixologiya formalaşdırır. Maraqlıdır, YAP muxtar respublika təşkilatı gündən-günə müasirləşən cəmiyyətdə özünə necə yer tapıb?**

–Hər bir partiyanın cəmiyyətdəki ölçü meyarı seçkilərdir. Sadə insanlar seçkilərdə partiyalara münasibətlərini bildirirlər. Yola saldığımız seçkilər cəmiyyətin YAP-ın siyasətinə bəslədiyi inamı bir daha üzə çıxardı. Azərbaycan xalqı, o cümlədən də muxtar respublika əhalisi YAP-ın siyasətini dəstəkləməklə öz gələcəklərini müəyyən etmiş oldular. Bu fakta əsaslanaraq deyə bilərəm ki, Azərbaycanda YAP

ilə rəqabətə girəcək ikinci siyasi qüvvə yoxdur. YAP cəmiyyətdəki yerini, mövqeyini gördüyü işlərlə, yürütdüyü uzaqgörən siyasətlə möhkəmləndirib.

**–Anar müəllim, son parlament seçkilərində muxtar respublikanın əhalisi digər regionlarla müqayisədə çox böyük siyasi aktivlik nümayiş etdirdilər. Sizcə, bu hansı amillə bağlıdır?**

–Xatırladım ki, hələ 1990-cı illərdə naxçıvanlılar siyasi aktivliyi ilə seçiliblər. Bunun bir neçə səbəbi var. Hər şeydən əvvəl Naxçıvanda güclü dövlətçilik ənənələrinin formalaşdığını qeyd etmək istəyirəm. Ən əsası isə ümummilli liderimiz Heydər Əliyevin burada yaşaması və Ali Məclisin Sədri kimi fəaliyyət göstərməsidir. Muxtar respublikanın qorunub saxlanması istiqamətində Heydər Əliyevin gördüyü işlərdə yaxından iştirak edən Naxçıvan əhalisi zaman keçdikcə siyasi baxımdan daha da aktivləşib. İlk dəfə burada Naxçıvan əhalisi nankor qonşumuz ermənilərin torpaqlarımıza təcavüzünə və SSRİ rəhbərlərinin bu fakta göz yummasına etiraz etmişlər. Naxçıvan Muxtar Respublikası adından "Sovet Sosialist" sözləri götürülüb və Ermənistana qarşı hərbi-siyasi güc nümayiş olunub. Digər bir cəhət isə YAP-ın məhz Naxçıvanda təsis olunmasıdır. Təbii ki, Naxçıvanda görülən bütün bu işlər yerli əhalinin siyasi fəallığının artmasına da böyük təsir edib.

**–İqtidarın bütün sahələrdə əldə etdiyi uğurlara baxmayaraq, bəzi müxalif qüvvələr bunlara kölgə salmağa çalışırlar. Belə qaragüruhçu qüvvələrin başlıca məqsədləri nədir, yenilikləri niyə görmək istəmirlər?**

–Azərbaycanda fəaliyyət göstərən bəzi radikal qüvvələr həmişə olduğu kimi, son seçkilərdə də məğlubiyyətə uğradılar. Bu, onu göstərir ki, onların cəmiyyətdə dayağı yoxdur. Çünki cəmiyyət də ölkəmizdə baş verən inkişafı, irəliləyişləri görür. Normal siyasi partiya bu məğlubiyyətdən nəticə çıxararaq öz siyasi kursunda, proqramında və gələcək strategiyasında bir sıra dəyişikliklər etməli idi. Ancaq

müxalifət bunu etmədi, 90-cı illərdə necə idisə, yenə də o cür fəaliyyət göstərdi. Yalnız adlarını dəyişən bu müxalif qüvvələr yeniləşməyə can atmadılar. Nəticədə də cəmiyyət tərəfindən qəbul edilməyərək nüfuzdan düşdülər. Nüfuzdan düşdükcə isə iqtidarın gördüyü işlərə qara yaxmağa başladılar. Çünki əllərindən bundan başqa heç nə gəlmirdi. Digər bir tərəfdən, əgər müxalifət iqtidarın uğurlarını təsdiqləmiş olsa, müxalifətçiliyini itirər. Azərbaycanda müxalifətin ən böyük bəlası ondadır ki, iqtidarın qazandığı uğurları görmək istəmir. Əgər belə davam etsə, getdikcə radikallaşan müxalifət siyasi səhnədən də silinəcək. Çünki keçmiş SSRİ-də də bolşevizm öz radikallığı ilə seçilsə də, indi özünə yalnız tarixin arxivində yer tapıb. Kim mənimlə deyilsə, düşmənimdir prinsipi ilə yaşayanlara demokratik ölkələrdə və siyasi proseslərdə yer yoxdur. İndi radikal müxalifət YAP liderinin apardığı siyasət nəticəsində cəmiyyətdə hiss olunmayacaq bir qüvvəyə çevrilib. Həmin partiyalar indi siyasi dərnək kimi fəaliyyət göstərməkdədirlər. Mən dərnək sözünü təsadüfən işlətmədim. Siyasətdə sosial bazası olmayan hər hansı təşkilatı partiya adlandırmaq şərti xarakter daşıyır. Bu mənada hesab edirəm ki, Azərbaycandakı müxalifət konstruktivlik nümayiş etdirməli və kökündən dəyişməlidir.

**–Anar müəllim, bir politoloq kimi deyə bilərsinizmi, son zamanlar müxalifətdəki parçalanmalar nə ilə bağlıdır?**

–Seçkidən sonra məğlubiyyətə uğrayan müxalifətin daxilində böyük çaxnaşmalar yaşanmaqdadır. Adi bir partiya sədrliyi üstündə gedən mübarizəyə görə müxalifət bir neçə yerə parçalanıb. Bu, onu deməyə əsas verir ki, həmin partiyaların heç bir ideya birliyi yoxdur. Onlar partiya adı altında hansısa maliyyə axınını əldə etmək üçün cəmləşiblər. Zaman göstərir ki, belə birliklərin ömrü çox da uzun olmur. Ona görə də həmin partiyaların parçalanmasında heç bir faciə görmürəm. Çünki sosial bazası olmayan təşkilatların

parçalanmasından cəmiyyət heç nə itirmir.

**–Bir qədər də partiya təşkilatlarınızın strukturu və üzvlərinizin sayı, o cümlədən gənclərlə aparılan iş barədə də danışardınız.**

–YAP muxtar respublika təşkilatı bu gün 7 rayon və bir şəhər təşkilatını özündə birləşdirir. Bizim 35 min 800 nəfərdən artıq üzvümüz var ki, bu da siyasi cəhətdən aktiv əhalinin 15,5 faizi deməkdir. Bundan başqa, Naxçıvanda əhalinin böyük bir qismi YAP-ın üzvü olmasa da, partiyanın təəssübkeşləridir. Hazırda partiya üzvlərinin 30 faizdən çoxunu qadınlar, 40 faizdən çoxunu isə gənclər təşkil edir. Partiyada ən böyük demoqrafik qrup gənclərə məxsusdur. Onlarla işi sistemli şəkildə qurmaq üçün hələ 1995-ci ildə YAP Heydər Əliyev adına Muxtar Respublika Gənclər Birliyi yaradılıb. Hazırda bu birliyin rayon bölmələri də fəaliyyət göstərir. Gənclərin partiya sıralarına cəlb olunması, onların asudə vaxtının səmərəli təşkil olunması kimi vacib işlər bu birliklərin üzərinə düşür. Ümumiyyətlə, partiyanın gənclərlə gördüyü işləri qənaətbəxş hesab etmək olar.

**–Həmfikirlərinizə və tərəfdaşlarınıza deməyə başqa sözünüz yoxdurmu?**

–YAP-ın yaradıcısı ümummilli liderimiz Heydər Əliyevin siyasətini dəstəkləyən insanlara təşəkkür edirəm və bildirirəm ki, bizim siyasətimiz müstəqil Azərbaycanı daha da inkişaf etdirəcək.

**R.İ. 09.II.2006**

## "Bu dəfə keçirilən bələdiyyə seçkilərində də demokratik prinsiplərə tam əməl olunacaq" Müsahibimiz Naxçıvan MR Mərkəzi Seçki Komissiyasının sədri Məhərrəm Qasımovdur

Müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı olan ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də qəbul olunmuş ilk Konstitusiyamız ölkəmizdə genişmiqyaslı demokratik islahatların həyata keçirilməsinin əsasını qoydu. Azərbaycanda ilk dəfə olaraq bələdiyyə institutu yaradıldı. Yerli əhəmiyyətli məsələləri müstəqil və sərbəst həll etmək hüququnu həyata keçirən, əhalinin mənafeyi naminə dövlət işlərinin bir hissəsini öz üzərinə götürərək yerinə yetirən bələdiyyələrə ilk seçkilər 1999-cu il dekabrın 12-də, növbəti seçki isə 2004-cü il dekabr ayının 17-də keçirildi. Bu ilin oktyabr ayının 6-da da ölkəmizdə təkrar, əlavə, yeni və ilk dəfə bələdiyyə seçkiləri keçiriləcək. Artıq bu məqsədlə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası tərəfindən bir sıra tədbirlər həyata keçirilib. Əvvəlki bələdiyyə seçkiləri ilə yanaşı, 2003-cü ilin prezident, 2005-ci ilin parlament seçkilərində şəffaflıq nümayiş etdirərək zəngin seçki təcrübəsi qazanan muxtar respublikamızda bu ümumxalq tədbirinə hazırlığın səviyyəsi ilə tanış olmaq üçün Mərkəzi Seçki Komissiyasının sədri Məhərrəm Qasımovla görüşüb qəzetimizin oxucuları üçün ondan müsahibə aldıq:

**–Məhərrəm müəllim, qanunvericiliyə görə bələdiyyə seçkiləri 5 ildən bir keçirilməlidir. Ancaq cəmi 2 il keçməsinə baxmayaraq ölkəmizdə yenidən bələdiyyə seçkiləri keçirilir. Bəlkə açıqlayasınız, bu, hansı zərurətdən irəli gəlib?**

–2004-cü ilin bələdiyyə seçkilərindən ötən müddət

ərzində bələdiyyə orqanlarında bəzi dəyişikliklər baş verib. Belə ki, bələdiyyə üzvlərindən vəfat edəni, başqa vəzifələrə təyin edilənləri olduğundan onların yerlərinə yeni bələdiyyə üzvlərinin seçilməsi zərurəti yaranıb. Ona görə də oktyabrın 6-da bələdiyyələrə təkrar, əlavə və yeni seçkilərin keçirilməsi nəzərdə tutulub. Bu seçkilərdə muxtar respublikamızın da 55 bələdiyyəsinə seçkilər keçiriləcək. Həmin bələdiyyələrə 86 üzv seçilməsi nəzərdə tutulub. Qeyd edim ki, bələdiyyələrdən 2-də–Püsyan və Sirab bələdiyyəsində təkrar, digərlərində isə yeni seçkilər keçiriləcək. Buna səbəb adıçəkilən 2 məntəqədə keçirilən seçkilərin nəticələrinin Mərkəzi Seçki Komissiyası tərəfindən ləğv olunmasıdır. Bu seçkilərdə iştirak etmək məqsədilə muxtar respublika üzrə 238 nəfər vətəndaş məntəqə seçki komissiyalarından imza vərəqi götürmüş və onlardan 237 nəfəri təyin olunmuş müddət ərzində sənədlərini dairə seçki komissiyalarına təqdim etmişlər. Həmin şəxslərin sənədlərinə baxıldıqdan sonra hamısının namizədliyi qeydə alınmışdır. Lakin sonradan 6 nəfər bələdiyyə üzvlüyünə namizəd könüllü surətdə öz namizədliyini geri götürüb. Buna səbəb həmin şəxslərin yaşayış yerlərini dəyişmələri olub. Bələdiyyə üzvü olmaq arzusunda olanlardan 27 nəfərin namizədliyi siyasi partiyalar tərəfindən, 204 nəfərin namizədliyi isə özləri tərəfindən irəli sürülmüşdür. Bu seçkilərdə iştirak edəcək namizədlərdən 122 nəfər Yeni Azərbaycan, 5 nəfər Azərbaycan Xalq Cəbhəsi, 1 nəfər isə Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyalarının üzvləridir. 103 nəfər namizəd isə seçkilərə bitərəf kimi qatılır. Onların təhsil səviyyəsinə gəlincə, qeyd edim ki, namizədlərdən 42 nəfəri ali təhsilli, 41 nəfəri orta ixtisas təhsilli, 148 nəfəri orta təhsilli vətəndaşlardır.

**–Siz dediniz ki, 6 nəfər öz namizədliyini geri götürüb. Bu, həmin bələdiyyələrdə alternativsiz seçki keçirilməsinə şərait yaratmayıb ki?**

–Seçki məcəlləsinə müvafiq olaraq bələdiyyə seçkiləri üzrə alternativsiz seçki keçirilmir. Yəni hər bir bələdiyyə

üzvlüyünə 2 və ya 3 namizəd irəli sürülməlidir. Əgər həmin namizədlər seçki gününədək, yəni adları bülletendə çap olunanadək öz namizədliyini geri götürsələr və nəticədə məntəqədə 1 nəfər namizəd qalarsa, onda həmin bələdiyyəyə seçkilər keçirilmir. Beləliklə də, seçki baş tutmur. Baxmayaraq ki, muxtar respublika üzrə 6 nəfər yaşadığı ünvanı dəyişdiyinə görə öz namizədliyini geri götürüb, bu, ümumi seçkilərin keçirilməsinə heç bir təsir göstərməyəcək. Çünki seçki keçiriləcək 55 bələdiyyənin hər birində minimum 2 namizəd mübarizə aparacaq.

**–Məhərrəm müəllim, seçici siyahılarının dəqiqləşdirilməsi istiqamətində vəziyyət nə yerdədir, ümumiyyətlə, muxtar respublikamızdan nə qədər insan bu seçkilərdə seçici kimi iştirak edəcək?**

–Xatırladım ki, muxtar respublika üzrə seçkilərdə iştirak etmək hüququ olan vətəndaşların sayı 236 min nəfərə yaxın olmasına baxmayaraq, onların heç də hamısı bu seçkilərdə iştirak etməyəcək. Budəfəki seçkilərdə yalnız seçki keçirilən bələdiyyələrin ərazisində yaşayan vətəndaşlar iştirak edə biləcəklər. Onların sayı 77 min 215 nəfərdir ki, bu da ümumi seçicilərin 32 faizi deməkdir. Dairələr üzrə seçicilərin sayına gəldikdə isə qeyd edim ki, 1 saylı Şərur-Sədərək seçki dairəsi üzrə 7483 nəfər, 2 saylı Şərur seçki dairəsi üzrə 8256 nəfər, 3 saylı Babək-Kəngərli seçki dairəsi üzrə 24356 nəfər, 5 saylı Şahbuz-Babək seçki dairəsi üzrə 7646 nəfər, 6 saylı Culfa-Babək seçki dairəsi üzrə 15725 nəfər, 7 saylı Ordubad-Culfa seçki dairəsi üzrə 13750 nəfər seçici bu seçkilərdə iştirak edəcək. Artıq seçici siyahıları tam dəqiqləşdirilərək məntəqə seçki komissiyalarının ərazisindəki xüsusi guşələrə vurulub.

**–Budəfəki seçkilərdə necə, əyani vasitələrdən, həmçinin qazanılan təcrübələrdən istifadə olunacaqmı?**

–2005-ci ildə Prezident İlham Əliyevin imzaladığı sə-

rəncamda qeyd olunur ki, ölkə ərazisindəki seçkilərin şəffaf və demokratik keçirilməsi üçün əyani vasitələrdən istifadə edilsin. Buna görə də parlament seçkilərində olduğu kimi, bələdiyyə seçkilərində də əyani vasitələrdən istifadə olunacaq. Artıq bu məqsədlə məntəqələrdə bələdiyyə üzvlüyünə namizədlərin və seçicilərin adlı siyahıları, seçki bülletenlərinin böyüdülmüş şəkli əks olunan böyük plakatlar asılmış, həmçinin məntəqə üzvləri tərəfindən seçicilərə bu ümumxalq tədbirində iştirak etmək üçün xüsusi bildirişlər paylanmışdır. Bu bildirişlərdə həmin gün seçicinin atacağı addımlar öz əksini tapıb. Burada göstərilir ki, hər bir vətəndaş seçki günü məntəqəyə gələrkən ilk növbədə ondan şəxsiyyətini təsdiq edən sənəd tələb olunacaq. Sənədlər qaydasında olduqdan sonra məntəqə seçki komissiyasının üzvü seçicinin sol əlinin baş barmağının gözlə görünməyən mürəkkəblə işarələnib-işarələnmədiyini yoxlayacaq. Heç bir işarə yoxdursa seçici qeydiyyatdan keçir, sol əlinin baş barmağı şəffaf mürəkkəblə işarələnir, səs vermək üçün ona seçki bülleteni və oradaca möhürlənən zərf verilir. Seçici örtülü kabinədə səs verdikdən sonra bülletenin qoyulduğu zərfi şəffaf seçki qutusuna salaraq məntəqəni tərk edir.

**–Seçkilərdə yerli və xarici müşahidəçilər iştirak edəcəklərmi, əgər bu mümkün olacaqsa, onlar hansı səlahiyyət çərçivəsində fəaliyyət göstərəcəklər?**

–Əvvəlcə müşahidəçilərin səlahiyyəti ilə bağlı sualınızı cavablandırmaq istərdim. Həm seçki dairəsində, həm də seçki məntəqələrində müşahidəçilərin olması cəmiyyətdə seçkilərin şəffaf və demokratik keçməsi barədə aydın təsəvvür yaradır. Ölkəmizdə keçirilən seçkilərdə müşahidəçilərin fəaliyyəti, onların səlahiyyəti və statusu Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının keçirdiyi seminar-müşavirədə ayrıca mövzu kimi müzakirə edilmişdir. Nəticə olaraq müşahidəçilərin fəaliyyətini özündə əks etdirən "Müşahidəçilər üçün yaddaş kitabçası" hazırlanmışdır. Həmin kitabça seçkiyə müşahidəçi qismində qatılan hər bir

kəsə təqdim olunacaqdır. Bu kitabda bəzi seçki terminlərinin izahı, müşahidəçilərin hüquq və vəzifələri, müşahidə aparılmasının prinsipləri, müşahidəçilərə qadağan olunan hərəkətlər, məntəqə seçki komissiyası üzvlərinin rolu və vəzifələri, seçki məntəqəsinin açılması və səsvermə qaydası, səslərin hesablanması, yekun protokollarının tərtib edilməsi və sair mövzularla bağlı ətraflı izahlar və məlumatlar verilmişdir. Onu da xatırladım ki, əvvəlki seçkilərdən fərqli olaraq budəfəki seçkilərdə müşahidəçilərə əlavə səlahiyyətlər də verilib. Belə ki, əgər bülletenlərin sayılması zamanı hər hansı bir neqativlik müşahidə olunarsa, o zaman həmin məntəqəyə təyin olunan müşahidəçi qrupu akt tərtib edib məntəqə seçki komissiyasının sədrinə təqdim edə bilər. Bununla da məntəqə seçki komissiyasının sədri və üzvləri seçki məcəlləsinə və Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qəbul etdiyi təlimatlara müvafiq olaraq bülletenləri müşahidəçilərin gözü qarşısında təkrar saymalıdırlar. Həmçinin, müşahidəçilər seçki başa çatdıqdan sonra məntəqə seçki komissiyasının sədrindən tərtib olunan protokolun bir nüsxəsini almaq səlahiyyətinə də malikdirlər.

Bələdiyyə seçkilərində xarici müşahidəçilərin iştirakına gəlincə qeyd edim ki, muxtar respublikamızda keçiriləcək bu ümumxalq marafonunda iştirak etmək üçün hələlik heç bir əcnəbi vətəndaş müraciət etməyib. Əgər olsa, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası tərəfindən müəyyən olunacaq. Ola bilər ki, seçki gününə bir gün qalmış muxtar respublikamıza xarici müşahidəçi göndərilsin, yaxud da ölkəmizdə fəaliyyət göstərən səfirliklərin nümayəndələri gəlsin. Regionumuzdan isə bu seçkilərdə müşahidəçi kimi iştirak etmək istəyən 154 nəfər dairə seçki komissiyalarına müraciət edib. Onlardan 69 nəfəri bitərəf, 85 nəfəri isə Yeni Azərbaycan Partiyasının üzvləridirlər.

**–Yəqin seçkilərin şəffaf, demokratik keçirilməsi üçün MSK üzvləri də əhali arasında böyük maarif-**

ləndirmə işləri aparıblar...

–Əvvəlki seçkilərdə olduğu kimi, bu seçkilərdə də şəffaflıq və demokratikliyi təmin etmək məqsədilə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası tərəfindən mütəmadi olaraq seminar-müşavirələr keçirilir. Bundan başqa, komissiyanın üzvləri regionlara səfər edərək dairə və məntəqə seçki komissiyalarının əməkdaşları ilə çoxsaylı görüşlər keçirirlər. Bu zaman səlahiyyətli şəxslərin seçki günü məntəqələrdəki hərəkətləri, bülletenlərin sayılması, yekun protokollarının doldurulması və sair mövzularda müzakirələr aparılır. Belə bir görüş Naxçıvanda da olmuşdur. Sentyabr ayının 2-də isə Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasında regionumuzun seçki keçiriləcək bütün dairə və məntəqə seçki komissiyalarının üzvləri ilə geniş seminar-müşavirə keçirilmişdir. Müşavirədə komissiya üzvlərinə seçki günü şəffaflığı qorumaq üçün görəcəkləri işlər bir daha xatırlanmış və onlara müvafiq göstərişlər verilmişdir.

Əhalinin maariflənməsinə gəlincə isə bildirim ki, digər seçkilərdə olduğu kimi, bu bələdiyyə seçkilərində də seçki məntəqələrinin əyani təşviqat vasitələri ilə təmin edilməsi məsələsi başlıca vəzifələrdən biri olmuşdur. Belə ki, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası bələdiyyələrin funksiya və vəzifələrini, bələdiyyə seçkilərini özündə əks etdirən 17 adda plakat dərc etdirmişdir. Həmin plakatlar muxtar respublikamıza gətirilərək seçki məntəqələrinə paylanmış və hər bir məntəqənin qarşısındakı xüsusi yerlərdən asılmışdır. Həmin plakatlarda vətəndaşların seçkilərə çağırılması, onların seçkilərdə iştirakını təmin edən müddəalar özünə yer tapıb. Bununla yanaşı, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası namizədlərin irəli sürülməsi kampaniyasından başlayaraq, namizədlərin qeydə alınması, təbliğat-təşviqat prosesinin aparılması, namizədlər üçün bankda maliyyə hesabatlarının açılması və digər proseslərin düzgün həyata keçirilməsini təmin etmək

məqsədilə 3 cilddə "Azərbaycan Respublikasında bələdiyyə seçkilərinə dair izah və təlimatlar, sənəd formaları" adlı xüsusi kitabçalar nəşr etdirərək bütün məntəqə seçki komissiyalarına paylamışdır. Həmçinin, seçki günü məntəqə seçki komissiyalarının işini yüngülləşdirmək məqsədilə "Seçki günü üçün yaddaş kitabçası" da hazırlanaraq müvafiq yerlərə çatdırılmışdır.

Son olaraq qeyd edim ki, ötən seçkilərin təcrübəsindən səmərəli istifadə edərək çalışacağıq ki, 6 oktyabr bələdiyyə seçkilərində də demokratik prinsiplərə tam əməl olunsun.

**R.İ.29.IX.2006**

# Milli vətənpərvərlik ruhu və mədəni yüksəliş

## «Tələbə-gənclərin siyasi və ideya-mənəvi tərbiyəsi işinə böyük diqqətlə yanaşırıq» Müsahibimiz YAP Universitet şəhərciyi ərazi ilk təşkilatının sədri, Naxçıvan MR Ali Məclisinin deputatı Elman Cəfərlidir

**–Elman müəllim, istərdim söhbətimizə YAP Universitet şəhərciyi ərazi ilk təşkilatının fəaliyyətindən başlayaq. Təşkilatınız nə kimi yol keçib?**

–Məlum olduğu kimi, müasir tariximizin müstəqillik mərhələsinin inkişafında 1992-ci il noyabrın 21-də ümummilli liderimizin rəhbərliyi ilə yaradılan Yeni Azərbaycan Partiyasının bənzərsiz, müstəsna və həlledici rolu olmuşdur. Hələ 1992-ci il oktyabrın 24-də böyük öndər Heydər Əliyev partiyanı yaratmaq barədə 91 nəfər tanınmış ziyalımızın müraciətinə cavab verəndə ölkədə ən böyük problemlərdən 5 məsələni önə çəkmişdi: Qarabağ problemi, sosial-iqtisadi böhran, yarıtmaz kadr siyasəti, qanunların aliliyinin təmin edilməsi və demokratikləşmə və ən nəhayət, Azərbaycanın parçalanmasının qarşısının alınması. Bu mənada demək olar ki, partiyamız əsl dövlətçilik partiyası kimi yaranmış və formalaşmışdır. O ki qaldı YAP Universitet şəhərciyi ərazi ilk təşkilatının yaranmasına, bu təşkilat da YAP-ın təşəkkülünün ilk mərhələsində—1992-ci ilin dekabrında yaranmış və partiyamızın yuxarıda sadalanan problemlərinin həlli yolunda elə ilk günlərdən siyasi mübarizənin önündə olmağa çalışmışdır. Ötən dövrdə təşkilatımız səmərəli və maraqlı inkişaf yolu keçmiş, ölkəmizdə, xüsusən muxtar respublikamızda gedən ictimai-siyasi proseslərdə fəal iştirak etməyə səy göstərmişdir. Təşkilatımız universitetin əməkdaş və tələbələrindən ibarətdir. Onların böyük əksəriyyətini–86 faizini gənclərin təşkil etməsi isə eyni za-

manda təşkilatımızın qarşısında siyasi-mənəvi tərbiyə işinin həmişə ön planda saxlanıldığını göstərir.

Cəmi bir neçə üzvlə fəaliyyətə başlayan Universitet şəhərciyi ərazi ilk təşkilatı 14 ilə yaxın bir dövrdə işin keyfiyyətini ön planda tutaraq onu daim üzvlərimizin kəmiyyəti ilə uzlaşdırmağa çalışmışdır. Təkcə bir faktı qeyd edim ki, 2001-ci ilin sentyabrında üzvlərimizin sayı 691 nəfər idisə, hazırda 1700-ü ötmüşdür. Onlardan 9 nəfəri elmlər doktoru, professor, 86 nəfəri isə elmlər namizədi və dosentlərdir. Üzvlərimizin say tərkibində qadınların çəki payı 51 faizə yaxındır.

Partiya təşkilatının nümayəndələri YAP-ın hər üç qurultayında iştirak etmişdir. YAP Naxçıvan MR Təşkilatının 2004-cü ilin noyabrında keçirilən konfransında iki üzvümüz muxtar respublika təşkilatı Siyasi Şurasının və İdarə Heyətinin üzvü seçilmişdir ki, bu da siyasi məsuliyyətimizi daha da artırmışdır. Ölkədə keçirilən bütün prezident, parlament və bələdiyyə seçkilərində təşkilatımız fəal iştirak etmiş, partiyamızın namizədlərinin qələbə çalması üçün üzərinə düşən vəzifələri maksimum icra etməyə çalışmışdır. Yeri gəlmişkən, son parlament seçkilərində təşkilat üzvlərindən bir nəfəri Azərbaycan Respublikası Milli Məclisinin, üç nəfəri isə Naxçıvan MR Ali Məclisinin deputatı seçilmişlər. Təşkilatımızın qısamüddətli tarixində bütün üzvlərimizin son dərəcə əlamətdar hadisə kimi qəbul etdikləri bu uğur partiya rəhbərliyinin təşkilatımıza böyük etibar və etimadının ifadəsi olmaqla üzərimizə daha məsuliyyətlə çalışmaq vəzifəsini də qoymuşdur.

**–Ərazi ilk təşkilatı qarşısında duran vəzifələrdən danışmağınız da maraqlı olardı.**

–Təşkilatımızın qarşısında duran əsas vəzifələr partiyanın Proqramında təsbit olunmuş milli dövlətçiliyimizin konseptual əsaslarını təşkil edən prinsiplərin dönmədən həyata keçirilməsi, ümummilli liderimizin əbədiyaşar ideallarının, Prezident İlham Əliyevin ardıcıl və qətiyyətli döv-

lətçilik siyasətinin təbliği, YAP muxtar respublika təş-kilatı rəhbərliyinin vaxtaşırı qarşımızda qoyduğu vəzifələrin icrasından ibarətdir. Bundan başqa, üzvlərimizin böyük əksəriyyətini təşkil edən, fəal ictimai-siyasi həyata yenicə qoşulan gənclər arasında məqsədyönlü ideya-siyasi işin aparılması, onların qüvvəsindən dövlətçiliyimiz üçün səmərəli şəkildə istifadə edilməsi təşkilatımızın gündəlik iş prosesinə çevrilmişdir. Bu mənada il ərzində bütün tarixi günlərlə bağlı, o cümlədən ümummilli liderimizin şərəfli adı ilə əlamətdar olan günlər münasibətilə mədəni-kütləvi, elmi-ictimai və siyasi-tərbiyəvi tədbirlər həyata keçiririk. Həmin tədbirlər heç də kampaniya xarakteri daşımır, bütün sahələri əhatə edir; elmi konfranslar, siyasi dərslər, konsert proqramları, kitab və rəsm sərgiləri, diskussiyalar, kino və sənədli film nümayişi, böyük öndərin şəhərimizdəki abidəsinin ziyarəti və sair. İnanın, bütün kollektivimizi əhatə edən tədbirlər o qədər maraqlı, elə öyrədici xarakterli olur ki, bəzən qısa müddət ərzində bu qədər silsilə tədbirlər seriyası nəinki insanı yorur, əksinə, üzvlərimiz tərəfindən mənəvi kamillik və daxilən zənginləşmək mərhələsi kimi yüksək səviyyədə qarşılanır.

**–Bu gün partiya üzvlərinin üzərinə düşən mühüm vəzifələrdən biri də dövlət başçımız tərəfindən həyata keçirilən siyasətin dəstəklənməsi, onun təbliğatının aparılmasıdır. Bu sahədə professor-müəllim heyətinin fəaliyyəti necə, qənaətbəxşdirmi?**

–Mən sualınıza bir qədər geniş aspektdən yanaşmaq istərdim. Hələ partiyamızın II qurultayında o zaman partiya sədrinin birinci müavini vəzifəsində olan cənab İlham Əliyev qeyd edirdi ki, iqtisadiyyatı olmayan dövlətin siyasətindən danışmaq yersizdir. Məşhur alman dövlət xadimi O.Bismarkın şəxsiyyətin tarixdə rolu barədə inkaredilməz bir ifadəsi də vardır: «Şəxsiyyəti olmayan xalqın azadlıq uğrunda mübarizəsi ağlasığmazdır. Xalq şəxsiyyət ətrafında birləşir, yalnız bundan sonra ideyalar haqqında dü-

şünməyə başlayır». Bu mənada müstəqilliyimizin ilk illəri–1991-1993-cü illər həm siyasi və iqtisadi böhran, həm də lidersizlik dövrü kimi çox fəlakətli oldu. Həmin ağrılı və böhranlı dövr ölkənin bütün sahələrinə olduğu kimi, Naxçıvan Dövlət Universitetinə də son dərəcə mənfi istiqamətdə təsir göstərmiş, pərakəndəlik, anarxiya adi hal almış, siyasi intriqalar bu təhsil müəssisəsini də çulğalamışdı. Lakin ümummilli liderimizin hakimiyyətə möhtəşəm dönüşü ilə Qurtuluş mübarizəsi qalibiyyətlə nəticələndi. Bu qalibiyyətdən universitet kollektivi layiqli şəkildə bəhrələndi. İndi kollektivimiz, professor-müəllim heyəti başda olmaqla siyasi cəhətdən yetkin, monolit bir qüvvəyə çevrilib, vahid ideya ətrafında birləşib. Bu mənada dövlət başçımızın qətiyyətlə həyata keçirdiyi siyasətin dəstəklənməsi, onun ən fəal şəkildə, həm də elmi-əməli əhəmiyyətinin təbliği bizim böyük qürur və fəxrlə məşğul olduğumuz gündəlik işimizdir.

**–Bəs, tələbə-gənclərin ictimai-siyasi fəallıqlarının artması barədə nə demək olar?**

–Bilirsiniz ki, gənclik insanın enerjisinin çağlayıb daşdığı bir dövrdür. Digər tərəfdən cəmiyyətdəki müxtəlif qüvvələr öz məqsədləri naminə həm də çox həssas zümrə olan gəncliyin qüvvəsindən öz mənafeləri naminə daim yararlanmağa çalışırlar. Buna görə də biz tələbə-gənclərin siyasi və ideya-mənəvi tərbiyəsi işinə böyük diqqətlə yanaşırıq. Bir vaxtlar başıpozuq, istənilən istiqamətə yönləndirilə bilən gənclik indi ictimai həyatın bütün sahələrində dövlətçiliyimizin möhkəmləndirilməsi naminə öz bilik, qüvvə və bacarığını faydalı əməyə çevirən mütəşəkkil qüvvədir. Ümummilli liderimizin siyasətinin nəticəsi kimi özlərinə münasib meydan əldə edən tələbə-gənclərin ictimai-siyasi fəallığının yüksəldiyi artıq faktdır. Belə ki, təşkilat üzvlərinin 77 faizini tələbə-gənclər təşkil edir. Lakin qeyd etməliyəm ki, tələbə-gənclərlə iş gündəlik diqqət və qayğı tələb edir. Biz bu istiqamətdə çalışırıq.

**–Oxucularımıza deməyə başqa sözünüz yoxdur ki?**

–Son olaraq qeyd etmək istərdim ki, təşkilatımızın siyasi həyatının bilavasitə bağlı olduğu universitet həyatı bizim üçün həm də Heydər Əliyevçilik məktəbidir. Biz bu məktəbin tələbəsi və məzunu olmağın şərəfini və məsuliyyətini daim üzərimizdə hiss edirik. Ona görə də bütün məsuliyyəti ilə deməyi özümüzə borc bilirik ki, bizim əbədiyyətə uzanan bir yolumuz var - ümummilli liderimiz Heydər Əliyev yolu, bir əqidəmiz var - Azərbaycançılıq, bir ali kitabımız var - ölkə Konstitusiyası, birgə xidmət edəcəyimiz vahid sahə var - dövlətçiliyimiz...

**R.İ.13.V.2006**

## Gənclik öz xalqı və dövlətçiliyi qarşısındakı məsuliyyətini dərk edir

Gənc nəsil bəşəriyyətin gələcəyidir. Başqa sözlə desək, hər bir cəmiyyətin sağlam inkişafı, işıqlı gələcəyi ilk növbədə onun tərkibindəki gənclərlə müəyyənləşir. Yəni, hansı ölkədə gənclərə diqqət və qayğı var, onların təlim-tərbiyəsi, təhsili dövlət siyasəti səviyyəsinə qaldırılıb, deməli, o cəmiyyətin sabahı daha işıqlıdır, gələcəyi etibarlı təməl üzərindədir. Şübhəsiz ki, həmin ölkə də daima tərəqqi müstəvisində olacaq. Çünki, gənclik bitib-tükənməyən enerjiyə, qurub-yaratmaq qüdrətinə malik bir aparıcı qüvvədir. Təbii ki, burada gələcəyin milli ruhda, Vətənə, xalqa sədaqət zəminində tərbiyə olunması da başlıca şərtdir. Bu isə heç də qısa müddət tələb edən proses deyil.

Həqiqi vətənpərvərlik birbaşa insan şüurunda formalaşan hiss olduğundan belə bir dəyərin yaranması və inkişaf etdirilməsi də tədricən, təkamül yolu ilə aparılmalıdır. Yəni, vətənpərvərlik heç də özündə dar məna kəsb etmir. O, yalnız Vətəni silahlı münaqişələrdən müdafiə etmək istəyi deyil, həm də xalqın keçmişinə, milli-mənəvi, əxlaqi dəyərlərinə sahib durub, onun qorunması və inkişaf etdirilməsinə çalışmaq, beynəlxalq ictimaiyyət qarşısında öz dövlətinin, millətinin nüfuzunu hər şeydən uca tutmaq, onu yad təsirlərdən hifz etməkdir. Bu mənada öz xalqının dəyərlərinə yüksək səviyyədə yiyələnmiş gəncliyin yaranması, əslində, cəmiyyətdə özünü dərk etmiş xalqın, millətin yaranması deməkdir. Yəni, əsl mənada vətənpərvər olmaq, yüksək mədəniyyət və məsuliyyət hissinə, mütərəqqi dünyagörüşə malik olmaqdır.

Bu baxımdan indi inamla demək olar ki, müstəqil Vətənimizdə belə bir mühit formalaşıb. Dövlətimiz yenidən müstəqillik əldə etdikdən, imperiya zəncirindən rəsmən

azad olduqdan sonra belə bir mühitin yaranması mümkün olmuşdur. Daha doğrusu, gənclərin əsl mənada vətənpərvərlik ruhunda yetişdirilməsinə ümummilli liderimizin ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra başlanmışdır. Bəli, o vaxtlar xaos, anarxiya girdabında, psixoloji sarsıntılar içərisində olan gənclik ulu öndərin himayəsi altına alındı. Dövlətimizin müstəqil siyasət yeritməsi xalqın öz tarixi, soykökünün öyrənilməsinə, milli-əxlaqi, mənəvi dəyərlərinə sahib çıxmasına və onun qorunmasına şərait yaratdı. Gənclərlə iş, onların vətənpərvərlik ruhunda tərbiyəsi dövlət siyasətinin tərkib hissəsinə çevrildi. Gənclərin hüquqları genişləndirildi, ictimai-siyasi həyatda rolları artırıldı. Bu sahədə dövlət tərəfindən atılan addımlardan biri də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 30 avqust 2005-ci il tarixli sərəncamla təsdiq etdiyi Azərbaycan Gəncliyi Dövlət Proqramı olub. 2005-2009-cu illəri əhatə edən bu Dövlət Proqramının məqsədi Azərbaycanda gənclərin hərtərəfli inkişafının, cəmiyyətin həyatında onların fəal iştirakını təmin etmək üçün sosial-iqtisadi və təşkilati hüquqi şərait yaratmaqdır.

Digər tərəfdən, bu proqramla dövlət qarşısına aşağıdakı vəzifələri qoyub. Birinci gənc nəslin vətənə məhəbbət, Azərbaycan tarixinə, mədəni irsinə, dövlət dili və rəmzlərinə, milli-mənəvi dəyərlərinə hörmət ruhunda tərbiyə olunması, gənclərin hərbi-vətənpərvərlik işinin gücləndirilməsi, gənclər arasında hüquq pozuntularına, narkomaniyanın və digər zərərli vərdişlərin profilaktikası sahəsində tədbirlərin həyata keçirilməsi, istedadlı gənclərin aşkar edilməsi, onların öz qabiliyyətlərini inkişaf etdirməsi üçün şəraitin yaradılması, gənclərin sahibkarlıq fəaliyyətinin dəstəklənməsi, bazar iqtisadiyyatının əsaslarına dair biliklərə yiyələnməsi, peşə hazırlığının yüksəldilməsi və məşğulluğun təmin edilməsi məqsədi ilə tədbirlərin həyata keçirilməsini nəzərdə tutur. Digər tərəfdən bu proqramda sosial müdafiəyə ehtiyacı olan gənclərin, o cümlədən gənc ailələrin problemlərinin

həllinə köməklik göstərilməsi, gənclərin sağlamlığının qorunub saxlanılması sahəsində tədbirlərin həyata keçirilməsi, kütləvi bədən tərbiyəsi və idmanın inkişaf etdirilməsi, gənclərin beynəlxalq əməkdaşlıq sahəsində layihələrin həyata keçirilməsi, gənclər təşkilatının beynəlxalq əlaqələrinin qurulması, onların nümayəndələrinin beynəlxalq tədbirlərdə iştirakına köməklik göstərilməsi nəzərdə tutulur. Təbii ki, bu da cəmiyyətdə vətənpərvər gəncliyin formalaşması, inkişaf etdirilməsi üçün mühüm amillərdən biridir. Yəni, yaradılan şərait, göstərilən dövlət qayğısı gənclərə öz qabiliyyət və bacarıqlarını üzə çıxarmaq, fəal həyat mövqeyini artırmaq, ölkənin müqəddəratı üçün ictimai-siyasi sahələrdə potensiallarını göstərmək imkanı verir.

Azərbaycan xalqında, eləcə də özəyini təşkil edən gəncliyində Vətənə sədaqət ruhunun yaranması digər xalqlardan fərqlənir. Bunu fərqləndirən amil tarixi proseslər və mövcud şərait idi. Dövlətin daxilində gedən proseslərdən əlavə, bu gün də cəmiyyətdə vətənpərvərlik ruhunun inkişaf etdirilməsinə təsir göstərən digər amil ermənilərin Vətənimizə qarşı davam edən ərazi iddialarıdır. Təbii ki, istər yenidən müstəqillik qazandığımız, istərsə də tarixən ermənilərin xalqımıza, Vətənimizə qarşı işğalçılıq siyasəti cəmiyyətimizin öz Vətəni, milləti qarşısında məsuliyyətini dərk etməsinə təsir göstərməyə bilməzdi.

Bu amildən əlavə cəmiyyətdə vətənpərvərlik ruhunun formalaşmasına təsir göstərən ən mühüm faktorlardan biri də dövlətin həyata keçirdiyi düzgün daxili və xarici siyasətdir. Belə ki, dövlətimiz xalqın layiqliyinin təmin olunmasında mühüm rol oynayan bir sıra siyasi amilləri həyata keçirir. Bunun nəticəsində də cəmiyyətin bütün sahələrində demokratik prinsiplər öz yerini tapır, demokratik ənənələrə əsaslanaraq formalaşır, ictimai həyatın ən vacib məsələləri ümumxalq səsverməsi (referendum) yolu ilə həll edilir. Bu amillər də Azərbaycanda yaşayan hər kəsin xalqımızın vahidliyinin pozulmasının yolverilməz olduğunu dərk etməsinə

müsbət təsir göstərir.

Bu dövlətin vətəndaşı olan istənilən milli azlıq–talış, ləzgi, tatar və sair olmasından asılı olmayaraq hər kəs başa düşür ki, Azərbaycan hamımızın bölünməz vətənidir. Onun müdafiəsi isə hamımızın mənəvi borcudur. Lakin gəncliyimizin vətənin müdafiəsi ilə bağlı mənəvi borcu, dövlətimizə, xalqımıza qarşı hərbi basqın və ola biləcək təcavüzün qarşısını almaq üçün silahlı münaqişədə iştirak etmək və həqiqi hərbi xidmətə getməklə bitmir. Bu, Azərbaycan gəncliyinin öz xalqı və onun dövlətçiliyi qarşısındakı vəzifələrindən biridir. Gəncliyimizin Azərbaycan dövlətinin siyasi-iqtisadi, sosial, hərbi və sair sahədəki milli maraqlarını qoruması, bu maraqları öz şəxsi maraqlarından üstün tutması mənəvi borcun digər tərəfini əhatə edir.

Bu gün muxtar respublikada gənclər siyasəti ilə bağlı həyata keçirilən tədbirlərdə də gənclərə hərbi-vətənpərvərlik və vətəndaşlıq hisslərinin aşılanması, elmə, təhsilə marağın artırılması, asudə vaxtın səmərəli təşkili, gənclərin yüksək sosial və mənəvi, intellektual və fiziki inkişafını təmin edən fəaliyyət sahələrinə istiqamətləndirilməsi ön planda olmuşdur.

Artıq daxili siyasət sayəsində Azərbaycanın gələcəyini təmin edən, Vətənini, ölkəsini sevən vətənpərvər gənclik formalaşır. Və gəncliyimiz öz Vətəni, milləti qarşısında məsuliyyətini dərk etməsini istər respublikamızda, istərsə də Vətənimizin hüdudlarından kənarda, beynəlxalq aləmdə göstərə bilir.

**E.Ş.14.V.2006**

## Dövlət gənclər siyasətinin bəhrələrini hər bir gənc duyur

Azərbaycan Respublikasının dövlət gənclər siyasəti xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən əsası qoyulmuş bir siyasətdir və bu gün də həmin siyasət uğurla davam etdirilməkdədir. Bu fikirləri müxbirimizlə söhbəti zamanı Naxçıvan Muxtar Respublikası Gənclər, İdman və Turizm Nazirliyinin Gənclərlə İş Siyasəti Şöbəsinin müdiri Azər Abbasov söyləyib. Azərbaycanda gənclər siyasətinin formalaşması tarixinə nəzər salan şöbə müdiri, ölkəmizin yenicə müstəqillik qazandığı illərdə o vaxtkı naşı siyasətçilərin gənclərin taleyinə biganə yanaşdığını, onların problemləri ilə maraqlanmadığını diqqətə çatdırıb:–1990-cı illərin əvvəllərində Azərbaycanda ümumi vəziyyət olduqca gərgin idi. Hakimiyyət daxilində özbaşınalıq, anarxiya baş alıb gedirdi. Bir yandan azğınlaşmış ermənilərin rayon və kəndlərimizə təcavüzü, digər tərəfdən isə daxili parçalanma Azərbaycanın bir dövlət kimi varlığına son qoymaqda idi.

Məhz belə bir dövrdə xalqın tələb və təkidi ilə Heydər Əliyev yenidən Azərbaycanda hakimiyyətə qayıtdı. Bununla da xarici dövlətlərin regiona təsirinin və qardaş qırğınının qarşısı alındı. Ümummilli liderimiz qlobal problemlərin həlli istiqamətini, ilk öncə, Azərbaycan gəncliyinin səfərbər olunmasında gördü və bu istiqamətdə məqsədyönlü addımlar atdı. Ümummilli liderimiz Heydər Əliyev Prezident Sarayında bir qrup gənci qəbul edərək onların problemlərini dinləməklə yanaşı, Azərbaycan gəncliyinin nəyə qadir olduğunu bir daha yoxladı. Çünki, qarşıda çox böyük çətinliklər var idi və ulu öndərimiz gəncliyin bu yükü daşıya biləcəyinə əmin olmaq istəyirdi. Eyni zamanda Prezident gənclərə öz qiymətli tövsiyə və tapşırıqlarını verdi. Daha sonra 1994-cü il iyul ayının 26-da gənclər siyasətinin dövlət səviyyəsində

həyata keçirilməsi üçün Gənclər, İdman Nazirliyi yaradıldı. Bir müddət sonra turizm sahəsi də bu quruma tabe edildi və Gənclər, İdman və Turizm Nazirliyi kimi fəaliyyətini davam etdirməyə başladı. Elə o vaxtdan etibarən gənclər siyasəti pərakəndə halda deyil, mütəşəkkil formada dövlət siyasəti kimi həyata keçirilməyə başladı.

1996-cı ildə isə ümummilli liderimiz Heydər Əliyev ölkə gənclərinin forumunun keçirilməsi barədə sərəncam imzaladı və fevral ayının 2-də Müstəqil Dövlətlər Birliyi arasında ilk dəfə olaraq Azərbaycanda dövlət səviyyəsində gənclərin toplantısı keçirildi. Forumda iştirak edən ümummilli liderimiz Heydər Əliyev gəncləri dinləyərək onların problemlərini özlərinin dilindən eşitdi və geniş nitqlə çıxış edərək keçilən yola nəzər saldı, həmçinin gənclərə öyüd və nəsihətlərini verdi. Daha sonra Azərbaycanın yaradıcı-istedadlı gənclərini qiymətləndirmək, onları dövlətin quruculuq işinə cəlb etmək məqsədilə çoxlu sayda fərman və sərəncamlar imzaladı. Xarici ölkələrə edilən rəsmi səfərlər zamanı, eləcə də ölkədaxili tədbirlər də, gənclərlə keçirilən görüşlər də gənclər siyasətinin tərkib hissəsi idi. Fevral ayının 2-sinin gənclər günü kimi təsis olunması və 1999-cu ildə gənclər forumunun yenidən keçirilməsi isə Azərbaycan gənclərinin həyatında əsaslı dönüş yaratdı. Belə ki, bu dövrdən başlayaraq gənclər məsul vəzifələrdə çalışmağa başladı. Gənclərdə vətənpərvərlik hisslərinin yüksəldilməsi, onların elmi inkişafı, beynəlxalq səviyyədə əlaqələrinin gücləndirilməsi və Azərbaycan diasporunda gənclər qanadının yaradılması 1999-cu il iyun ayının 29-da qəbul olunmuş "Dövlət Gənclər Siyasəti" haqqında fərmanda da öz əksini tapdı. Beləliklə də gənclərə dövlət tərəfindən yeni missiya tapşırıldı. Bu missiya Azərbaycandan xaricdə yaşayan azərbaycanlı gəncləri bir araya gətirməkdən və onlarla birlikdə ölkənin xaricdə təbliğatını aparmaqdan ibarət idi.

2002-ci ildə Azərbaycan gənclərinin III forumunda ümummilli liderimiz səhhəti ilə əlaqədar olaraq iştirak

etməsə də, forum iştirakçılarına ünvanladığı məktubla gənclərə qarşı olan sonsuz qayğısını və diqqətini bir daha nümayiş etdirdi. Həmin forumda Azərbaycan gəncliyinin lideri, Heydər Əliyev siyasi kursunun layiqli davamçısı İlham Əliyev geniş nitq söyləyərək ölkədə həyata keçirilən təhsil islahatlarında və ordu quruculuğunda gənclərə verilən önəmdən danışdı. Azərbaycan gəncliyi qarşısında regionların sosial-iqtisadi inkişafının konturları İlham Əliyev tərəfindən məhz bu forumda açıqlandı və yerlərdə işsizliyin aradan qaldırılması yönümündə gənclərin görəcəyi işlər diqqətə çatdırıldı.

2003-cü il may ayının 6-da "Gənclər siyasəti haqqında" qanun qəbul olundu. Həmin qanunda gənclərin sosial problemlərinin həlli istiqamətində atılacaq addımlar öz əksini tapdı. "Azərbaycan gəncliyi 2005-2009" Dövlət Proqramında isə gənclərlə işləyən qurum və təşkilatlar qarşısında konkret tapşırıqlar qoyuldu. Bu yaxınlarda keçirilmiş Azərbaycan gənclərinin IV forumunda Prezident İlham Əliyevin iştirakı və görülmüş, həmçinin gələcəkdə görüləcək işlərin geniş müzakirəsi onu deməyə imkan verir ki, bugünkü Azərbaycan hökuməti öz gəncliyinə böyük diqqət və qayğı göstərir. Hökumətimiz gənclərimizin hərtərəfli inkişafında çox maraqlıdır. Çünki gənclər bizim gələcəyimizdir və biz çalışırıq ki, sabahımız üçün sağlam düşüncəli, vətənpərvər gənclər yetişdirə bilək.

Naxçıvan Muxtar Respublikası Gənclər, İdman və Turizm Nazirliyinin 1995-ci ildə yaradıldığını bildirən şöbə müdiri bu günə kimi həyata keçirilən əməli tədbirlərdən də danışdı:–Dünənə kimi Gənclər, İdman və Turizm Nazirliyinin çox zəif bazası var idi. Çoxlu çətinliklərlə üzləşdiyimizdən gənclərlə ünsiyyət yarada bilmirdik. Ancaq rəhbərliyin böyük diqqət və qayğısı nəticəsində bütün çətinliklərə sinə gərərək nazirlik bir sıra işlər görməyə nail olmuşdur. Bu gün Naxçıvanda gənclərin asudə vaxtının səmərəli təşkili üçün böyük şərait yaradılıb. Belə ki, Naxçıvan Muxtar Res-

publikasında Avropa standartlarına cavab verən yüksək səviyyəli Olimpiya İdman Kompleksi və Üzgüçülük hovuzu inşa edilmiş, respublika stadionu və "Dinamo" İdman Cəmiyyəti isə yenidən bərpa olunaraq gənclərin ixtiyarına verilmişdir. Məktəblərin əsaslı surətdə təmir olunması da bu sahədə diqqəti cəlb edən məsələlərdəndir.

Ümummilli liderimiz Heydər Əliyevin çıxışları Azərbaycanın gənclər siyasətinin əsasını təşkil edən bazadır,– söyləyən Azər Abbasov onu da qeyd etdi ki, Naxçıvan Muxtar Respublikası Gənclər, İdman və Turizm Nazirliyi öz fəaliyyətində həmin bazadan qaynaqlanan fərman və sərəncamlara söykənir.

Seçkilərlə əlaqədar olaraq tərəfimizdən gənclər arasında seçki qanunvericiliyi ilə bağlı bir sıra maarifləndirici işlər görülüb. Və bu istiqamətdə həyata keçirilən tədbirlər davam etdirilir. Mütəmadi olaraq gənclərlə diskussiyalar təşkil olunur. Hələ iyul ayında nazirliyin kollegiya iclasında gənclər arasında maarifləndirmə işini aparmaq məqsədilə tədbirlər planı hazırlanıb. Plana əsasən Naxçıvan Dövlət Universitetində siyasi biliklər olimpiadası keçirmişik. Orta ixtisas məktəblərini də bu işə cəlb etmişik ki, onlar da öz növbəsində yerlərdə belə tədbirlər keçirsinlər. Həmin tədbirlər əsasən "Gənclərə seçkilər barədə daha çox məlumat verək!" adı altında keçirilmişdir. Eyni zamanda, tələbə və şagirdlər arasında seçkilərə həsr olunmuş plakat-rəsm müsabiqəsi də keçirmişik. Burada məqsəd gənclərimizin seçkilərdə fəal iştirakını təmin etməkdən ibarət olub.

**R.İ.27.XII.2005**

## “Xatirə muzeyi” gənclərin vətənpərvərlik tərbiyəsində mühüm rol oynayır

Mən, bu sətirlərin müəllifi naxçıvanlı deyiləm. Nə bu torpaqda doğulmuşam, nə də ki, burada yaşayaraq böyümüşəm... Amma taleyimdən çox razıyam ki, magistratura təhsilimi bu torpaqda almaq mənə nəsib olub. Bakı şəhərindən sonra Naxçıvanda yaşamaq mənə çox xoşdur. Və açığını deyim ki, ailəmizin tək oğlu olmağıma baxmayaraq, mən sonralar da bu torpaqda yaşamaq istəyirəm. Çünki burada yaşamaq da, yaratmaq da çox gözəldir...

Naxçıvana–bu qədim torpağa qarşı məndə hələ yeniyetməlik illərindən çox isti bir münasibət olub. Bilmirəm, bu istək haradan yaranıb. Amma onu da bilirəm ki, hələ orta məktəb illərindən Naxçıvanın memarlıq və tarixi abidələri ilə yaxından maraqlanmışam.

Mənim fikrimcə, Naxçıvan həm də muzeylər şəhəridir. Hər dəfə hansısa bir muzeyə girəndə xalq şairimiz Səməd Vurğunun bu misralarını da xatırlayası oluram:

Kim bilir, neçədir dünyanın yaşı,
Tarixin nə qədər yazısı vardır.
Hər saxsı parçası, hər məzar daşı,
Nəsildən-nəsilə bir yadigardır.

Bu muzeylər içərisində paytaxt şəhərimizdəki Xatirə muzeyi isə özünəməxsus görkəmi və zəngin ekspozisiyaları ilə seçilir. Bu mədəniyyət müəssisəsinin fəaliyyəti ilə yaxından tanış olmaq üçün bu günlərdə muzeyə yollandım. Burada gülərüz, həlimxasiyyətli bir qadınla rastlaşdım və özümü təqdim edərək nə üçün gəldiyimi söylədim. Tanışlıqdan sonra mənə aydın oldu ki, bu xanım muzeyin direktoru Naibə Mirzəyevadır. Onunla birlikdə muzeyə daxil olduq.

Öyrəndim ki, muzey 1997-ci il yanvar ayının 15-də

Muxtar Respublika Ali Məclisi Sədrinin sərəncamı ilə yaradılıb. 2005-ci ildə isə əsaslı surətdə yenidən bərpa olunaraq əhalinin istifadəsinə verilib. Bakının Dağüstü parkını xatırladan ərazidə yerləşən bu muzey 300-ə qədər eksponatla fəaliyyətə başlayıb. İndi isə burada 1050-dən artıq eksponat nümayiş etdirilir. Bu eksponatlar yaddaşı bərpa edir, əsrlər boyu ermənilər tərəfindən azərbaycanlılara qarşı həyata keçirilən soyqırımı və onun qurbanlarının faciəvi qətlini, torpaqlarımızın bütövlüyü uğrunda canlarını fəda edən oğul və qızlarımızın keçdiyi şərəfli həyat yolunu gənc nəsillərə çatdırır.

Muzey bir neçə bölmədən ibarətdir. Birinci bölmədə 1905-1907-ci illərdə və 1918-ci ildə ermənilər tərəfindən azərbaycanlılara qarşı həyata keçirilən soyqırım hadisələri və faciə qurbanlarının adlı siyahıları nümayiş olunur. Qeyd edək ki, dövlət arxivindən götürülmüş bu siyahı eyni zamanda Respublika "Xatirə kitabı" adlı redaksiya tərəfindən üç cilddə nəşr olunub. Bu guşədə kütləvi qırğınlar zamanı Azərbaycanın hər bir yerində olduğu kimi, onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızın ayrı-ayrı bölgələrində, o cümlədən Naxçıvan şəhərində, Babək rayonunun Cəhri, Nehrəm, Kültəpə, Culfanın Yaycı və digər yaşayış məntəqələrində minlərlə günahsız insanın erməni vandalizminin qurbanına çevrildiyini öyrənmək olur.

İkinci şöbədə isə ötən əsrin qiyamət çağı, qanlı repressiya illəri öz əksini tapır. Həmin illərdə sərbəst düşüncəsinə və vətəninə bəslədiyi sonsuz məhəbbətə görə bolşevizm qəddarlığının qəzəbinə düçar olan ziyalılarımız haqqında geniş məlumat verilir. Bundan başqa, burada Böyük Vətən müharibəsi dövründə ön cəbhədə döyüşmüş naxçıvanlılar haqqında məlumatlarla, həmyerlilərimizin keçdiyi döyüş yolları ilə də yaxından tanış olmaq mümkündür. Xatırladaq ki, 1941-1945-ci illərdə muxtar respublikamızdan müharibəyə 29024 nəfər yollansa da, onların yarıdan çoxu alman faşizminə qarşı döyüşlərdə qəhrəmancasına həlak

olmuşdur. Sağ qalanların böyük əksəriyyəti isə müxtəlif dərəcəli əlil kimi geri qayıtmışdır. Bu guşədə həmin müharibədəki igidliklərinə görə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülən Qəzənfər Əkbərov, Nəcəfqulu Rəfiyev, Abbas Quliyev, eləcə də Buhenvaldın əfsanəvi qəhrəmanına çevrilən Əkbər Ağayev kimi vətəndaşlarımız haqqında da geniş məlumat almaq olar. Həmin illərdə Rəhim Rəhimov adlı həmyerlimiz üç dəfə "Şöhrət" ordeninə layiq görülüb ki, bu da o dövrdə Sovet İttifaqı Qəhrəmanına bərabər tutulurdu. Qəhrəmanlığına görə heç də kişilərimizdən geri qalmayan Həcər qeyrətli qadınlarımız Dilbər Təhməzbəyova, Zərifə Camalbəyova və digərləri barəsində də bu guşədə ətraflı məlumat verilir.

Başqa bir guşədə isə 1988-ci ildən başlayaraq 1994-cü ilə kimi davam edən erməni təcavüzünün qarşısını almaq məqsədi ilə Azərbaycanın bütövlüyü uğrunda müharibəyə yollanmış və qəhrəmancasına şəhid olmuş oğul və qızlarımızın şərəfli həyat yolunu göstərən eksponatlar nümayiş etdirilir. Məlumat üçün deyək ki, torpaqlarımızın müdafiəsi, müstəqilliyimizin qorunması uğrunda erməni yaraqlıları ilə mübarizədə muxtar respublikamızdan 363 nəfər şəhid olmuşdur. Onlardan da 8 nəfəri Milli Qəhrəmandır.

Sərgilənən eksponatlar sırasında şəhidlərimizin hərbi geyimlərinə, şəxsi əşyalarına, tərcümeyi-hallarına, aldıqları mükafat və diplomlara, onların həyatlarını əks etdirən fotoşəkillərə rast gəlmək mümkündür.

Muzeydə 1990-cı ildə törədilən Qanlı Yanvar hadisələrini əks etdirən materiallar ayrıca bölmədə özünə yer tapıb. Burada faciəni əks etdirən eksponatlar baş vermiş bu qanlı hadisənin, həyata keçirilmiş bu qətliamın günahkarları haqqında ətraflı məlumat verir. Hadisədən bir gün sonra ümummilli liderimiz Heydər Əliyevin Moskvadakı Azərbaycan nümayəndəliyində keçirdiyi mətbuat konfransı və bu hadisəyə bildirdiyi münasibət də muzeydə sərgilənən eksponatlar sırasındadır.

XX əsrin faciəsi hesab olunan Xocalı soyqırımına aid eksponatlar da ayrıca bir guşədə nümayiş olunur. Burada soyqırım qurbanları haqqında məlumatlar, o cümlədən onların başına gətirilən müsibətlər fotoşəkillərin dili ilə muzeyi ziyarət edənlərin diqqətinə çatdırılır.

...Bəli, Naxçıvan şəhərində bir muzey var. Həcmcə bir o qədər böyük olmasa da, mənaca genişdir. Sorağı çox-çox uzaqlara yayılıb. Başlıcası isə gənc nəslin vətənpərvərlik tərbiyəsində bu muzey mühüm rol oynayır.

**R.İ. 25.I.2006**

## 18 avqust Dövlət Sərhəd Xidməti əməkdaşlarının peşə bayramıdır Sərhədlərin etibarlı mühafizəsi hər bir dövlət üçün mühüm vəzifə sayılır

Sərhəd, ərazi bütövlüyü hər ölkənin dövlət müstəqilliyinin əsasını təşkil edən atributlardan biridir. Birləşmiş Millətlər Təşkilatının prinsiplərinə görə, hər bir ölkənin ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı əsas şərt kimi qəbul edilir. Ona görə də sərhədlərin etibarlı mühafizəsi dövlətlər üçün ən mühüm vəzifə sayılır.

1918-ci ildə Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti yaranan zaman hökumətin qarşısında duran əsas vəzifələrdən biri də ölkənin sərhədlərinin toxunulmazlığını, mühafizəsini təşkil etmək olmuşdu. Bu məqsədlə o dövrdə ölkənin güc strukturlarının formalaşdırılması barədə hökumət tərəfindən qərar qəbul edilmiş və 1918-ci ilin iyun ayının 22-də Azərbaycanda ilk dəfə olaraq Poylu sərhəd postu yaradılmışdı. Həmin dövr üçün belə bir qərarın qəbul olunması xüsusi əhəmiyyətə malik idi. Çünki gənc respublikanın yaranmasının ilk aylarında əhalinin zəruri ərzaq məhsulları ilə təminatını özünün başlıca vəzifələrindən biri hesab edən hökumət ərzaq ehtiyatlarının qorunması məqsədi ilə onların xaricə daşınmasına qadağa qoymuşdu. Bu postun ardınca Azərbaycanın əksər sərhəd ərazilərində, o cümlədən Qazax bölgəsində, 1919-cu ilin martında isə ölkənin cənub sərhədlərində milli mühafizə dəstələri təşkil olunmuşdu. Bununla da gənc Azərbaycan Respublikasında sərhəd mühafizəsinin daha geniş şəkildə təşkil olunması üçün zəmin yaranmışdı. Bu sahəyə xüsusi diqqət yetirən ADR-in Nazirlər Kabineti 1919-cu il avqust ayının 18-də "Azərbaycan Respublikasının gömrük baxımından sərhəd mühafizəsinin təsis edilməsi haqqında" qə-

rar qəbul etmişdi ki, bunun da nəticəsində əlavə 99 post yaradılmış və şimalda müəyyən ərazi istisna olunmaqla, Azərbaycanın digər sərhədlərinin mühafizəsi təmin edilmişdi. Elə o vaxtdan da Azərbaycanda dövlət sərhədlərinin mühafizəsi ilə məşğul olan qoşunların formalaşdırılması işi gücləndirilməyə başlanmışdır. Lakin bolşeviklərin Azərbaycanı işğal etməsi nəticəsində süquta uğrayan milli hökumətin bu istiqamətdə də həyata keçirdiyi tədbirlər yarımçıq qaldı. Belə ki, Xalq Cümhuriyyətinin süqutundan sonra müstəqil dövlətin bütün qurumları, o cümlədən milli sərhəd dəstələrimiz ləğv edildi.

Sovetlər Birliyi dövründə isə müttəfiq respublikalarda olduğu kimi, Azərbaycanın da sərhədləri "böyük qardaşın" müəyyən etdiyi kimi qorunurdu. Həmin dövrdə azərbaycanlılara qarşı ögey münasibət milli hərbi kadrların yetişdirilməsində özünü daha qabarıq şəkildə göstərirdi. Nəinki sərhədçi zabitlərimiz, respublikamızın dövlət sərhədlərində azərbaycanlı əsgərlər belə yox idi. Təbii ki, respublika rəhbərləri bu məsələyə diqqət yetirmirdilər. Çünki heç kim Kremlin istəyinə qarşı çıxmaq istəmirdi. Ancaq ümummilli liderimiz Heydər Əliyev böyük uzaqgörənliklə və qətiyyətlə bu sahədə ciddi işlər görməyə başladı. Böyük öndərimiz Azərbaycanda təhlükəsizlik xidmətinin və respublikanın rəhbəri olduğu illərdə azərbaycanlı sərhədçilərin yetişdirilməsi üçün çox uğurlu siyasət yeritdi. Ən mühümü, C.Naxçıvanski adına Hərbi Liseyi yaratmaqla bu sahədə olan boşluğu doldurdu. Azərbaycanlı gənclərin SSRİ-nin ali hərbi məktəblərində təhsil almalarına nail oldu. Məhz onun səyi nəticəsində böyük çətinliklə olsa da, ilk azərbaycanlı sərhədçi general Mustafa Nəsirov sərhəd dəstəsi rəisi təyin edildi.

Qeyd etdiyimiz kimi, ümummilli liderimiz belə taleyüklü məsələlərin həllinə Azərbaycan DTK-sına rəhbərlik edən vaxtlar başlamışdı. 1967-ci ildə SSRİ DTK və hökumət tərəfindən SSRİ–Çin sərhədlərinin möhkəmləndirilməsi

məqsədi ilə külli miqdarda vəsait ayrılan zaman, uzaqgörən siyasətçinin böyük cəhdləri hesabına Naxçıvan sərhəd dəstəsinin yeni kompleksinin tikilməsinə də icazə verildi və bunun üçün də vəsait ayrıldı. Həmçinin, Azərbaycanın sərhədlərində xalq təsərrüfatı üçün mühüm əhəmiyyətə malik olan obyektlərin tikilməsinə də başlanıldı. O dövrdə qazanılan nailiyyətlərdən biri də SSRİ sərhəd dəstələri arasında Naxçıvan sərhəd dəstəsinə aid III Kərimbəyli sərhəd zastavasının imperiyanın sərhəd qoşunları tarixində "ilk adlı sərhəd zastavası oldu. Onu da vurğulamaq yerinə düşər ki, Çin ilə Naxçıvanı birləşdirən heç bir sərhəd xətti mövcud deyil. Sadəcə, olaraq həmin dövrdə yüksək vəzifədə çalışan ulu öndər ölkəmizin gələcəyini düşünərək bütün vasitə və imkanlardan maksimum istifadə etməyə səy göstərir və bunun üçün də böyük əhəmiyyəti olan əməli tədbirlərin həyata keçirilməsinə ciddi diqqət yetirirdi.

Ümummilli liderimiz siyasi hakimiyyətdən istefa verdikdən sonra bütün sahələrdə olduğu kimi, sərhəd mühafizəsinin təşkili sahəsində də görülən işlər yarımçıq qaldı. Müstəqilliyinə qovuşanda isə nankor qonşumuz Ermənistan tərəfindən ölkəmizin elan edilməmiş müharibəyə cəlb olunması o dövrdə sərhəd mühafizəsini tamamilə yaddan çıxardı. 70-80-ci illərdə çox böyük uzaqgörənliklə Azərbaycanın müstəqillik tarixi üçün müxtəlif sahələr üzrə ümummilli liderimizin hazırladığı kadr potensialından sərhəd xidmətində lazımi qədər istifadə olunmadı.

Ölkəmizin belə bir ağır vəziyyətində Naxçıvana gələn ümummilli liderimiz 1991-ci ildə Ali Məclisin Sədri seçildikdən sonra gördüyü ilk iş–ağır müharibə və iqtisadi, eyni zamanda siyasi blokada şəraitində yaşayan muxtar respublikamızı düşdüyü vəziyyətdən xilas etmək, əhalinin təhlükəsizliyini təmin etmək oldu. Naxçıvan Muxtar Respublikasının suverenliyini və ərazi bütövlüyünü müdafiə etmək üçün Azərbaycan Respublikası Ali Sovetinin 30 avqust 1991-ci il tarixli "Azərbaycan Respublikasının dövlət müstə-

qilliyini bərpa etmək haqqında" bəyannaməsinə və Azərbaycan Respublikası Prezidentinin 5 sentyabr 1991-ci il tarixli fərmanına əsaslanaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qərara aldı ki, Naxçıvan Muxtar Respublikasının Dövlət Milli Müdafiə Komitəsi yaradılsın. Ali Məclisin qanunvericilik və hüquq mühafizəsi məsələləri komissiyasına isə tapşırıldı ki, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti ilə birlikdə Naxçıvan Muxtar Respublikası Milli Müdafiə Komitəsinin statusu, strukturu və təşkili qaydası haqqında Naxçıvan Muxtar Respublikası qanununun layihəsini hazırlasın və Ali Məclisin sessiyasının müzakirəsinə versin. Beləliklə də ümummilli liderimizin təşəbbüsü və rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikası Milli Müdafiə Komitəsi yaradıldı ki, bununla da Naxçıvanda möhkəm nizami ordunun təməli qoyuldu.

Naxçıvanda yerləşən 41-ci sərhəd dəstəsinin ləğv olunması və bütün əmlakının muxtar respublikada saxlanılması məsələsi də ümummilli liderimizin adı ilə bağlıdır. Həmin dövrdə ulu öndərimiz Rusiya Federasiyasının, o cümlədən Rusiya Sərhəd Qoşunları Baş İdarəsinin rəhbərləri ilə danışıqlar apararaq bu məsələnin Azərbaycanın xeyrinə həll edilməsinə çalışırdı. Çünki Azərbaycan müstəqil dövlət olduğundan həmin sərhəd dəstəsinin bundan sonra fəaliyyət göstərməsinə–İran İslam və Türkiyə Respublikaları arasında dövlət sərhədinin mühafizə funksiyasını həyata keçirməsinə ehtiyac qalmamışdı. Ümummilli liderimizin apardığı danışıqlar nəticəsində həmin sərhəd dəstəsi ləğv edilərək onun bütün hərbi texnikası–silah-sursatları, mühafizə istehkam qurğuları və əmlakı Azərbaycan Respublikasının I Sərhəd Dəstəsinə verildi ki, bu da sərhədlərin mühafizəsinə etibarlı təminat oldu. Ancaq həmin dövrdə bütün bunlar heç də asan başa gəlmirdi. Belə ki, Moskva Naxçıvan sərhəd dəstəsinə məxsus olan silah-sursatı, hərbi texnikanı asanlıqla Azərbaycanda qoyub getmək istəmədiyindən 1992-ci ilin avqust-sentyabr aylarında Kremldən bir-birinin ardınca

yüksək rütbəli zabitlər Naxçıvana gələrək burada danışıqlar aparırdılar. Rus generalları nəyin bahasına olursa-olsun Naxçıvandan silahların 50 faizini aparmaq istəyirdilər. Buna səbəb Azərbaycana o dövrdə rəhbərlik edən naşı liderlərin ölkəmizdə olan bütün hərbi əmlakın yarı bölünməsi haqqında Rusiya ilə müqavilə imzalaması idi. Təbii ki, bu da düzgün yanaşma hesab edilmirdi. Ona görə ki, ölkəmizin ərazisində yerləşən hərbi texnika xalqımızın alın təri hesabına alınmışdı və Sovetlər Birliyi dağıldığından onların hamısı Azərbaycanda qalmalı idi. Digər bir tərəfdən də, hərtərəfli blokada şəraitində yaşayan və yalnız Allahın ümidinə qalan Naxçıvandan silah-sursatın tam yarısının çıxarılması olduqca təhlükəli idi. Çünki ermənilər Naxçıvanın çıxılmaz vəziyyətindən istifadə edərək bu qədim oğuz-türk yurduna bir-birinin ardınca silahlı basqınlar edirdilər. Onların məqsədi Naxçıvanı işğal etmək idi.

Buna görə də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində çalışan ümummilli liderimiz o vaxtkı iqtidarın bağışlanmaz səhvinin qarşısını qətiyyətlə aldı. Uzun sürən danışıqlardan sonra sentyabrın 29-da Naxçıvan sərhəd dəstəsində təhvil-təslim prosesinin rəsmi imzalanması mərasimi oldu və Azərbaycanın digər regionlarından fərqli olaraq rus sərhədçiləri özləri ilə heç nə götürmədən muxtar respublikamızı tərk etdilər. Həmin gün Azərbaycan Silahlı Qüvvələri tarixində ilk dəfə olaraq üçrəngli bayrağımız Heydər Əliyevin göstərişi və iştirakı ilə Naxçıvan sərhəd dəstəsində qaldırıldı. Bu tarixi hadisədən sonra Naxçıvanda sərhəd xidmətinin formalaşmasında çox ciddi işlər həyata keçirildi.

1992-ci il oktyabrın 18-də isə Azərbaycan Sərhəd Qoşunlarının I Naxçıvan Sərhəd Dəstəsində gənc əsgərlərin ilk andiçmə mərasimində ümummilli liderimiz əsgər və zabitlər qarşısında çıxış edərək onlara bu şərəfli yolda uğurlar arzuladı: "Siz müstəqil Azərbaycanın sərhədlərinin toxunulmazlığını, respublikamızın ərazi bütövlüyünü təmin

edən sərhəd qoşunları sıralarında xidmət etməyə başlayırsınız. Siz indi müstəqil Azərbaycan dövlətinə sədaqətlə xidmət etmək andı içdiniz. Bu and müqəddəs anddır. Azərbaycan xalqının son 70 ildə xidmətə gedən oğulları daim Sovet ordusuna, Sovet dövlətinə sədaqətlə xidmət edəcəklərinə and içirdilər. Bu, o dövrün xarakterik cəhəti idi. İndi isə bizim üçün ən şərəfli, ən xoşbəxt an ondan ibarətdir ki, Azərbaycan müstəqil dövlət olub, Azərbaycan xalqı öz milli azadlığına nail olub və indi müstəqil dövlətin atributlarını yaratmaqla məşğuldur. Bu baxımdan ən mühüm sahə–Sərhəd Qoşunlarının yaradılması prosesi gedir...".

1993-cü ildə xalqın tələbi ilə ikinci dəfə Azərbaycanda siyasi hakimiyyətə qayıdan ümummilli liderimiz sərhəd qoşunlarındakı vəziyyəti normallaşdırmaq, maddi-texniki bazanı möhkəmləndirmək, sərhəd qoşunlarının fəaliyyətini genişləndirmək üçün bir sıra fərman və sərəncamlar imzaladı. Dahi siyasətçinin 2002-ci il iyul ayının 31-də imzaladığı "Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin yaradılması haqqında" fərmanı ilə Sərhəd Qoşunları Milli Təhlükəsizlik Nazirliyinin tabeliyindən çıxarılaraq ayrıca bir qurum kimi–Dövlət Sərhəd Xidməti adı ilə fəaliyyət göstərməyə başladı. Bu tarixi fərmanla Azərbaycan öz sərhədlərinin toxunulmazlığına, təhlükəsizliyinə tam təminat yaratmağa qadir olduğunu təsdiqlədi.

Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, ölkə başçısı İlham Əliyev tərəfindən də bu qurumun inkişafına, Avropa standartları səviyyəsinə yüksəldilməsinə böyük diqqət və qayğı göstərilir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin 14 yanvar 2004-cü il tarixidə imzaladığı fərman ilə I "Naxçıvan" Sərhəd Diviziyası yaradılmış, diviziyanın maddi-texniki bazası gücləndirilmiş, şəxsi heyətin məişət şəraiti daha da yaxşılaşdırılmış, burada geniş quruculuq işləri aparılmış, əsgər və zabitlərə, onların ailələrinə lazımi dövlət qayğısı göstərilmişdir. Sərhəd Diviziyasında müasir tələb-

lərə cavab verən Qərargah binası, zəruri avadanlıqlarla təchiz edilmiş 51 çarpayılıq xəstəxana, 1000 yerlik ikimərtəbəli yeməkxana, Şərur komendantlığında Qərargah binası, 300 yerlik əsgər yataqxanası, 350 yerlik əsgər yeməkxanası, hamam-çamaşırxana kompleksi, zabit ailələri üçün yaşayış binası və digər sosial obyektlər istifadəyə verilmişdir. Dövlət başçısının 2004-cü il 30 iyul tarixli sərəncamı ilə Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının və mülki şəxslərinin aylıq vəzifə maaşları 1,5 dəfə artırılmış, hərbi qulluqçuların bəzilərinə ali hərbi rütbələr verilmiş, xidməti vəzifələrini yerinə yetirərkən əldə etdikləri yüksək uğurlara görə bir sıra hərbi qulluqçular orden və medallara layiq görülmüşlər.

Ölkə Prezidentinin 15 avqust 2006-cı il tarixdə imzaladığı sərəncamla Sərhəd Xidmətinin hərbi qulluqçularından 2 nəfərə general-mayor hərbi rütbəsi verilmiş, həmçinin xidməti vəzifələrini layiqincə yerinə yetirdikləri üçün 2 nəfər "Vətənə xidmətinə görə" ordeninin III dərəcəsi ilə, 1 nəfər "Vətən uğrunda" medalı ilə, 37 nəfər isə "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilmişlər.

**R.İ. 18.VIII.2006**

## Milli qəhrəmanlarımız
## Elimizin qəhrəman oğlu

Yusif Mirzəyev müstəqil Azərbaycanımızın igid oğullarından biridir. Torpaqlarımızın bütövlüyü uğrunda mübarizədə şəhidlik zirvəsinə ucalıb. O, Naxçıvanda, daha doğrusu Kəngərli rayonunun Böyükdüz kəndində doğulub boya-başa çatsa da, Ağdərə uğrunda gedən döyüşlərin iştirakçısı olub. Ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb. Bir vaxtlar yaşadığı Baki şəhərindəki Nəsimi rayonu 44 saylı orta məktəbə onun adı verilib. Məktəbin həyətində ucaldılmış əzəmətli büstü isə burada təhsil alan yeniyetmə və gənclərin and yerinə çevrilib. Mən də o məktəbin məzunlarından biriyəm. Bu günlərdə Naxçıvan şəhərindəki Xatirə Muzeyində, Yusif Mirzəyevlə bağlı eksponatlarla tanış olarkən yenidən onun haqqında yazmaq istəyi keçdi ürəyimdən...

Yazıçı Anarın ölümlə bağlı belə bir fikri var: "İnsanlar ölərkən birdəfəlik ölmürlər, tamam yox olmurlar, nə qədər ki, onları xatırlayan, onların səslərini, sifətlərini yaddaşında saxlayan adamlar durur, bu ölənlər də hələ yaşayırlar– fikirlərdə, xəyallarda, təsəvvürlərdə yaşayırlar". Bu, həqiqətən də belədir. Millət üçün, xalqı üçün yaşayan, Vətən uğrunda şəhid olanlarsa ölümündən sonra nəinki doğmalarının, minlərin, milyonların, bütövlükdə xalqın yaddaşında əsrlər boyu, nəsildən-nəslə əbədi olaraq yaşayırlar. Haqqında söhbət açacağım qəhrəman da qanının qaynayıb coşan çağında mübarizə meydanlarına, odlu-alovlu döyüşlərə atılaraq xalqının gələcəyi, ölkəsinin ərazi bütövlüyü naminə vuruşmuş və ağır döyüşlərin birində düşmən gülləsinə tuş gələrək gözlərini bu həyata яbяdИ yummuşdur. Öz ölümü ilə şəhidlik zirvəsinə ucalmış, milyonların qəlbində əsl qəhrəmana çevrilmişdir.

Yusif Vəli oğlu Mirzəyev 1958-ci ildə indiki Kəngərli

rayonunun Böyükdüz kəndində dünyaya göz açıb. Orta təhsilini başa vurduqdan bir müddət sonra digər yaşıdları kimi o da hərbi xidmətə yollanıb. 1978-ci ildə hərbi xidmətini Rusiyanın Çita şəhərində başa vuraraq doğma yurduna qayıtmış, Naxçıvanda poçt şöbəsində işləmişdir. Ali təhsil almaq arzusu Yusifdə böyük olduğundan sənədlərini o zamankı Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna verib. İmtahanlara ciddi hazırlaşdığından arzusuna çatıb. Hələ ali məktəbin sonuncu kursunda oxuyarkən Bakı Mərkəzi Əmanət Bankında baş müfəttiş vəzifəsinə işə götürülüb. İşlədiyi kollektivdə çox ciddi, işinə məsuliyyətlə yanaşan bir gənc kimi tanınan Yusif qısa zaman ərzində hər kəsin hörmətini də qazanmağa müvəffəq olub.

Ötən əsrin 80-ci illərinin sonundan etibarən Azərbaycanda geniş vüsət alan azadlıq hərəkatı, imperiyanın buxovlarından qurtulmaq istəyi bir vətənpərvər gənc kimi Yusifi də özünə cəlb edib. Anası Rəfiqə xanım dəfələrlə buna görə oğlunu danlasa da, Yusifi yolundan döndərə bilməyib. Sovet qoşunları paytaxtımıza yeridiləndə də Yusif əqidədaşları ilə birlikdə olub. Əliyalın, günahsız insanların qətlinə etiraz edib. Elə buna görə də sevdiyi işindən məhrum olub. Sonra isə xalq hərəkatında iştirakına və 20 Yanvar faciəsindəki fəaliyyətinə görə Bakı şəhər komendantı tərəfindən həbs edilib. Bir həftə beton döşəməli soyuq kamerada saxlanılan Yusifə olmazın işgəncələr verilib. Millətimizin qanına susamış rus cəlladları hər gün kameraya gələrək Yusiflə bərabər orada saxlanılan gəncləri döyür, təhqir edir, mənəvi və fiziki cəhətdən onları sındırmağa çalışırdılar. Lakin öz vətənlərini azad görmək eşqi onların dizlərinə təpər, qollarına qüvvət verib. Hər dəqiqəsi ölüm qoxuyan taleyin bu amansız sınağı Yusifi qorxutmayıb. Bu bir həftə ərzində isə Yusifin ailəsi ondan xəbər tuta bilməyib. Paytaxtda baş verənləri radioda eşitdikcə gözləri yolda qalan Rəfiqə ananın ürəyindən qara qanlar axıb. Hər dəfə fikirləşib ki, yoxsa...

Amma bu yoxsaların dalını gətirməkdən çəkinib. Nəhayət, bir həftədən sonra çəkdiyi əzabları xarici görünüşündə də yaşadan Yusif ailəsinə–anasının, həyat yoldaşının və atasının yolunu gözləyən balaca Nurlanənin yanına qayıdıb. Sağ-salamat qayıtmasına bütün ailəsi sevinib. Hətta, qurban da kəsilib. Elə hesab ediblər ki, bundan sonra Yusif onlardan ayrılmayacaq. Ancaq torpaqlarımıza edilən erməni təcavüzü onun vətən eşqilə döyünən ürəyini daim narahat etdiyindən 1991-ci ilin noyabrında könüllü olaraq cəbhəyə yollanıb. İnstitutda oxuyarkən hərbi kafedrada təhsil aldığına görə cəbhədə baş leytenant kimi fəaliyyətə başlayıb. Batalyon komandirinin təchizat üzrə müavini olub. Əsas vəzifəsi ön cəbhəni silah-sursat, yanacaq və ərzaqla təmin etmək olmasına baxmayaraq, o, bir sıra döyüş əməliyyatlarında da iştirak edib. Özünü Azərbaycanın istiqlal əsgəri hesab edən Yusif Tərtər, Goranboy, Ağdərə, Marquşavan, Sərsəng, Aterk və onlarla yaşayış məntəqələrinin yağılardan təmizlənməsində qəhrəmanlıq göstərərək əsl türk igidi olduğunu təsdiqləyib.

1992-ci ilin sonlarında Ağdərə uğrunda gedən döyüşlərin birində yaralansa da, ailəsinə bildirməyib. Sağaldıqdan sonra təkrar cəbhəyə yollanıb. Ağdərənin 17 kəndinin ermənilərdən boşaldılmasında isə xüsusi qəhrəmanlıq nümunəsi göstərib. 14 nəfər silahdaşı ilə mühasirəyə düşən Yusif gərgin vəziyyətdən çıxmaq üçün fənd işlətməli olub. Ratsiya vasitəsi ilə aparılan danışıqların ermənilər tərəfindən izləndiyini hiss edən Yusif tez-tez qərargahla rabitə əlaqəsi saxlayaraq 140 nəfər Azərbaycan əsgərinin gözləmə mövqeyində dayandığını, əgər düşmən geri çəkilməzsə, hücuma keçəcəklərini silahdaşlarına çatdırıb. Bu məlumatı ciddi qəbul edən erməni yaraqlıları tədricən tutduqları mövqedən geri çəkilməyə başlayıblar. Mühasirənin səhərisi gün Yusifgilə silah-sursat yardımı gətirənlər burada 140 deyil, cəmi 14 nəfərin olduğunu görüb təəccüblənirlər. Baş verənləri öyrəndikdən sonra onlara aydın olub

ki, Yusif qərargaha belə bir məlumatı verməklə, düşmənə kələk gəlib mühasirəni yararaq hamının həyatını xilas edib. Elə bunun kimi bir çox hərəkətlərinə görə, o zaman batalyon komandiri vəzifəsini icra edən Nəcməddin Sadıqov Yusif Mirzəyevə Azərbaycanın Milli Qəhrəmanı adı verilməsi üçün Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə raport yazır. Beləliklə də Yusif hələ sağ ikən Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülən yeganə zabit olur. Lakin o zaman səbatsız bir riyaziyyat müəlliminin rəhbərlik etdiyi Müdafiə Nazirliyində naməlum səbəblər üzündən Yusif Mirzəyevin sənədləri "itirilir". Ancaq buna baxmayaraq, hamı Yusifi milli qəhrəman kimi tanıyır. O isə təvazökarlıq mövqeyindən çıxış edərək özünü qəhrəman hesab etməyib.

Bir dəfə Azərbaycan Dövlət Televiziyasının hərbi jurnalisti Şəmistan Əlizamanlı çəkiliş zamanı ona belə bir sual verir:–Sən milli qəhrəman kimi özünü necə hiss edirsən?

O isə cavabında belə deyir: –Nə qədər ki, Azərbaycan torpaqları işğal altındadır, nə qədər ki, ana-bacılarımızın gözünün yaşı qurumayıb, mən özümü milli qəhrəman hesab edə bilmərəm.

1993-cü il fevralın 19-da Vəng kəndinin daşnak törtöküntüsündən təmizlənməsi zamanı düşmən gülləsinə tuş gələn Yusif Mirzəyev aldığı ağır yaradan dünyasını dəyişib. Öz ölümü ilə şəhidlik zirvəsinə ucalan bu igid döyüşçü milyonların qəhrəmanlıq timsalına çevrilib.

**R.İ. 20.I.2007**

## Dövlətçiliyimizin əsas atributlarından biri olan ana dili təbliğ olunmalı, etnik-siyasi faktora çevrilməlidir Müsahibimiz AMEA Naxçıvan Bölməsi Dil, Ədəbiyyat və İncəsənət İnstitutunun direktoru, filologiya elmləri doktoru, professor Əbülfəz Quliyevdir

Soykökümüzün və kimliyimizin pasportu sayılan doğma dilimiz çox qədim tarixə malik olmaqla, xalqımızın mənəvi sərvəti, varlığı, milli kimliyidir. Qədim zamanlardan üzübəri şumer, hun, türk dili kimi müxtəlif adlar altında mövcud olmuş bu dil VI-VIII əsrlərdə rəsmi dil kimi də fəaliyyət göstərmişdir. Dədə Qorqud dastanlarının da qələmə alındığı Azərbaycan ümumxalq dili XIII-XIV əsrlərdə İzzəddin Həsənoğlunun, Nəsiminin əsərlərində daha da püxtələşmiş və cilalanmışdır. Fateh babamız Şah İsmayıl Xətainin, ilahi şairimiz Məhəmməd Füzulinin əsərlərində isə Azərbaycan ədəbi dili kamala çatmış, zəngin bir klassik poeziya dili olmuşdur. XVI-XVII əsrlərdən etibarən Qurbani, Xəstə Qasım, Tufarqanlı Abbasla başlayan folklor dili XVIII əsrdə Vaqif və Vidadinin simasında şifahi ədəbi dillə yazılı ədəbi dilin yaxınlaşmasına təkan vermişdir. XIX əsrdə isə mətbuatın yaranması, qəzet dilinin ortaya çıxması ilə kütləviləşən bu dil barədə daha ətraflı məlumata malik olmaq üçün AMEA Naxçıvan Bölməsi Dil, Ədəbiyyat və İncəsənət İnstitutunun direktoru, filologiya elmləri doktoru Əbülfəz Quliyevlə görüşüb söhbət etdik.

**–Əbülfəz müəllim, bir türkoloq alim kimi türk dilləri ailəsində Azərbaycan dilinin rolunu necə dəyərləndirirsiniz?**

–Dünya dilləri içərisində türk dilləri ailəsinin özünəməxsus yeri var. Bu dildən yer üzündə 300 milyona qədər insan istifadə edir. Türk dillərinin özünəməxsus quruluşu

var. Vahid türk dilinin nüvəsi, əsas lüğət fondu və qrammatik quruluşu o qədər sabit və çevikdir ki, bu ailəyə daxil olan müasir dillər bir-birinə çox yaxındır və türk sistemli dillərin nümayəndələri bir-birini bu və ya başqa şəkildə anlayır. Onu da qeyd etmək lazımdır ki, bu ailədə ən çox Azərbaycan və Türkiyə türkcəsi inkişaf etmiş, zəngin dünya dillərinə çevrilmişdir. Son dövrlərdə beynəlxalq aləmdəki vəziyyətin dəyişməsi ilə əlaqədar türk xalqları və dillərinin yaxınlığı, əlaqələri məsələləri də gündəmə gəlmişdir. Bu hadisələrin fonunda müasir türkologiyanın əsas problemlərindən biri ortaq türk ünsiyyət dilinin yaradılmasından ibarətdir. Doğrudur, bir çoxları bu vəzifəni Türkiyə türkcəsinin yerinə yetirəcəyini düşünürlər. Amma türk ədəbi dilinin əsaslandığı İstanbul şivəsi müxtəlif amillərin təsiri ilə türk dünyası üçün az qala anlaşılmaz olan bir vəziyyətə düşmüşdür. Eyni zamanda, ərəb-fars mənşəli sözlərə "müharibə elan edib" onların yerinə son dövrlərdə qərb heyranlığının təsiri ilə çox zaman gərək olmadan Avropa mənşəli sözlər türk dilində meydan sulayır. Türk dilinə o qədər süni surətdə yeni sözlər daxil edilmişdir ki, bunlar dilə ağırlıq gətirmişdir. Məsələn, türk alimləri özləri də etiraf edirlər ki, Avropa dillərindən alınmış "layik" (layik devlet) yerinə dünyəvi, "anahtar" yerinə "açar" sözünü alıb işlətmək çox uğurlu olardı. Belə nümunələr onlarladır. Bizcə, ortaq türkcə vəzifəsini yerinə yetirə biləcək əsas ünsiyyət vasitəsi Azərbaycan dili ola bilər. Çünki bu dil qərb türklərinə də, şərq dillərinə də eyni məsafədədir. Həm də Azərbaycan dili digər türk dilləri ilə müştərək xüsusiyyətlərini qoruyub saxlaya bilmişdir.

**–Təxminən 200 ilə yaxın dövrdə Azərbaycan müxtəlif dövlətlərin istilasına məruz qalıb. Belə bir hal doğma dilimizə, onun əlifbasına nə dərəcədə təsir edib?**

–Son iki yüz il ərzində Qafqazda, o cümlədən də Azərbaycanda baş verən siyasi hadisələr dilimizə təsirsiz

ötüşməyib. Hələ XIX əsrin əvvəllərində Qasım bəy Zakir rus çarizminin işğalçılıq siyasətindən şikayət edərək işğalçıların əhali ilə kobud rəftarını və onların dilini lağa qoyaraq belə yazırdı:

Nə qədər varındı iznakom, sadis
Elə ki qurtardı paşol filankəs

1828-ci ildə Türkmənçay müqaviləsi ilə Azərbaycanın ikiyə bölünməsi və ölkənin şimalının rus işğalına məruz qalması millətin taleyinə də təsirsiz qalmadı. Tale elə gətirdi ki, Azərbaycanın şimalı qərbyönümlü dəyərlərə üstünlük verməyə başladı. XIX əsrin sonlarından etibarən daha da kütləviləşən dilimizdə rus və Avropa ünsürləri də artmağa başladı ki, bu da dildə ağırlıq əmələ gətirir, ana dilinin söz yaratma imkanlarının azalmasına səbəb olurdu. Əlifba məsələsinə gəlincə, yazı dilin inkişafında mühüm rol oynayan, onun funksiyalarının genişlənməsinə yardım edən vasitələrdəndir. Bizim minillik ədəbiyyatımız, mədəniyyətimiz ərəb əlifbası ilə yazılmışdır. Bu yazının bütün müsbət xüsusiyyətləri ilə yanaşı, qərbyönümlü xalqımızın kütləvi maariflənməsi də əlifbanın dəyişməsini zəruri etmişdi. Ona görə də XX əsrin 20-ci illərindən geniş hazırlıq işləri aparmaqla 1929-cu il yanvarın 1-dən etibarən Azərbaycanda elliklə latın qrafikasına keçildi. Bu hərəkat özlüyündə müsbət hal idi. Amma sovet rəhbərliyi bu addımla həm də türk dünyasının birliyini parçalamaq və gələcəkdə Sovet İttifaqındakı türkmənşəli xalqları ruslaşdırmaq istəyirdi. Bunun üçün də latın qrafikasını kiril əlifbasına

keçirmək üçün münbit zəmin formalaşdırırdı. Çox keçmədi ki, bu, belə də oldu. Heç on il keçməmiş 1940-cı il yanvarın birindən Sovet İttifaqındakı türk xalqları kütləvi surətdə heç bir hazırlıq görülmədən Stalinin əmri ilə məcburi surətdə kiril əlifbasına keçirildi. İlk vaxtlar rus əlifbasındakı hərfi işarələrin çox hissəsi qəbul olundu. Amma bu işarələrin bir çoxu Azərbaycan dilinin səs quruluşuna heç cür uyğun gəlmədiyi üçün 1947 və 1958-ci illərdə Azərbaycan kiril əlifbasında islahat aparılaraq bir sıra hərfi işarələr bu əlifbadan çıxarıldı. Tarixi həqiqət bir də 60 ildən sonra bərpa edildi. Ümummilli liderimiz Heydər Əliyevin sərəncamı ilə 2001-ci il avqustun 1-dən etibarən yenidən latın qrafikası bərpa olundu.

**–Etiraf etməliyik ki, 70 illik Sovetlər Birliyi dövründə ədəbiyyatımız özünəməxsus bir inkişaf yolu keçib. Deyə bilərsinizmi, bu inkişaf dilimizə nə dərəcədə təsir göstərib?**

–Doğrudur, özünü fəhlə-kəndlilərin hüquqlarının müdafiəçisi elan edən bolşevik hökuməti illərində türk birliyini yox etmək məqsədilə milli ədəbiyyat və milli dilimizi ortaya qoymaq üçün bəzi addımlar atılmışdır. Sovet hökumətinin başçıları xalqlara, onların dilinin, mədəniyyətinin inkişafına şərait yaradılacağı barədə vədlər verirdilər. Amma sonra bu vədlər elə söz olaraq qaldı və dilimizin istifadə dairəsi vaxt ötdükcə məhdudlaşdırmalara məruz qaldı. Bir faktı yada salmaq kifayətdir ki, Azərbaycan xalqının yazısını Stalin hakimiyyəti iki dəfə dəyişməyə məcbur etdi. Təkrar edirəm ki, Azərbaycan dili 70 il ərzində bəzi uğurlar qazanmasına

baxmayaraq, həm də çox ciddi təsir və təzyiqlərə məruz qalmışdır. Belə ki, dövrün elmi, siyasi, diplomatik sənədləri Azərbaycan dilində yazılmır, bu dildə daha çox bədii əsərlər qələmə alınırdı. Ona görə də bütövlükdə bədii üslub inkişaf edirdi. Ədəbi dil anlayışı da məhz bu üsluba görə formalaşmışdı. Rus dilinin hökmranlığı Azərbaycan dilinin inkişafına mane olurdu.

Təsadüfi deyildir ki, hələ keçən əsrin 20-ci illərində N.Nərimanov təəssüf hissilə yazırdı ki, "dərdini demək üçün Baksovetə gələn türk kəndlisini burada türkcə dinləyən bir adam tapa bilməzsən...".

Sovet dövlətində formaca milli, məzmunca sosialist mədəniyyətinin çox güclü təbliğatı gedirdi. Formaca milli, məzmunca sosialist mədəniyyətinin dili şübhəsiz ki, rus dili olmalı idi. Ona görə də bu konsepsiya bir milli dil kimi Azərbaycan dilinin yayılması, genişlənməsi və zənginləşməsi qarşısında ciddi çətinliklər yaradırdı

Sovet dövründə Azərbaycan dili öz adında milli, mədəni və etnik-psixoloji təsəvvürlər canlandırsa da, bu dil vahid dövlət dili səviyyəsində işlədilmirdi. Respublikada ikinci ana dili elan edilən rus dili əslində aparıcı yer tuturdu. Rus dili əhatəsində Azərbaycan dilinin nüfuzlu bir dil kimi inkişaf etməsi və formalaşması prosesi bir sıra maneələrlə rastlaşmışdı. Azərbaycan dilində mətbuat, məktəb, radio, televiziya və digər informasiya vasitələri olsa da, bu dilin nüfuzu respublikadan kənarda görünmürdü. Bundan əlavə, dilimizə məcburi şəkildə rus dilindən çoxlu sözlər daxil olurdu.

Yeni anlayışların ifadəsi üçün Azərbaycan dilinin daxili imkanları vasitəsilə sözlərin yaranması bunlarla müqayisədə çox azlıq təşkil edirdi. Əsas informasiya vasitəsi rus dili olduğu üçün Azərbaycan şifahi dili ilə yazılı dili arasında norma bərabərliyi yaratmaq qeyri-mümkün olmuşdu. Şifahi dil yazılı dil ilə yaxınlaşa bilmədiyi üçün şifahi nitq vasitəsilə çevik təfəkkür yaradıla bilmirdi. Ona görə də bir çox hallarda hətta ən ziyalı adamlar belə şifahi yolla hər hansı bir iş və hadisə barədə danışmaqda, təhlil aparmaqda çətinlik çəkərək kağız vasitəsilə danışmağa üstünlük verirdilər. Azərbaycan dilinin hətta respublika daxilində dövlət dili kimi işlədilməsi mərkəzi hökumət üçün maraqlı deyildi. Təsadüfi deyildir ki, Azərbaycan dilli məktəb şəbəkəsinin fəaliyyət dairəsi get-gedə məhdudlaşmaqda, az qala belə məktəblər bağlanmaq təhlükəsi qarşısında qalmaqda idi. Məsələn, XX əsrin 70-ci illərində respublikanın paytaxtı Bakı şəhərindəki əhalinin sıx yaşadığı və XV əsrin görkəmli Azərbaycan şairinin anadan olmasının 500 illiyi münasibətilə adını ümummilli liderimiz Heydər Əliyevin verdiyi Nəsimi rayonunda yalnız bir Azərbaycan məktəbi fəaliyyət göstərirdi.

Bu dövrdə doğma dilimizin inkişafı yalnız ulu öndərimizin böyük əməyi sayəsində mümkün olmuşdur. Belə ki, ümummilli liderimiz doğma dilimizin nüfuzunu qaldırmaq, ona işləklik qazandırmaq, onun dövlət dili kimi yüksək bir statusa sahib olmasını təmin etmək istiqamətində hakimiyyətə gəldiyi ilk günlərdən məqsədyönlü şəkildə fədakarlıqla çalışmağa başlamışdır. İlk dəfə 1969-cu ildə Heydər Əliye-

vin o zamankı Azərbaycan Dövlət Universitetinin yaranmasının 50 illiyi münasibətilə keçirilmiş geniş partiya konfransında doğma ana dilində məruzə etməsi insanların böyük heyrətinə səbəb olmuşdur. Çünki ondan əvvəlki respublika rəhbərləri rəsmi mərasim və məclislərdə adətən rus dilində məruzə və çıxış edərdilər. Bundan bir müddət sonra Azərbaycan Respublikasının rəhbəri Heydər Əliyevin təşəbbüsü və fədakarlığı sayəsində 1978-ci il Konstitusiyasında ilk dəfə Azərbaycan dili dövlət dili kimi rəsmiləşdirilmişdir.

Müstəqillik qazandığımız illərdə isə ulu öndərin əməyi sayəsində dilimizə dövlət dili statusu verilərək onun inkişafı və fəaliyyəti üçün hər cür şərait yaradılmışdır. Bundan başqa, ümummilli liderimiz milli dilimizə ehtiramını ifadə edərək bütün nitqlərində ana dilindən sərbəst şəkildə faydalanaraq yüksək nitq mədəniyyəti örnəyi nümayiş etdirmiş, başqalarına nümunə göstərmiş, həm də nitqində vurğudan yerli-yerində istifadə etmişdir. Bu jestlər dilimizin daha da kütləviləşməsinə şərait yaratmışdır. Hazırda ana dili sevgisi, onun siyasi mənasının dərk olunması vətəndaşlarımızın varlığına hakim kəsilməkdədir.

Mən hesab edirəm ki, bu məsələdə təhsil və mədəniyyət müəssisələrinin üzərinə də böyük məsuliyyət düşür. Dövlətçiliyimizin əsas atributlarından biri olan ana dili təbliğ olunmalı, etnik-siyasi faktora çevrilməlidir. Məsələn, ölkəmizdə ana dilli musiqi hakim olmalıdır. Əgər radio və televiziyada ərəb musiqisi, ərəb mahnısı ifa olunursa bu, dilimizə qarşı hörmətsizlik sayılmalıdır. Dövlətimizin ərazisində icti-

mai yerlərdə, rəsmi məclislərdə əsas ünsiyyət vasitəsi ancaq rəsmi dövlət dili olmalıdır. Milli soyadlarımızın əhatə dairəsinin genişlənməsi də dilimizi dünyanın hər yerində yaşatmağa xidmət edən vasitələrdəndir.

**–Əbülfəz müəllim, son illər ölkəmizin beynəlxalq aləmə inteqrasiya olunması nəticəsində yeniyetmə və gənclər arasında başqa, xüsusilə də ingilis, rus dillərinə maraq hədsiz dərəcədə artıb. Belə bir vəziyyət doğma dilimizə mənfi təsir göstərmir ki? Siz bir ziyalı və dilçi alim kimi bu məsələyə necə baxırsınız?**

–Yeniyetmə və gənclərimizin xarici dillərin, xüsusilə ingilis dilinin öyrənilməsinə maraq göstərməsi çox yaxşı haldır. Bu dilin öyrənilməsi insanın dünyagörüşünü genişləndirir, onun dünyaya açılmasına yardım edir. Amma bu, ana dilinə xor baxmaq hesabına olmamalıdır. İnsan anasını sevirsə, gərək onun dilini də hər şeydən üstün tutsun. Onda insan daha kamil olar. Müdriklər demişkən, başqalarının sənə hörmət etməsini istəyirsənsə, əvvəl özün özünə (milli varlığına, milli dilinə) hörmət et.

Bu məsələ ilə əlaqədar ulu öndər deyirdi: "Xarici dil bilmək əlbəttə ki, lazımdır, vacibdir. Mən arzu edirəm ki, vətəndaşlarımız ingilis dilini də, alman dilini də, türk dilini də, ərəb dilini də, fars dilini də, hətta Çin dilini də bilsinlər. Gənclərimiz nə qədər çox dil bilsələr, bir o qədər zəngin dünyagörüşünə malik olacaqlar. Bu, müasir dünyanın tələblərindəndir. Amma ən əsası ondan ibarətdir ki, hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı öz ana dilini–

Azərbaycan dilini mükəmməl bilməlidir. Gənclərə tövsiyə edirəm ki, əgər kiminsə bu barədə çatışmazlığı varsa, çalışsın, bunu aradan qaldırsın. Xarici ölkələrdə təhsil alarkən, həmin ölkələrin dilini öyrənərkən, eyni zamanda, başqa dilləri öyrənərkən öz dilinizi heç vaxt unutmayın və ana dilinizi heç bir başqa dilə dəyişməyin. Xalqın, millətin, insanın öz ana dilindən əziz heç bir şeyi ola bilməz".

Biz bu gün gənc nəslə vətənpərvərlik, qəhrəmanlıq, mərdlik kimi yüksək keyfiyyətləri aşılamaqla yanaşı, həm də dövlətə, dövlətçiliyimizə, onun ulu öndərinə, tariximizə, dilimizə, ədəbiyyatımıza, mədəniyyətimizə məhəbbət hissi aşılamağa ciddi diqqət yetirməliyik.

**R.İ.21.II.2007**

**Nuh peyğəmbər bəşəriyyətin atası hesab edilir. Onun dünya tufanından sonra Naxçıvanda yaşaması və burada dəfn olunması barədə gedən söz-söhbətlər də elmi dəlillərə əsaslanır. Müsahibimiz AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktor müavini, filologiya elmləri namizədi Firudin Rzayevdir**

**–Firudin müəllim, istərdim ki, söhbətimizə dünya tufanı ilə bağlı danışmaqla başlayaq. Həqiqətənmi tarixdə belə bir hadisə baş verib?**

–Dünya tufanı haqqında əfsanələr təkcə Naxçıvanda deyil, bütün türk tayfalarının, yəni Orta Asiya, Altay, Sibir türklərinin də folklorunda mövcuddur. Hətta Hindistan və Çin xalqlarının əfsanələrində də bu tufan barədə söhbət açılır. İki cilddən ibarət olan "Dünya xalqlarının mifi" kitabında az qala bütün nağıllarda bu tufan barədə əfsanələr söylənilir. Ancaq hər bir xalqın əfsanəsində dünya tufanına fərqli yöndən yanaşılır. Məsələn, Azərbaycan türk mifologiyasında hər hansısa bir təndirdən su çıxması ilə dünya tufanının olacağı barədə Nuha əvvəlcədən xəbər verilir. Çin qaynaqlarında bu xəbərdarlıq balıqla əlaqələndirilir. Ümumən götürdükdə isə baş verən bu hadisənin müxtəlif variantlarda süjet xətti eynidir. Belə ki, tufan başlayır, gəmi qalxır suyun üzərinə, müəyyən məsafə getdikdən sonra dayanır və Nuhun sayəsində bəşər nəslinin təməli yenidən qoyulur. Bu barədə Bibliyada, Tövratda, İncildə və Qurani-Kərimdə də ətraflı məlumat verilir. Ancaq Bibliyada, Tövratda və İncildə tufan haqqında məlumat verilərək qeyd olunub ki, gəmi uzun müddət üzdükdən sonra Ararat dağına

oturur. Lakin bu barədə dəqiq fakt həmin kitabların heç birində göstərilməyib. Yəni bu kitabların birində gəminin Araratın zirvəsində, digərində dağın ətəyində, başqa birində isə ikinci Araratda oturması barədə fikirlər səsləndirilir. Bəzi alimlər də gəminin Ağrı dağına oturduğunu qeyd edərək bildirirlər ki, gəminin burada oturmasına səbəb bu ərazinin bərəkətli torpaqlardan ibarət olmasıdır. Ancaq bugünkü müşahidələr onu deməyə əsas verir ki, Ağrı dağının zirvəsinin 160-170 metri daim qarla örtülü olur. Belə olan təqdirdə Nuhun gəmisindəki insanların burada yaşayıb-yaratması, nəsil artırması absurd görünür. Deməli, gəminin oturduğu yeri başqa ünvanda axtarmaq lazımdır. Coğrafiyaşünas alimlər də hesab edirlər ki, eramızdan əvvəl VI minillikdə Nuh tufanı olubdur. Bu zaman ərazidə bir neçə dağ açıq qalıb ki, onların sırasına İlanlı dağ, Ağrı dağı, Kəmki dağı, Gəmiqaya zirvəsi və Cənubi Azərbaycan ərazisində mövcud olan bir sıra dağlar daxildir.

Bu hadisəyə elmi nöqteyi-nəzərdən yanaşan alimlər hesab edirlər ki, yer kürəsində mövcud olan suyun həcmi qədər buludlarda da su vardır. Əgər bu tarazlıq 1 faiz belə pozularsa, o zaman yer kürəsində böyük daşqınlar yaranar. Rus tədqiqatçılarından Kondratev və Vavilov özlərinin "Böyük daşqınlar" adlı kitabında yer üzərində daşqınların ola biləcəyi bütün ehtimalları, yəni su hövzələrinin, buzlaqların həcmini hesablayaraq tam dəqiqləşdiriblər ki, hər 10 min ildən bir tufanın olması labüddür. Tarixdə zaman-zaman baş verən belə daşqınlar nəticəsində 5 mindən artıq şəhər suyun altında qalıb. Misal üçün qeyd edim ki, Səbail şəhəri Xəzər dənizinin altında qalıb.

**–Naxçıvanda Nuhla bağlı nə kimi əlamətlər mövcuddur?**

–Hər şeydən əvvəl qeyd edim ki, Maku vilayəti, Vedi, Ağrı dağ ərazisi, Əlincə qalası, Gəmiqaya, İlanlı dağ və Kəmki dağı vaxtilə Naxçıvanın nəzarətində olan ərazilər olublar. Burada ta qədimdən türklər yaşayıb-yaradıblar.

Məşhur yəhudi tarixçisi İosif Flavi də Naxçıvanı bəşər tarixinin ilk başlanğıc yeri hesab edir. Ümumiyyətlə, araşdırmalar nəticəsində belə qənaətə gəlinir ki, Nuhun gəmisi bu ərazidə quruya enib. "Bilqamıs" dastanında açıq göstərilir ki, gəmini Nisir dağı tutub saxladı. Ancaq heç bir yerdə Nisir dağı yoxdur. Nisir dağı Gəmiqayada Nəsirvaz adlanan ən yüksək zirvədir. Eyni zamanda "Bilqamıs" dastanında bir neçə versiya da var. Məsələn, dastanda qeyd edilir ki, gəmi ulu çayın kənarına endi. Belə götürsək dünya tufanı zamanı Dəclə və Fərat çayları suyun altında qalmışdı. Ancaq həmin dövrdə Gəmiqayadan axan Sakkar-su adlanan çay–eramızdan əvvəl II minillikdə yaşayan və türk tayfası olan Sak ərlərinin çayı var idi. Bu çay hətta Sak tayfalarından əvvəl də mövcud olub. Ehtimal edilir ki, dastanda deyilən ulu çay Sakkarsudur. O ki qaldı Ağrı dağı variantına, burada Nuh tufanı ilə bağlı hər hansı bir əlamət yoxdur. Əgər ilkin insanlar bu ərazidə olsaydı öz təfəkkürlərini, təxəyyüllərini, mifik dünyagörüşlərini hansısa bir qayada əks etdirərdilər.

**–Bəzi tədqiqatçılar Naxçıvan toponimini Nuh peyğəmbərin adı ilə əlaqələndirirlər. Bu barədə nə deyə bilərsiniz?**

–Burada Nuhtaban yer adı olubdur. Bu faktı rus alimlərindən Smirnov və Nikitin ,də öz əsərlərində göstəriblər. Qədim türk dilində «Tau» dağ deməkdir. Bu gün də Altaylarda, Orta Asiyada, Amudərya hövzəsində bu cür səslənən dağ adları vardır. Məsələn, Alatau. «Ban» isə qədim türk dilində uca yer, «varis», «nəsil» mənasını daşıyır. Beləliklə də bizə aydın olur ki, Nuhtabanın mənası uca yerdə yerləşən Nuhun dağı və ya övladı, varisi deməkdir. Bu tam etimologiyaya uyğun olan addır. Bundan başqa, muxtar respublikamızdakı Nehrəm, Nəhəcir inzibati ərazi adlarını, o cümlədən Naxçıvanın özünü də Nuhun adı ilə əlaqələndirirlər. Bu yəqin ki, Nuhun adı ilə bağlıdır. Ancaq bizə məlumdur ki, qədim dövrlərdə Nax tayfaları da olub-

dur.

**–Sizcə, qədim Şumer əfsanəsinin Naxçıvan şəhəri ilə bağlılığı inandırıcıdırmı?**

–İnandırıcıdır. Belə ki, "Bilqamıs" dastanında 2 formada Nuh peyğəmbərin adı çəkilir. Birincidə Untapişti, ikincidə isə Utnapişti. Öz dostunun ölümünü görən Bilqamıs ölmək istəmir və ölümsüzlüyə çatmaq üçün Nuhu–Utnapiştini axtarır. Bilqamıs indiki Naxçıvanın yerləşdiyi əraziyə doğru hərəkət edir və bu zaman onun keçdiyi yerlərin adları çəkilir. Çox qəribədir ki, Bilqamıs keçdiyi ərazilərdə yerləşən hər bir xalqla öz dilində danışır. Bu zaman sual yaranır, o hansı dildə danışır ki, digər dövlətlərdə yaşayanlar onu başa düşürlər. Məsələ burasındadır ki, bu ərazilərin hamısı türk xalqlarının nəzarətində olduğundan türk dilində danışan Bilqamısı hamı başa düşür və ona Untapiştinin yerini tapmaqda köməklik edirlər.

Ümumiyyətlə, Naxçıvan, Nuhtaban, Nəhəcir, Nehrəm adları və Gəmiqaya ətrafındakı ərazi adları Bilqamıs dastanında adıçəkilən toponimlərə uyğundurlar. Məsələn, Ağrı Gəmiqayada zirvə adıdır. Ola bilsin ki, gəmi Ağrı dağda deyil, Ağrı zirvəsində özünə lövbər salıb. Bundan başqa, Gəmiqayada Nuh tufanının dayanmasını və başqa məsələləri göstərən rəsmlər mövcuddur.

**–Bəzi tədqiqatçılar iddia edirlər ki, Nuh peyğəmbər indiki Naxçıvan şəhərinin yerləşdiyi ərazidə məskən salmış, uzun müddət yaşamış və burada dünyasını dəyişmişdir. Bu barədə nə deyə bilərsiniz?**

–Xatırladım ki, rus tədqiqatçılarından Smirnov, Sısoyev və Nikitinin əsərlərində Nuhun türbəsi barədə məlumatlar və türbənin şəkli verilmişdir. Ancaq həmyerlimiz Bəhruz Kəngərli sanki gələcəkdə bu qədim abidənin axtarılacağını bilərək türbənin dörd yandan bütün incəliklərinə qədər şəklini çəkmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri bu türbənin yerinin müəyyənləşdirilməsi barədə sərəncam imzaladı. Bu sərəncamdan yararlanaraq

Naxçıvanın Köhnə qala adlanan ərazisində arxeoloji qazıntılar aparıldı və Nuhun türbəsinin sütunları aşkar edildi. Türbə B.Kəngərlinin çəkdiyi rəsmlərlə eyniyyət təşkil edirdi. Belə ki, rəsmlərdə olduğu kimi, türbənin ortasında Altar daşı aşkar olundu, həmçinin türbədə bucaqların sayının 8 olması və digər əlamətlər öz təsdiqini tapdı. Türbənin içərisində Nuhun qəbrinin olub-olmaması isə artıq arxeoloqların işidir. YUNESKO kimi beynəlxalq təşkilat tərəfindən Nuhun qəbrinin axtarılması barədə qərar verilməlidir. Çünki Nuh peyğəmbər bütün bəşəriyyətin atası sayılır.

**–Firudin müəllim, təbii ki, Ali Məclis Sədrinin Nuh peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsinin bərpa edilməsi barədə imzaladığı sərəncam böyük istəklərdən, amallardan irəli gəlir. Bilmək istərdik, bu sərəncam və onun icrası tariximizdə, o cümlədən mədəniyyətimizdə nə kimi rol oynayacaq?**

–Ali Məclisin Sədri tərəfindən son illərdə bir neçə belə sərəncam verilib. Məsələn, Gəmiqaya təsvirlərinin kompleks tədqiqi. Bu sərəncamdan sonra Gəmiqayaya böyük ekspedisiya təşkil olundu. Bütün elm sahələrindən olan adamlar da orada iştirak etdilər. Böyük simpoziumlar təşkil olundu, kütləvi informasiya nümayəndələrinin də qatıldığı konfranslar keçirildi. Bu tədbirlərə hətta Moskvadan da qonaqlar dəvət olunmuşdu. Bununla yanaşı, Kültəpə abidələrinə yenidən baxış keçirildi, Xarabagilan abidələrinin tədqiqinə yenidən başlanıldı. Nuhun türbəsi ilə bağlı qəbul edilən qərara gəlincə isə bildirim ki, bu, son dövrlərdə Naxçıvan Muxtar Respublikasının tarixinin, etnoqrafiyasının, onamastikasının, milli mədəniyyətinin öyrənilməsi istiqamətində atılan uğurlu addımdır. Hər şeydən əvvəl bu, vətəndaş yanğısından irəli gələn bir sərəncamdır. Bunların Naxçıvan üçün əhəmiyyətinə gəlincə isə qeyd edim ki, regionumuzda aparılan arxeoloji qazıntılar, tapılan maddi və mədəniyyət abidələri bu ərazilərdə ta qədimdən türklərin yaşadığını bir daha sübut edir. Yəni bu mədəniyyət Altay

mədəniyyəti ilə, Skif mədəniyyəti ilə, Manna, Midiya mədəniyyəti ilə üst-üstə düşür. Ümumiyyətlə, Naxçıvanda nə qədər məntəqə adları varsa bunların hamısı türk tayfalarının adları ilə bağlıdır. Bütün bunlar isə öz növbəsində ermənilərin Naxçıvan iddialarına tutarlı cavabdır.

**–Son illər Naxçıvanda tariximizin, mədəniyyətimizin tədqiqi və təbliği ilə bağlı həyata keçirilən tədbirlər torpaqlarımıza göz dikən erməni millətçilərinə tutarlı cavab ola biləcəkmi?**

–Tədqiqatlar aparmağı, elmi nəticələr əldə etməyi hələ ermənilərə verilən tutarlı cavab hesab etmək olmaz. Ən başlıcası bu nəticələri beynəlxalq aləmə çatdırmaqdır. Görün, erməni həyasızlığı nə dərəcəyə çatıb ki, onlar tariximizlə yanaşı, bizim nağıllarımızdakı 3 alma məsələsini də öz adlarına çıxırlar. Ermənilər sübut etməyə çalışırlar ki, 3 alma məsələsi ən qədim erməni nağıl formalarından biridir. Bu azmış kimi mətbəximizə, qədim türk-tayfa adlarımıza sahib çıxırlar. Onların bəziləri iddia edirlər ki, ermənilərin eramızdan əvvəl IV əsrdə, bir qismi iddia edir ki, VII əsrdə, bəziləri isə deyir ki, XII əsrdə dövlətləri olub. Onlar hələ də öz tarixlərini müəyyənləşdirə bilməməklə yanaşı, başqa dövlətlərin tarixini oğurlayaraq özlərinə saxta bir tarix formalaşdırırlar.

**R.İ. 13.IX.2006**

## Zəmanəsinin böyük və qüdrətli oğlu Onun əsərləri zamanın siyasi-iqtisadi, mədəni və elmi həyatının güzgüsü olub

Atası dünyasını dəyişərkən ona zəngin xəzinələrdən qiymətli olan bir vəsiyyət etmişdi: "Təhsilini davam etdir, böyük alimləri axtar, tap, onlardan elm öyrən, onları ətraf vilayətlərdə tapmasan, səyahətə çıx, uzaq ölkələrdə axtar". O da atasının bu vəsiyyətinə sadiq qalaraq səyahətlərə çıxdı, hər sahə üzrə ustadlar tapdı və onlardan elm öyrənməyə başladı. Bu məqsədlə Nişapura, Quma və başqa şəhərlərə səyahət etdi. Bir sıra elmləri zərrə-zərrə öyrənməsi ona böyük şöhrət qazandırdı. Onu bütün zamanların qeyri-adi zəka sahibi, əsrlərin dahisi etdi, əbədiyyətə qovuşdurdu.

Söhbət böyük Azərbaycan alimi, dünya elminin parlaq ulduzu Nəsirəddin Tusidən gedir. 805 illiyi ölkə miqyasında qeyd olunan alimin həyat və yaradıcılığı, həmçinin fəlsəfi dünyagörüşü və dövlətçilik anlayışları barədə daha ətraflı məlumat almaq üçün bu günlərdə Naxçıvan Dövlət Universitetinin tərbiyə işləri üzrə prorektoru, fəlsəfə elmləri doktoru Məmməd Rzayevlə görüşüb söhbət etdik. Həmin söhbəti oxucularımıza təqdim edirik.

**–Məmməd müəllim, istərdim söhbətimizə belə bir sualla başlayaq: Kim olub Nəsirəddin Tusi?**

–Nəsirəddin Tusi Məhəmməd ibn Məhəmməd ibn

Həsən elmin astronomiya, həndəsə, triqonometriya, fəlsəfə, ilahiyyat, pedaqogika, psixologiya, tibb və başqa elm sahələrində sanballı əsərlər yaratmış ensiklopedik bir alim olub. Tusinin yaradıcılığı dünya elminin və mədəniyyətinin inkişafına çox güclü təsir göstərmişdir. Onun 1271-ci ildə təsis etdiyi Marağa Astronomiya Rəsədxanası qısa müddətdə böyük bir elmi mərkəzə çevrilmişdir. Onun adı Aristotel, Arximed, Nyuton, Kopernik, Kepler və başqa elm nəhəngləri ilə çəkilməyə tamamilə layiqdir. Burada bir maraqlı cəhəti daha çox diqqətə çatdırmaq istərdim. Belə ki, N.Tusinin nəslinin Naxçıvan mənşəli olması ilə bağlı çoxlu məlumatlar vardır. Bir çox tədqiqatçılar Tusi nəslinin Ordubadla bağlılığını təsdiq ediblər. Bu baxımdan Naxçıvan böyük elmi xidmətlərinə görə bəşəriyyətə məxsus olan bu dahinin ana Vətənidir. Tusinin nəslinin Ordubad ərazisində yaşaması və buna görə I Şah Abbasın (1587-1629) oranı bütün vergilərdən azad etməsi haqqında fərmanı XVII əsrdə Ordubadda tikilmiş böyük Cümə məscidinin qapısı üstündəki daş kitabəyə də həkk olunmuşdur. Kitabənin mətnindəki fərmanda Tusi nəslinin adı xüsusi qeyd edilmiş, fərmanın verilməsi səbəbindən bəhs edilərkən Nəsiriyyə–Tusiyyə nəslinin fədakarlığı xüsusi vurğulanmışdır. Ümumiyyətlə, bu nəslin nümayəndələrinin Ordubadda xüsusi nüfuza malik olduqları, dövrünün ictimai-siyasi həyatında mühüm rol oynadıqları qeyd olunmalıdır. Bu nəsildən və əslən Ordubad şəhərindən olan Hatəm bəy Ordubadi I Şah Abbasın baş vəziri işləmişdir. Onu da xatırladım ki,

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamı ilə keçirilən "Uluslararası qaynaqlarda Naxçıvan" adlı simpoziumda tarix elmləri doktoru Seyidağa Onullahinin "Xacə Nəsirəddin Məhəmməd Tusi və onun Ordubaddakı nəsilləri" mövzusundakı çıxışında, o cümlədən çap olunmuş məqaləsində də bəşəri alimin regionumuzla bağlılığı bir daha öz təsdiqini tapmışdır.

**–Məmməd müəllim, bir çox hallarda bu böyük alimi fəlsəfi dünyagörüşlərinə görə İbn Sinanın və Bəhmənyarın davamçısı kimi qələmə verirlər. Bu barədə sizin fikirlərinizi də öyrənmək maraqlı olardı...**

–Həqiqətən də Nəsirəddin Tusi İbn Sina və Bəhmənyar məktəbinin görkəmli davamçısıdır. Fəlsəfi görüşlərində N.Tusi Bəhmənyarın təsiri altında olmuşdur. "İbn Sinanın fəlsəfəsi və məntiqinə şərhlər", "Teologiya və metafizikaya dair risalə", "Əxlaqi-Nasiri", "Alicənab insanların xarakterləri və keyfiyyətləri" və başqa əsərlərində İbn Sinanın fəlsəfi görüşlərini şərh etmiş, onu müsəlman ilahiyyatçısı Fəxrəddin Razinin hücumlarından qorumuşdur. Bununla da mütəfəkkir filosof Şərq peripatı termininin davamçısı olduğunu sübut etmişdir. Yunan filosofları, eləcə də Şərqin mütəfəkkir alimləri Fərabi, İbn Sina, Bəhmənyarın əsərləri ilə yaxından tanış olan Tusi yeri gəldikcə onların bəzilərinin fikir və mülahizələrindən istifadə etmişdir. O, kainatın yaranmasında və mövcudatın inkişafında varlığa və ağıla yüksək qiymət vermişdir. Bununla yanaşı, İbn əl Heysəm, Əbu Reyhan Biruni, Ömər Xəyyam ki-

mi filosofların yolunu yaradıcılıqla davam etdirən mütəfəkkir "Təcrid əl-kəlam" (Kəlamın təcridi), "İsbat əl Əql" (Əqlin isbatı), "Əsas əl iqtibas" (İqtibasın əsası), "Əxlaqi-Nasiri", "Qismət-e macıdat və əqsam-e an" (Mövcudatın bölgüsü və onun qisimləri) və başqa traktatlarla Şərq peripatetizmini zənginləşdirmişdir.

**–Azərbaycanın siyasi fikir tarixində həm də ilk dövlət nəzəriyyəçisi kimi tanınan bu görkəmli şəxsiyyətin ictimai-siyasi, hüquqi görüşləri, həmçinin dövlətçilik anlayışları barədə danışmağınız da maraqlı olardı...**

–Tusinin siyasi görüşlərində siyasi elm üçün böyük əhəmiyyət kəsb edən dövlət haqqında təlim mühüm yer tutur. Dövlət məsələsi, onun mənşəyi və mahiyyəti mütəfəkkirin siyasi konsepsiyasının mühüm hissəsidir. Ona görə də o, Azərbaycanda ilk görkəmli dövlətşünas, dövlət nəzəriyyəçisi hesab olunur.

Tusinin fikrincə, dövlət tarixi inkişafın nəticəsi və insanların ittifaqı olub, cəmiyyətin təbii vəziyyətidir. O, belə hesab edirdi ki, dövlətin mənşəyi insanların öz mənafeləri əsasında könüllü surətdə birləşmək arzusu ilə bağlıdır və insanın yaşaması, müəyyən inkişaf mərhələsinə çatması yalnız dövlət çərçivəsində mümkündür. Tusi qeyd edirdi ki, fərdin mövcudluğu üçün zəruri olan bütün maddi nemətlər yalnız dövlətdə, özü də qarşılıqlı münasibətlər və yardım vasitəsilə əldə edilə bilər. Mütəfəkkirin fikrincə, dövlət siyasi təşkilat kimi insanların qarşılıqlı sazişinin, bir-birinə

köməyinin və ittifaqının məhsuludur.

Dövlət və şəxsiyyət arasında münasibət məsələsi də Tusinin siyasi təlimində mərkəzi yerlərdən birini təşkil edir. Onun fikrincə, dövlətin inkişafı şəxsiyyətin fəaliyyətinə həmişə ehtiyac duyur. Filosofa görə, insan dövlətin inkişafı və möhkəmliyi naminə "sənət, peşə və elm əldə edir", bilik və istedadını faydalı işlərə sərf edir. Digər tərəfdən insan dövlətin himayəsinə möhtacdır.

Tusinin siyasi konsepsiyasının səciyyəvi cəhətlərindən biri də dövlətin idarə olunmasında hökmdarın, şəxsiyyətin roludur. Tusi göstərirdi ki, əməldə ən yaxşı hökmdar odur ki, "haqsızlığın və şərin qarşısını alsın, ədaləti qorumaqda vicdan səsinin xəlifəsi olsun. Camaat o adamın hakimliyinə daha çox üstünlük verər ki, o, xalqın etibarını qazansın. Ağıl sahibləri və işdən başı çıxanlar hikmət və ədalətli bu vəzifəyə ləyaqəti əsas şərt hesab edərlər".

Tusinin dövlət haqqında təlimində dinin dövləti idarəetmədə rolu məsələsi də xüsusi yer tutur. Məsələ burasındadır ki, Tusi tərəfindən səciyyələndirilən dövlət öz prinsipləri etibarı ilə dünyəvidir. Lakin o, dini təcrid etməyərək belə bir qənaətə gəlir ki, dövlət idarəçiliyi dinsiz, din isə dövlətsiz mövcud ola bilməz. Nəsirəddin Tusi İslam ilahiyyatçıları içərisində də böyük nüfuza malik idi. Təsadüfi deyildi ki, o, 1274-cü ilin qışında dövlət işləri ilə bağlı Bağdada gəlib, orada xəstələnib vəfat edərkən çox böyük ehtiramla yeddinci şiə İmamı Museyi Kazımın sərdabəsi yaxınlığında dəfn olunmuşdur. N.Tusinin məzar daşında isə

onun bəşər tarixi qarşısındakı misilsiz rolu yüksək qiymətləndirilərək belə sözlər yazılmışdır: "Elm ölkəsinin şahı. Dövranın anası hələ belə oğul doğmamışdır".

**–Bəs, ensiklopedik elmi biliyə malik olan, öz əsərləri ilə bütün sərhədləri aşan alimin xatirəsinin qiymətləndirilməsi, əbədiləşdirilməsi üçün ölkəmizdə nə kimi işlər görülmüşdür?**

–Şərqdə, o cümlədən ölkəmizdə Nəsirəddin Tusinin xatirəsini əbədiləşdirmək üçün çox iş görülmüşdür. Hələ 1981-ci ildə bu böyük alimin anadan olmasının 780 illik yubileyi qeyd olunmuş, şərəfinə qızıl medal təsis edilmişdir. Azərbaycan Respublikasının bir sıra elm, təhsil və mədəni-maarif müəssisəsinə, həmçinin Azərbaycan Milli Elmlər Akademiyası Şamaxı Astrofizika Rəsədxanasına, bir sıra küçələrə onun adı verilmişdir. YUNESKO-nun qərarı ilə anadan olmasının 800 illik yubileyi dünya miqyasında qeyd edilmişdir. Bu münasibətlə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin "Nəsirəddin Tusinin anadan olmasının 800 illiyi haqqında" 13 iyun 2000-ci il tarixli fərmanı ilə yubiley komissiyası yaradılmış, dünya şöhrətli alimin yubileyi təntənəli surətdə qeyd edilmişdir. N.Tusinin əsərləri kütləvi şəkildə çap edilmiş, onun haqqında çoxlu sayda kitab və məqalələr yazılmışdır. Müxtəlif illərdə ölkəmizin bir çox ali təhsil ocaqlarında olduğu kimi, 2001-ci ilin 16 yanvarında Naxçıvan Dövlət Universitetində də "Nəsirəddin Tusi və müasirlik" mövzusunda yubiley elmi konfransı keçirilmişdir. Bu konfransda Bakıdan, Təbrizdən,

Marağadan gəlmiş alimlər iştirak etmiş, həmçinin konfransın materialları kitab halında çap edilmişdir.

Ümumiyyətlə, Nəsirəddin Tusi özündən sonra olduqca böyük irs qoyub getmişdir. Onun əsərləri dünya xalqlarının bir çox dillərinə tərcümə edilərək dəfələrlə çap olunmuş, neçə-neçə alimlər nəslinin yetişməsində müstəsna rol oynamışdır. N.Tusi öz zəmanəsinin oğlu idi. Onun əsərləri zamanın siyasi-iqtisadi, mədəni, elmi həyatının güzgüsü idi. Onun dühası, fövqəladə istedadı, şəxsiyyəti, qırılmaz iradəsi nəsillərə nümunə olaraq qalır. Qarşısına qoyduğu məqsədə çatmağı, zamanın çərçivəsindən çıxmağı bacaran, zəncirləri qırmağa qadir hökmdarları özünə itaət etməyə məcbur edən, ölüm qorxusunu rədd edib həyat eşqilə yaşayan bu böyük şəxsiyyət əbədi olaraq yaşayacaqdır.

**R.İ. 30.01.2007**

## "Molla Nəsrəddin" jurnalı öz fəaliyyətində maarifçiliyə xüsusi yer verirdi
## Filologiya elmləri namizədi İman Cəfərov: Jurnalın XX əsrin əvvəllərində qaldırdığı məsələlər müasir həyatımızda da mövcuddur.

Üzümüzə gələn ay 100 yaşı tamam olan "Molla Nəsrəddin" jurnalı milli mətbuat tariximizdə demokratik mətbuatın və qabaqcıl satirik jurnalistikanın möhkəm təməlini qoymaqla bərabər, Azərbaycan mədəniyyətinə də böyük töhfələr vermiş, milli özünüdərkin formalaşmasında və bərqərar edilməsində mühüm rol oynamışdır. Ölkə başçısının imzaladığı sərəncama əsasən bu il həmin jurnalın 100 illiyi dövlət səviyyəsində qeyd olunur. Bu münasibətlə ayrı-ayrı təşkilatlarda, müəssisələrdə rəngarəng tədbirlər keçirilir, mətbuat tariximizdə, eləcə də xalqımızın milli dərk və özünəqayıdış prosesinin formalaşmasında oynadığı roldan bəhs olunur.

Məhz belə bir gündə Naxçıvan Dövlət Universitetinin Jurnalistika və dünya ədəbiyyatı kafedrasının müdiri, filologiya elmləri namizədi, dosent İman Cəfərovla görüşüb ali təhsil ocağında yubileyə hazırlıq məsələləri ilə maraqlandıq.

**–İman müəllim, "Molla Nəsrəddin" jurnalının 100 illik yubileyinin ölkə ictimaiyyəti tərəfindən layiqincə qeyd olunması üçün ölkə başçısı müvafiq sərəncam imzalayıb. Bu sərəncamın tarixi əhəmiyyəti və tədbirin yüksək səviyyədə keçirilməsi üçün Naxçıvan Dövlət Universiteti hansı işləri görməyi planlaşdırıb?**

–Bildiyiniz kimi, Azərbaycan mətbuatının şah əsəri sayılan "Molla Nəsrəddin" jurnalının 100 yaşı tamam olur. Bununla bağlı cənab İlham Əliyev xüsusi sərəncam da

imzalayıb. Həmin sərəncam Azərbaycanın elmi ictimaiyyəti qarşısında mühüm vəzifələr qoyub ki, onlardan da birincisi "Molla Nəsrəddin" jurnalının 100 illiyinin kütləvi şəkildə qeyd olunmasıdır. Bu cür tədbirlərin keçirilməsinə hərəkətverici qüvvələrdən biri də Azərbaycan Respublikası Təhsil Nazirliyidir. Bununla bağlı burada xüsusi tədbirlər planı hazırlanmışdır. Naxçıvan Dövlət Universitetində ayrıca tədbirlər planı hazırlanıb. Plana əsasən fevral ayında universitetdə "Molla Nəsrəddin" jurnalının 100 illiyinə həsr olunmuş ilk konfrans keçirilib. "Molla Nəsrəddin"in naşiri və redaktoru Cəlil Məmmədquluzadənin 137-ci ildönümü də yüksək səviyyədə qeyd olunub. Universitetin tələbə və müəllim kollektivi əvvəlcə ədibin heykəlini ziyarət etmiş, sonra isə onun ev-muzeyinə toplaşaraq həyat və yaradıcılığından geniş söhbət açmışlar. Təbii ki, keçirilən tədbirlərin ağırlığı aprel ayının ilk ongünlüyünə təsadüf edəcək. Biz çalışırıq ki, yalnız ədəbiyyatçıların deyil, eyni zamanda dilçilərin, tarixçilərin və digər sahələrdə çalışanların və oxuyanların da diqqəti "Molla Nəsrəddin" jurnalının tədqiqinə yönəlsin. Çünki bu jurnal XX əsrin əvvəllərinin salnaməsidir və bizim o dövrdəki tariximizi özündə əks etdirir. Bu mənada jurnalı öyrənmək və gələcək nəsillərə çatdırmaq olduqca vacibdir.

**–Deyə bilərsinizmi, "Molla Nəsrəddin" jurnalının bu qədər şöhrət qazanmasına və Azərbaycanın o dövrdəki mətbu orqanlarına nisbətən daha uzunömürlü olmasına səbəb nə olub?**

–Mən Əlibəy Hüseynzadənin "Molla Nəsrəddin"ə verdiyi qiymətlə sizin sualınızı cavablandırmaq istəyirəm. Ə.Hüseynzadə yazırdı ki, biz uşaq vaxtı top oynayanda top daha çox göyə qalxsın deyə onu yerə daha da möhkəm çırpırdıq. Cəlil Məmmədquluzadənin naşirlik etdiyi "Molla Nəsrəddin" jurnalının yüksəlməsinin səbəbi də onun xalqın içinə daha dərindən nüfuz etməsi olub. Yəni, bu jurnal bilavasitə xalqa bağlı olub. Öz yazılarında xalqın mənafeyini müdafiə etdiyinə görə, xalqın dilində danışdığına görə tez

bir zamanda məşhurlaşdı. Bu xüsusiyyətlərinə görə digər jurnallardan fərqləndi və uzunömürlü oldu. "Molla Nəsrəddin" jurnalı hansısa bir qrupa və ya zümrəyə deyil, bütöv bir Azərbaycan xalqına xidmət etdi. Jurnal xalqın müxtəlif təbəqələrinə fərq qoymadan onlardakı nöqsanları tənqid atəşinə tuturdu. Məqsədi isə bu çatışmazlıqları aradan qaldırmaq idi. Mən fikrimi Yusif Vəzir Çəmənzəminlinin sözləri ilə tamamlamaq istəyirəm. O yazırdı ki, mənim xalamın yoldaşı dindar, məşədi bir adam idi. Savadı olmasa da pul verib "Molla Nəsrəddin" jurnalı aldırar, bir nəfər savadlı adam tapıb oxutdurar və ləzzət alardı. Halbuki, onun özünün də surəti tənqid olunanların sırasında idi.

**–"Molla Nəsrəddin" jurnalında hansı problemlərdən daha çox bəhs olunub?**

–"Molla Nəsrəddin" jurnalı Azərbaycan ədəbiyyatında həm də tənqidi realizmin yaradıcılarından biridir. Jurnal öz səhifələrində ədəbiyyatın xalqla yaxınlığı probleminə xüsusi önəm verib. Çünki "Molla Nəsrəddin"in özünə də lazım idi ki, mollanəsrəddinçiliyi yaşatsın. Bundan başqa jurnal nəşrə başladığı ilk gündən elmsizliyə qarşı mübarizə aparıb. "Molla Nəsrəddin" savadlı insanlarla yanaşı, yazıpozudan anlamayan həmvətənlərini də düşünməyə məcbur edir. Belə ki, jurnalın səhifələrindəki karikaturalara baxan savadsız kütlə öz nöqsanlarını burada görüb və ondan nəticə çıxarmağa çalışıb. "Molla Nəsrəddin" jurnalı öz fəaliyyətində maarifçiliyə xüsusi yer verirdi. Yatmış Şərq dünyasını ayıltmağa çalışan jurnal əsas vasitə kimi maarifçiliyə üstünlük verib. Çünki oyanış və tərəqqi yalnız ağılla mümkündür. "Molla Nəsrəddin" də ağlı meydana gətirməyə çalışırdı və istəyirdi ki, müsəlman aləmini öz cənginə almış cəhalətdən, fanatizmdən, nadanlıqdan və xürafatdan azad etsin. Həmçinin, jurnal cəmiyyətdəki qadın hüquqsuzluğuna, zülmə və insanların istismarına qarşı da gərgin mübarizə aparıb. Çox təəssüflər olsun ki, 70 illik sovetlər dönəmində jurnalın mövqeyini düzgün başa

düşməyən, yaxud da başa düşmək istəməyən insanlar onu Allahsız kimi qələmə verir və bu yöndə təbliğat aparırdılar. Halbuki, "Molla Nəsrəddin" Allaha qarşı deyil, yalançı din xadimlərinin cəmiyyətdə yaşatdıqları mövhumata və cəhalətə qarşı idi.

**–Üstündən 100 il ötməsinə baxmayaraq "Molla Nəsrəddin"in toxunduğu mövzular bu gün öz aktuallığını itirməyib. Sizcə, bunun səbəbi nədədir?**

–Cəlil Məmmədquluzadə vaxtilə elə problemə toxunub ki, həmin problemlər Azərbaycan xalqını və ümumilikdə Şərq aləmini nəinki yüzillərlə, bəlkə də minillərlə narahat edəcək. Məgər bizim yaşadığımız cəmiyyət bu gün mövhumatdan tam azad ola bilibmi? Diqqətlə baxsaq görərik ki, yox. "Molla Nəsrəddin"in əsrin əvvəllərində qaldırdığı məsələlər müasir həyatımızda da mövcud olduğu üçün jurnalın haqlı tənqidləri bu gün də öz aktuallığını itirməyib. Nə qədər ki, mövhumat, xürafat və cəhalət hökm sürür, "Molla Nəsrəddin" də həyatda olacaq. Əgər XX əsrin əvvəllərində Azərbaycan xalqının problemləri başqa səpkidə idisə, XX əsrin sonlarında bu, özünü tamam başqa istiqamətdə göstərir. Ancaq bu problemlərin əsas qayəsi eynidir. Məsələn, Cəlil Məmmədquluzadənin "Anamın kitabı" əsəri müasir Azərbaycanımızla səsləşən bir yaradıcılıq nümunəsidir. Onu da deyim ki, əgər "Molla Nəsrəddin"də çap olunan materialların adını və tarixini dəyişib yeni yazı kimi təqdim etsək, yenə də cəmiyyət tərəfindən çox yüksək səviyyədə qəbul olunacaq. Çünki həmin problemlər bu gün də var.

**–İman müəllim, bəs, bir alim, yaradıcı insan kimi "Molla Nəsrəddin" jurnalının mədəniyyətimizin və ədəbiyyatımızın inkişafında oynadığı rolu necə qiymətləndirirsiniz?**

–"Molla Nəsrəddin" digər mətbu orqanlardan fərqli olaraq ədəbi məktəb yaratmış bir jurnaldır. Qısa fasilələrlə 25 il ömür sürən bu jurnal həm də XX əsr Azərbaycan

ədəbiyyatının meyil və istiqamətlərini müəyyənləşdirib. Belə ki, həmin dövrdəki yazıçılar "Molla Nəsrəddin" üslubunda və sadəliyində yazmağa meyil göstəriblər. Çünki "Molla Nəsrəddin"in dili xalqın dili idi. Mən deyərdim ki, "Molla Nəsrəddin" jurnalı bizim ədəbiyyatımızda xalq ilə ədəbiyyat arasında vəhdətin yaradıcısı rolunu oynayıb. Bu vəhdətin üzərində XX əsr Azərbaycan ədəbiyyatı köklənib. Və XXI əsr Azərbaycan ədəbiyyatı da yüzə-yüz köklənəcək.

**R.İ. 15.03.2006**

## MÜNDƏRİCAT

Müəlliflərdən ........ 4

Erməni həqiqətləri ........ 10

Ermənistan hər zaman təhlükə mənbəyidir necə ki, atom elektrik stansiyası fəaliyyətini dayandırmayıb, bu təhlükə də qalacaq ........ 11

Faktın sübuta ehtiyacı yoxdur ........ 14

Erməni separatizmi o, Beynəlxalq Hüquq normalarını da tapdalayır ........ 17

Ermənilər öz təbliğatlarından əl çəkmirlər AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru Vəli Baxşəliyev: Naxçıvanda Ermənilərə məxsusluğu sübut edilə biləcək hər hansı bir tarixi abidədən söhbət gedə bilməz ........ 20

Xocalı Soyqırımı-XX Əsrin Faciəsi ........ 26

Qan yaddaşımıza yazılan tarix ........ 26

Xalqımıza qarşı törədilən cinayətlər bəşəriyyətin təhlükəsizliyi əleyhinə yönəlmişdir ........ 30

XX Əsrdə Azərbaycanlıların kütləvi deportasiyası ........ 33

Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi inkişaf .... 37

Şərur İqtisadi inkişaf, mədəni yüksəliş yolunda ........ 38

Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının qəbulundan 3 il ötür ........ 46

Naxçıvanın Şərqə açılan qapısı: Culfa Son illər sərhəd rayonunun sosail-iqtisadi həyatında böyük dəyişikliklər yaranıb ........ 46

Kəngərlidə quruculuq işləri təkcə rayon mərkəzində aparılmır. Qarabağ, Böyükdüz, Xıncab kəndlərində görülən işlər onlara şəhər mədəniyyəti gətirib ........ 60

Necə yaşayırsan, sərhəd kəndi? Sədərəkdə quruculuq əhval-ruhiyyəsi sakinləri torpağa daha sıx bağlayıb ........ 63

Şahbulaq ucqar bir dağ kəndidir ........ 68

Düşmənə göz dağıdır Heydərabad o, sərhəd xəttində yerləşsə də, günü-gündən böyüyür ........ 74

Naxçıvanda turizmin inkişaf etdirilməsi üçün əlverişli imkanlar var. Ən başlıca maneə isə iqtisadi blokadanın törətdiyi çətinliklərdir ........ 79

«Kənd Yaşıl Turizm»in geniş imkanları var ........ 83

Təbii qaz ən mühüm enerji daşıyıcılarından biridir ........ 88

Naxçıvan yaxın vaxtlarda enerji sarıdan heç bir problemlə üzləşməyəcək Prezident İlham Əliyev: Əgər iqtisadi potensialı artırmaq istəyiriksə, enerji məsələləri mütləq həll olunmalıdır ........ 92

Dəmiryol nəqliyyatının ölkənin iqtisadiyyatında və sosial həyatında rolu böyükdür. Amma neyləyək ki, polad relslərimizdə qatarların hərəkəti səngiyib iqtisadi blokadanın əsas ağrı və çətinlikləri də bununla bağlıdır ........ 97

Sanatoriya tipli səhiyyə ocağımız-Yeraltı müalicəxanada imkanlar daha da genişlənib .................... 103

«Naxçıvanda yüksək səviyyəli həkim kadrların hazırlanması üçün hər cür imkan yaradılıb» Müsahibimiz NDU-nun tibb fakültəsinin dekanı, pedaqoji elmlər namizədi Bəhruz Məmmədovdur ............. 107

Naxçıvan flora biomüxtəlifliyində dərman bitkiləri üstünlük təşkil edir Mühasibimiz AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun elmi işçisi Ramiz Ələkbərovdur .................................................. 112

İnsan və vətəndaş hüquq və azadlıqlarına dövlət təminatı .................................................. 116

Dövlətin ali məqsədlərindən biri də cəmiyyətdə milli, siyasi və hüquqi şüuru formalaşdırmaqdır ..................... 117

Dövlət öz xalqının milli maraqlarını hər şeydən üstün tutur .................................................. 124

Azadlıqdan istifadə heç bir halda dövlətin və xalqın təhlükəsizliyinin pozulmasına əsas ola bilməz ......... 126

Vətəndaşların siyasi fəallığı üçün hüquqi zəmin var. Amma bu, qanunun aliliyinə xələl gətirməməlidir .............. 129

«Cəzaçəkmə müəssisələrində cəza insan şəxsiyyətinə hörməti təmin edən şəraitdə aparılır» ............................ 131

Azərbaycan dövləti insan və vətəndaş hüquqlarını, azadlıqlarını sözün həqiqi mənasında ülvi dəyər kimi tanıyır .................................................. 135

Ombudsman İnstitutu insan hüquq və azadlıqlarının qorunmasına dövlət təminatının gücləndirilməsi məqsədilə təsis edilir ................................ 140

Narkomanın şəxsiyyəti öz fiziki zəifliyi və ruhu sönüklüyü ilə seçilir .......................................... 144

Yerli idarəetmə orqanlarının fəaliyyətində irəliləyişlər çoxdur .......................................... 148

Dövlət və vətəndaş münasibətləri .......................................... 152

Yeni Azərbaycan Partiyası böyük amalların daşıyıcısıdır .... 156

«Bu dəfə keçirilən bələdiyyə seçkilərində də demokratik prinsiplərə tam əməl olunacaq» Müsahibimiz Naxçıvan MR Mərkəzi Seçki Komissiyasının sədri Məhərrəm Qasımovdur .................... 163

Milli vətənpərvərlik ruhu və mədəni yüksəliş .................... 170

«Tələbə-gənclərin siyasi və ideya-mənəvi tərbiyəsi işinə böyük diqqətlə yanaşırıq». Müsahibimiz YAP Universitet şəhərciyi ərazi ilk təşkilatının sədri, Naxçıvan MR Ali Məclisinin deputatı Elman Cəfərlidir ........ 171

Gənclik öz xalqı və dövlətçiliyi qarşısında məsuliyyətini dərk edir .......................................... 176

Dövlət gənclər siyasətinin bəhrələrini hər bir gənc duyur ... 180

«Xatirə muzeyi» gənclərin vətənpərvərlik tərbiyəsində mühüm rol oynayır .......................................... 184

18 avqust Dövlət Sərhəd Xidməti əməkdaşlarının peşə bayramıdır. Sərhəd etibarlı mühafizəsi bir dövlət üçün mühüm vəzifə sayılır .......................................... 188

Milli qəhrəmanlarımız. Elimizin qəhrəman oğlu .................. 195

Dövlətçiliyimizin əsas atributlarından biri olan ana dili təbliğ olunmalı, etnik-siyasi faktora çevrilməlidir. Müsahibimiz AMEA Naxçıvan Bölməsi Dil, Ədəbiyyat və İncəsənət İnstitutunun direktoru, filologiya elmləri doktoru, professor Əbülfəz Quliyevdir .................... 199

Nuh peyğəmbər bəşəriyyətin atası hesab edilir. Onun dünya tufanından sonra Naxçıvanda yaşaması və burada dəfn olunması barədə gedən söz-söhbətlər də elmi dəlillərə əsaslanır. Müsahibimiz AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktor müavini, filologiya elmləri namizədi Firudin Rzayevdir .................................................. 208

Zəmanəsinin böyük və qüdrətli oğlu. Onun əsərləri zamanın siyasi-iqtisadi, mədəni və elmi həyatının güzgüsü olub ..................................................................... 214

«Molla Nəsrəddin» jurnalı öz fəaliyyətində maarifçiliyə xüsusi yer verirdi. Filologiya elmləri namizədi İman Cəfərov: Jurnalın XX əsrin əvvəllərində qaldığı məsələlər müasir həyatımızda da mövcuddur ......... 221

RUFİK İSMAYILOV, ELMİR ŞİRİNOV

# NAXÇIVAN BİR MƏKTƏBDİR

Kompyuter səhifələyici: **Rövşanə Nizamiqızı**

*Yığılmağa verilmiş 20.06.2007.*
*Çapa imzalanmış 07.07.2007.*
*Şərti çap vərəqi 14,5. Sifariş № 280*
*Kağız formatı 60x84 1/16. Tiraj 200.*

*Kitab «**Nurlan**» nəşriyyat-poliqrafiya müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur.*
*Direktor: **prof. N.B.Məmmədli***
***E-mail: nurlan1959@yahoo.com***
*Tel: 497-16-32; 850-311-41-89*
*Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.*